# İsanın Ardınca Birlikdə Getmək

*Evlərdə yığışan məsihçilər üçün bələdçi*

**Bu kitab, dünyanın hər yerində evlərdə yığışan, xüsusən imanlarına görə təqib edilən imanlılara həsr olunur.**

*Beləliklə, ey sevimli qardaşlarım, Rəbdə çəkdiyiniz zəhmətin boşa çıxmayacağını bilərək möhkəm durun, sarsılmayın, hər zaman Rəbbin işində səylə çalışın. (1-ci Korinflilər 15:58)*

Bütün kəlamlar MÜQƏDDƏS KİTAB-dan gürtürülmüşdür. © MÜQƏDDƏS KİTAB (Əhdi-Ətiq və Əhti-Cədid) Əhti-Ətiq © MKŞ 2004, 2006, 2009 (təkrar yoxlanılmış) Əhti-Cədid © MKŞ 2009 (yeni tərcümə)

1996 qeyd olunursa, İncil-dən gürtürülmüşdür. © Bibliya Tərcümə İnstitutu, Stockholm, 1982, 1991, 1996

Translated from the English, ***Following Jesus Together**:*
*A Guide for Christians Who Meet in Homes*

© 2020, Life Resources

# Mündəricat

Qeyd: Bu fəsillər istənilən ardıcıllıqla oxuna bilər, lakin əvvəlcə 1-ci və 2-ci fəsilləri oxumağınız məsləhət görülür.

1. İsa Məsihin izzətli Cəmiyyəti olmaq ....5
2. Ev cəmiyyəti bir Ailədir ....10
3. Məhəbbət, rəhbərin motivasiyası ....21
4. Allahın ecazkar xilas ənamını dərk etmək ....30
5. Ev cəmiyyətində vəftiz ....42
6. Ruhda və həqiqətdə birlikdə ibadət etmək ....52
7. Allahın kəlamı—gündəlik çörəyimiz ....66
8. Müjdəni uşaqlara ötürmək ....78
9. Rəbbin Süfrəsini şükranla qeyd edin ....91
10. Dua vasitəsilə imanda böyümək ....103
11. Vermənin xeyir-duasını kəşf etmək ....114
12. Yetkin şagirdlər olmaq ....125
13. Ev cəmiyyətində bağışlanma ....138
14. Bu dünyada duz və nur olmaq ....148
15. Təqiblərdə möhkəm qalmaq ....161
16. Sadiq ev cəmiyyəti Allahın Padşahlığının böyüməsində iştirak edir ..178
Əlavə A: Vəsaitlər ....192
Əlavə B: Hekayələr ....194
Əlavə C: Üzr istəmə və bağışlama ....201

# 1. İsa Məsihin izzətli Cəmiyyəti olmaq

***Amma siz seçilmiş nəsil, Padşahın kahin dəstəsi, müqəddəs millət, Allaha məxsus olan xalqsınız. Sizi qaranlıqdan Öz heyrətamiz nuruna çağıran Allahın çox gözəl işlərini elan etmək üçün seçilmisiniz. 10Bir zamanlar xalq deyildiniz, amma indi Allahın xalqısınız. Bir zamanlar mərhəmət tapmamışdınız, indi isə mərhəmət almısınız.***
***(1 Peter 2:9-10)***

## Bu kitab nə haqqındadır?

Bu kitab, İsa Məsihin Cəmiyyəti haqqındadır. İsa Məsih bu ümumdünya Cəmiyyət uğrunda ölmüşdür. Bu Cəmiyyətə mənsub olmaq üçün “toplantılara getmək” yetərli deyildir, Cəmiyyət OLMAQ lazımdır. Bəs bu nə deməkdir? İsanın Cəmiyyəti OLMAQ necə mümkündür?

Bəzi imanlılar Allahla münasibətlərinin yalnız özlərinə aid olan şəxsi bir məsələ olduğunu zənn edirlər. Bəli, İsa hər birimizi ayrı-ayrılıqda tövbəyə, köhnə həyat tərzimizdən əl çəkib Onun ardınca gəlməyə çağırır. Hər kəs bu qərarı özü verməlidir. Bununla belə, İsa hər imanlı ilə ayrı-ayrılıqda münasibət qurmaqla kifayətlənmir, O həmçinin hamımızla birlikdə münasibət qurur. Müqəddəs Kitabın öyrətdiyinə görə, hamımız bir bədənə – Məsihin Bədəninə vəftiz oluruq (1Kor. 12:13). Bu bədən, İsanın bütün dünyada hər nəsildən olan imanlılardan ibarət olan ümumdünya Cəmiyyətidir. Biz bu Bədənin üzvləriyik və bir-birimizə bağlıyıq. Məsihdə həyatımız birdir.

Əhdi-Cədiddə bu birlik, başqa önəmli bir obrazla təsvir olunur. İsanın Cəmiyyəti "Məsihin gəlini" olaraq adlandırılır. Kainatın Rəbbi Allah bizimlə sıx münasibətdə olmaq üçün bizi yaratdı və bu münasibət təsəvvür edə biləcəyimizdən qat-qat çox gözəl və həzzvericidir. Allahın ürəyi bizə qarşı tükənməz sevgi ilə doludur! O, Öz xalqı olan Cəmiyyətinə yaxınlaşıb onunla birlikdə olmaqdan nə qədər sevinc və həzz aldığını göstərmək üçün yer üzündə ər-arvad münasibətlərini yaratdı. O bizdən həzz alır, biz də Ondan həzz alırıq.

İsa bizi təmizləmək üçün, Onun izzətli gəlini olaq deyə bizim uğrumuzda öldü. Həvari Paul ərlərə müraciət etdikdə, İsanın gəlini ilə münasibəti barədə bunu söylədi:

> *Ey ərlər, Məsih imanlılar cəmiyyətini sevib onun uğrunda Özünü fəda etdiyi kimi siz də arvadlarınızı sevin. Məsih bunu ona görə etdi ki, cəmiyyəti su ilə yuyub kəlamla təmizləyərək təqdis etsin və beləcə onda ləkə, qırışıq yaxud başqa qüsur olmadan izzətli şəkildə, müqəddəs və nöqsansız olaraq Öz hüzuruna çıxarsın. (Ef. 5:25-27)*

Həvari Yəhyanın Vəhy Kitabındakı valehedici görüntüsünün sonunda İsanın Cəmiyyətinin Allahın izzəti ilə parladığını görürük:

> *...yeddi mələkdən biri gəlib mənimlə danışaraq dedi: «Gəl, mən sənə Quzunun arvadı olacaq gəlini göstərim». O məni Ruhda*

*böyük və uca bir dağın başına apardı. Oradan mənə göydən, Allahın yanından enən müqəddəs şəhəri, Yerusəlimi göstərdi. Allahın ehtişamı orada idi; oradakı işıq ən qiymətli daş – büllur yəşəm daşı kimi parıldayırdı. (Vəhy 21:9-11)*

Vəhy 21-ci fəsildə Yəhya gördüyü ehtişamı təsvir etməyə davam edir. Məsihin gəlini əsrarəngiz bir şəkildə qiymətli daşlardan inşa edilmiş ehtişamlı bir şəhərə bənzəyir. Ancaq hamımızın ağlına bu sual gələ bilər: "Bu necə olacaq? Onun Cəmiyyəti olan bizlər, Yəhyanın Vəhdə təsvir etdiyi o izzətli gəlinə necə çevrilə bilərik?"

Bu, əlbəttə, Allahın işidir. Rəbb Özü, əbədi məskən salacağı bir şəhər olaraq Öz Cəmiyyətini qurur. (Bax: Matt. 16:18 və Vəhy 21:3)

Onun gözəl şəhəri, ləkəsiz gəlini olmaqda bizə yardım edən fəaliyyətlərdən biri, yerli cəmiyyətlərimizdə İsanın ardınca getməyi birgə öyrənməkdir. Bu kitab məhz bu mövzu haqqındadır. İsa dedi ki, biz Onu seviriksə, təlimlərinə riayət edəcəyik (Yəh. 14:23). Bu kitab sizə bu təlimləri öyrənməkdə və Allahın xalqı olaraq onlara birlikdə riayət etməkdə yardım edəcək.

## BU KITAB, EV CƏMİYYƏTLƏRİNİN RƏHBƏRLƏRİ VƏ ÜZVLƏRİ ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞDUR

Bu kitabın fəsilləri, ev cəmiyyətlərinə və rəhbərlərinə nə olacaqlarını və nə edəcəklərini öyrətmək üçün yazılmışdır.

Allahın kəlamını hamınız birlikdə daha dərindən öyrənmək istəyirsinizmi? Öz ibadətinizlə Allahı razı salmaq istəyirsinizmi? Bəlkə yeni imanlıları necə və nə vaxt vəftiz etmək ya da Rəbbin Süfrəsini qəbul etməyin mənası haqqında suallarınız vardır. Yaxud ev qrupunuzun ianələri ilə Allahın Padşahlığını necə qura biləcəyini anlamaq istəyirsiniz və yaxud ev cəmiyyətinizdəki insanlar arasında olan münaqişələr sizi narahat edir. Bu kitabda bu və digər mövzulara toxunulur. Hər fəsil İsanın və həvarilərinin şagirdlərinə öyrətdikləri müəyyən şeyləri öyrədir.

## FƏSİLLƏRİN TƏŞKİLİ:

**1-ci fəsil istisna olmaqla hər fəsil 4 hissədən ibarətdir:**

1) **Müqəddəs Kitab dərsi**

   Bu kitabda öyrədilən hər şey, Allahın kəlamına əsaslanır. Bu dərslər bəzən xüsusən ev qrup rəhbərləri üçün nəzərdə tutulsa da, bunları bütün cəmiyyətlə birlikdə öyrənmək faydalı ola bilər. Siz Müqəddəs Yazıdan seçilmiş mətnlər ilə məşğul olduqca, Müqəd-

dəs Ruh Kəlamın o mövzuda öyrətdiyi əsas təlimlərində sizə yol göstərəcək.

**2) Məsihçi tarixindən bir hekayə**

Əsrlər boyunca imanlıların həyatında baş vermiş hadisələri nəql edən bu ilhamverici hekayələr, mövzuya aid olan misallardır. Ev qrupunuzu ruhlandırmaq üçün bunları mütləq onlarla bölüşün.

**3) Mövzu barədə tez-tez verilən suallar**

Bu hissədə qrupunuzun hər sualına cavab verilməsə də, verilən cavablar o fəsildə bəhs olunan mövzunun praktiki cəhətlərini daha yaxşı anlamaqda yardım edəcək.

**4) Tətbiq və dua**

"Bu kəlamın icraçısı olun, yalnız eşidənlər olub özünüzü aldatmayın" (Yaq. 1:22). Burada müzakirə üçün verilmiş sualları buraxmayın. Bu, qrupunuzun birgə dua etməsinə, hərəkət etməsinə və nəticədə böyüməsinə kömək edəcək.

Ölkənizdə bütün ev cəmiyyətləri qüvvətlənərək daha çox özlərini Rəbbə həsr etsələr, bir-birlərini daha çox sevsələr və dünyaya məhəbbət göstərərək daha çox xidmət etsələr nə olacağını təsəvvürünüzə gətirin. Qrupunuz bu kitabdakı təlimləri tətbiq etməyə başlasa, bu, baş verə bilər.

**BU KİTABIN FƏSİLLƏRİNİ ARDICIL OLARAQ KEÇMƏLİ DEYİLSİNİZ.**

Ancaq bu 1-ci fəsildən sonra 2-ci fəsli oxumağı *məsləhət görürük*, çünki 2-ci fəsil, kitabın qalan hissəsinin təməlidir. Ondan sonra Mündəricata baxıb qrupunuzun ən böyük ehtiyacı olan bir fəsli seçə bilərsiniz. Birlikdə İsanın ardınca getməyə göstərdiyiniz səylərdə Allahın sizə xeyir-dua və güc versin!

**QEYD: BU KITAB, *50 HƏYAT DƏRSİ* İLƏ BIRLIKDƏ İSTİFADƏ OLUNMAQ ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ-DUR**

Siz görəcəksiniz ki, bir çox fəsildə, ***İsa Məsihin təlimindən 50 Həyat Dərsi*** kitabından bir və ya bir neçə dərsinə istinad edilir. Bu kitabı telefona pulsuz yükləyib rahat oxuya bilərsiniz. Bu kitabı və digər pulsuz vəsaitləri görmək üçün, bu kitabın arxasında, Əlavə A, "Vəsaitlər"ə, baxın.

# 2. Ev cəmiyyəti bir Ailədir

***Deməli, artıq yad və qərib deyilsiniz, siz müqəddəslərlə birgə vətəndaş və Allah ailəsinin üzvüsünüz.* (Efeslilərə 2:19)**

## *Giriş*

### İsa din yaratmadı, ailə yaratdı

Hal-hazırda, XXI əsrdə, İsanın ardıcılları bütün dünyada yığışırlar. Bəziləri gözəl kilsə binalarında yığışır. Bir çox imanlılar evlərdə yığışır. Bəzən iki ya da üç imanlı zindanda alçaq səslə İsaya ibadət edir.

Bəzi kilsələrdə şamlarla ibadət edilir və rəhbərlər uzun paltar geyinirlər. Başqaları göy rəngdə cins geyərək və gitar çalaraq ibadət edirlər. Bəzi toplantılar formal keçirilir, yazılmış dualar oxunur. Digərləri isə qeyri-rəsmi olur. İmanlılar evdə birlikdə çay içərkən Allahın kəlamını oxuyur.

"Kilsə" sözü əsrlər boyunca çoxlu mənalarda istifadə olunub: kilsə binası, məzhəb, dini icma və s. Bu ənənəvi sözün səhv mənada anlaşıla bilməsi səbəbindən biz onu işlətmirik, ancaq "cəmiyyət" sözünü işlədirik.

Sizin cəmiyyət haqqında fikriniz nədir? "İmanlılar cəmiyyəti" ifadəsini eşidəndə ağlınıza nə gəlir? Bu fikirlər məsihçilərin bir toplantısında gördüyünüz və eşitdiyiniz şeylərdən qaynaqlanırmı? Bəlkə filmlərdən yaxud Yutubdan qaynaqlanır? Ancaq imanlılar cəmiyyəti haqqında hamımız bu sualı verməliyik: İsa Məsih Öz cəmiyyətində əsasən nə görmək istəyir?

İsanın yer üzündəki həyatından bəri ibadətə dair çoxlu müxtəlif ənənələr meydana gəlib. Bəs "doğru" ibadət hansıdır? Bu kitabın məqsədi müxtəlif kilsələrin və cəmiyyətlərin hal-hazırda nə etdiyini və ya İsa göyə qalxandan sonra başlayan ənənələri izah etmək deyildir. Əksinə, məqsədimiz İsanın Əhdi-Cədiddə nə öyrətdiyini kəşf etməkdir. İsa bizə ibadət toplantılarımız üçün qaydalar verdimi? Əslində, İsa kilsə binalarından, şamlardan ya da musiqi alətlərindən heç danışmadı. Onun məsihçi toplantıları haqda ən sadə fikri bu idi:

> *Çünki harada iki və ya üç nəfər Mənim adımla yığılarsa, Mən də orada, onların arasındayam. (Mat. 18:20)*

Yadda saxlayın ki, İsa dini mərasimlərlə və qayda-qanunlarla bir din qurmağa gəlmədi. O bizim Allahla və başqalarıyla olan münasibətlərimizi bərpa etmək üçün gəldi. İsa əslində din yox, ailə yaratdı! Bu ailə, qaranlıq imansız dünyada Məsihin məhəbbətində imanlı olaraq necə yaşamağı birlikdə öyrənir.

***<u>Müqəddəs Kitab Dərsi</u>***

## Ev cəmiyyətlərimiz nə cür olmalıdır?

**Başlanğıc müzakirəsi:** Sizcə imanlılar hər həftə toplananda nə etməlidirlər? Ən vacib şeylər hansıdır? (Aşağıdakı dərsə başlamazdan əvvəl bu sualı bir neçə dəqiqə müzakirə edin.)

**Həvarilərin İşləri 2-nin hamısını oxuyun.**

Həvarilərin İşləri 2-də yəhudilərin Əllinci Gün bayramında imanlılar cəmiyyətinin möhtəşəm doğuluşu haqqında öyrənirik. Müqəddəs Ruh güclü külək və alov kimi gəldi. İsanın şagirdləri qüvvətlə dolub çoxlu müxtəlif dillərdə danışdılar. Çoxlu millətlərin arasından çıxan yəhudilər öz dillərində şagirdlərin Allahı izzətləndirdiklərini eşidib heyrətləndilər. Sonra Peter xalqa vəz etdi, bu yaxında çarmıxa çəkdikləri İsanın Müqəddəs Ruhu onların üzərinə tökdüyünü izah etdi. Allah hər kəsi günahlarının bağışlanması üçün İsa Məsihə iman etməyə çağırır.

Bu dərsdə biz Həvarilərin İşləri 2-ci fəsil, xüsusilə 36-47-ci ayələr üzərində fokuslaşacağıq.

1. Peterin sözünü qəbul edib vəftiz olanlar neçə nəfər idi? (41-ci ayə)

   Həvarilərin İşləri 1-ci fəslə qayıdın. Həv. 1:4-8-i oxuyun. 8-ci ayədə İsa nə vəd edir?

   İsa çarmıxa çəkilməzdən əvvəl mühakimə olunarkən Peter İsanı tanıdığını inkar etdi. İndi isə qırx gün keçib və Peter Müqəddəs Ruhun gücü vasitəsilə İsanın Rəbb və Məsih olduğunu cəsarətlə təbliğ edir. Müqəddəs Ruhun Peteri necə dəyişdirdiyini müzakirə edin.

2. Həvarilərin İşləri 2:42-ni oxuyun. Yeni imana gələnlər özlərini hansı 4 şeyə həsr etdilər?

   XXI əsrdə bu 4 şey cəmiyyətin sağlam ünsiyyəti üçün niyə vacibdir? (QEYD: Əhdi-Cədiddəki Müjdə və məktubları oxuyaraq bu gün həvarilərdən öyrənə bilərik.)

3. 43-cü ayəni oxuyun. Həvarilər nə edirdi? Bu insanlara necə təsir edirdi?

   Sizcə biz bu gün Allahdan əlamətlər və xariqələr istəməliyik? Cavabınızı izah edin.

4. 44-45-ci ayələrdə imanlılar öz mülkiyyətləri ilə necə davranırdılar?

   Hər zaman hər şeyimizi paylaşmaq yaxşı olmaya bilər. Lakin bir-birinizin praktiki ehtiyaclarını qarşılamaq üçün qrupunuzun düşüncəsi və hərəkətləri necə təkmilləşə bilər?

5. 46-cı ayəyə baxın. Onlar nə qədər tez-tez görüşürdülər? Evlərində nə edirdilər? Sizcə toplantılar onlar üçün yük idi, yoxsa sevinc?

   Elə görünür ki, erkən imanlılar cəmiyyətinin üzvləri özlərini bir ailə sayırdı. Onlar ancaq həftədə bir dəfə ibadət etmək üçün yığışmırdı, tez-tez birlikdə vaxt keçirib bir-birlərinin qayğılarına qalırdı. Hal-hazırda imanlıların İsaya iman etdikləri üçün hərdən öz ailələri tərəfindən rədd edildiklərini görürük. Əgər ailəniz sizi İsaya iman etdiyinizə görə rədd etsə, sizin üçün bir ev cəmiyyətinə qəbul olunmaq nə qədər önəmli olar? İzah edin. (Bəlkə qrupunuzdan bəziləri bunu yaşayıblar.)

6. 47-ci ayənin son hissəsində yazılanlara görə Müqəddəs Ruhun tökülməsinin nəticəsi nə idi?

7. Xülasə, 42-47-ci ayələri təkrar nəzərdən keçirin. Günümüzdə cəmiyyətin sağlam ünsiyyəti nələrdən ibarət olmalıdır? Siz bir rəhbər olaraq bunların öz ev cəmiyyətinizdə olması üçün nə etməlisiniz?

**Dua ilə bitirin:** Ev cəmiyyətinizin erkən imanlılar cəmiyyətinin həyat, sevinc və gücünü yaşaması üçün dua edin.

**Bu mövzunun dərininə gedin:** Ef. 4:1-16 və 1Kor. 12, 13 və 14.

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***Roma və Kiçik Asiya, I əsr***

## Qul qardaşa çevrilir

Aşağıdakı hekayəni oxumazdan əvvəl Əhdi-Cədiddən Paulun Filimona məktubunu oxuyun. Yalnız bir fəsildir.

*******

Bu məktub qısa olsa da, Müqəddəs Yazıda bir qiymətli daş kimidir. Müjdənin bizim hamımızı Allahın ailəsində necə birləşdirdiyini öyrədir. O həmçinin bizə öyrədir ki, bütün imanlıları cəmiyyətimizdə qardaşlar və bacılar olaraq xoş qəbul edək.

Həvari Paul, Filimona məktubu İsanın ölüb dirilməsindən təqribən 25-30 il sonra, Romada məhbus olduğu vaxt yazdı. Həmin dövrdə Filimon, Efesin yaxınlığındakı qədim bir şəhər olan Kolossedə (indiki Türkiyədə) bir ev toplantısına rəhbərlik edirdi. Bu məktubdan anlayırıq ki, Paul Filimonu tanıyırdı və çox güman ki onun iman gətirməsinə təsir etmişdi (19-cu ayə).

10-cu ayədə Paulun, Onisim adında cavan bir qulu İsanın yoluna gətirdiyini öyrənirik. Bu yeni imanlının, uzaq Kolosse şəhərində sahibindən qaçdığını və həmin sahibin Paulun dostu Filimon olduğunu öyrənən Paulun təəccüblənməsini təsəvvür edin. Allah, Öz ixtiyarı ilə Paulu Müjdəyə ürəyini açmış bu cavan qulla bir yerə gətirib.

Onisimin vəziyyətini anlamaq üçün I əsr Roma imperiyasında köləlik haqqında məlumat almaq faydalıdır. Milyonlarla kölə daxil olmaqla bütün Roma cəmiyyəti köləliyi normal qarşılayırdı. Kölələr hər növ işi görürdü. Bəziləri əkin sahələrində, şaxtalarda və ya tikintilərdə işləyirdi. Bu iş çox vaxt xeyli çətin idi və quldarlar qəddar və rəhmsiz ola bilirdi. Bəzi quldarlar isə qullarına ailə üzvləri kimi davranırdılar; buna baxmayaraq, onların hamısına əşya gözü ilə baxılırdı.

Qaçan bir köləyə sahibi istədiyi cəzanı verə bilərdi. Kölənin alnına qaçaq olduğunu göstərən bir damğa vurula bilərdi; o döyülə ya da başqa cür pis rəftar görə bilərdi. Hətta öldürülə bilərdi. Tutulub geri qaytarılan qulun həyatta qalmağı sahibinin mərhəmətindən asılı idi.

İsa, Öz dövründəki köləliyə qarşı danışmasa da, Onun təlimləri dünyada olan hər kəsi eyni dərəcədə sevdiyini göstərir. O bütün insanlar üçün (həm qul, həm azad olanlar üçün) canını qurban verdi. Və O

bizə özümüzü sevdiyimiz kimi hər kəsi sevməyi buyurur. Həvari Paul İsanın bütün ardıcılları haqda bunu deyir:

> *Artıq Yəhudi ilə Yunan, qulla azad, kişi ilə qadın arasında fərq yoxdur. Çünki hamınız Məsih İsada birsiniz. (Qalatiyalılara 3:28)*

Filimonun dövründə bu təlim yeni və inqilabi idi. Gəlin Onisimin qaçdığı günü təsəvvürümüzə gətirək. Filimonun nə qədər hirsləndiyini düşünün. O bu qulu öz pulu ilə almışdı. İndi isə qul qaçıb. Böyük ehtimal var ki, o ağasından pul da oğurlayıb (18-ci ayə). "Onisim" adı "faydalı" mənasına gəlir, amma Filimon bu anda, çox güman ki, qulunun "faydasız" olduğunu düşünür (11-ci ayə). Filimonun, Onisim tutulub qaytarılsa onu necə cəzalandıracağını düşünməsi çox təbii olardı. O təsəvvürünə gətirə bilməzdi ki, onun özünü, ailəsini və dostlarını xilas edən Müjdə bu "faydasız" qulu Onisimi də xilas edəcək. Və o təsəvvürünə gətirə bilməzdi ki, Onisimi ona Həvari Paulun özü qaytaracaq!

Amma Allah əsrarəngiz yollarla hərəkət edir. Paul Onismi geri göndərir və Filimondan onu artıq kölə olaraq deyil, bir qardaş kimi qəbul etməsini rica edir (16-cı ayə). Paul Filimona deyir ki, *"...onu da məni qəbul edəcəyin kimi qəbul et"* (17-ci ayə). Lütfkar, sülh yaradan Həvari Paul hətta Onisimin Filimona borcu varsa, o borcu özünün ödəyəcəyini deyir (18-19-cu ayə).

2-ci ayədə görürük ki, bu məktub təkcə Filimona yazılmayıb, həmçinin *"sənin evindəki toplantıya"* da ünvanlanıb. Bu məktub bütün imanlılara oxunmaq üçün nəzərdə tutulmuşdu. Təsəvvürünüzə gətirin: Filimon ailəsi və dostlarıyla ev toplantısında oturub Paulun müraciətini dinləyir, onların "faydasız" qaçaq köləsi Onisim də aralarındadır! (12-ci ayə)

Filimon və ev toplantısı Onisimi bir qardaş olaraq qəbul etdimi? Müqəddəs Yazı bizə bunu bildirmir, amma böyük ehtimalla belə də qarşılayıblar. Bu məktub, çoxlu surətləri çıxardıldıqdan sonra oxunmaq üçün bütün cəmiyyətlərə göndərildi. Filimon Paulun xahişini yerinə yetirməsəydi, çox güman ki, məktubu cırıb atardı.

Paul bu məktubunda Onisimin onun üçün də "faydalı" olduğunu yazır (11-13-cü ayələr). Paul belə yazdı:

> *Müjdə uğrunda həbsdə olduğum müddətdə sənin əvəzinə mənə xidmət etməsi üçün onu yanımda saxlamaq istəyirdim... (13-cü ayə).*

Ehtimal ki, Paulun məktubundan təsirlənən Filimon Onisimi bağışlayıb və qardaşı olaraq qəbul edib. Bəlkə o, Onisimi azad edib Paula geri yollayıb ki, onun səyahət edən müjdəçi komandasına qoşulsun. Məktubun yazıldığı vaxt cavan adam olan Onisimin, Həvari Paul və digər müjdəçilərlə çiyin-çiyinə xidmət etdiyi illər ərzində imanda necə inkişaf etdiyini təsəvvürünüzə gətirin.

Filimonun Paula qoşulsun deyə Onisimi azad buraxıb-buraxmadığını dəqiq bilmirik, lakin bunun ehtimalı vardır. Paulun vəfatından təqribən 40 il sonra yazılmış başqa bir məktub vardır. Onisimin o illərdə hardasa 70 yaşı var idi. Bu məktubu İqnatiy adında bir məsihçi rəhbər Efesin yepiskopuna yazmışdı və həmin yepiskopun adı Onisim idi! Bu adamın o Onisim olub-olmadığı dəqiq bilinməsə də, elə bir ehtimal vardır. Həyatları dəyişdirən İsanın asi bir köləni imanlılar cəmiyyətinin bir rəhbərinə döndərməsi necə də gözəl bir hekayədir! Lakin Filimonun ev cəmiyyəti Onisimi xoş qəbul etməsəydi, bu baş verməyə bilərdi.

Sizin ev cəmiyyətiniz bu I əsr hekayəsindən nə dərs götürə bilər? Filimon və evində toplanan cəmiyyət bütün insanların Məsihdə bərabər olduqlarını öyrənməli və onlar qaçaq bir köləni öz qardaşları olaraq qəbul etməli idi. Onisimin hekayəsi bizim hamımıza aid deyilmi? Günahın köləsi olan bizlər İsa Məsihin lütfü ilə azad edilib Padşahlığına və işinə dəvət edildik. Allah hər birimizə millətindən, mövqeyindən, yaşından, cinsiyyətindən asılı olmayaraq, bir-birimizi sevməyi, qayğı göstərməyi öyrənməkdə kömək olsun.

## *Tez-tez verilən suallar*

### *1. Biz evdə toplanan kiçik bir qrup isək, həqiqi bir imanlılar cəmiyyəti sayılırıqmı?*

Bu tarixi məlumat faydalı ola bilər: İsa göyə qalxandan sonra erkən imanlılar cəmiyyəti 300 il ərzində əksərən evlərdə toplanırdı. İmanlılar cəmiyyəti Orta Şərqdə, Avropada və Şimali Afrikada böyüyürdü. İmanlılar təqiblərə məruz qaldıqlarına və binalar tikməyə pulları olmadığına görə evlərdə yığışırdı. Bu qruplar kiçik olduqlarına və birlikdə əziyyət çəkdiklərinə görə aralarında xoş ünsiyyət və məhəbbət var idi, bu da cəmiyyətin daha çox evlərə yayılmasına kömək edirdi. O əsrlərdə ev cəmiyyətləri hərəkatı Müjdəni hər yerə yaydı. Kilsə binaları yox idi və imanlılar cəmiyyətləri ümumiyyətlə ictimai binalarda yığışmırdı!

Bu kitabın digər fəsillərini keçdikcə görəcəksiniz ki, çox kiçik bir qrup belə, bir cəmiyyət olaraq, Məsihin bütün təlimlərinə riayət edə bilər. Bundan əlavə, ev cəmiyyətində bir-birinizi yaxşı tanımaq imkanınınz olur və beləcə siz Həvari Paulun Qal. 6:2-də buyurduğu kimi "bir-birinizin yüklərini daşıyıb bu yolla Məsihin qanununu icra edə" bilirsiniz.

Yadda saxlayın ki, imanlılar cəmiyyəti sadəcə bir toplantı yaxud yığıncaq deyildir, *insanlardır*. İsanın bütün dünyadakı ardıcılları Məsihin Bədəni olan imanlılar cəmiyyətini təşkil edirlər.

### *2. Bir ailəyə bənzəmək üçün həftədə bir dəfə toplanmaqdan başqa nə edə bilərik?*

Sağlam bir ailədə hamı bir-birinin qayğısına qalır. Eyni şəkildə, yaxşı rəhbər həftə içində müntəzəm olaraq öz cəmiyyətinin üzvlərinin vəziyyətləri ilə maraqlanır və onları bir-birinin vəziyyətləri ilə maraqlanmağa ruhlandırır. Bəlkə kimsə xəstədir, yaxud işsiz qalıb və nəyəsə ehtiyacı vardır? Bəlkə kiminsə yaxını vəfat edib? Bəlkə kimsə əziyyət çəkir və duaya ehtiyacı var? Bəzən o adama zəng etmək və ya ziyarət edib sadəcə "Səni düşünürəm" demək ona həddən artıq əhəmiyyətli ola bilər. Özümüzdən soruşmalıyıq ki, "Mən həqiqətən cəmiyyətin üzvlərinin qayğısına qalıram? Bəs onlar həqiqətən bir-birlərinin qayğısına qalırlarmı?" Əgər hər kəs başqalarına kömək etsə, heç kəs öz yükünü təkbaşına daşımağa məcbur olmaz.

***3. Toplandığımız evin sahibəsinin xidmətçi ürəyi vardır, amma bəzən o hər həftə ev cəmiyyətini qəbul etməkdən yorulur. O həmişə yemək bişirir və əlbəttə, insanlar gəlməmişdən əvvəl və gedəndən sonra evi yığışdırır. Ev cəmiyyəti hər dəfə eyni evdə yığışmalıdırmı?***

Həvarilərin İşləri imanlıların "evlərdə" toplandıqlarını bildirir (Həv. 5:42).

Əgər cəmiyyətə qapısını açan başqa evlər də varsa, bir adamın və ya ailənin yükünü azaldıb başqa evlərdə də yığışa bilərsiniz. Həmçinin cəmiyyəti öz evində qəbul edən şəxslərin yükünü cəmiyyətin üzvlərinə izah edin. Bacı-qardaşlardan rica edin, toplantıdan sonra çay verməyə və ya qab yumağa kömək etsinlər. Necə ki İsa *"gəlmədi ki, Ona xidmət etsinlər, amma gəldi ki, Özü xidmət etsin" (Mat. 20:28)*, eləcə də kişili-qadınlı hər kəs praktiki yollarla kömək etməyi öyrənməlidir. Bəziləri yığışdırmağa kömək etmək üçün daha tez gələ ya da geç gedə bilər. Həmçinin hər dəfə birlikdə yemək yeməyə məcbur deyilsiniz. Lakin birlikdə yemək yediyiniz vaxt hər kəsi bir şeylər gətirməyə təşviq edin.

***4. Elə imanlılar var ki, artıq bizim cəmiyyətimizin toplantılarına gəlmirlər və başqa cəmiyyətlərin ibadətində də iştirak etmirlər. Onlar özlərinə İsanın ardıcılları deyirlər, amma digər imanlılarla yığışmağı vacib görmürlər. Biz nə edə bilərik?***

Bir adamın imanlılar cəmiyyətini tərk edib təkbaşına məsihçi həyatı sürməsinin çoxlu səbəbləri ola bilər. Amma yadda saxlamaq vacibdir ki, sərt sözlər və danlamalar böyük ehtimalla onları geri qaytarmaz. Onlar bilməlidir ki, siz onları sevirsiniz. Onların qayğısına qaldığınızı göstərmənin yollarını axtarın. Onları ziyarət edin, onlara qulaq asın və onlar üçün dua edin. Məsihin bədəni olan imanlılar cəmiyyətinə ehtiyacları olduğunu onlara mehribanlıqla xatırlatmaq lazımdır. Bizim ev cəmiyyətlərimiz kamil deyildir, amma biz yenə də bir-birimizə lazımıq. Onlar üçün tez-tez dua edin.

Bundan əlavə biz Müqəddəs Yazının yenidən doğulub bir imanlılar cəmiyyətinə daxil olmaq barədə nə öyrətdiyini yeni imanlılara bir rəhbər olaraq başa salmalıyıq. Allahın bizi ayrı-ayrılıqda xilas etməkdən daha böyük planları vardır. Allahın planının mahiyyəti ondan ibarətdir

ki, biz həm Onu, həm bacı-qardaşlarımızı sevək, onlarla yaxşı münasibətdə olaq.

***5. Bizim ev cəmiyyətimizin ölkəmizdə və bütün dünyada olan Məsihin Bədəninin bir hissəsi kimi hiss edilməsi üçün nə etmək olar?***

Hər imanlı özünü nəinki yerli ev toplantısının üzvü, həm də Məsihin ümumdünya Bədəninin hissəsi olaraq dərk etməlidir. Onların özlərini belə dərk etməsinə kömək etmək üçün onlara aşağıdakı ayələri öyrədə bilərsiniz.

Ölkənizdə və hətta digər ölkələrdə olan cəmiyyətlərlə birlikdə dua, bayram, konfrans, düşərgə və s. keçirmənin yollarını axtarmaq da yaxşıdır.

Düşünmək və öyrətmək üçün ayələr:

| | |
|---|---|
| Yəh. 17:20-21 | Yəh. 10:14-16 |
| Kol. 3:9-17 | Rom. 12:3-8 |
| Ef. 4:1-16 | Ef. 2:11-22 |
| 1Kor. 12:12-27 | |

## ***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

### *Tətbiq və dua*

1. Həv. 2:42-47-yə diqqətlə baxın. Hər suala ayrı-ayrı cavab verin:
   - Erkən imanlılar cəmiyyətində baş verən hansı şeylər sizin qrupunuzda da baş verir?
   - Erkən imanlılar cəmiyyətində baş verən hansı şeyləri öz qrupunuzda görmürsünüz?
   - Sizin qrupunuzda sevinc, məhəbbət və Allahın hər həftə aranızda hərəkət etməsindən qaynaqlanan ehtiram var mı? Nəyin dəyişməsini istəyirsiniz?
2. Ev cəmiyyətinizin bütün insanları xoş qəbul edən, onlara qayğı göstərən bir ailəyə bənzəməsi üçün nə dəyişməlidir? (Məsələn: Toplantınıza gələn bəzi insanlara qarşı fikrinizi dəyişdirməlisinizmi?)
3. Ev cəmiyyətiniz üçün dua edin. Dua edərkən Həv. 2:42-47-ni səssizcə oxuyun. Bundan duanızda bir bələdçi olaraq istifadə edin. Rəbdən istəyin ki, I əsr imanlılar cəmiyyətinə verdiyi həyat və güc ilə sizi də doldursun.

# 3. Məhəbbət, rəhbərin motivasiyası

*Onda İsa şagirdləri yanına çağırıb dedi:*
*«Bilirsiniz ki, millətlərin rəhbəri sayılanlar onların üzərində hökmranlıq, əyanları da onlara ağalıq edir. Sizin aranızda isə qoy belə olmasın.*

*Sizlərdən böyük olmaq istəyən xidmətçiniz olsun. Aranızda birinci olmaq istəyən hamının qulu olsun. Çünki Bəşər Oğlu gəlmədi ki, Ona xidmət etsinlər, gəldi ki, Özü xidmət etsin və çoxlarını satın almaq üçün Öz canını fidyə versin». (Mark 10:42-45)*

***Giriş***

## Məsihçi rəhbərlər İsadan məhəbbəti öyrənirlər

İsa bizi tamamilə fərqli bir həyat tərzinə çağırır. O bizi Öz padşahlığına dəvət edir. Onun padşahlığının bu dünyadan çox fərqlənən bir cəhəti, rəhbərlərin necə idarə etməsidir.

Cəmiyyət rəhbərləri, insanlardan öz məqsədləri üçün istifadə edəndə, bu, İsanın öyrətdiyi yola tamamilə qarşıdır. Belə rəhbərlər xudbindir, öz padşahlıqlarını qurmaq arzusundadır, ya da xidmətləri vasitəsilə maddi qazanc əldə etmək istəyirlər. İmanlılar cəmiyyəti tarixində (çox təəssüf ki) rəhbərlər tərəfindən hətta cinsi istismar halları da olub. İsanın bizi tamamilə başqa bir yola – insanlara səməmi məhəbbət yoluna çağırdığını bilmək vacibdir.

Məhəbbəti öyrənmək üçün hamımıza bir ömür lazımdır. Heç kəs bunu anadangəlmə öyrənmiş deyildir. Bu, İsanın bizi ildən-ilə dəyişməsi ilə əmələ gəlir.

İsa, səmimi məhəbbətin kamil nümunəsidir. İnsanlar görürdü ki, İsa Özünü yüksəltmək üçün onları aşağı itələmirdi. İsa, sevgi dolu bir xidmətçi idi.

Sonrakı dərsdə Həvari Paulun xidmətinə baxacağıq. İsa, Şaulu (məsihçilərin təqibçisi) Paula çevirdi və bundan sonra dünya dəyişdi. Şaul İsa ilə qarşılaşandan sonra məhəbbət ömür boyu onun motivasiyası oldu. Daha sonra o, məhəbbət haqqında məşhur fəsli yazdı (1 Korinflilərə 13).

Həvari Paulun həyatına baxanda, bizdə də dəyişib başqalarını ürəkdən və dərindən sevən rəhbərlər ola biləcəyimizə dair ümid yaranır.

***<u>Müqəddəs Kitab Dərsi</u>***

## Həvari Paulun bütün rəhbərlərə nümunəsi

**Başlanğıc müzakirəsi:** Bir ev cəmiyyətini rəhbərlik etməkdə böyüdükcə Rəbbin ürəyinizdə hansı xüsusiyyətləri yetişdirməsini istədiyinizi qrupunuza təsvir edin.

Həvari Paul öz müjdəçi səyahətlərində indiki Türkiyədən, Yunanıstanın bölgələrindən və digər ərazilərdən keçdi. İndiki Yunanıstanın ərazisində yaşayan saloniklilərə bir neçə məktub yazdı. Birinci məktubunda o, onlara Müjdəni ilk dəfə gətirdiyi Salonikdəki xidmətindən danışdı. Onun bu insanlara necə münasibət göstərdiyinə baxaq.

**1 Saloniklilər 2-ci fəsli oxuyun**

1. Paul Salonikə getməmişdən əvvəl Filipidə başına nə gəlmişdi? (2-ci ayə)

   Paul saloniklilərə xatırladır ki, o da onlara gələndə, orada münaqişə olmasına baxmayaraq, onlara Müjdəni danışmağa cürət etdi. (Həvarilərin İşləri 16 və 17-də Paulun Filipi və Salonikdə Müjdəni yayması haqqında oxuya bilərsiniz.)

2. 3-5-ci ayələri təkrar nəzərdən keçirin. Paul saloniklilərə Müjdəni gətirməklə kimi razı salmaq istəyirdi?

   Paul saloniklilərə xidmət edərkən, nəyi ETMƏDİYİNİ söylədi? (5-6-cı ayələr)

   İnsanların bizi tərifləməsi niyə bəzən bizim üçün sınaq olur?

   Paul həmçinin deyir ki, o tamahkarlıqla hərəkət etmirdi. Bir rəhbərin gizli tamahkar niyyətləri cəmiyyətini necə məhv edə bilər?

3. 7-10-cu ayələri təkrar oxuyun. Paulun salonikliləri nə qədər sevdiyini və bu məhəbbəti necə göstərdiyini öz sözlərinizlə təsvir edin.

4. 11 və 12-ci ayələrdə Paul özünü onların atası kimi təsvir edir. Onun saloniklilərə qarşı hansı davranışları yaxşı bir atanın davranışına oxşayırdı?

   Əgər sevgi dolu valideynlər kimi davranan kişilər və qadınlar ev cəmiyyətlərimizi rəhbər etsələr, bu oraya gələn insanlara necə təsir edəcək?

5. Paulun Salonikdəki zəhmətinin nəticəsi nə idi? (13-cü ayə)

Ev cəmiyyətinizdə insanlar Allahın kəlamını sizin sözləriniz kimi, yoxsa Allahın sözləri kimi qəbul edir?

6. Saloniklilər üçün İsanın ardınca getmək asan idimi? (14-16-cı ayələr)

   Biz rəhbərlər olaraq insanları dərindən sevsək, bu onlara təqiblərə dözməkdə necə kömək olacaq?

**Dua ilə bitirin:** Paul, imanlılara xidmətdə səmimi məhəbbətin və təmiz niyyətin gözəl bir nümunəsidir. İndi ev cəmiyyətiniz üçün dua etməyə vaxt ayırın. Dua edin ki, Paulun məhəbbət dolu ürəyinə siz də malik olasınız.

**Bu mövzunun dərininə gedin:** Mark 10:35-45 və Filipililər 2:1-11-in üzərində düşünün.

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***ABŞ, XX əsr***

**Rəhbərlər cəmiyyətin yolunu azmış bir üzvünə məhəbbət göstərirlər**

Gene Getz, amerikalı bir pastor, öz arvadını tərk edib başqa bir qadınla zina edən məsihçi bir adamın hekayəsini danışır. Gene bu adamı yaxşı tanıyır, günahına görə çox narahat olurdu. O, başqa bir ağsaqqalla birlikdə o adamı görməyə getdi. Adamın ofisinə girərək, onun fikrini dəyişdirib arvadına qayıtmasına kömək etmək istədiklərini söylədilər. Adam çox hirslənib onları qovmağa başladı. Gene və ağsaqqal möhkəm dayanıb onunla danışmaqda məhəbbətlə israr etdilər.

Söhbət uzun və çətin idi, haradasa iki saat sürdü. Adam, öz günahlı arzularında davam etməyi qərara almışdı və rəhbərlər onu arvadına qaytarmağa qadir ola biləcəklərinə heç əmin deyil idilər. Gene belə yazır: "Danışdığımız vaxt bir dəfə yanımdakı ağsaqqal – o bir biznesmen idi – əlini adamın qoluna qoydu və göz yaşları ilə ona yalvardı ki, aldığı qərarı yenidən düşünsün".

Gene və ağsaqqal, adamın ürəyinin bir az yumşaldığını gördülər. Axır ki, o onlarla daha uzun danışmağa razı oldu. Gene deyir ki, "O adam qadını buraxıb öz arvadına qayıtmağa hələ hazır olmasa da, arvadı ilə birlikdə məsihçi bir məsləhətçinin yanına getməyə razılaşdı".

O adamla həftələrlə danışdıqdan, problemlərinə qulaq asdıqdan, onunla Allahın kəlamını paylaşdıqdan sonra, bir bazar günü adam onların toplantısına gəldi. Gözlərində yaş, Geneni qucaqlayıb dedi: "Məni buraxmadığına görə Allaha şükür edirəm!" O, öz arvadına qayıtmışdı. Zamanla, çoxlu dualar və pastorların məsləhətləri ilə bu adamın öz arvadı ilə münasibəti tamamən bərpa olundu.

Daha sonra o adam həyatının sonuna qədər Geneyə borclu qalacağını söylədi. Gene belə yazır: "Əlbəttə ki, ruhani "çoban" olaraq belə nailiyyətlər əldə etməkdən ötəri sərf etdiyimiz bütün vaxta, səylərə, hətta əvvəlcə rədd olunmağımıza dəyər".

Gene, bu cür fədakar məhəbbət haqqında belə yazır:

> *Əsl çoban ürəyinə malik olan bir rəhbərin nə cür xüsusiyyətləri olur? O, öz sürüsündəki məsihçilər uğrunda özünü fəda etməyə*

*razıdır. Nəyin bahasına olur-olsun, onların yanında durur. O, qoyunlarını tanıyır. Onları adları ilə çağırır!"*

Gene, İsanın Yəh. 10:14-də Özü barədə dediklərini nəzərdə tuturdu. İsa, imanlılar cəmiyyətində qayğıkeş çoban olmaq istəyən hamıya nümunədir.

*Biz, öz insanlarımızla birlikdə olmalıyıq, onlardan ayrı deyil. Onları şəxsən tanımalıyıq – ehtiyaclarını, narahatçılıqlarını, problemlərini bilməliyik! Sürüdən ayrılıb məyusluq və günah kolluğuna ilişmiş bir quzunu tapmaqdan ötəri doxsan doqquz qoyunu qoyub qaranlıq yerə getməyə hazır olmalıyıq (Matta 18:12-13).*

Pastor Getz sözünə davam edib deyir ki, cəmiyyətimizdəki insanlara təkcə sözlərimizlə deyil, həyatlarımızla deməliyik ki,

*Biz sizi sevirik, qayğınızı çəkirik və sizin yanınızdayıq. Hər zaman, hər yerdə istədiyiniz hər şey barədə bizimlə danışa bilərsiniz. Biz sizi mühakimə etməyəcəyik! İsanın bədəninin, cəmiyyətinin yetkin, fəal üzvü, həqiqətən olmaq istədiyiniz bir şəxs olmağınıza kömək edəcəyik.*

Məsihdən nümunə götürərək illərlə səbir göstərən rəhbərlər bilirlər ki, hər adamın hekayəsi heç də həmişə bu qədər xoşbəxt qurtarmır. Bəzi insanlar ürəklərini daşa döndərib Rəbdən uzaqlaşırlar. Bəzən onları buraxmaqdan başqa seçimimiz olmur. Həqiqi pastor ürəyi həmişə Məsihin məhəbbəti barədə daha çox şey öyrənir. Bu məhəbbət *"hər şeyə qatlaşar, hər şeyə inanar, hər şeyə ümid bəsləyər, hər şeyə dözər" (1 Korinflilərə 13:7).* Bu, Xilaskarımız İsa Məsihin məhəbbə-tidir.

Bu hekayə, Gene A. Getzin yazdığı ***Ağsaqqallar və Rəhbərlər*** kitabından götürülmüşdür (Gene A. Getz, ***Elders and Leaders***, copy-right 2003, Moody Publishers). İcazə ilə istifadə olunur.

***Tez-tez verilən suallar***

***1. Biz rəhbərlər olaraq öz ev cəmiyyətimizi necə məhəbbət üzərində qura bilərik?***

Gene Getzin yuxarıda dediyi kimi, məhəbbət insanlara hər şeydən əvvəl hərəkətlərlə göstərilir. Lakin biz həmçinin məhəbbət barədə öyrətməliyik. Məsih bizə bir-birimizi sevməyi əmr etdi. O öyrətdi ki, Allahı bütün ürəyimizlə, bütün ağlımızla və bütün gücümüzlə sevmək və qonşularımızı özümüz qədər sevmək, əmrlərin ən əsasıdır. Bu ən əsas əmri ev cəmiyyətinizə öyrətmək üçün siz məsuliyyət daşıyırsınız. Bu bizim imanımızın mahiyyətidir.

Buna vaxt sərf etdikdə, insanların ürəyinə toxum əkirik. Allahın bu toxumları böyüdəcəyinə əmin ola bilərik. Bu ölkədəki bütün məsihçilərin məhəbbətlə dolu insanlar olaraq tanındıqlarını təsəvvürünüzə gətirin!

Məhəbbət haqqında olan aşağıdakı mətnləri ev cəmiyyətinizdə birgə öyrənə bilərsiniz:

1) **İsa məhəbbətin əslində nədən ibarət olduğunu izah edir:**

   Yəhya 15:9-17

   Yəhya 13:1-17

   Yəhya 14:15-24

2) **Allahın günahkarlara olan böyük məhəbbəti barədə üç məsəl:**

   Luka 15:1-7 (itmiş qoyun)

   Luka 15:8-10 (itmiş pul)

   Luka 15: 11-32 (itmiş oğul)

3) **Əməli məhəbbət barəsində məsəl:**

   Luka 10: 25-37 (Xeyirxah samariyalı)

4) **Həvari Paulun məhəbbəti gözəl təsvir etməsi:**

   1 Korinflilərə 13

5) **Allahın Ruhunun həyatımızdakı səmərəsi (günahlı təbiətə görə yaşamağın əksi):**

   Qalatiyalılara 5:16-26

   1 Yəhya 3:11-18 və 4:7-21

### *2. Ev cəmiyyətində bir rəhbər olaraq qarşı cinsdən olan şəxslərə necə kömək edə bilərəm?*

Rəhbərlər də cinsi ehtirasla sınağa çəkilirlər. Siz cəmiyyətinizdəki adamların hamısını sevməli və kömək etməlisiniz, amma qarşı cinsdən olanlarla, dua üçün sizinlə öz problemlərini bölüşmək istəsələr belə, heç vaxt təklikdə görüşməməlisiniz. Şeytan məsihçi rəhbərlərin həyatlarını və xidmət etdikləri cəmiyyətləri məhv etmək üçün belə görüşlərdən dəfələrlə istifadə etmişdir. Həmişə başqa yetkin bir imanlı—həyat yoldaşınız ya da başqa bir bacı və ya qardaş—ilə birlikdə belə görüşlərə gedin. Bağlı qapılı otaqlara girməyin. Əsl məsihçi məhəbbəti, ilan kimi müdrik, amma göyərçin kimi məsumdur.

### *3. "Pastor" sözünün mənası nədir?*

Əhdi-Cədiddə "pastor" olaraq tərcümə etdiyimiz sözün mənası "çoban"dır. İsanın dirilməsindən sonra Peterə dediyi sözlərə baxaraq "pastor" sözünün mənasını anlaya bilərik. İsa ona, *«Quzularımı bəslə»* dedi (Yəhya 21:15-17). Peterə, Allahın xalqına nəzarət etmək işi verildi. O günlərdə "pastor", bir vəzifə deyil, xidmət idi.

Peter heç bir "Müqəddəs Kitab məktəbi"ndə məzun olmamışdı. O heç vaxt bir kilsə binasında vəz etmədi! O, İsanın məhəbbəti ilə dəyişdiyinə görə Allahın xalqının qayğısına qalmağı öyrənmiş sadə bir balıqçı idi.

**Bunu unutmayın:** Kim olursunuz-olun, İsanın qoyunlarının qayğısına qalırsınızsa, əsl pastor olaraq hərəkət edirsiniz.

## ***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

### *Tətbiq və dua*

1. Hər məsihçi rəhbər, dürüst danışsa, Allahın xalqına rəhbərlik etməyə qabil olmadığını etiraf edəcək. İnsanları səmimi məhəbbətlə sevmək üçün həyatınızın hansı sahələrində dəyişməlisiniz?
2. Özünüzə görə dua edin. Ev cəmiyyətinizin üzvlərindən xahiş edə bilərsiniz ki, sizin üçün dua etsinlər. Məhəbbətlə dolu bir rəhbər olmağı öyrədən əvvəlki səhifələrə nəzər salarkən, Rəbdən istəyin ki, həyatınızın böyüməyə ehtiyacı olan sahələrində sizi dəyişdirsin.
3. **Tez-Tez Verilən Suallar** hissəsində, 1-ci sualdakı ayələrin siyahısına baxın. Yaxın bir zamanda cəmiyyətinizin üzvləri ilə birlikdə oxuyub öyrənmək üçün bir-iki mətni seçin.

# 4. Allahın ecazkar xilas ənamını dərk etmək

***Hamımız qoyun kimi yolu azmışdıq, hər birimiz öz yolumuzla gedirdik. Rəbb hamımızın şər əməllərinin yükünü onun üzərinə qoydu.***
***(Yeşaya 53:6)***

***Çünki Allah dünyanı elə sevdi ki, vahid Oğlunu verdi; bunu ona görə etdi ki, Ona iman edən hər kəs həlak olmasın, amma əbədi həyata malik olsun. Allah dünyanı mühakimə etmək üçün deyil, Oğlunun vasitəsilə xilas etmək üçün Onu dünyaya göndərdi.***
***(Yəhya 3:16,17)***

***Həm Yəhudiləri, həm də Yunanları tövbə edib Allaha tərəf dönməyə və Rəbbimiz İsaya iman gətirməyə çağırdım.***
***(Həvarilərin İşləri 20:21)***

***Giriş***

## Dünyanı xilas edən Xoş Xəbər

Müjdə günahkarlar üçün "Xoş Xəbər"dir. Bu Müjdəni yayanların özləri də İsasız həlaka məhkum olduqlarını bilirlər. İsa barədə bu xoş xəbər Onun kəlamına görə düzgün vəz edildikdə, insanların ürəkləri buxovlarından azad olur. Günahın və zülmətin ümidsiz məhbusları qaranlıq, soyuq zindanlarından Allah sevgisinin isti şüalarına çıxırlar. Onların ürəkləri sevinclə doludur və onlar xilas ənamına görə İsaya ürəkdən şükür edirlər. İsanın çarmıxda onlar üçün əbədi qurban gətirdiyinə iman edərək ömür boyunca bu imanı möhkəm tutub Həyat Çörəyi olan İsada qüvvətlənib həyat tapacaqlar.

Bu fəsil imanımızın təməli, hər ev qrupuna xeyir-dua verən həyat bulağı haqqındadır. Əgər biz Məsihin xilasını dərk edib tez-tez ona dalsaq, ev qrupumuzda həyat dolub-daşacaqdır. Toplantılarımız darıxdırıcı olmayacaq. Biz Müqəddəs Kitabı oxuyanda bizə o qədər inanılmaz lütfü göstərən Allah haqqında daha çox öyrənməyə can atacağıq. Bir-birimizə və həlak olan dünyaya qarşı məhəbbətimiz artacaq. O zaman görəcəyik ki, Müqəddəs Ruh bizi bu xoş xəbəri başqalarına çatdırmaq arzusu ilə doldurur. Biz İsanı ürəkdən sevəndə, imanımızdan danışmaqda çətinlik çəkmirik. Müqəddəs Ruh ürəklərimizi qüdrət və cəsarətlə dolduracaq və nail olduğumuz azadlığa başqalarının da nail olmasına kömək etməkdən həzz alacağıq.

Lakin başqalarına İsadan danışmaq heç də həmişə asan olmur. Şeytan imansızların gözlərini kor etdi, buna görə onlar Məsihin çarmıxda verdiyi qurban vasitəsilə Allahın göstərdiyi uca məhəbbətini dərk edə bilmirlər. Ancaq, şükürlər olsun ki, biz təkbaşına işləmirik. Biz imansızlarla söhbət edəndə, Müqəddəs Ruh bizim vasitəmizlə onların ürəklərində işləyir. Onların günahlarını ifşa edir. Onları günahlarını İsanın çarmıxı önündə buraxmağa çağırır. Atanın onlara verdiyi çox dəyərli lütfünü onlara göstərir.

Unutmayaq ki, Müjdə bizə sadiq imanlılar sayəsində gəlib çatmışdır. Onlar Məsihin təlimini təhrifdən qoruyub başqaları ilə bölüşdülər. XXI əsrdə isə Müjdə bizə verildi ki, biz onu başqalarına çatdıraq. Hər ev cəmiyyəti Müjdəni ətrafına yaymağa qadirdir. Əkdiyiniz toxumların nə qədər səmərəli olacağını yalnız Allah bilir.

## İsa dini bir başçıya əsl xilasın mənasını izah edir

**Başlanğıc müzakirəsi:** Öz sözlərinizlə ya da ayələrlə xilasın nə olduğunu təsvir edə bilərsiniz?

**Yəh. 3:1-21-ni oxuyun.**

1. 3-cü ayədə İsa Nikodimə nə dedi?

   Nikodim İsanın nədən danışdığını anlayırdımı? (a. 4)

2. 5-7-ci ayələri diqqətlə təkrar oxuyun.

   İlahiyyatçılar "sudan doğulmaq" ifadəsinin mənasını müxtəlif cür anlayırlar (a. 5). Bəzilərinin fikrincə, bu ayədə su, vəftizin rəmzidir. Başqaları 5-ci ayəni 6-cı ayə ilə əlaqələndirir, "sudan doğulmaq" deyildikdə ana bətnindəki suyun, yəni fiziki doğumun nəzərdə tutulduğunu deyirlər.

   Bunun mənası nə olur-olsun, İsa 6-cı ayədə fiziki doğumdan danışır, "bəşərdən" doğulmanın yetərli olmadığını izah edir. Biz yenidən doğulmalıyıq. Ruhdan doğulmalıyıq (a. 7). İsa bu yəhudi başçısına hər şeydən əvvəl bunu öyrədir ki, o bir yəhudi kimi öz fiziki, cismani doğumuna, soyuna ümid bağlamamalıdır. Nikodim, çox fəxr etdiyi, ümid bağladığı yəhudi irsi ilə Allahın önündə əsla saleh ola bilməzdi; o, daxili varlığını dəyişdirən yeni həyatı qəbul etməli idi.

3. 8-ci ayəni bir neçə dəfə sakitcə oxuyun, sonra öz sözlərinizlə mənasını izah edin.

4. 14-cü və 15-ci ayələri təkrar oxuyun. Sonra aşağıdakı izahı oxuyun.

   İsa bu yəhudi müəlliminə Allahın Ruhunda olan bu yeni həyatı başa salmaq üçün yəhudi tarixindən bir misal gətirir. Sizdə Əhdi-Ətiq varsa, Saylar 21:4-9-u oxuyun.

   Allaha və həmçinin Allahın Qanununu xalqa öyrədən Musa Peyğəmbərə qarşı itaətsiz olan xalq, zəhərli ilanların çalmasından ölürdü. Allah onların itaətsizliyinə baxmayaraq onları sevdiyini göstərirdi. Allah Musaya zəhərli ilanın bir surətini düzəldib dəyənəyin üzərinə qoymasını əmr etdi. O ilana baxan hər kəs şəfa tapardı. Xalq itaətsizliyinə görə ölməyə layiq idi, amma Allah on-

lara yeni həyat verdi. Allahın şəfa verən lütfü qədim İsrail xalqına bu cür qəribə bir surətdə göstərilmişdi. Allahın bu surəti İsanın gələcəyi günə işarə olaraq vermişdi.

Üstündən illər keçəndən sonra İsa Nikodimə xilası başa salmaq üçün yəhudi tarixindən bu əhvalatı danışır. Eden bağında ilanın Həvvaya söylədiyi yalan yadınızdadır? Adəm və Həvva Allaha qulaq asmaqdansa, ilana qulaq asmağı seçdilər. Beləcə iblisin zəhəri onların vasitəsilə dünyaya daxil oldu. Günah və ölüm Adəm və Həvva vasitəsilə dünyaya daxil olandan bəri hamı Adəmin lənəti altında doğulur və Allaha qarşı itaətsizlikdə davam edir. Adəm və Həvvanı sancmış o ilan səni və məni də sancmışdır.

Lakin İsa hər şeyi dəyişdirdi. İsa bizi bu ilanın sancmasından xilas etməyə, bizi onun qüdrətindən azad etməyə gəldi. Bu necə oldu? İsa əbədi qurban kimi çarmıxa qaldırıldı. İncildə yazılıb ki, "*O, bədəni çarmıxa çəkilərək bizim günahlarımızı Öz üzərinə götürdü" (1Pet. 2:24)*. Günahdan tamamilə azad olan Şəxs günahın zəhərini götürdü. O bizim günahımızı və ölümümüzü Öz bədəninə götürüb ölümə apardı ki, biz Allaha qarşı itaətsizliyimizin zəhərindən şəfa tapaq. Biz İsanın ölümünün mənasını və dirilməsi ilə ölüm üzərində qələbə çaldığını dərk edəndə, imanla Ona baxırıq, necə ki qədim yəhudi xalqı dəyənəyin üzərindəki ilana baxıb şəfa tapırdılar. Bizim uğrumuzda ölmüş İsaya ümid bağlayırıq. Ölümün qüvvəti darmadağın oldu. Biz İsanın həyatını və salehliyini qəbul edirik.

5. Yəh. 3:16-17 xilası çox sadə izah edir. Buna görə yeni imanlılar bu ayələri əzbərləməyi çox sevirlər. Siz 16-cı və 17-ci ayələri əzbərləmisinizmi? İndi onları əzbərdən deyib hər hissəsinin mənasını öz sözlərinizlə izah edə bilərsinizmi?

   Yəh. 3:16-17 ilə imansızlara və yeni imanlılara Müjdəni necə başa sala bilərsiniz? Onlara Müjdəni başa salmaq üçün daha nə edə bilərsiniz?

6. Ef. 2:1-10-u oxuyun.

   1-ci ayədə Paul bizim Məsihi tanımamışdan öncəki vəziyyətimizdən danışır. O bizi necə təsvir edir?

   2-ci ayəyə görə, biz kimə uyduq?

   3-cü ayəyə görə hərəkətlərimizi təsvir edin.

7. 4-5-ci ayələrdə Paulun dediyinə görə, Allah bizim üçün nə etdi?

6-cı ayə Onun bizi diriltdiyindən bəhs edir. O bizi harada diriltdi? Bunu niyə etdi? (a. 7)

8. 8-10-cu ayələri əzbərləməyə vaxt ayırın.

   İndi İncilə baxmadan 8-10-cu ayələri deyə bilərsiniz?

   Əzbərlədiyiniz sözləri düşünün. Paul deyir ki, xilas bizim nəyimiz deyildir? O nə ilə xilas olduğumuzu deyir? 8-10-cu ayələrdə Paulun nə dediyini öz sözlərinizlə izah edin.

9. Allahın sizə göstərdiyi uca lütf haqqında düşünəndə nə hiss edirsiniz?

**Dua ilə bitirin:** İndi Allahın ev cəmiyyətinizi gücləndirməsi və bu lütfü çox adama çatdırmağınız üçün dua edin.

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***Almaniya, XVI Əsr***

## Müjdəni kəşf edən alman rahib dünyanı dəyişdirir

İsa şagirdlərini bütün dünyaya göndərəndə xilas haqqındakı xoş xəbəri hər yerdə yaymağı onlara tapşırdı. Onlar İsaya iman edən hər kəsin Onun ölümü və dirilməsi sayəsində günahlarının bağışlanıb əbədi həyata malik olduğunu öyrətdilər. Onların təbliğləri vasitəsilə çoxları imana gəldilər və təqiblərə baxmayaraq, Müjdə sürətlə yayıldı. İmanlılar cəmiyyəti böyüdü, Yaxın Şərqdə, Avropada, Şimali Afrikada və digər bölgələrdə minlərlə adam Xilaskarın yolunu tutdu.

Lakin zamanla imanlılar cəmiyyətinin ənənələri Müqəddəs Yazılardan daha önəmli sayılmağa başladı və bir çox məsihçi rəhbəri İsanın təlimini təhrif edərək, İsanın xilas üçün yeganə ümid olduğunu öyrətmədilər. Yalnız Məsih vasitəsilə mümkün olan xilas haqqındakı canlı, həyatverici təlim sanki unudulmuşdu.

O dövrdə əksər adamlar təhsilsiz idi və Allahın kəlamını oxuya bilməzdilər. Əslində onların dilində Allahın kəlamı onsuz da yox idi. İmanlılar cəmiyyətində Yazı, yalnız keşişlərin anladığı latın dilində oxunurdu. Sadə insanlar Müqəddəs Kitabın həqiqətən nə öyrətdiyindən bixəbər idi. Yalnız İsaya iman etməklə xilas haqqındakı Müjdədən xəbərləri yox idi.

XVI əsrin başlarında Allah indiki Almaniyanın ərazisində yaşayan Martin Lüter adında gənc bir adamı çağırdı. Bu adamın xidməti sayəsində çoxları Müjdənin həqiqətinə döndülər.

1505-ci ildə 21 yaşlı Martin qıldığı əhdi yerinə yetirmək və Allahla sülhə nail olmaq üçün bir manastıra getdi. Manastırda o, rahiblərin həyatının çox cəhətini: danışığını, yerişini, yeməyini, baxışlarını, təzimlərini və sairəni idarə edən çoxlu qayda-qanunlar tapdı. Hər şey üçün bir qayda var idi!

Martin bütün bu qaydalara riayət etməyə cəhd edir, bu yolla Allahı razı salacağını ümid edirdi. Bundan əlavə, o, bədənini incidən rahatsız paltarı qəsdən geyinir və qışda buz kimi soyuq yerdə uzanıb yatırdı. Əzab-əziyyətinin günahlarından təmizlənməyinə kömək edəcəyini zənn edən Martin dua edib oruc tutdu, ağlına gələn hər günahı keşişə etiraf edirdi, ancaq heç bir şey ona sülh gətirmirdi. O öz ürəyindəki qaranlığı görüb məyus olurdu. Müqəddəs Allahı necə razı sala bilərdi? Martin, "Mən Allahı sevirəmmi?" deyə öz-özündən soruşub, "Arada

Ona nifrət edirəm!" deyə etiraf edirdi. Allahın ondan qeyri-mümkün olan bir işi tələb etdiyini hiss edir və bu işi yerinə yetirə bilmədiyinə görə Allah onu mühakimə edirdi.

Məyusluğa düşmüş Martin Müqəddəs Yazıları dərindən araşdırmağa başladı. Latın dilini bildiyinə görə Müqəddəs Kitabı oxuya bilirdi. O, çox zəkalı bir adam idi və Allahı razı salmağa və əzab çəkən ürəyi üçün rahatlıq tapmağa can atırdı.

Martin Həvari Paulun Romalılara Məktubunu oxuyarkən, ürəyində bir işıq parladı. İsanı tanımazdan əvvəl Paul, Martin kimi, son dərəcə dindar bir adam idi, Allahı razı salmaq üçün yəhudilərin bütün qanunlarına riayət etməyə səy göstərirdi. Sonra dramatik bur şəkildə İsa ilə qarşılaşdı.

Üstündən illər keçəndən sonra yazdığı Romalılara Məktubunda Paul qeyd edir ki, heç kəs öz salehliyi ilə Allahın müqəddəsliyi qarşısında dayana bilməz. Çoxlu xeyirli işlər etmiş insanlar daxil olmaqla hamımız Allahın qanununu pozmuş günahkarlarıq. Lakin İsa Məsihin şəxsində Allahın Özü günahımızın cəzasını ödədi.

Beləcə Martin kəşf etməyə başladı ki, Allah heç bir adamın özü üçün etməyə qadir ola bilməyəcəyini hər kəs üçün etdi. Allahın Məsih İsaya iman edən hər kəsə salehliyi ənam olaraq verdiyini dərk etdi.

Martinin ürəyinə elə böyük azadlıq, elə sevinc gəldi! O özünü müqəddəs etməli deyil imiş, sadəcə İsaya, ölümünə və dirilməsinə ümid bağlamalı imiş. O, Allahın lütfünün bu ənamına ömrünün sonuna qədər və əbədi olaraq inanacaq idi. Ondan sonra Şeytandan gələn məhkumiyyət, ittihamlar və rüsvaylıq olmayacaq idi, çünki Allah Martini saleh elan etdi. İsa öləndə Martinin günahının cəzasını Öz üzərinə götürmüşdü.

Üstündən neçə il keçəndən sonra Martin İsa Məsihin izzətli Müjdəsini dərk etməyə başladığı bu vaxtı belə xatırlayırdı: "...özümü yenidən doğulmuş hiss etdim, sanki açıq qapıdan cənnətə girdim".

Allah insanları yalançı təlimlərin qaranlığından həqiqət Müjdəsinin nuruna çağırmaq üçün Martin Lüterdən həyatı boyunca istifadə etdi. Rəsmi imanlılar cəmiyyəti (Kilsə) onu "bidətçi" (doğru dinə zidd olan təlimləri öyrədən) elan edib ölümlə hədələdi. Lakin Martin qorxmadı. Xəstəliklərinə və depressiyasına baxmayaraq, o, çox böyük səylə çalışdı: vəz etdi, kitablar yazdı, Müqəddəs Kitabı öz xalqının anlayacağı alman dilinə tərcümə etdi. O xilas etdiyi kimi, hər kəsin bu ruhi azadlığa qovuşmasını arzu edirdi.

Martin Lüterin çoxsaylı ardıcıllarını "islahatçılar", hərəkatını da "islahat" və ya "Reformasiya" adlandırdılar. Çox adam əziyyət çəkdi, bəziləri həqiqəti vəz etdiklərinə görə öldürüldü, amma yalnız lütflə xilas haqqındakı həyatverici Müjdə Avropada və dünyanın digər yerlərində yayıldı. Həvari Paul belə yazdı:

> *"Mən Müjdədən utanmıram, çünki o, iman edən hər kəsin... xilası üçün Allahın qüdrətidir.” (Rom. 1:16)*

Bu gün biz də Paulun və Martin Lüterin yolunu tutaraq bu gözəl Müjdəni yayaq! Allah bizə kömək olsun!

## ***Tez-tez verilən suallar***

Aşağıdakı suallar başqalarının İsa Məsihi tanıması üçün necə çalışa biləcəyimiz barədə daha dərindən düşünmək üçün faydalı olacaq.

### *1. "xilas olmaq üçün nə etməliyəm?"*

Bir adamın bizə bu sualı verməsi sevindiricidir. Müxtəlif xalqlara mənsub olan çoxlu adamlar bu sualı başqa cür verirlər: *"Cənnətə düşmək üçün nə etməliyəm?" "Günahlarımın bağışlanmasına necə nail ola bilərəm?" "Məsihçi olmaq üçün nə etmək lazımdır?"*

Bəzən daha ümumi suallar verirlər: *"Həyatın mənası varmı?" "Mən nə üçün bu dünyadayam?"* Bütün bu suallar insanların mənəvi aclığını göstərir. İnsanlar itmiş olduqlarını hiss edirlər.

Onlar ümumiyyətlə Allahla necə barışıb həyatda məqsəd tapa biləcəklərini soruşurlar. Biz İsanın ardıcılları olaraq Xoş Xəbəri anlamaqda onlara kömək etməliyik. Çoxları düşünür ki, kilsədə şam yandırmaq, qurban kəsmək, sədəqə vermək, yaxud müqəddəs bir yeri ziyarət etmək kimi dindar bir şey etmək lazımdır. Bunlardan heç biri insanı xilas etməz.

Aşağıdakı suallar və cavablar sizə insanları Xilaskar İsaya imana gətirməkdə kömək edəcək.

### *2. Bir adamın İsanı qəbul etməyə hazır olduğunu necə bilmək olar?*

Bəzən bir adam arzusuna çatmaq, ehtiyacı olan bir şeyi əldə etmək (məsələn, kirayə üçün pul, universitetdə yaxşı qiymət) və ya pis vəziyyətdən qurtulmaq üçün Rəbbin yardımına bel bağlayaraq sizinlə birlikdə dua edib tövbə etməyə razılaşır, amma tövbənin əsl mənasını anlamır. O başa düşməlidir ki, Allah onu günahlı həyatından əl çəkməyə, İsa Məsihə iman etməyə, onu bağışladığına və ona yepyeni həyatı verdiyinə inanmağa çağırır.

İnsanı tövbə etməyə məcbur edib tələsdirməyin. Dua edin ki, Müqəddəs Ruh bu adamın hazır olduğu zamanı anlamaqda sizə kömək etsin. Adamın özünü günahkar saydığını və Xilaskara ehtiyacı olduğunu dərk etməsinə dair bir əlamət olmalıdır. Ona Allahın kəlamını öyrətməyə vaxt ayırın və Müqəddəs Ruhun onun ürəyində çalışıb günahlarını ifşa etməyinə şərait yaradın. ***"50 Həyat Dərsi"***ndə "Tövbə və iman edin" başlığı altında 10 dərs vardır—bu dərslər Allahın kəlamını onlara öyrətməyinizə kömək edə bilər.

### *3. İnsanların İsanın gücü ilə yenidən doğulmasına necə kömək edə bilərəm?*

İnsanların ruhən ölü olduqlarını dərk etməliyik. Onlar Allahdan ayrı olduqlarına görə ruhən kordurlar, ruhani həqiqətləri dərk edə bilmirlər. İnsanlar təkcə bizim sözlərimiz ilə Allahın Padşahlığına daxil olmayacaqlar, yalnız Allahın Ruhunun onların ürəklərində fəal olması ilə yeni həyata qovuşacaqlar.

Bir adamla ruhani bir mövzuda mübahisə edib qalib gələ bilərik, lakin o adam özünün xilasa olan ehtiyacını dərk etməyə bilər. Yalnız Rəbb insanın gözlərini aça bilər ki, bu adam öz günahını və günahına görə canını qurban verən İsanı görə bilsin. Məhz buna görə Müjdəni yayanda dua etmək vacibdir.

Deməli, siz bir cəmiyyət olaraq yığışanda həmişə dua edin ki, itmiş olanlar xilas olsun və onlara Müjdəni bəyan etmə fürsətləriniz olsun. Allahdan onların ürəklərini açmasını və Müjdəni qəbul etməyə onları hazırlamasını diləyin. Bir də İsa haqqında danışmaq üçün sizə məhəbbət və cəsarət verməsini diləyin.

Əlbəttə, hər birimiz İsa Məsihdə olan xilası dərk etməkdə böyüməlidir, belə ki, bu xilası başqalarına düzgün izah edə bilək. Həvarilərin İşləri 2-ci fəsildə, xüsusilə 38-ci ayədə Peterin vəzi və eləcə də Paulun Efeslilərə Məktubu 2:1-10-da xilasa dair izahı üzərində düşünün. Efeslilərə Məktubdakı mətn Allahın nə etdiyini izah edir, Həvarilərin İşləri 2-ci fəsildə isə xilas olmaq üçün bizdən nəyin tələb olduğu təsvir olunur.

Allahın xilas ənamı qarşılıqsızdır, amma Peter Əllinci Gün bayramındakı vəzində xalqa öyrətdiyi kimi, Allah hər kəsi günahlarının bağışlanması üçün tövbə etməyə və İsanın adı ilə vəftiz olmağa çağırır (38-ci ayə). Bu o deməkdir ki, biz köhnə həyatımızdan və günahdan əl çəkərək vəftizin işarə etdiyi Məsihin qurbanına tam ümid bağlamalıyıq. Günahlarımıza görə ölmüş İsa beləcə bizim Rəbbimiz və Xilaskarımız olur.

İsaya ümid bağlayan hər kəs Allahın ailəsinə "doğulur", yeni yaradılış olur. Allahın bizə lütf ilə verdiyi, yəni qarşılıqsız olaraq hədiyyə etdiyi Məsihin salehliyini qəbul edirik. Biz buna öz yaxşı əməllərimizlə nail olmuruq, amma Allaha güvənərək qəbul edirik. Siz özünüz bunları bilməlisiniz və Müjdəni yayanda insanlara bunları izah etməlisiniz.

### *4. İsanı insanlara tanıtmaq üçün praktiki məsləhətlər verə bilərsiniz?*

1) İsanı insanlara tanıtmaq üçün **Onun həyatından hekayələri danışın**. Yaxud İncili açıb hekayələri birlikdə oxumaq olar. Hər hekayədə İsanın səlahiyyəti, ilahi qüdrəti, xeyirxahlığı və mərhəmətinin bir tərəfi göstərilir. İsanın həyatı və təlimlərini insanlarla birlikdə öyrənməkdə ***50 Həyat Dərsi*** kimi bir kitab da sizə faydalı ola bilər. Onlara Müqəddəs Kitabı verin ki, evdə oxuyub İsa haqqında öyrənsinlər.
2) Yaxud Müqəddəs Kitabın birinci "Yaradılış"dan başlaya bilərsiniz. Yaradılış hekayəsini oxuyun və ya danışın. Yaxud ***Qədim Müqəddəs Yazılardan Yaradılış Kitabı üzrə Dərslər***-dən istifadə edə bilərsiniz. İnsanın Allahın surətində yarandığını onlara göstərin. Ondan sonra Adəm və Həvvanın günaha batması nəticəsində Allahla münasibətlərinin necə pozulduğunu göstərin (Yaradılış 1-3). Bu, onların Xilaskara olan ehtiyacını izah etmək üçün zəmin yaradır.
3) Onlara Zəbur Kitabını verin. Bu kitabdakı gözəl və səmimi duaları onlarla birlikdə oxuyun və onlara öyrədin ki, onlar Məsih vasitəsilə Allahla dostluq münasibətində ola bilər və hər şey haqqında söhbət edə bilərlər.
4) Əgər mümkünsə, *İsa*, *Məryəm* və *Ümid* filmlərini onlara göstərin və Müqəddəs Kitabın audioyazılarından istifadə edin. Oxumağı sevənlərə Məsihə iman gətirən adamlar haqqında maraqlı kitablar verin.

   (Burada sözü gedən bütün kitab və videoların endirilməsi barədə məlumatı Əlavə A, "Vəsaitlər"də tapmaq olar.)
5) İnsanları İsaya gətirmək üçün ən təsiredici yollardan biri, İsaya necə iman gətirdiyiniz haqqında ***öz hekayənizi anlatmaqdır***. İsanın qaranlıq həyatınıza necə nur saçdığından onlara danışın.

***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

***Tətbiq və dua***

1. Ev cəmiyyətinizdə özünü məsihçi adlandıran hər kəsdən İncilin öyrətdiyi təlimə əsasən xilası necə anladığını danışmasını xahiş edin. Onlara diqqətlə qulaq asın və Müjdəni necə anladıqlarını müəyyən edin. Martin Lüterin hekayəsində gördüyümüz kimi, Allahın lütfü ilə, İsanın günahlarımıza görə verdiyi qurbana iman vasitəsilə xilas olduğumuzu anlayırlarmı, yoxsa xilas olmaq üçün öz salehliklərinə ümid bağlayırlar?
2. Gələcək həftələrdə ev cəmiyyətinizin toplantılarında xilas haqqında bu mətnləri oxuyub öyrənin:
   - **Luka 18:9-14:** Allahın günahkarlara qarşı mərhəməti haqqında İsanın danışdığı bu məsəl ***50 Həyat Dərsi***-nin 3-cü dərsində öyrədilir.
   - **Qalatiyalılara 2:11-21:** Burada Həvari Paul əməllərimizlə deyil, İsaya imanla xilas olduğumuzu izah edir.
   - **Həvarilərin İşləri 2:29-41:** Burada Həvari Peter Yerusəlimdəki yəhudilərə günahdan necə xilas ola biləcəklərini öyrədir.
3. Toplantıda iştirak edən imanlılar İsaya necə iman gətirdiklərini anlatsınlar. Onlara başa salın ki, onların öz şəhadətlikləri imansızlarla Müjdəni bölüşməkdə çox təsirli ola bilər.
4. Öz cəmiyyətinizdə tez-tez dua edin ki, hər biriniz imansızlarla Müjdəni bölüşmək üçün Müqəddəs Ruhun qüvvəti ilə dolsun. Qrupunuzdakı adamların tanıdığı, Müjdəni eşitməyə ehtiyacı olan konkret insanlara (ailə üzvlərinə, dostlarına və s.) görə dua edin. Qrupunuzdakı adamların bu imansızlarla Müjdəni necə bölüşə biləcəklərindən danışın. Müjdəni ölkənizin başqa şəhərlərinə (və digər yaşayış məntəqələrinə) necə yaya biləcəyinizi müzakirə edin.
5. Müjdəni yaymaq üçün öz dilinizdə hansı vəsaitlərdən istifadə edə biləcəyinizi araşdırın. Məsələn, *İsa*, *Məryəm*, *Ümid* filmləri, Müqəddəs Kitabın audio versiyaları, İncil Kitabı və s. Bunları haradan tapmaq olar? Sizdə bunların yetərli miqdarı varmı? Müqəddəs Kitabın (və digər materialların) rəqəmsal versiyalarını telefona endirməkdə insanlara yardım edə bilərsiniz? Sizin qrupunuzdakı imanlılar imansızlarla söhbət edəndə bu vəsaitlərdən istifadə edirlərmi? (Təkliflər üçün bax: Əlavə A, "Vəsaitlər".)

## 5. Ev cəmiyyətində vəftiz

(İmanlılar cəmiyyətinin əsasının qoyulduğu Əllinci Gün bayramında Peterin vəzinin son sözləri)—

***«...Ona görə də qoy bütün İsrail xalqı möhkəm bilsin ki, Allah sizin çarmıxa çəkdiyiniz bu İsanı həm Rəbb, həm də Məsih təyin etmişdir».***

***Bu sözlər ona qulaq asanların ürəyinə ox kimi sancıldı. Onlar həm Peterdən, həm də o biri həvarilərdən soruşdular: «Qardaşlar, bəs biz nə edək?»***

***Peter onlara cavab verdi: «Tövbə edin, hamınız İsa Məsihin adı ilə vəftiz olun. Onda günahlarınız bağışlanacaq və bəxşiş olaraq Müqəddəs Ruhu alacaqsınız. Çünki bu vəd siz, övladlarınız, uzaqdakıların hamısı – Allahımız Rəbbin çağırdığı hər kəs üçündür».***

***Peter başqa çox söz deyib onlara xəbərdarlıq etdi və yalvardı: «Bu əyri nəsildən xilas olun». Onun sözünü qəbul edənlər vəftiz oldular. O gün üç min nəfərə yaxın insan imanlılara qoşuldu. (Həvarilərin İşləri 2:36-41)***

***Giriş***

## Vəftiz yeni həyat verir

Ev cəmiyyətində vəftiz günü isti gündə sərin bir bulaq kimidir. Vəftiz mərasiminə gələn hər kəsə yeni həyat və güc verməyə qadirdir.

Birincisi, o gün vəftiz olan hər kəsin insanlar qarşısında İsa Məsihdən utanmadığını bəyan etdiyi xüsusi gün olaraq ömrünün sonunadək yadında qalacaq. Onlar əvvəlki günahlı həyatlarından əl çəkdiklərini və onların günahlarına görə canını qurban verən Məsihə iman etdiklərini vəftiz vasitəsilə göstərirlər. Sudan çıxanda Məsihin dirilmə gücündə yaşamağa özlərini həsr edirlər.

İkincisi, vəftiz mərasimi artıq vəftiz olmuş imanlıların ürəklərini ruhən təzələyir. Hər kəs öz həyatı barədə düşünür və Məsihə olan məhəbbətini təzələyir. Kimisi Allaha və insanlara olan məhəbbəti soyuduğuna görə sakitcə tövbə edəcək. Kimisi vəftizin mənasını yada salıb hər gün Məsihin dirilmə həyatı ilə yaşamaq üçün Müqəddəs Ruhdan qüvvət alır.

Hələ vəftiz olmamış imanlılara isə Müqəddəs Ruh İsanın vəftiz əmrini xatırladır, bu əmrə tabe olmağa çağırır.

Və nəhayət, mərasimdə iştirak edən imansızlar (məsələn, vəftiz olanların qohumları və ya dostları) əbədi olan şeyləri düşünməyə başlayırlar. Müqəddəs Ruhun qüvvətini hiss edirlər. İsanın ölümü və dirilməsinin rəmzi olan bu mərasimi görəndə, ürəklərinə tövbə və iman toxumları səpilir.

İsa hər ardıcıllarının vəftiz olmasını əmr etdi. Vəftizdə baş verən hər şeyi başa düşməyə bilərik, çünki Allahın Müqəddəs Ruhu hər ürəkdə gizli şəkildə işləyir. Lakin İsanın əmrinə tabe olan cəmiyyətə xeyir-dua verəcəyini gözləmək olar.

## Vəftizin mənası nədir?

**Başlanğıc müzakirəsi:** Vəftiz olduğunuz gündən danışın. O gün vəftiz sizin üçün nə ifadə edirdi? İndi vəftiz sizin üçün nə ifadə edir?

**Romalılara 6:1-14-ü birlikdə oxuyun.**

1. Şeytan günaha məğlub vəziyyətdə yaşamağımızı istəyir. Bunu anlayan Paul istəyirdi ki, biz İsa Məsihin sözünə əsasən vəftiz olanda nə baş verdiyini anlayaq. 1-4-cü ayələrdə o vəftiz zamanı baş verən iki mühüm hadisədən bəhs edir. Bu iki hadisə nədir?
2. 5-7-ci ayələri təkrar birlikdə oxuyun. Köhnə mənliyin Məsihlə çarmıxa çəkilməsinin nəticəsi nədir? (a. 6-7)

   Ümumiyyətlə, sizcə imanlılar günahın gücünün onların həyatında məğlub edildiyinə əmin ola bilərmi? Əgər cavabı "xeyr" isə, onların əmin olması üçün nə lazımdır?
3. Paul 8-ci ayədə yenə deyir ki, Məsihə vəftizimiz o deməkdir ki, **biz Onunla birlikdə öldük**, sonra **Onunla birlikdə dirildik.** 8-10-cu ayələri təkrar oxuyun, Məsihin ölümü və dirilməsinin məqsədini təkrar nəzərdən keçirin.
4. 11-ci ayədə Paul bizə deyir ki, biz özümüzü Məsih İsada olaraq günaha münasibətdə ölü, Allaha münasibətdə isə diri saymalıyıq. Sizcə, o nə nəzərdə tutur?
5. Paulun günahın bizim fani bədənimizə hökmranlıq etməsinə yol verməməyi və bədənimizin ehtiraslarına itaət etməməyi buyurduqda nə nəzərdə tutduğunu izah edin. (12-ci ayə)

   Çoxumuz heç vaxt sınağa çəkilməməyi arzu edərdik. Fikir verin ki, Paul bizim artıq sınaqdan azad olduğumuzu **demir**. Lakin o deyir ki, Məsihdə yeni həyata malik olduğumuza görə şərə "**yox" deməyə qadirik** və buna görə məsuliyyət daşıyırıq.
6. Şərə "yox" deməklə kifayətlənməməliyik, həmçinin Allaha "bəli" deməliyik. Paul 13-cü və 14-cü ayələrdə bu "bəli" cavabımızı necə təsvir edir?

   Yəh. 10:10-da İsa şagirdlərinə belə dedi: "Oğru yalnız qarət etmək, öldürmək və tələf etmək üçün gəlir. Mənsə gəldim ki, onlar həyata, bol həyata malik olsun”.

Biz öz bədənimizi salehlik aləti olmaq üçün Allaha təslim etdikdə, bu bizə necə bol həyat və sevinc verir?

7. Ev cəmiyyətinizdə hələ vəftiz olmamış imanlılar varmı? Siz bir rəhbər olaraq onlara İsa Məsihin vəftiz olmaq əmrini öyrətdinizmi? (Bu fəslin sonunda "Tətbiq və dua" bölməsinə baxın.)

**Dua ilə bitirin:** Vəftizin rəmzlərini—günahlı təbiətimizə münasibətdə ölüb və Məsihdə yeni həyata dirilməyimizi daha dərindən qavramaq üçün dua edin.

***Məsihçi tarixindən bir hekayə***

***Orta Asiya, XXI əsr***

## Pasxa bayramında coşqulu vəftiz mərasimi

O səhər kiçik ev cəmiyyəti ibadət toplantısına həvəslə başlamışdı. O gün Pasxa bayramı idi və məsihçilər İsa Məsihin ölümdən dirilməsini qeyd edirdilər! Toplantı, Məryəm və Sara adında iki subay bacının evində keçirdi.

O səhər bu bacıların yaşlı anası da toplantıda iştirak edirdi. Bir neçə il boyunca Müjdəni eşidən qadın sakit xasiyyətli idi və ürəyində getdikcə böyüyən imandan öz qızlarına danışmamışdı. Toplantıdan sonra yaşlı qadın, iki qızı ilə birlikdə mətbəxdə çay dəmləyərkən dilə gəldi.

"Bu səhər vəftiz olmaq istəyirəm", dedi.  Məryəm və Sara təəccüblə baxışdılar. Anaları ilə söhbət etdilər, Müjdəni düz başa düşdüyünə və həqiqətən iman etdiyinə əmin oldular. Amma Sara ona başqa bir gün vəftiz olmağı təklif etdi.

Lakin anası belə cavab verdi: "Yox, mən bütün ürəyimlə İsaya iman edirəm və bu gün vəftiz olmaq istəyirəm".

Analarının vəftizi düz başa düşdüyünü və gözləməyin mənası olmadığını bilən bacılar qonaq otağına qayıdıb onun qərarını qrupa bildirdilər. Hamı sevindi.

Lakin bir məsələ var idi. Məryəm dedi: "Anamız çox yaşlıdır, suya girə bilməz. Heç vaxt suda üzməyib. Hətta vannada başını suyun altına salmaqdan qorxur".

Sara əlavə etdi: "Bir də evimizdə vanna yoxdur. Düzünə qalsa, heç bu qədər suyumuz da yoxdur, çünki binamıza bu gün su vermədilər. Bəs nə edək?"

İmanlılar məsələni müzakirə etdilər. İmanlını xilas edən nədir: vəftiz, yoxsa imanla qəbul etdiyi Məsihin lütfü? Hamı razılaşdı ki, Müqəddəs Kitab vəftizin insanı xilas etdiyini öyrətmir.

Bir nəfər soruşdu: "Bəs suyun çox az olduğu səhra kimi yerlərdə imanlılar nə edirlər? Suya girmək üçün yetərli miqdarda suları olmadığına görə İsanın vəftiz olmaq əmrinə əməl etmirlərmi?" Bu suallar imanlılar cəmiyyətini əsrlər boyunca narahat etdi və indi bu kiçik ev cəmiyyəti də bu sualların cavabını tapmağa cəhd edirdi.

Rəhbərlərdən biri Eldar dedi: "Gəlin birlikdə düşünək. Vəftiz zamanı nə baş verir?"

O susdu və hər kəs bu sual barədə düşündü. Sonra Eldar danışdı: “Məncə, hər vəftiz mərasimində bir neçə şey baş verir və bu gün bizim cəmiyyətimizdə də bunlar baş verir. Birincisi, vəftiz ananızın İsaya itaət etməsinə imkan yaradır. Biz sevinməliyik, çünki o, İsaya təkcə ağlı ilə iman etməyib. O, İsanın ‘Əgər Məni sevirsinizsə, əmrlərimə riayət edəcəksiniz’ sözünü bilir və bu gündən etibarən İsanın dediyinə riayət etməyə başlayır. Buna mane olmamalıyıq!

“İkincisi, müsəlman olaraq böyüyən bu qadın İsanın şagirdi olaraq adlanmaqdan utanmadığını deyir. Bu, xüsusilə onun yaşında bir şəxs üçün, çox böyük bir addımdır.

“O biz imanlılara və bütün dünyadakı imanlılar cəmiyyətinə bağlı olduğunu açıq deyir. Biz onun həqiqi imanlı olub-olmadığını bu gündən öncə bilmədik. Vəftiz olmaq istəməsi onun həqiqətən iman etdiyini göstərir".

Axırda Eldar belə dedi: "Həm də bu gün Pasxa bayramıdır və belə bir gündə vəftiz olması ona həmişə xatırladacaq ki, o, Məsihlə birlikdə öldü və dirilməsində Onunla birləşdi".

Eldar sözünü bitirdikdə, qrup yaşlı qadını vəftiz etməyə hazır idi. Amma necə?

Yenə Eldar danışdı: "Mən, sözsüz, onu suya salmaqla vəftiz etmək istərdim. Amma bu vəziyyətdə təklif edirəm ki, hamamda bir stul qoy-aq, xanım orada otursun və mən onun başının üstünə bir bardaq su töküm".

"Necə?" dedi Məryəm. "Anamız hamamda ikən, geyinmiş halda belə, bir kişinin oraya daxil olmasına əsla razı olmaz!"

Eldar bir az susdu, sonra dedi: "Yaxşı, qonaq otağında onunla söhbət edək, o, suallarımıza cavab versin və bütün qrupun qarşısında şəhadət-lik etsin, sonra qadınlar hamama gedib onu vəftiz etsinlər".

Qadınlar yenə etiraz etdilər. "Aramızda rəsmi xidmətçi yoxdur. Bir də ki, Müqəddəs Kitabda qadınlara vəftiz etmək səlahiyyətini verən ayə varmı?"

Eldar cavab verdi: "Mən də rəsmi xidmətçi deyiləm, amma ev cəmiyyətinin rəhbəriyəm! Müqəddəs Kitabda kimlərin vəftiz etmək səlahiyyətinə malik olduğu harada yazılıb? Mənim fikrimcə, İncilin təliminə görə, əsas o deyil ki, KİM ananızı vəftiz edəcək, lakin əsas

odur ki, o KİMİN ADI İLƏ vəftiz olacaq! Bu hamımız üçün ən önəmlidir!"

Bir neçə dəqiqə sonra bacıların anası qonaq otağında bütün qrupa öz imanından danışıb şəhadətlik edirdi. Sonra qadınlar hamamda yığışdılar və stulda oturmuş qadını vəftiz etdilər. "Səni Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz edirik..." dedilər.

Yaşlı qadının saçından və üzündən axan su göz yaşlarına qarışdı, gözləri sevincdən parıldadı. "Sənə minnətdaram, İsa!" deyə pıçıldadı.

## *Tez-tez verilən suallar*

### *1. Bir adam tövbə etdikdən nə qədər müddət sonra vəftiz olmalıdır?*

İlk əvvəl İsanın təlimlərinə və həvarilərin nümunəsinə baxmaq lazımdır. İsa ardınca gələn hər kəsin vəftiz olmasını əmr etdi. (Bax: Mat. 28:18-20; Mark 16:15,16)

İsa Atanın yanına qayıtdıqdan sonra, həvarilər tövbə edib Məsihə iman etmiş adamları dərhal vəftiz edirdi. Həvarilər vəftizə kamil imanlıların "məzuniyyət mərasimi" gözü ilə baxmırdılar. Onlar bilirdi ki, vəftiz, Məsihin günahkarları tövbəyə çağırdığı yerdir. Yeni imanlılar, Allahın lütfünə ümid bağlayan günahkarlar olaraq suya girirdilər. Vəftiz, onların Məsihdə yeni həyatlarında ilk addımlarından biri idi.

Məsihçilərin təqib olunduğu ölkələrdə cəmiyyətlər adətən yeni adamın əsl imanlı olduğuna əmin olmaq üçün bir müddət gözləyirlər. Bir casusun yalandan vəftiz olub polisə xəbər verməsini istəmirlər. Belə vəziyyətlərdə ehtiyatlı olmaq vacibdir. Eyni zamanda əsl imanlıların vəftiz olmalarına mane olmaq olmaz.

Bəzi qruplarda yeni imanlılar vəftizi bir ildən çox gözləyirlər. Bu müddət ərzində onlar Müqəddəs Yazını öyrənirlər. Rəhbərlər inanırlar ki, yeni imanlılar həqiqətən iman etdiklərini əməldə göstərməlidirlər. Maraqlıdır ki, həvarilər bunu etmədilər və İsa bunu öyrətmədi.

Həvarilərin İşləri kitabından bir neçə misalı nəzərdən keçirək. İmana gələnlərin nə qədər tez vəftiz edildiklərinə fikir verin:

- **Həv. 2:41:** Əllinci Gün bayramında 3000 nəfər Peterin vəzini eşidib İsaya iman gətirdi və vəftiz oldu.
- **Həv. 8:36-38:** Filip Həbəşli hərəmağasını vəftiz etdi.
- **Həv. 10:44-48:** Kornelinin ev əhli vəftiz oldu.
- **Həv. 16:22-34:** Filipidəki zindanın baş mühafizəçisi və ev əhli vəftiz oldular.

Bu əhvalatların hamısında (və Həvarilərin İşlərindəki belə əhvalatlar çoxdur) Müjdəni qəbul edib tövbə və iman edən adamlar dərhal vəftiz olurdu. Hətta imanlılar cəmiyyətini təqib etmiş Tarsuslu Şaul belə, tövbə edəndən bir neçə gün sonra vəftiz oldu. Xananya ona

> *"İndi nə gözləyirsən? Qalx, vəftiz ol və Onun adını çağıraraq günahlarını yu" dedi (Həv. 22:16).*

### *2. Yeni imanlılar vəftiz olmazdan əvvəl onlara bir növ təlim vermək lazım deyilmi?*

Yeni imanlıların vəftizin nə məna verdiyini dərk etməsi vacibdir. Onlara Allahın kəlamında vəftiz haqqındakı mətnləri göstərmək lazımdır. Ancaq bu təlim aylarla davam etməməlidir. Adətən vəftiz haqqında bir neçə dərs yetərlidir. ***İsa Məsihin həyatından "50 Həyat Dərsi"*** kitabında su ilə vəftiz haqqında 2 dərs və Müqəddəs Ruhun ənamı haqqında 3 dərs vardır.

### *3. Vəftizi necə təşkil etməliyik?*

Vəftizin dəniz, çay, göl sahilində ya da vannada olmasından asılı olmayaraq, yaxşı təşkil olunması faydalıdır. Vəftiz olacaq şəxslərə əlavə paltar və dəsmal gətirməyi yada salın. Yeni imanlıya onu necə vəftiz edəcəyinizi əvvəlcədən göstərmək, suya necə girib çıxacağını izah etmək yaxşı olar. Ancaq İncildə vəftizin qaydası ətraflı təsvir olunmur, yalnız Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz etmək əmr olunur. Buna görə müxtəlif imanlılar cəmiyyətlərinin vəftiz mərasimləri bir-birindən fərqlənir.

Adətən yeni imanlının Məsihə iman etdiyini insanların qarşısında elan etməsinə imkan verilir. Matta 10:32-də İsa belə dedi: *"İnsanlar qarşısında Məni iqrar edən hər kəsi Mən də göylərdə olan Atamın qarşısında iqrar edəcəyəm"*. Siz vəftiz olacaq şəxslərdən İsaya necə iman etdiklərini qrupla bölüşmələrini xahiş edə bilərsiniz. Həmçinin bütün qrupun hüzurunda bu kimi sadə sualları verə bilərsiniz:

- Günahkar olduğunuzu və Allahın xilasına ehtiyacınız olduğunu qəbul edirsinizmi?
- İsa Məsihin Allahın dünyaya göndərdiyi Xilaskar olduğuna inanırsınızmı? Sizin uğrunuzda çarmıxa çəkildiyinə inanırsınızmı?
- Günahlarınızın bağışlanmasına və əbədi həyata nail olmaq üçün yalnız Ona ümid bağlayırsınızmı?

Vəftizdən sonra Rəbbin Süfrəsini birlikdə qəbul etmək (bax: 9-cu Fəsil) və vəftiz olmuş şəxslərə görə bir qrup olaraq birlikdə dua etmək yaxşı olar.

## ***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

### *Tətbiq və dua*

1. Siz ev qrupunuzda heç vəftiz haqqında təlim öyrətmisinizmi? Ev cəmiyyətinizdəki adamlar vəftizin mənasını anlayırlarmı? Anlamırlarsa, vəftiz haqqındakı bu dərsi bütün qrupunuzla birlikdə keçə bilərsiniz.

   İncildə su ilə vəftizdən və Müqəddəs Ruhla vəftizdən çox vaxt birlikdə bəhs olunur. Vəftizçi Yəhya belə dedi:

   > *Mən sizi su ilə vəftiz edirəm, amma məndən daha Qüdrətlisi gəlir. Mən Onun çarıqlarının bağını açmağa belə, layiq deyiləm. O sizi Müqəddəs Ruhla və odla vəftiz edəcək. (Luka 3:16)*

   Yeni imanlıları vəftiz etdikdə və vəftizdən sonra onlar üçün dua etdikdə onlara başa salın ki, Müqəddəs Ruhun hüzuru və qüdrəti artıq onlara verilib. Yuxarıda dediyimiz kimi, ***İsa Məsihin həyatından "50 Həyat Dərsi"*** kitabında su ilə vəftiz haqqında 2 dərs və Müqəddəs Ruh haqqında 3 dərs vardır.
2. Sizin ev cəmiyyətinizdə vəftiz olmağa hazır olan imanlılar varmı? Bir cəmiyyət olaraq onları vəftizə hazırlamaq üçün nə edə bilərsiniz?
3. Vəftiz vasitəsilə qrupunuzun ruhən təzələnməsi üçün dua edin.

# 6. Ruhda və həqiqətdə birlikdə ibadət etmək

***Beləliklə, ey qardaşlar, Allahın mərhəməti xatirinə sizə yalvarıram ki, bədənlərinizi diri, müqəddəs və Allahı razı salan bir qurban olaraq Ona təqdim edin; bu sizin ağılla etdiyiniz ibadətdir. (Romalılara 12:1)***

## ***Giriş***

### Əsl ibadət: özümüzü Allaha həsr etmək

Allah hər insanı ibadət üçün yaratdı. Buna görə dünyanın hər yerində olan hər bir insan bir şəkildə kiməsə və ya nəyəsə ibadət edir. Kainatı yaradan Allaha ibadət etməyən hər kəs mütləq Allahın yaratdığı bir şeyə ibadət edəcək. Çoxları özlərinə ibadət edir və öz xoşbəxtliklərini axtarırlar. Allahın Özündən başqa kiməsə və ya nəyəsə ibadət etmək bütpərəstlikdir.

Allahın kəlamı öyrədir ki, insan nəyə baxırsa (ibadət edirsə), ona bənzəməyə başlayır (Zəb. 115:4-8). Günaha batmış dünyaya ümid bağlasaq, bu bizə ölüm gətirəcək. İsanı həyatımızın mərkəzinə qoysaq, Onu sevsək, Ona ibadət etsək, get-gedə Ona bənzəyəcəyik. Ürəyimiz sevinc və sülhlə dolacaq və biz əsl həyatı dadacağıq.

Oxumağa davam etməzdən əvvəl, bu sualı müzakirə edin: Allaha həqiqətən ibadət etmək nə deməkdir?

Bu fəsildə biz, Müqəddəs Kitabın qrupda və fərdi şəkildə Allaha ibadət etmək haqqında nə öyrətdiyini nəzərdən keçirəcəyik. İbadətin dini mərasimlərdən və ilahi oxumaqdan qat-qat üstün olduğunu görəcəyik. Əslində, Müqəddəs Kitabda insanlar çox vaxt musiqisiz ibadət edirdi. İbadət onların ürəklərindən gəlirdi – onlar Allahın Özünə və uca işlərinə görə şükür edirdi. Əhdi-Ətiqdə ibadət tez-tez heyvanı qurban gətirməklə müşayiət olunurdu. İsanın ölümü və dirilməsindən sonra davamçıları Ona həmd qurbanı təqdim edərək onların günahlarına görə Özünü qurban verən Xilaskara şükür edir. (Bax İbr. 13:15.)

İmanlılar həftədə bir dəfə toplantıda ibadət etməklə kifayətlənmir, hər gün ibadət edir. Onlar toplantıda ilahi oxuyanda, iş yerlərində çalışanda ya da avtobusda yol gedəndə, Müqəddəs Ruh onlara ibadətdə öz həyatlarını hər gün Allaha təqdim etməkdə kömək edir (Bax: Rom. 12:1). Onlar Allahı öz həyatlarında birinci yerdə tutmaqla və İsanın öyrətdiyi kimi bütün ürəkləri, varlıqları, düşüncələri və gücləri ilə Onu sevməklə ibadət edirlər.

Yəhya 4-cü fəsildə İsa samariyalı qadına deyir ki, Ata ruhda və həqiqətdə ibadət edənlər axtarır. Ruhda və həqiqətdə ibadət etməyi öyrənmək, ev cəmiyyətlərimizdə yığışanda edə biləcəyimiz ən mühüm şeylərdən biridir. Sonrakı səhifələrdə bunun mənasından daha ətraflı danışacağıq.

Allah hər şeydən çox ürəyimizdən gələn ibadəti istəyir. Biz gündən-günə özümüzü Ona həsr etdikcə həqiqi ibadəti öyrənir və Onunla dost kimi ünsiyyət qurmaqdan zövq alırıq.

***<u>Müqəddəs Kitab Dərsi</u>***

## Həqiqi ibadətin açarı: Şükür etməyi yadda saxlamaq

**Başlanğıc müzakirəsi:** Zəb. 50:23-dəki bu sözlərin mənası nədir?

> *Kim ki şükür qurbanı təqdim edir, Məni şərəfləndirir. Doğru yol tutan şəxsə Allahın xilasını göstərəcəyəm.*

Şükür etmək, həqiqi ibadətin mühüm bir cəhətidir. Bu həqiqəti öyrədən iki mətni nəzərdən keçirək.

**Luka 17:11-19-u oxuyun**

1. Neçə nəfər cüzamlı kişi İsaya fəryad etdi? (a. 12) Onlar İsaya nə dedilər? (a. 13)

   QEYD: İsa Məsihin dövründə olan mədəniyyəti dərk etməyə çalışaq. Cüzam qorxunc bir xəstəlik idi. İndiyə kimi cüzamdan əziyyət çəkən adamlar var. Ancaq bu xəstəliyin fiziki cəhətindən əlavə cüzamlının cəmiyyət tərəfindən rədd edilməsi kimi əzablı bir cəhəti də var idi. Onların insanlara yaxınlaşması qəti qadağan idi (12-ci ayədəki "uzaqda durub" sözlərinə diqqət yetirin). Onlar yol gedərkən "Natəmiz! Natəmiz!" deyə uca səslə elan etməli idilər ki, heç kəs onlara yaxınlaşmasın. Cüzamlılar rədd olunmuş və ümidsiz adamlar idi.

2. Əhdi-Ətiqdə cüzamlıların şəfa tapması haqqında hekayələr vardır. Musanın Qanunu tələb edirdi ki, cüzamdan şəfa tapan hər kəs kahinin yanına getsin, kahin tərəfindən yoxlansın və kahin onun həqiqətən şəfa tapdığını təsdiqləsin. Bu gün insan sağalmış olduğunu təsdiqlətmək üçün həkimə getdiyi kimi, o vaxt kahinin yanına getməli idi.

   İsa o cüzamlı kişilərə nə buyurdu? (a. 14) Onlar gedəndə nə baş verdi?

   Unutmayın ki, onlar təkcə fiziki şəfa tapmadılar, rədd edilmiş həyatları sona çatdı. Artıq insanlar onları qucaqlayıb öpə bilirdi! Onlar qonaq gedə bilirdi! İnsanlar onlarla xoş danışa bilirdi.

3. On cüzamlının hər biri eyni şəkildə şəfa tapdımı?

   Samariyalı cüzamlı nə etdi? (a. 15-16)

QEYD: Samariyalıların inancı yəhudilərin inancından fərqli idi. Onların Allah haqqında olan təlimləri qarışıq idi, yəhudilərin təlimi kimi aydın deyil idi.

4. 17-18-ci ayələri oxuyun. Digər doqquz nəfər nə etdi?

   Göründüyü kimi, o doqquz nəfər yəhudi idi. Yəqin ki, onlar Allaha hörmət etməyi və bütün nemətlərinə görə Ona şükür etməyi Tövratdan öyrəndilər. Lakin onlar Allaha etinasız yanaşdılar, şəfaya görə Onu izzətləndirmədilər. Sizcə, qayıdıb İsaya şükür etmək onların ağlına hansı səbəbdən gəlməmişdi?

**103-cü məzmuru oxuyun**

5. 1-2-ci ayələrdə Davud öz-özünə nə deyir?
6. 3-5-ci ayələrdə Davud 6 ayrı şeyə görə Allaha şükür edir. Bu ayələri bir neçə dəfə oxuduqdan sonra Müqəddəs Kitabı bağlayıb onları əzbərdən söyləyə bilərsiniz?
7. Siz də bu ayələrdə sadalanan xeyir-duaları öz həyatınızda yaşamısınızmı?

   Rəbbin bu böyük xeyir-dualarını düşünün. 3-5-ci ayələrdə sadalanan bəzi yaxşılıqları öz həyatınızda gördüyünüz konkret vaxtları düşünün. Bunlar barədə qrupunuzdakı adamlarla söhbət edə bilərsiniz?
8. Yaşadıqca Allahın doğrudan necə olduğunu daha yaxşı dərk edirik.

   6-14-cü ayələri təkrar oxuyun. Bu ayələr Allahın xasiyyətini daha yaxşı dərk etməkdə sizə necə kömək edir?

   Sizdə elə vaxtlar olur ki, bol xeyir-dualarına görə Allaha şükür etmək üçün telefonunuzu söndürüb sakit bir otağa (yaxud parkda gəzməyə) gedirsiniz? Ona yalnız ev cəmiyyətinizdə ibadət edirsiniz, yoxsa təklikdə Ona şükür edib izzətləndirməkdən zövq alırsınız?

**Dua ilə bitirin:** Bu dərsin sonunda Allahın sizə verdiyi xeyir-dualara görə Ona çoxlu şükür edin. 103-cü məzmuru açıq saxlaya bilərsiniz. Onu yavaş-yavaş oxumaq, İsanın Özünə görə və sizin üçün etdiyi çoxlu yaxşılıqlara görə Ona şükür etmək üçün (bir nəfər cüzamlı kişi kimi) Ona qayıtmağı unutmamaqda sizə kömək edə bilər.

## Çətin vaxtlarda Allaha ibadət etmək barədə üç hekayə

### *Çin, XX əsr*

1990-cı ildə buraxılmış "Çinin fəryadı" ("China Cry") filmi, Məsihə iman gətirmiş Nora Lam adlı çinli bir qadının hekayəsidir. O dövrdə Çində məsihçilər şiddətlə təqib olunur. Ateist dövlət, Allaha iman edənləri amansızcasına cəzalandırır. Bu filmdə təsiredici bir səhnə var: bir yerdə gizlin toplaşan məsihçilər Allaha həmd ilahisi oxumağa başlayırlar.

Pastor hansı mahnı oxuyacaqlarını söyləyir və dirijor kimi əlini hərəkət etdirərək onlara rəhbərlik edir. Bu kiçik toplantıda hamı sevinclə ilahi oxumağa başlayır, üzləri nur saçır, amma... səs yoxdur! Musiqi alətləri çalınmır. Yalnız imanlıların dodaqları tərpənir... səssizlikdə. Cəmiyyət qonşulardan və yaxındakı polisdən ehtiyatlanmağa məcburdur. Bu təqib olunan çinli məsihçilər bir ürəkdən ibadət etməyin əsl mənasını göstərirlər.

***

### *Hindistan, XX əsr*

Keçən əsrin ortalarında müjdəçi olaraq xidmət etmək məqsədilə Hindistanın şimalında məskunlaşan gənc bir qadın, 7 yaşlı qızını dağlara aparırdı. Qız hər il doqquz ay orada qalıb məktəbdə oxuyacaq idi. O vaxt orada bir qız uşağının təhsil alması üçün başqa imkanlar yox idi. Yolda qadın, "Balaca qızım ailəsindən uzaqda necə qalacaq? Onu necə qoyub gedə bilərəm?" deyib acı-acı ağlayırdı.

O zaman Rəbb, İbrahimin İshaqı qurban verməyə gedəndə nökərlərinə dediyi sözü bu qadının yadına saldı: «Mən uşaqla oraya gedəcəyəm. Səcdə edib, yanınıza qayıdarıq» (Yar. 22:5) İbrahim oğlunu təqdim etdiyi kimi, bu qadın da balaca qızını Allahın xidməti yolunda orada qoymalı idi. Bu da onun ibadəti, səcdəsi, Allaha məhəbbət göstərmək üçün verdiyi qurban idi. O, ürəyində əziz balasını Allaha qurban vermişdi. Birdən ürəyi sevinc və sülh ilə doldu.

Aradan illər keçəndən sonra o qız Hindistana qayıdıb Allah yolunda müjdələmə xidmətinə başladı.

***

## *Qədim Filipi şəhəri, I əsr*

Üçüncü hekayəmizdə biz I əsrə qayıdıb Allahın qüvvətli şəkildə gəlməyinə səbəb olmuş bir ibadəti yada salacağıq. İbadət edən adamlar son dərəcə çətin vəziyyətdə idi. O gün İsaya iman etdiklərinə görə döyülmüş, zəncirlərlə bağlanaraq həbsə atılmışdılar, lakin ürəkdən dua edib ilahi oxudular və digər məhbuslar bunu eşitdikləri kimi, Allah da eşitdi. İnanılmaz bir möcüzə baş verdi:

> *Birdən elə güclü zəlzələ oldu ki, zindanın təməli belə, yerindən oynadı. Bir andaca bütün qapılar açıldı, hamının zəncirləri töküldüş.*

Bu hekayə, yəqin ki, sizə tanışdır – Paul və Silanın Filipi zindanında olması hekayəsi. Döyülmüş, zəncirlərlə bağlanmış bu adamların ağrı içində ürəkdən Allaha ibadət etməsi, dünyanın hər yerində nəql olunan məşhur bir hikayədir. Paul və Sila üçün o, dəhşətli bir gün idi. Onlar depressiyaya, qorxuya, şübhəyə düşə bilərdilər. Bəlkə də oxuduqları ilahilər o qədər də şən və "canlı" deyil idi. Ehtimal ki, çətin vəziyyətlərdə Allahı köməyə çağıran qəmgin məzmurlara bənzər yəhudi mahnılar idi. Bu, dəqiq məlum deyildir. Paul və Sila Allahın köməyini görməsələr də, sevinclə həmd edə bilirdi. Nə cür mahnı oxumalarından asılı olmayaraq, Allah onların ibadətini gördü və bir zəlzələ törədərək zəncirlərini qırıb zindanın qapılarını açdı!

Bunun nəticəsində zindanın baş mühafizəçisinin bütün ailəsi Məsihə iman etdi. Çox güman ki, məhbuslardan bir neçəsi də iman edib! Bu gözəl hekayəni Həvarilərin İşləri 16:22-40-da oxuya bilərsiniz.

***

***Bütün Müqəddəs Kitabda ənənəvi cəmiyyətin şəraitindən kənarda Allaha ibadət edildiyini görürük. Həqiqi ibadəti dərk etmək üçün Müqəddəs Kitabdan aşağıda verilmiş daha bir neçə hekayəni qrupunuzla birlikdə oxuya bilərsiniz.***

## *Daniel 3*

Bu hekayədə Navuxodonosor xalqını qoyduğu heykələ səcdə etməyə məcbur etdi və buna səcdə etməkdən imtina edən hər kəsi ölümlə hədələdi. Xalq o bütə səcdə etsə də, bu ibadət ürəklərindən gəlmirdi. Bundan fərqli olaraq, üç ibrani gəncin misalında həqiqi ibadətin gözəl nümunəsini görürük. Onlar həmd sözləri demədilər, Allaha ilahi oxu-

madılar, amma yeganə həqiqi Allaha səcdə etməyi qərara almaqla ibadət etdilər. Rom. 12:1 bizi məhz belə ibadətə səsləyir.

***2 Salnamələr 20***

Burada Padşah Yehoşafatın İsrail xalqını ondan çox güclü olan bir düşmənə qarşı müharibəyə apararkən Allahdan yardım istədiyini oxuyuruq. Allah onlarla birlikdə olacağını deyib və heç nədən qorxmamalarını əmr edəndə,

> *Yehoşafat üzüstə yerə qapandı və bütün Yəhudalılar və Yerusəlimdə yaşayanlar Rəbbə səcdə etmək üçün Rəbbin önündə yerə qapandı. Qohat və Qorah nəsillərindən olan Levililər ayağa qalxıb İsrailin Allahı Rəbbə yüksək səslə şükür etdilər. (2 Saln. 20:18-19)*

İsraillilər Allaha həmd oxuyarkən Allah möcüzə ilə müdaxilə edərək onların düşmənlərini məğlub etdi. Bu hekayədə görürük ki, onlar dualarının cavabını görməzdən ***əvvəl*** Allaha həmd edib səcdə etdilər!

***Luka 7:36-50***

Burada bir qadının İsaya qeyri-adi bir şəkildə səcdə etdiyini oxuyuruq. Ürəyi məhəbbət və şükürlə daşan bu qadın öz göz yaşları ilə İsanın ayaqlarını yuyaraq onlara məlhəm sürtürdü.

***Tez-tez verilən suallar***

***1. İbadətimiz sevinclə dolu və canlı idi, amma son vaxtlarda ürəyimiz Allaha qarşı sanki soyuyub, dualarımız bizə cansız kimi gəlir. İlahi oxuyuruq, amma əvvəlki kimi sevincli alınmır. Problem nədir?***

Bu iş, hər cəmiyyətin və ya ev qrupunun başına gələ bilər. Alov azala və ya sönə bilər. Belə zamanlarda həqiqətən ibadət etmədiyimiz halda imanlı görünmək üçün "rol oynaya" bilərik. Bu, təhlükəli bir şeydir. Buna görə İsa, Yeşaya Peyğəmbərdən sitat gətirərək dini başçıları məzəmmətləyirdi:

> *Bu xalq dodaqları ilə Mənə hörmət edir, amma qəlbləri Məndən uzaqdır. Boş yerə Mənə səcdə edirlər... (Matta 15:8)*

Hər imanlının həyatında özünü Allahdan uzaq hiss etdiyi, əvvəlki sevinci hiss etmədiyi vaxtlar olur. Belə vaxtlarda, Allahın hüzurunu hiss etməsələr də Allah onu tərk etmədiyinə inanmaqda davam etməlidir. Daim Allahın kəlamının həqiqətləri üzərində düşünməlidir. Düşmənin yalanlarına qarşı mübarizə aparmaq üçün Müqəddəs Ruhdan güc almalıdırlar. Özünü Allahdan uzaq hiss etməyinə baxmayaraq, sidq ürəkdən həmd və şükür qurbanı gətirməlidir.

Lakin bir imanlının ibadətdə sevinc hiss etməməsinin başqa səbəbləri də ola bilər. Ən çox bu səbəblər olur:

1) **Ürəyimizdə gizli saxladığımız bir günah var və bu günahın ibadətimizə təsir etmədiyini düşünürük.** Zəb. 66:18-da yazılıb: *"Mən qəlbimdə təqsirə yer versəydim, xudavənd məni eşitməzdi".* Qrupunuzun ibadətinə günahların etiraf edilməsi üçün sakit vaxt daxildirmi? Beləcə hər kəs öz təqsirini Məsihə etiraf edib təmizlənə və yenidən Allahla ünsiyyətin sevincini yaşaya bilər.

   Çox vaxt bacı-qardaşlar bir-birilərini incidəndə üzr istəmədiklərinə və ya bağışlamadıqlarına görə ürəklərində gizli günah qalır. İsa bizə belə öyrətdi:

   > *Buna görə də qurbangah qarşısına qurbanını gətirdiyin zaman yadına düşsə ki, qardaşının sənə qarşı bir şikayəti var, qurbanını qurbangahın qarşısında qoy, get, əvvəlcə qardaşınla barış və ondan sonra gəl, qurbanını təqdim et. (Matta 5:23-24)*

Yuxarıdakı ayəni təkrar ucadan oxuyun və insanlar arasında, ələlxüsus bacı-qardaşlar arasında münasibətlərin Allah üçün nə qədər önəmli olduğunu düşünün. Allah bu münasibətləri Ona gətirdiyimizi qurbandan üstün sayır.

2) **Ev qruplarımızda alovumuzun sönməsinin başqa bir səbəbi, lütf Müjdəsindən yavaş-yavaş uzaqlaşmağımızdır.** Müqəddəs Yazı bizə öyrədir ki, Allahla həyatımız başdan sona qədər Onun lütfü ilə, imanla olur. Bəzən cəmiyyətlərdə qayda-qanunlardan o qədər çox danışılır ki, cəmiyyətlər "qanunpərəst" olurlar, yəni insanlar məsihçi imanına sadəcə olaraq nələri etməli, nələri etməməli olduğunu öyrədən bir təlim kimi baxırlar.

   Biz belə düşünməyə və hərəkət etməyə başlayanda, ibadət vaxtında hər kəs Allaha lütfü və mərhəmətinə görə sidq ürəkdən şükür etmir. Fikirlərimiz Allahın ucalığı və müqəddəsliyindən, Oğlunun günahlarımız üçün verdiyi qurbanda insanlara qarşı göstərilən böyük məhəbbətindən uzaqlaşır. Biz ya ürəyimizdə başqalarından daha yaxşı olmağımızla öyünürük, ya da özümüzü mühakimə edərək Allahın qəzəbinə uğramaqdan qorxuruq. Əməllərə əsaslanan dinə qayıtmışıq. Məsihin xilasına deyil, özümüzə ümid bağlayırıq. Bu, məsihçi düşüncəsi deyildir.

   Ev qruplarımızda müntəzəm surətdə Rəbbin Süfrəsini keçirməklə Müjdənin gözəlliyini təkrar gözlərimizin önünə gətirir və imanımızı təzələyirik. Həmçinin yeni imanlıları vəftiz edərkən, Allahın hamımıza qarşı heyranedici lütfünü yada salırıq!

   Həqiqi xilası daha dərindən dərk etmək üçün “Allahın ecazkar xilas ənamını dərk etmək” başlıqlı 4-cü fəsli oxuyun.

### *2. Yeni qrupumuzda piano və ya gitara çalan bir adam yoxdur. Biz nə edək?*

Əhdi-Cədiddə ibadət vaxtı musiqi alətlərdən istifadə edilməsi barədə heç məlumat verilmir. Çox güman ki, ev cəmiyyətlərinin çoxunda musiqi aləti yox idi. O erkən dövrün imanlılarının ilahi oxuduqlarını bilirik (bax: 1Kor. 14:26). Əhdi-Ətiqdə Allaha musiqi alətlərlə həmd etməkdən bəhs edən çox məzmur var və cəmiyyətlərimizdə musiqi istedadına malik olan şəxslər varsa ibadətdə əla xidmət edə bilərlər. Lakin qrupda hər kəs anlamalıdır ki, həqiqi ibadət musiqidən asılı deyildir. Allahı razı salan ibadət haqqında Yəhya 4-cü fəsildən öyrənirik.

Bu fəsildə İsa quyu başında samariyalı bir qadınla söhbət edir və qadın düşünür ki, düzgün yerdə ibadət etmək ən vacibdir.

> *Bizim ata-babalarımız bu dağda ibadət edirdi, amma siz deyirsiniz ki, ibadət etmək üçün lazımi yer Yerusəlimdədir. (Yəh. 4:20)*

İsa ona belə cavab verdi:

> *Ey qadın, Mənə inan, artıq o zaman yetişir ki, Ataya nə bu dağda, nə də Yerusəlimdə ibadət edəcəksiniz. Siz bilmədiyinizə ibadət edirsiniz, bizsə bildiyimizə ibadət edirik, çünki xilas Yəhudilərdəndir. Amma o zaman gəlir və artıq gəlib ki, həqiqi ibadət edənlər Ataya ruhda və həqiqətdə ibadət etsin. Ata da Özünə belə ibadət edənlər axtarır. Allah ruhdur və Ona ibadət edənlər ruhda və həqiqətdə ibadət etməlidir. (Yəh. 4:21-24)*

Ev qruplarımız dərk etməlidir ki, həqiqi ibadət üçün iki şey vacibdir:

1) **Allaha Ruhda ibadət etmək**– İbadətimizin yeri (konkret bir şəhər, bina ya da müqəddəs yer) fizikidir. İbadətimizdə istifadə etdiyimiz digər şeylərin çoxu həmçinin fizikidir: biz şam yandırırıq, diz çökürük, gitara çalırıq, əllərimizi qaldırırıq. Bu hərəkətlər ibadətdə faydalı ola bilər, ancaq Allah ürəyə baxır. Həqiqi ibadət edənlər anlayırlar ki, ruhda ibadət etmək təkcə bazar günü dilimizlə Allaha həmd oxumaqdan ibarət deyildir; biz həmçinin hər gün Ona vaxtımızı, gücümüzü, malımızı, fikirlərimizi və hərəkətlərimizi təqdim edirik.

   Romalılara Məktubunun aşağıdakı ayəsində Həvari Paul izah edir ki, ruhani ibadət bütün ürəyi ilə özünü Allaha həsr etmək deməkdir:

   > *Beləliklə, ey qardaşlar, Allahın mərhəməti xatirinə sizə yalvarıram ki, bədənlərinizi diri, müqəddəs və Allahı razı salan bir qurban olaraq Ona təqdim edin; bu sizin ağılla etdiyiniz ibadətdir. (Rom. 12:1)*

2) **Allaha həqiqətdə ibadət etmək**– Biz Allaha kəlamında Özünü tanıtdığı kimi ibadət etməliyik. O, yaradılışdan əvvəl əzəli var olan, hədsiz qüdrətə sahib, hər şeyi hikmətlə yaradan, hər yerdə var olub hər şeyi görən, kamil, müqəddəs və sevən, hər kəsin Hakimidir. Kainatı yaradan Allah hər şeyi mükəmməl edir, ancaq biz bu həyatda hər şeyi dərk edə bilmirik. Olimpiya oyunlarında tamaşaçılar, kamil çıxışına görə qızıl medal alan idmançını təbrik etmək üçün ayağa qalxıb "Bravo! Afərin! Əla!" nidaları ilə əl çalır.

Hər şeyi mükəmməl edən və kamil olan Allah, Ona ibadət etməyimizə nə qədər daha çox layiqdir!

Allaha həqiqətdə ibadət etmək üçün biz həmçinin dərk etməliyik ki, Onun müqəddəs hüzuruna yalnız İsanın günahlarımıza görə verdiyi qurban vasitəsilə yaxınlaşa bilərik. Bizi layiq edə biləcək heç bir şeyimiz yoxdur. Buna görə biz, bu qədər əzəmətli məhəbbəti bizə göstərən Ataya və Oğula həlim və minnətdarlıqla dolu bir ürəklə yaxınlaşırıq. (Bax: İbr. 10:19-23)

Müqəddəs Kitabda Rəbb Onu düzgün dərk etməyimizi istədiyini açıq deyir (Bax: Yer. 9:23,24). İnanılmazdır, amma O istəyir ki, biz Onu şəxsən tanıyaq! (Bax: Yəh. 17:3). Onu nə qədər yaxşı tanısaq, o qədər çox Ona ürəkdən güvənəcəyik və həqiqətdə Ona ibadət edəcəyik. Bu mövzunu daha dərindən öyrənmək üçün ***50 Həyat Dərsi*** kitabında 34-cü dərsə ("Ataya ruhda və həqiqətdə ibadət edin") baxa bilərsiniz.

***3. Dünyanın müxtəlif yerlərində məsihçilər fərqli üsullarla ibadət edirlər. Necə bilmək olar, hansı üsul doğrudur?***

Doğrudan dünyanın müxtəlif yerlərində yaşayan, fərqli mədəniyyətlərə mənsub olan insanlar İsaya müxtəlif üsullarla ibadət edirlər. Təkcə mədəniyyətlərin deyil, məsihçi ənənələrinin (məzhəblərin) də ibadət üsulları bir-birindən fərqlənir. Kimisi ilahi oxuyaraq, Allahı ucadan həmd edərək, rəqs edərək ibadət edir. Kimisi sakit bir musiqi ilə, dərin düşünərək, bəzən diz çökərək ya da susaraq, Allahın ucalığını düşünərək ibadət edir. Əlbəttə, təqiblər üzündən də daha sakit ibadət etməyə məcbur ola bilərik.

Müqəddəs Kitabda insanların müxtəlif üsullarla Allaha ibadət etdiklərini görürük (yuxarıda bir neçə misal gətirmişdik). Bəzi ibadət növləri bizə daha dərindən təsir göstərə bilər, amma bizdən fərqli üsullarla ibadət edənlərdən də çox şey öyrənə bilərik. Biz seçdiyimiz ibadət üsulundan asılı olmayaraq başqalarının ibadət stillərini mühakimə etməmək üçün çox ehtiyatlı olmalıyıq. Müqəddəs Kitab bunun ciddi nəticələri barədə xəbərdarlıq edir (Məsələn, 2 Şam. 6:14-23-də Davudun Allaha necə ibadət etməsi arvadının xoşuna gəlmədi). Allah insanın ürəyinin niyyətlərinə ən çox əhəmiyyət verir və yalnız O ürəkləri görür! Biz həmçinin yadda saxlamalıyıq ki, ibadət stilləri zamanla ənənələrə çevrilə bilər və insanlar ürəkləri ilə Allahdan

uzaq olduqları halda dilləri ilə Ona ibadət edə bilərlər. İsa fariseyləri məhz bunda ittiham edirdi (Bax: Mat. 15:8-9).

1 Kor. 14-də ev cəmiyyəti kimi kiçik bir qrupun ibadəti üçün göstərişlər verilir. Böyük toplantıda bu mümkün olmaya bilər, amma burada Paul evlərdə ibadət edən korinflilərə nəsihət verir ki, qrupda hamı bir-birinə xidmət etsin. Bir və ya iki nəfərin bütün toplantını aparması lazım deyildir. Paul bu göstərişləri belə yekunlaşdırır:

> *Bəs onda nə deyək, ey qardaşlar? Toplaşanda hər birinizin bir ilahisi, bir dərsi, bir nazil olan sözü, bir naməlum dildə sözü, bir izahı var. Qoy bunlar hamısı bir-birinizin inkişafı üçün olsun. (1 Kor. 14:26)*

Görünür ki, Rəbb üçün ən önəmli olan, musiqi stili, insanların oturması, ayaq üstdə durması və ya diz çökməsi deyildir. Yuxarıdakı ayəyə görə, Rəbb istəyir ki, hər kəs Allahdan aldığı ənamdan bütün cəmiyyətin inkişafı üçün istifadə etsin.

## ***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

### *Tətbiq və dua*

1. Həftəlik toplantılarınız barədə düşünün və aşağıdakı sualları birlikdə müzakirə edin:

   Sizcə, həftəlik toplantılarınızda Rəbbə ruhda və həqiqətdə ibadət edilirmi? (İsanın bu barədə nə öyrətdiyini izah edən 2-ci Sual-cavab hissəsini təkrar oxuya bilərsiniz).

   Sizcə, toplantıda ilahi oxuyanda həqiqətən Allaha ibadət edirsiniz, yoxsa elə-belə mahnı oxuyursunuz? Qrupunuz Allahın kəlamına diqqətlə qulaq asanda və ianə verəndə də ibadət etdiyini dərk edirmi?

2. Qrupdakı insanlara sual verin: onlar həftə boyunca təklikdə də ibadət etməkdə inkişaf edirlərmi? Onlara xeyirxahlıq və mərhəmət göstərdiyinə görə Allaha həmd və şükür etməkdən zövq alırlarmı? Rom. 12:1-də yazıldığı kimi, müntəzəm olaraq özlərini Rəbbə təqdim edirlərmi?

3. Müzakirə edin:

   Qrupunuz hər həftə yığışanda əzəməti və xeyirxahlığına görə Rəbbə həmd edərək ibadətdə necə inkişaf edə bilər?

   Bu fəsli, xüsusilə Müqəddəs Yazıdan sitat gətirilmiş mətnləri təkrar nəzərdən keçirin. Sizcə, qrupunuzun indiki vəziyyəti üçün hansı mətnlər ən faydalı ola bilər? Gələn həftələrdə bu mətnləri bir cəmiyyət olaraq birlikdə öyrənməyi planlaşdırın.

4. Müzakirə etdiyiniz hər şeyə görə birlikdə dua edin.

# 7. Allahın kəlamı—gündəlik çörəyimiz

***İsa ona belə cavab verdi: "«İnsan yalnız çörəklə deyil, Allahın ağzından çıxan hər kəlmə ilə yaşayar» deyə yazılmışdır." (Matta 4:4)***

(İsa çarmıxa çəkilməzdən əvvəl şagirdlərinə görə dua edir)—

"***Onları həqiqətlə təqdis et. Sənin sözün həqiqətdir." (Yəhya 17:17)***

(Əllinci gün bayramında imana gəlmiş yeni imanlılardan bəhs edərkən)—

"***Onlar da özlərini həvarilərin təliminə... həsr etdilər." (Həv. İsləri 2:42)***

***Giriş***

## Allahın Kəlamından birlikdə öyrənmək

İsa Məsihin xoş xəbəri, şagirdlərinin həyatlarını o qədər dəyişdirdi ki, onlar hər yerdə bu xəbəri yaydılar. Onlar qüvvətlə təbliğ etdilər və itmiş insanlar Xilaskara iman etdilər. İsanın adı ilə xəstələrə şəfa verdilər və insanları cinlərdən azad etdilər. İsa Məsihin hamının Rəbbi olduğuna inandıqları və bunu təbliğ etdikləri üçün hətta təqib olunub öldürüldülər.

İsa Məsih haqqında bu KƏLAM, bu gün bütün dünya millətlərinə yayılmış olan bir hərəkatı meydana gətirən güc idi. İsa Məsihin Müjdəsinin həqiqətdə nə olduğunu öyrədən erkən həvarilərin yazılarında eyni Kəlam vardır. Bu təlim sizin millətinizdə də bir iman hərəkatı başlada bilər və sizin kiçik ev cəmiyyətiniz də bu hərəkatın bir hissəsi ola bilər.

Müqəddəs Kitab haqqında belə düşünün: Siz ev cəmiyyətinizdə Allahın kəlamını birlikdə öyrənəndə sanki o keçmişdəki imanlıları toplantınıza gəlib öyrəndiklərini sizinlə paylaşsınlar deyə dəvət edirsiniz. Sanki İsanın ayaqlarının altında oturub Ona qulaq asır, səlahiyyətlə şəfa verdiyini görürsünüz. Erkən imanlılar cəmiyyətini qüvvətləndirən eyni iman sizin qrupunuza da aşıb-daşa bilər.

Allahın kəlamının hər həftə toplantılarınızın mərkəzində olması vacibdir. Qrupunuzun hər üzvü Kəlamı eşidib üzərində düşünməli, həqiqətlərini müzakirə etməli və öyrəndiklərinə RİAYƏT etməlidir. Siz Allahın kəlamını öyrənəndə, Allahın Özü Müqəddəs Ruh vasitəsilə sizin müəlliminiz olur.

Paul, Timoteyə belə öyüd-nəsihət verdi:

> *Mən gəlincə Müqəddəs Yazıları hamıya oxumaqla, nəsihət verməklə, təlim verməklə məşğul ol. (1Tim. 4:13)*

Hər həftə toplantılarınızda Allahın kəlamına diqqət yetirərkən yetkinləşib Məsihin surətinə dəyişəcəyinizi görəcəksiniz.

> *Beləliklə, iman eşitməkdən, eşitmək də Məsihin kəlamı vasitəsilə yaranır. (Romalılara 10:17)*

Bu fəsil, qrupunuza Allahın kəlamını dərindən öyrənməkdə kömək edəcək. Siz birlikdə böyüdükcə Allah sizə xeyir-dua versin!

*__Müqəddəs Kitab Dərsi__*

## Allahın kəlamının həyat dəyişdirən qüdrəti

**Başlanğıc müzakirəsi:** Allahın kəlamını eşidib ona inanmaq həyatınıza necə təsir edib?

**Həvarilərin İşləri 17:10-12-ni oxuyun.**

1. Veriyalılar Paulun sözlərini qəbul etməkdə saloniklilərdən necə fərqlənirdilər? (a. 11)

   Paul və Sila sinaqoqda yəhudilərə bəyan edirdi ki, çoxdan gözlənilən Məsih gəlmişdir və bu Məsih, İsa idi. Veriyalılar kəlamı dərhal qəbul etmədilər, amma Paulun Allahın kəlamından həqiqəti öyrədib-öyrətmədiyini anlamaq üçün Məsihə dair Əhdi-Ətiq peyğəmbərliklərini araşdırdılar.

   Siz də ev cəmiyyətinizdə Müqəddəs Yazıları öyrənərkən veriyalılar kimi diqqətli olduğunuzu necə göstərə bilərsiniz?

**2 Tim. 3:14–4:5-i oxuyun.**

2. Müqəddəs Yazının həyatı haradan qaynaqlanır? (3:16). Paul, Müqəddəs Yazının hansı dörd məqsədlərindən bəhs edir? (a. 16)
3. Paul Timoteyə hər vaxt nə etməyə hazır olmasını buyurur? (4:1-2). Timotey vəz edərkən insanlarla necə davranmalı idi? (a. 2)
4. 4:3-4-ü təkrar oxuyun.

   Bu iki ayə, içində yaşadığımız dövrü necə təsvir edir? Ev cəmiyyətlərimizdə Allahın kəlamını öyrənmək, bəzi insanları bu itaətsiz ruhdan necə xilas edə bilər?
5. 5-ci ayədə Paul, Allahın həqiqətini rədd edən bu ruha necə qarşı durmasını Timoteyə başa salır. Timotey necə güclü qala bilər?

**İbr. 4:12-13-ü oxuyun.**

6. Müəllif, Allahın kəlamını nə ilə müqayisə edir? (a. 12)

   Allahın kəlamı sizin ürəyinizin düşüncə və münasibətlərini necə ayırd edib?

   Siz ev cəmiyyətinizdə Allahın kəlamını öyrənəndə bu kəlamın insan ürəyinin dərinliklərindəki sirləri açığa çıxarma qüdrətini yadda saxlayırsınız?

**Luka 6:46-49-u oxuyun**

7. Sizcə, bu məsəldə təqdim olunan həqiqəti ev qruplarımızda niyə öyrənməliyik?

   Qrupumuzda Allahın kəlamını eşidən, amma ona riayət etməyən imanlılara necə xəbərdarlıq edə bilərik?

**Dua ilə bitirin:** Bu dərsin sonunda birlikdə dua edin ki, siz və qrupunuzda hər kəs Allahın kəlamına bələd olasınız və ona ürəkdən riayət edəsiniz

**Bu mövzunun dərininə gedin:** Allahın kəlamının əhəmiyyətini görmək üçün ***50 Həyat Dərsi*** kitabından aşağıdakı üç dərsə qrupunuzla birlikdə baxa bilərsiniz:

- Dərs 9: Yaxşı Və Nəcib Ürəklə Kəlamı Qəbul Edin
- Dərs 26: Allahı Tanımaq Üçün Vaxt Ayırın
- Dərs 36: Allahın Kəlamı İlə Günaha Sövq Olunmaya Qalib Gəlin

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***İngiltərə, XVİ əsr***

## Allahın Kəlamının ingilis dilinə tərcüməsi üçün mübarizə

Allahın kəlamını öz həyatından çox sevən və qiymətləndirən adamlardan biri Uilyam Tindeyl (William Tyndale) idi. Tindeyl, 1494-cü ildə İngiltərədə anadan olmuşdur. O dövrdə İngiltərədə yaşayanların əksəriyyəti Müqəddəs Yazının həqiqətindən xəbərsiz idi. İnsanların çoxu, müntəzəm olaraq kilsəyə getməyinə baxmayaraq, Müjdəni eşitmirdi, çünki kilsələrdəki keşişlərin özləri çox vaxt Müjdəni bilmirdi.

Almaniyada olduğu kimi (**4**-cü fəsildə Martin Lüterin tarixçəsinə bax), İngiltərədəki kilsələrdə də Allahın kəlamı xalqın anlaya bilmədiyi latın dilində oxunur və vəz olunurdu. Müqəddəs Kitabın ingilis dilinə tərcüməsi yox idi və onu ingilis dilinə tərcümə edən ya da belə tərcümələri evində saxlayan adam ölüm cəzasına məhkum edilirdi. İngiltərədə yaşayan xalq üçün Allahın həqiqəti bağlı qapının arxasında idi və əllərində açar yox idi.

Lakin Allah onlar üçün qapını açmağa hazır idi. Uilyam Tindeyl (Wiliam Tyndale), Müqəddəs Kitabı tərcümə etmək üçün Allahdan müstəsna olaraq ənam almış gənc bir kişi idi. Dilləri öyrənməkdə o, əsl dahi idi. Deyilənə görə, səkkiz dildə o qədər sərbəst danışırdı ki, hansının ana dili olduğunu anlamaq çətin idi! Bu dillərin sırasında, Allahın kəlamını orijinalda tədqiq edə bilmək üçün öyrəndiyi qədim ibrani və yunan dilləri də var idi.

Tindeyl Əhdi-Ətiqi və Əhdi-Cədidi oxuyub tədqiq etdikcə, yalnız Məsihin verdiyi həyatı və azadlığı kəşf edir və bu xoş xəbəri sadə insanlara çatdırmaq üçün həvəslənirdi. İstər varlı, istər kasıb olsun hər adamın Müqəddəs Kitabı oxuya bilməsi üçün onu ingilis dilinə tərcümə etmək arzusuna düşdü.

Lakin o dövrün kilsə başçıları Uilyamın Allahın kəlamına olan sevgisinə şərik olmadılar. Günlərin birində Roma Papasının qanunlarının Allahın Qanunundan üstün olmasında israr edən bir kilsə başçısı ilə mübahisəyə girən Tindeyl qəzəblə belə söylədi: "Papanın özünü də, bütün qanunlarını da rədd edirəm! Allah mənə ömür versə, tarlanı şumlayan kəndçi Müqəddəs Yazıları sizdən yaxşı biləcək!"

Sözsüz ki, belə danışan Tindeyl kilsə başçılarının düşməni oldu. O, Müqəddəs Kitabı ingilis dilinə tərcümə etməsinə icazə almaq üçün

müraciət etdikdə, başçılar onun ricasını rədd etdilər. Ondan sonrakı illərdə həm kilsə başçıları, həm də siyasətçilər ona düşmən kəsildilər.

İngiltərədə açıq şəkildə işləyə bilməyəcəyini anlayan Uilyam Tindeyl Almaniyaya köçüb Müqəddəs Kitabın ingiliscə tərcüməsi üzərində gizlin işləməyə başladı. İngiltərə kralının göndərdiyi adamlar onu tapıb öldürməsinlər deyə tez-tez yerini dəyişib, şəhərdən-şəhərə köçməyə məcbur oldu. Bu çətinliklərə baxmayaraq, Tindeyl təxminən bir il sonra İncilin (Əhdi-Cədidin) ingilis dilinə tərcüməsini başa çatdırdı.

Qütenberqin çap dəzgahı icad etməsindən 100 il keçməmiş, bunda yüzlərlə İncil nüsxəsi çap olundu. Sonra bu kitablar bir ticarət gəmisində gizlicə İngiltərəyə gətirildi. Orada kilsə başçıları İncili satan tacirlərdən çox nüsxəni satın alıb yandırdılar. Lakin bu satışlardan əldə olunan pullar Almaniyaya qayıtdı və daha çox İncillərin çap olunmasına sərf olundu! Beləcə Allahın kəlamı yavaş-yavaş İngiltərənin hər tərəfinə yayılmağa başladı.

Tindeyl özünü böyük həvəslə Əhdi-Ətiqi tərcümə etməyə həsr etdi. O qədim ibrani dilindən tərcümə edirdi (Əhdi-Ətiqin yazıldığı dil). İşi uzun və yorucu idi. Əhdi-Ətiqin uzun və çox vaxt çaşdırıcı olan mətnlərinin tərcüməsi üzərində hər gün təkbaşına çalışmağı təsəvvürünüzə gətirin. Allaha və kəlamına olan sevgisi onu bu işi davam etdirməyə vadar edirdi.

Uilyam Tindeyl o vaxt Belçikanın Antverpen şəhərində yaşayırdı və orada bir az azad olacağını ümid edirdi. Təəssüf ki, ümidləri doğrulmadı. Boya-başa çatandan sonrakı illərinin çoxunu ona nifrət edən və onu öldürmək istəyən adamlardan gizlənməyə məcbur oldu.

Axırda, 1535-ci ildə yaxın dostu saydığı bir adam tərəfindən ələ verilən Tindeyl həbs edildi və 16 ay zindanda yatdı. Orada çox iztirab çəkdi—kamerası soyuq, nəmli və qaranlıq idi (ona lampadan istifadə etmək qadağan idi), sağlamlıq vəziyyəti zəif idi. Bundan əlavə, Tindeyl tənha idi və yaman darıxırdı, çünki çox dəyərli kitablarını oxumağına icazə verilmirdi.

1536-cı ilin oktyabr ayında Uilyam Tindeyl son əzabını çəkdi. Kamerasının qapısı açıldı və mühafizəçilər onu bayıra çıxartdılar. O, neçə ay idi ki, kameradan heç bir yerə buraxılmırdı. Toplanmış xalqın gözləri önündə Tindeyli bir sütuna bağlayıblar. Sütunun qabağına taxtalar atılmışdı. Carçı Uilyamın cinayətini elan etdi. Nə idi onun cinayəti? Allahın kəlamını ingilis dilinə tərcümə etməsi! Sonra bir

məşəl taxtaların üstünə qoyuldu və Uilyam Tindeyl diri-diri yandırıldı. Alovlar içində qalmış Uilyam Tindeyl uca səslə son sözlərini söylədi: "Ya Rəbb, İngiltərə kralının gözlərini aç!"

Üstündən üç il keçməmiş, kral VIII Henrinin fərmanı ilə İngiltərədəki hər kilsəyə Müqəddəs Kitabın ingilis dilinə tərcüməsinin bir nüsxəsi qoyuldu. Bunun səbəbi Allah sevgisi deyil, siyasət olsa da, bu artıq Uilyam Tindeylin arzusunun həyata keçməsi idi.

Ondan sonrakı illərdə ingilis dilində danışan ölkələrdə yüzlərlə, minlərlə, sonra milyonlarla insan Müqəddəs Kitabı öz dilində oxumağa başladı, Uilyam Tindeylin Allahını tanıdı və sevdi. İngilis xalqına Müqəddəs Kitab qədər çox təsir etmiş başqa bir kitab yoxdur.

Zəbur 119:162-da Davud belə yazdı: *"Çoxlu qənimət tapan bir insan kimi Sənin kəlamın məni sevindirir".* Uilyam Tindeyl Allahı sevir və kəlamını öz canından çox qiymətləndirirdi.

Sizin dilinizdə Allahın kəlamı varmı? O sizin üçün böyük xəzinədirmi?

***Tez-tez verilən suallar***

### *1. Ev cəmiyyətində Müqəddəs Kitabdan istifadə etmək niyə bu qədər mühümdür?*

Müqəddəs Kitab (Əhdi-Ətiq və Əhdi-Cədid [İncil]) məsihi inancının təməlidir. Əgər biz İsanın əsl davamçıları olmaq istəyiriksə, Müqəddəs Yazıları bilməli və onlara əməl etməliyik. Müqəddəs Yazıları bilməyən insanlar asanlıqla öz fikirlərini öyrətməyə başlaya və Müjdənin həqiqi təlimindən uzaqlaşa bilərlər.

Yuxarıdakı dərsdə Həvari Paulun Timoteyə verdiyi nəsihətlərinə baxmışdıq. İndi isə Allahın kəlamının vacib olmasının dörd səbəbini nəzərdən keçirək.

**2 Timoteyə 3:14-17:**

> *[14] Sənsə öyrəndiyin və güvəndiyin şeylərə sadiq qal. Çünki bunları kimlərdən öyrəndiyini bilirsən, [15] Müqəddəs Yazıları uşaqlıqdan bilirsən. Onlar Məsih İsaya olan iman vasitəsilə sənə xilas gətirən hikmət verməyə qadirdir. [16] Bütün Müqəddəs Yazılar Allahdan ilham almış və təlim, məzəmmət, islah, salehlik tərbiyəsi üçün faydalıdır; [17] beləcə Allah adamı bacarıqlı olub hər yaxşı iş üçün təchiz edilsin.*

1) **Biz Müqəddəs Yazıları öyrənərkən onlar, "Məsih İsaya olan iman vasitəsilə [bizə] xilas gətirən hikmət" verir.** (15-ci ayəni təkrar oxuyun.)

   Müqəddəs Yazıların məqsədini 15-ci ayə ilə yekunlaşdırmaq olar. İsa Məsih bizi günahdan və zülmətdən xilas etmək və Allaha geri qaytarmaq üçün dünyaya gəldi. O yol, həqiqət və həyatdır (Yəh. 14:6). Biz bunu Müqəddəs Yazılardan öyrənirik.

2) **Bütün Müqəddəs Yazılar Allahdan ilham almışdır və bizə Allahın salehliyində necə yaşamağı öyrədir.** (16-cı ayəni təkrar oxuyun.)

   Məsihçi həyatımızın başlanğıcında Məsihin yanına gəlmək yetərli deyildir, biz həmçinin gündəlik həyatımız üçün Allahın yolunu öyrənməliyik. Paul Timoteyə öyrədir ki, hamımıza təlim öyrənmək lazımdır. Bəzən məzəmmətlənməyə, düzəldilməyə ehtiyacımız vardır. Bir idmançı məşq etdiyi kimi, biz də saleh həyatı öyrənmək üçün "məşq" etməliyik.

3) **Müqəddəs Yazılar (Müqəddəs Ruhun xidməti vasitəsilə) Allaha və Padşahlığına xidmət etmək üçün lazım olan hər şeylə təmin edir.** (17-ci ayəni təkrar oxuyun.)

   Əvvəlcə biz Şeytana və onun qaranlıq padşahlığına xidmət edirdik, indi isə Rəbb bizi Nur Padşahlığına xidmət etməyə çağırır. Rəbb bizim üçün çoxlu yaxşı işlər hazırlayıb və bu işlərdə Müqəddəs Yazılar bizə yol göstərəcək.

4) **Yuxarıdakı üç həqiqətə görə biz Məsihin təlimlərini öyrənmək və onlara riayət etməkdə davam etməliyik.** (14-cü ayəni təkrar oxuyun.)

   Bu nəsihət təkcə ayrı-ayrı insanlara verilmir, hər həftə İsanın təlimini öyrədən ev qruplarına da verilir. İsa dedi ki, Onun həqiqi şagirdləri öyrətdiyi təlimlərdə davam edəcəklər. Buna görə Paul Timoteyə eyni şeyi öyrədir.

## *2. Mən özüm Müqəddəs Kitabı çox yaxşı bilmirəmsə, bir ev cəmiyyətində onu necə öyrədə bilərəm?*

Yadda saxlamaq vacibdir ki, Müqəddəs Ruh bizim ən önəmli Müəllimimizdir. Hər dəfə Allahın kəlamını açanda, bizə rəhbərlik etməsini, bizə danışmasını Ondan xahiş etməliyik. Kəlamı öyrədən rəhbər çox bilikli olmasa belə, sadiq olan Allah ruhən ac olanları doyuracaqdır.

Bir də tək adamın hər həftə qrupa təlim öyrətməsi və ya vəz etməsi vacib deyildir. Bir ev cəmiyyətində hamının masa ətrafında ya bir dairədə yığışıb Allahın kəlamını oxumaq və müzakirə etmək fürsəti vardır.

Qrupunuza Allahın kəlamını birgə öyrənməkdə kömək edəcək 3 üsul aşağıda verilmişdir. Bunları oxuyarkən Allahdan diləyin ki, nəyin sizin qrupunuza uyğun olacağını sizə göstərsin. Ola bilsin, bunların birindən müvəqqəti olaraq istifadə edib sonra bir başqasından istifadə etməyə başlayarsınız. Allahın kəlamını öyrənmə üsulu o qədər mühüm deyildir. Vacib olan odur ki, Allah bizi öyrəndiklərimiz vasitəsilə dəyişdirsin.

### 1. MÜQƏDDƏS KİTABI BİRLİKDƏ OXUYUN VƏ SUALLAR VERİN

Qrupda Müqəddəs Yazıdan bir mətn parçasını birlikdə oxuyun. Onu bir neçə dəfə yavaşca oxuyun və nə öyrəndiyinizi müzakirə edin. Soruşun: “Müəllif nə demək istəyir?” Bir nəfərin vəz etməsi və hamının sakit və passiv oturub dinləməsi əvəzinə mətn haqqında sual-

lar vermək və hər kəsin nə öyrəndiyini düşünüb müzakirə etməsinə imkan vermək kəlamın daha yaxşı dərk edilməsi ilə nəticələnir.

Aşağıda "Kəşf etmə üsulu ilə Müqəddəs Kitabı öyrənmə"də istifadə olunan bəzi sadə suallar verilir:

- **Bu mətn bizə Allah haqqında nə öyrədir?**
- **Bu mətn bizə özümüz haqqında nə öyrədir?**
- **Bu mətndə nə xoşunuza gəlir?**
- **Bu ayələrdə sizi nə narahat edir? (Bəlkə bu ayələrdə günahınızı ifşa edən və ya başqalarını ürəkdən sevmədiyinizi göstərən ifadələr vardır?)**

Əlbəttə, qrupunuzun iştirakçılarında (həm imanlı, həm də imansız) doğan təbii suallar da verilməlidir. Qrupunuzda Allahın kəlamını açandan sonrakı söhbət hər dəfə başqa cür ola bilər, əsas odur ki, hər kəsin düşünməyinə, sual verməyinə, qrupun öyrəndiklərini müzakirə etməyinə imkan verilsin.

**Qrupda həmişə verilməli olan son iki sual**:

- **Siz öyrəndiyiniz təlimlə nə edəcəksiniz, yəni necə dəyişəcəksiniz?**

  İsanın dövrünün dini başçıları Allahın kəlamını başqalarına öyrətməyi sevir, lakin özləri ona əməl etmirdilər. Buna ikiüzlülük deyilir. Bu rəhbərlər zahirən dindar görünürdü, lakin qəlbən ölü idi.

  Məsihçi inancında əsas olan, adamın öz biliyini artırması, əqlən inkişaf etməsi deyildir, ürəyinin inkişaf etməsi, məhəbbət və imanda böyüməsidir. Biz Allahın bizə öyrətdiyinə əməl etdikcə Müjdənin gücünə imanımız böyüyür və sevincimiz artır. Biz İsanın ardıcılları kimi yaşımızdan asılı olmayaraq çalışmalıyıq ki, İsadan və başqalarından öyrənmək üçün həmişə ürəyimiz həssas olsun.

- **Öyrəndiklərinizi kiminlə bölüşəcəksiniz?**

  Qrupunuzda hər kəs Allahın kəlamından öyrəndiyi şeyləri başqalarına danışsa, yeni insanları Məsihə gətirəcək. İsanın şagirdi olmasını hər kəs başqalarına öyrənə bilər və bununla yeni ev cəmiyyətləri yarana bilər!

## 2. BU SAYTDA MÜQƏDDƏS KİTABI ÖYRƏNMƏK ÜÇÜN KÖMƏKÇİ VƏSAİTLƏRDƏN İSTİFADƏ EDİN: www.learnhisways.com.

Dünyanın çox yerində ev cəmiyyətləri Müqəddəs Kitabı qrupda öyrənmək üçün əvvəlcədən hazırlanmış dərslərdən istifadə edir və

xeyli faydalanırlar. Yuxarıdakı saytda bu kimi Müqəddəs Kitab dərslərini tapa bilərsiniz.

Belə dərslərdə qrupun rəhbəri iştirakçılara Müqəddəs Kitabdan seçilmiş mətni oxutdurur, sonra qrup addımbaaddım dərsin suallarını oxuyub müzakirə edir. Bu, yuxarıdakı üsula bənzəyir, ancaq suallar xüsusən Müqəddəs Yazının konkret mətn parçasına görə verilir.

**O saytda olan iki kitab yeni qruplar üçün xüsusilə faydalıdır:**

- *İsa Məsihin təlimindən* ***50 Həyat Dərsi***
- *Qədim Müqəddəs Yazılardan* ***Yaradılış Kitabı üzrə Dərslər***

Bu sayt haqqında daha çox məlumat almaq üçün bax: Əlavə A, "Vəsaitlər".

## 3. MÜQƏDDƏS KİTABDAKI HEKAYƏLƏRİ DANIŞIN

Müqəddəs Kitabın böyük hissəsi, Allahın tarix boyunca xalqının həyatında necə işlədiyini təsvir edən hekayələrdən ibarətdir. Bu hekayələr bizə ilahi həqiqətləri öyrədir, bizi Müqəddəs Yazının mərkəzində olan İsaya yönəldir. Onlar bizim ağıllarımızda və ürəklərimizdə qalır, Allahın bizim də qayğımıza qaldığına inandırır. Əhdi-Ətiq və Əhdi-Cədid dövrlərində Müqəddəs Yazını oxumaq hamıya nəsib olmurdu. Həqiqət çox vaxt nəsildən-nəslə şifahi olaraq çatdırılırdı: insanlar Müqəddəs Kitabdakı hekayələri başqalarına danışırdı.

Hətta müasir dövrümüzdə belə çox adam Allahın kəlamında böyümək üçün Müqəddəs Kitabdakı hekayələri dinləyərək öyrənməkdən xoşlanır. Bu xüsusən oxumaqda çətinlik çəkən və ya heç oxuya bilməyən şəxslərə və ya qruplara aiddir.

Əlavə B-də qrupunuzda istifadə edə biləcəyiniz Əhdi-Ətiq və Əhdi-Cədid hekayələri sadalanır. Bu hekayələrdən istifadə etmək haqqındakı bəzi təkliflər də orada verilir.

***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

***Tətbiq və dua***

Aşağıdakı sualları müzakirə edin.

1. Şəxsən siz Allahın kəlamını sevirsinizmi? Onu hər gün oxuyub öyrənmək sizin üçün nə qədər önəmlidir? Siz öyrəndiklərinizi həyatda tətbiq edirsinizmi?
2. Allahın kəlamını daha çox tanımaq üçün həyatınızda nəyi dəyişdirmək istəyərdiniz? Bu barədə dua etməyə vaxt ayırın.
3. Siz cəmiyyətinizdəki adamların Allahın kəlamını sevməkdə böyümələrinə necə kömək edirsiniz? Aşağıdakı sualların hər birini düşünün:
   - Allahın kəlamının öyrənilməsi toplantılarınızın mühüm bir hissəsini təşkil edirmi?
   - Siz toplantıda yalnız öz fikirlərinizi bölüşürsünüzmü, yoxsa iştirakçıları kəlamdan öyrəndiyiniz şeylər haqqında dərin düşünməyə ruhlandırırsınızmı?
4. Yuxarıdakı "Tez-tez verilən suallar"da təklif olunan Müqəddəs Kitabın öyrənilməsinin üç üsuluna baxın. Cəmiyyətinizin Allahın kəlamında daha dərinləşməyinə kömək etmək üçün bunlardan birini və ya bir neçəsini seçin.
5. Özünüz daxil olmaqla qrupunuzdakı hər kəsə görə dua edin ki, Allah kəlamını tanımaqda və tətbiq etməkdə hamınıza kömək etsin.

# 8. Müjdəni uşaqlara ötürmək

***Adamlar uşaqları İsanın yanına gətirirdilər ki, İsa onlara toxunsun. Şagirdlərsə onlara qadağan etdilər. Bunu görən İsa acıqlanaraq onlara dedi:***

***«Uşaqları buraxın, qoy Mənim yanıma gəlsinlər! Onlara mane olmayın! Çünki Allahın Padşahlığı belələrinə məxsusdur. Sizə doğrusunu deyirəm: kim Allahın Padşahlığını bir uşaq kimi qəbul etməsə, oraya əsla daxil ola bilməz». (Mark 10:13-15)***

***Giriş:***

## Siz uşaqlara təlim öyrədəcəksinizmi?

"Bir almanın içində neçə dənə toxum var?" sualının cavabını tapmaq çətin olmaz. Lakin "Bir toxumun içində neçə dənə alma var?" sualı daha çətindir. Bir toxum böyük qüdrətə malikdir.

Eyni müqayisə ev qruplarımıza da aiddir. "Ev cəmiyyətinizdə neçə uşaq var?" Qrupunuzda bir neçə ailə varsa, beş və daha çox uşaq ola bilər. Onları saymaq çətin deyildir.

Daha çətin sual budur: "Bu uşaqların gələn illərdə Allahın Padşahlığı üçün bu dünyaya göstərəcəkləri təsiri ölçmək mümkümdürmü?"

Siz ev cəmiyyətlərindəki uşaqların nə qədər qiymətli olduqlarını heç düşündünüzmü? Onları İsanın yolunda böyütmək üçün məsuliyyət daşıdığınızı dərk edir və bunu şərəfli bir vəzifə sayırsınızmı?

İsa bizə əmanət edilən ənamların yaxşı idarəçiləri olduğumuzu öyrətdi. Uşaqlar Allahdan verilən çox qiymətli ənamdır. İsa gözləyir ki, biz uşaqları ev qruplarımızda bizim kimi xilas olmağa ehtiyac duyan şəxslər olaraq qəbul edək. Onları Allahın yolunda necə böyüdəcəksiniz? Onlara gələcəkdə bu dünyanın tarlalarında əkiləcək olan salehlik toxumları olaraq baxırsınızmı?

Əvvəlki səhifəyə qayıdıb Mark 10:13-15-i oxuyun və müzakirə edin. Bəzən siz də uşaqlar haqqında İsanın şagirdlərinin düşündüyü kimi düşünürsünüzmü?

Bu fəsil, Allahın sizə verdiyi uşaqları qiymətləndirməkdə və böyütməkdə sizə və ev qrupunuza kömək edəcək.

## Allah balaca Şamueli çağırır

**Başlanğıc müzakirəsi:** Sizcə, uşaqlar Allahla münasibət qurmağa qadirdirmi? Cavabınızı izah edin.

Bəlkə kiçik yaşda Allahla yaşadığınız bir şeylər haqqında, yaxud Allahı tanımaq barədə uşaqlarla etdiyiniz söhbətlər haqqında danışa bilərsiniz.

Biz əsasən 1 Şamuel 3-cü fəsildən öyrənəcəyik, amma bundan öncə hekayənin kontekstini anlamaq üçün 1 Şamuel 1-ci fəsli oxuyacağıq.

**1 Şam. 1:1-28-i oxuyun.**

1. Xanna niyə kədərli idi? (6-cı ayə)
2. 10-cu və 11-ci ayələri təkrar oxuyun. Xanna Rəbdən nə dilədi və Ona nə söz verdi?

   İmanlılar öz uşaqlarını kiçik yaşdan Rəbbə həsr etsəydilər, millətimizdə nə baş verə bilərdi?
3. Allah Xannanın duasını eşitdi və ona bir oğul verdi. O oğluna nə ad verdi? (20-ci ayəyə bax)
4. 24-28-ci ayələri oxuyun. Xanna Şamueli nə vaxt Rəbbin ibadətgahına apardı? Kahin Eliyə nə dedi?

**1 Şam. 3:1-21-i oxuyun.**

5. Şamuel Elinin başçılığı altında Allahın məbədində nə edirdi? (1-ci ayə)

   Şamuel məbəddə ona tapşırılan işləri sədaqətlə yerinə yetirərək Elinin başçılığı altında "Rəbbə xidmət edirdi". Bu gənc oğlana Allaha ibadətlə əlaqədar olan bəzi işlər tapşırılırdı.

   Sizin ev cəmiyyətinizdə uşaqların ibadətdə iştirak etməsinə icazə verilirmi? Uşaqlara Müqəddəs Yazını oxumağı, ibadət xidmətində kömək etməyi ya da Allahın sədaqəti barədə şəhadətlik etməyi tapşırırsınızmı?

   Niyə uşaqlar bilməlidir ki, biz onların ev cəmiyyətimizdə iştirak etmələrinə qiymət veririk?
6. Bir gecə nə baş verdi? (3-4-cü ayələri oxuyun)

Allah İbrahimi çağıranda (Yaradılış 22:1), İbrahim Ona "Buradayam!" deyə cavab verdi. Müqəddəs Yazıda Allaha eyni cavabı verən adamlar barədə çoxlu misallar gətirmək olar: Əhdi-Ətiqdə Musa (Çıx. 3:4) və Yeşaya (Yeş. 6:8) və Əhdi-Cədiddə Xananya (Həv. 9:10). Bu sözün mənası belədir: "Sənə xidmət etməyə hazıram!"

7. Bu əhvalatda Şamuel eşitdiyi səsin Rəbbin səsi olduğunu bilmədiyinə görə Kahin Elinin yanına qaçır. Eli ona iki dəfə nə dedi? (5-6-cı ayələri oxuyun)

   Üçüncü dəfə Eli Şamuelə nə dedi? (8-9-cu ayələr)

   Sizin ev qrupunuzda valideynlər öz uşaqlarının ruhani həyatında nələrin baş verdiyinə diqqət yetirirlər? Uşaqlarının ruhən Allaha açıq olduqlarını görürlərmi? Uşaqları ilə söhbət edəndə Allahın onların həyatında necə hərəkət etdiyini anlamaq üçün diqqətlə qulaq asırlarmı?

8. Şamuel Elinin ona dediyi kimi etdi. Rəbb Şamueli bir daha çağıranda, Şamuel ona, *"Danış, ya Rəbb, qulun Səni eşidir"* dedi. Rəbb Şamuelə gələcək barədə nə söylədi? (11-14-cü ayələr)

   2-ci fəsildə Eli artıq bu mühakiməni eşitmişdi. Şamuelin ona söylədikləri bunu bir daha təsdiqlədi.

   Allahın səsini ilk dəfə eşidən Şamuel Allahdan asan yoxsa çətin bir söz eşitdi? Siz uşağa belə sözü deyərdinizmi? (Əsrlər sonra yaşamış yəhudi tarixçisi İosif Flaviyin dediyinə görə, o əhvalat baş verəndə Şamuelin 12 yaşı var idi. Ancaq Müqəddəs Yazı onun yaşını dəqiq bildirmir)

9. 19-21-ci ayələri diqqətlə oxuyun. Şamuel Allahdan eşitmək və Allahın kəlamını xalqa çatdırmaq qabiliyyətində necə inkişaf etdi?

   Xalq buna necə reaksiya verdi? (20-ci ayə)

10. 3-cü fəslin son ayəsində (21-ci ayəyə bax) müəllif bizə deyir ki, Allah Özünü Şamuelə kəlamı ilə göstərmişdi. Gördüyümüz kimi, Şamuel Allahı ona danışdığı kəlam vasitəsilə tanıdı. Biz və uşaqlarımız da həmçinin ev qruplarımızda hər həftə yığışaraq Allahın bizə verdiyi Yazıdan Allahın necə olduğunu öyrənirik.

    Sizcə qrupunuzdakı uşaqlar Müqəddəs Yazı vasitəsilə Allahın yolunu öyrənə bilərlər? Qrupunuzda uşaqlara hər həftə Allahın kəlamını öyrətmək nə qədər önəmlidir?

**Dua ilə bitirin:** Ev qrupunuza gələn uşaqlara görə indi dua edin.

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***Çində bir uşaq evi, XX əsr***

## Allahın Ruhu uşaqlar üzərinə tökürlür

Müqəddəs Kitabın yazıldığı qədim dövrdən tutmuş bizim dövrümüzə qədər Allah Öz xalqını təzələmək və dünyada Padşahlığını böyütmək məqsədilə Ruhunu insanlar üzərinə dəfələrlə tökmüşdür. Ruh təkcə böyüklər deyil, uşaqlar üzərinə də tökülmüşdür.

Conatan Eduardz (Jonathan Edwards) Amerikada XVIII əsr oyanışları haqqında yazdığı əsərdə, *"Allahın Müqəddəs Ruhu uşaqlara da bariz şəkildə təsir etdi"* demişdir.

Məşhur müjdəçi D.L. Mudi (D.L. Moody) belə demişdir:

> *İblis bizi uşaqlarımızın dini mövzuları başa düşməyəcəklərinə inandırmaq üçün min cür yalana əl atdı... uşaqlar Məsihin sözlərini dərk etməyə qadir deyilsə, bəs onda Məsih niyə uşağı imanın nümunəsi olaraq göstərdi (Luka 18:17)?*

Uşaqlar Allahın təlimini anlamağa qadirdir! XX əsrdə uşaqlar arasında baş vermiş böyük oyanış uşaqların dərin ruhani həqiqətləri dərk etməyə və kiçik yaşdan həvəslə İsanın ardınca getməyə qadir olduqlarını təsdiqləyir. Bəhs etdiyim oyanış H.A. Beykerin ***Pərdə Arxasındakı Vəhylər***[1] kitabında təsvir olunmuşdur.

XX əsrin əvvəllərində Cənab Beyker və arvadı Çinin Yunnan vilayətinə səyahət etdilər. Orada "Abdullam Xilasetmə Missiyası" adındakı məsihçi uşaq evini təsis etdilər. Yetim uşaqlar, ələlxüsus 6-18 yaşlarında oğlanlar küçələrdə dilənir, həyatda qalmaqdan ötəri dəstələr təşkil edib oğurluq edirdi. Onlara təhsil verən, əxlaq öyrədən heç kəs yox idi.

Uşaq evində Cənab və Xanım Beyker onlara Müqəddəs Kitabı və İsa Məsihin müjdə təlimini öyrədirdi. Həyatlarını Məsihə həsr edən uşaqlar oldu. Başqaları yenidən doğulmasa da, Müqəddəs Yazını öyrənir, biliklərini artırırdı.

---

[1]Bu hekayə H.A. Beykerin ***Pərdə Arxasındakı Vəhylər*** kitabından götürülmüşdür (***Visions Beyond the Veil***, by H.A. Baker, Minneapolis: Osterhus Publishing House, 1950).

Bir səhər dua toplantısı başa çatmaqda ikən uşaqlar arasında oyanış başladı. Bəzi uşaqlar dərs oxumaq üçün sinifə getmişdi, amma bəziləri səylə dua etməkdə davam edirdi.

Müqəddəs Ruhun hüzurunu daha çox hiss etməyə başlayan oğlanlar günahlarını dərk edərək üz üstü yerə yıxılıb günahlarının bağışlanması üçün Rəbbə yalvarmağa başladılar. Cənab Beyker dua zalından çıxdı, sinifə getmiş oğlanlara zalda nəyin baş verdiyini bildirməyə... və—əgər istəsələr—dua etmək üçün zala qayıda biləcəklərini söyləməyə getdi.

Bir azdan sinifdə təkcə çinli müəllim qaldı, çünki bütün oğlanlar dua zalına qayıtdılar. Məsihi tanımayan çinli müəllim evə getmək üçün məktəbdən çıxmışdı, amma bir neçə dəqiqə sonra Cənab Beyker onu dua zalının arxasında gördü. O, qayıtmışdı. Cənab Beyker yazır ki, bu müəllimin "ömründə ilk dəfə diz çöküb dua etməyə cəhd etdiyini" gördü. Allahın Ruhu açıq-aşkar bu adamın ürəyində çox güclü iş aparırdı.

> *Bir azdan gördüm ki, müəllim əllərini göyə qaldırıb göz yaşı tökərək Rəbdən əfv diləyir. Onun "saysız-hesabsız günahlarımı bağışla" deyə yalvardığını öz qulaqlarımla eşitdim".*

Müəllim çox qürurlu bir adam idi və uşaqların yanında özünü bu cür aşağı tutmaq ona çətin idi. Cənab Beykerin dediyinə görə, bu adam Müqəddəs Ruhun gücü ilə həqiqətən öz günahlarını dərk etmişdir.

Uşaqlar gözlərindən yaş tökülərək, kortəbii mahnı oxuyaraq ibadət edir, ürəkdən İsaya təslim olurdular. Müqəddəs Ruh dalğa-dalğa ürəklərinə toxunur, Məsihin onların uğrunda ölməsini əqlən anlamaqdan daha dərin bir imana onları aparırdı. Ruh onların ürək gözlərini açırdı və onlar onların uğrunda ölən İsada Allahın əzəli və əbədi məhəbbətini görməyə başlayırdı.

Cənab Beyker davam edir:

> *Toplantı saatlarla davam edir, uşaqlar zaldan çıxmaq istəmirdi. Mənim bir sözümə və ya əməlimə ehtiyac qalmırdı. Elə bil, Rəbb Özü hər şeyi idarə edirdi, mən sadəcə Ona mane olmamağa çalışırdım.*

Oyanış həftələrlə davam etdi. Bəzən uşaqlar gecənin gec saatına qədər zalda dua edir, yatmaq istəmirdilər.

Bəzən Allahın hərəkət etdiyini görən rəhbərlər məktəbdə dərsləri qısaldır və ya ləğv edirdi. Başqa vaxtlarda dərslər davam edirdi və

uşaqlar həmişəki kimi öz işləri ilə məşğul idilər. Bir neçə həftə ərzində Müqəddəs Ruh dəfələrlə "dalğa" kimi onların üzərinə gəlib gedirdi. Bu müddətdə uşaqların görüntüləri, vəhyləri oldu, Ruhun ənamları aralarında fəal oldu. Cənab Beykerin dediyinə görə, uşaqlar sadəcə olaraq İsanı daha yaxından tanımağa çalışırdı və bu fövqəltəbii işlər onların arasında qəflətən baş verdi.

Günlər keçir, həftələr dolanır və oğlanlar Rəbbi axtarmaq, İsa ilə ünsiyyətdə olmaq üçün öz istəkləri ilə dua zalına gedirdilər (səhər təyin olunmuş saatda, məktəbdən sonra və axşamüstü). Rəbbin hüzuru hiss olunur və onlara böyük ləzzət verirdi. Onlar həyat suyu axan çayların (Yəh. 7:37,38) mənbəyi olan İsaya susayırdılar.

Oyanış uşaq evi ilə məhdud qalmadı. Uşaqlar keçmişdə oğurluq etdikləri küçələri dolaşıb Müjdəni yaydılar. Yoldan keçən böyüklərə və uşaqlara İsadan danışdılar, insanları tövbə edib İsa Məsihə iman etməyə çağırdılar. Güc-qüdrətlə, səlahiyyətlə danışdılar.

Tarix boyunca oyanışlarda uşaqlar əsla Allahın yadından çıxmazdı. Görkəmli ingilis vaiz Çarlz Spercen (Charles Spurgeon) belə dedi:

> *Allahın Ruhu üçün uşağın iman etmə qabiliyyəti bəzi cəhətlərdən böyük adamın qabiliyyətindən üstündür. Uşaqlar Allahın kəlamının həqiqət olduğuna qəti şəkildə inanır, Müjdəni gözləri qabağında aydın gördükləri bir fakt kimi qəbul edirlər.*

Siz ev cəmiyyətinizdəki uşaqlara görə dua etdikcə və onlara Allahın kəlamını və ibadəti öyrətdikcə, Allahın onların—Çarlz Spercenin dili ilə desək—*“iman etmə qabiliyyəti"*ni daha da artırdığını görəcəksiniz.

***Tez-tez verilən suallar:***

***1. Uşaqlara təlim öyrətmənin əhəmiyyətini qrupumuzdakı insanlara necə göstərmək olar?***

Təəssüflər olsun ki, bir çox ev qrupları uşaqlara Allahın yolunu öyrətməklə məşğul olmurlar, yalnız böyüklərə təlim öyrədirlər. Adətən Allahın kəlamına maneəsiz qulaq asmaq istəyən böyüklər uşaqları başqa otağa göndərirlər ki, filmə baxsınlar ya da oyun oynasınlar. Bu aylarla, hətta illərlə baş verir və uşaqlar Müjdənin çox az eşidirlər.

Müqəddəs Kitaba əsasən, valideynlər öz uşaqlarını Allahın yolunda böyütməyə görə məsuliyyət daşıyırlar. Ancaq valideynlərin əksəriyyəti bunu necə edəcəklərini bilmirlər və köməyə ehtiyacları vardır. Onlar bunu ev qrupunda öyrənməlidirlər. Valideynlərə təlim öyrətmək üçün bəzi məsləhətlər aşağıda verilir. Qrupunuzdakı subaylar da bu təlimi öyrənə bilərlər!

Əvvəlcə Allahın kəlamının uşaqları Allahın yolunda böyütmək barədə nə öyrətdiyini araşdırın.

***50 Həyat Dərsi*** kitabının 49-cu dərsi, "Uşaqlara İsanı sevməyi və xidmət etməyi öyrədin" sizə kömək edə bilər. Bazar günü ev cəmiyyətinizdə və ya həftənin ortasında kiçik qruplarda bu dərsi keçə bilərsiniz. Bundan əlavə, balaca Şamuelin Allahın səsini eşitməyi öyrənməsi haqqında bu fəsildə verdiyimiz dərsi hələ keçməmisinizsə, keçə bilərsiniz. Həmçinin Çində uşaqlar arasında baş vermiş oyanış barədə yuxarıdakı hekayəni qrupunuzda oxuya bilərsiniz.

İmanlılara (istər valideynlərə, istər subaylara) evdə və ev qrupunda uşaqları böyütmənin əhəmiyyətini öyrədən bir neçə mətnlər aşağıda verilir:

- Qanunun Təkrarı 6:4-9 və 6:20-25
- Zəbur 78:1-8
- Efeslilərə 6:1-4

***2.. Bizim ev cəmiyyətimizdə körpələrdən tutmuş yeniyetmələrə qədər uşaqlar vardır. Hər birinin Allahın kəlamını öz yaşına uyğun səviyyədə öyrənməsini necə təmin etmək olar?***

İlk əvvəl Müqəddəs Kitabda bu barədə qəti bir qayda-qanun yoxdur. Lakin Əhdi-Cədid dövründə, yəqin ki, bütün ailə birlikdə yığışır, ilahilər oxuyur, dua edir, təlim öyrənirdi. Dəqiq məlum deyildir, amma çox güman ki, ilk dövrdə ev cəmiyyətinin toplantıları olduqca qeyri-formal şəkildə keçirdi. İmanlılar bir ailə kimi birlikdə yemək yeyirdi (və yeməkdə çox vaxt Rəbbin Süfrəsini də qəbul edirdi), uşaqlar daxil hamı birlikdə oturub Allahın kəlamına qulaq asır, müzakirə edib dua edirdilər. Süfrə evdə aparılan söhbətlər kimi sadə və qeyri-formal idi.

Ümumiyyətlə uşaqlara böyüklərlə birlikdə kəlama qulaq asaraq təlim öyrənməyi öyrətmək olar. Böyüklərin uşaqlardan Müqəddəs Yazıdan ayələr oxumağı və ya səhnəciklər nümayiş etdirməyi xahiş etməsi uşaqların xoşuna gəlir. Rəhbərlər uşaqların da qrup müzakirəsində iştirak edə bilmələri üçün bəzi sualları sadə bir dildə deyə bilərlər.

Əgər siz Allahın kəlamını öyrənərkən uşaqları başqa otağa göndərməyi qərara alsanız, bütün valideynləri uşaqları öyrətməkdə yardım etməyə, bu məsuliyyəti birgə daşımağa təşviq etmək lazımdır. Onlar hər həftə növbəylə uşaqlara xidmət etsələr, heç kim hər dəfə Müqəddəs Kitabı öyrənməkdən məhrum olmayacaq və hər valideynin öz uşaqlarını Allahın yolunda necə böyütməyi öyrənməkdə inkişaf etmək imkanı olacaq.

### *3. Uşaqlara nəyi və necə öyrətməliyik ?*

**Hekayələr**

Əlavə B-də Allahın kəlamından bir sıra hekayələrin siyahısı verilir. Bu hekayələri oxumaq, danışmaq, yaxud səhnəcik hazırlamaq olar. Uşaqlar səhnəciklər hazırlasınlar. Bu, onların xoşuna gələcək! Bundan əlavə, hər uşaq öyrəndiyi şeylərin rəsmini çəkə bilər. Onlara hekayədən bir-iki ayəni əzbərləməyi tapşırmaq olar.

**Dua**

Bir də uşaqlara dua etməyi öyrədin! Birincisi, onlara İsanın dua barədəki təlimini öyrədin. Bunun üçün "50 Həyat Dərsi"nin "Dua edin" bölməsindəki 5 dərs sizə faydalı olacaq. Onlara Allahla sevən səmavi Ata kimi söhbət etməyi öyrənməkdə kömək edin. Uşaqlardan nəyə görə kədərləndiklərini və ya nədən qorxduqlarını soruşun. Güman ki, onlar problemləri barədə çox dərin düşünmürlər, amma bəzi şeylər onları da narahat edir.

__Məsələn__:

- **Biz uşaqlara Allahın kəlamını öyrədəndə, Müqəddəs Ruh böyüklərə təsir etdiyi kimi, onlara da təsir edir və onlar öz günahlarını dərk edirlər.** Onlara öyrədin ki, günahlarını etiraf etsinlər, bağışlanmaq və təmizlənmək üçün İsanın yanına gəlsinlər və Müqəddəs Ruhun gəlib onları dəyişdirməsini diləsinlər.
- **Böyüklər kimi, uşaqların da ümidləri, arzuları və eləcə də məyusluqları olur. Onların ağlından nə keçir?** İmanlı böyüklər bu uşaqlara İsanın təlimlərinə əsasən imanla dua etməyi öyrədə bilərlər.
- **Bəzi uşaqlar məktəbdə başqa uşaqların və bəzən müəllimlərin istehzalarından əziyyət çəkirlər.** Bu yaraların şəfa tapması vacibdir və dua xidməti uşaqları şəfa verən İsaya yönəldir. Həmçinin, İsanın öyrətdiyi kimi, onları təqib edənlər üçün dua etməklərinə kömək edə bilərsən.
- **Bəzən uşaqlar alkoqolizm, narkomaniya, zorakılıq kimi ağır şeyləri yaxından görürlər.** Bunların adamı məhv etdiyini anlayır, amma yardım etmək üçün nə edə biləcəklərini bilmirlər. Onlarla birlikdə dua edə bilərsiniz.
- **Onlar öz ətrafında başqa hansı ehtiyacları görürlər?** Xəstəliyi və ya başqa bir ehtiyacı olan bir dost və ya qohumları vardırmı? Onların İsanı tanımayan tanış adamları üçün dua etmələrinə kömək edin.

**Yadda saxlayın ki,** uşaqlar dualarının cavablarını gördükcə imanları artacaq!

**İlahilər**

Uşaqlar mahnı oxumağı sevirlər! Mahnılar, Allahın uşaqlara olan məhəbbətinin onların yadında qalmasına əla kömək edir. Onlara öyrədə biləcəyiniz sadə ilahiləri tapmaq üçün istifadə etdiyiniz ilahilər kitablarında və ya internetdə axtara bilərsiniz. (Bax: Əlavə A, "Vəsaitlər".)

Əlbəttə, uşaqlara Allahın kəlamını öyrətmək üçün daha çoxlu vəsaitlər vardır: oyunlar, əl işləri, təbiət gəzintiləri, birlikdə yerinə yetirilən xüsusi layihələr. Uşaqlar üçün dua edərək Allahdan sizə yaradıcı fikirlər verməsini gözləyin.

### *4. Uşaqlara Müqəddəs Kitabı öyrətmək üçün mövcud olan vəsait azdır. Biz nə edə bilərik?*

Siz azsaylı bir xalqa mənsub deyilsinizsə, çox güman ki, düşündüyünüzdən daha çox vəsait vardır. Hətta azsaylı xalqların dilində belə, hər il yeni məsihçi ədəbiyyatı nəşr olunur.

Uşaqlara təlim öyrətmək üçün nəzərdə tutulmuş vəsaitləri tapmaq məqsədilə digər imanlılara müraciət edin. Çox güman ki, uşaqlar üçün video materialları, Müqəddəs Kitab hekayələri və digər vəsaitlər mövcuddur. Bunları satın almaq üçün pula ehtiyacınız varsa, həftəlik ianələrinizin bir hissəsini buna sərf edə bilərsiniz. (Bax: 11-ci Fəsil, "Vermənin xeyir-duasını kəşf etmək.") Və əlbəttə, interneti axtarmağı da unutmayın. Uşaqlara təlim öyrədən vəsaitlərin sayı ildən-ilə artır. (Bax: Əlavə A, "Vəsaitlər".)

Vəsaitlər faydalı ola bilər, amma uşaqların təxəyyül gücünü də qiymətləndirməmək olmaz. Əslində, bu, uşaqların ən böyük ənamlarından biridir. Yuxarıdakı suala ("Uşaqlara nəyi və necə öyrətməliyik?") qayıdın. Orada pulsuz və yaxud çox ucuz bir şeylər tapa bilərsiniz.

### *5. Uşaqlarımıza təlim öyrətməkdə ən mühüm məqsədimiz nədir?*

78-ci məzmur Allahın keçmişdə etdiyi uca işlərdən və bunları uşaqlarımıza nəql etməyin əhəmiyyətindən bəhs edir. Məqsədimiz aşağıda qalın şriftlə qeyd olunmuşdur:

> *Bunu onların nəvələrindən gizlətməyəcəyik; Rəbbin həmdə layiq işlərini, Onun qüdrətini, etdiyi xariqələri gələcək nəsillərə söyləyəcəyik... Ata-babalarımıza əmr etdi ki, bu təlimi övladlarına öyrətsin. Qoy gələcək nəsil də bilsin, gələcəkdə doğulacaq övladlar da balalarına bu təlimi verə bilsin.* ***Qoy ümidlərini Allaha bağlasınlar, Allahın işlərini unutmasınlar, əmrlərini yerinə yetirsinlər****... (Zəb. 78:4-7)*

Uşaqlarla məşğul olan hər kəs yadda saxlamalıdır ki, hər uşaq, böyüklər kimi, Allahın şəxsən onu sevdiyini bilməlidir. Allah onun adını bilir. Uşağı ümidlərindən, arzularından xəbəri vardır. Allah onu kədərləndirən hər şeyə görə narahat olur və onun dualarını eşidir. Ən önəmlisi odur ki, Allah İsa Məsihin simasında bu dünyaya gəldi və uşağın günahları üçün canını qurban verdi.

Siz elə bilməyin ki, uşaqlar öz günahlarını dərk etmirlər. Biz İsa Məsihin xoş xəbərini onlara danışanda, Müqəddəs Ruh ürəklərində fəal olaraq günahı dərk etmələrinə kömək edir. Müjdə onların ürəklərində iman yaradır, belə ki, onlar günahları üçün canını qurban verən Məsihə baxıb xilas olurlar.

Hər ev cəmiyyəti uşaqlarının Müjdəni dərk edib Məsihə iman etmələrinə görə tez-tez dua etməlidir. Valideynlər və ev cəmiyyətləri üçün bu cəhətdən faydalı olacaq bir vəsait, Uşaqları Allah yolunda necə böyütmək kitabıdır. Bu kitabın elektron versiyasını var. (Bax: Əlavə A, "Vəsaitlər".)

### *6. Uşaqlara ədəbiyyat vermək olar?*

Bəzi ölkələrdə uşaqlara məsihçi ədəbiyyatı (yaxud audio-video materialları) vermək qadağandır və siz yalnız onların valideynlərinə bunları verə bilərsiniz. Valideynlər bu materiallarla tanış olub öz uşaqlarına vermək istəyib-istəmədiklərini özləri qərara alacaqlar. Belə materiallar çox vaxt məsihçi olmayan valideynlərin də xoşuna gəlir. Onlar həm özləri belə ədəbiyyatı oxuyur, həm də uşaqlarına verirlər. Uşaqlara ədəbiyyat verməyi qadağan edən qanunu tamamilə mənfi saymaq yanlışdır. Bu qanunun sayəsində siz valideynlərlə də Müjdəni paylaşa bilərsiniz! Nəticədə bütün ailə Məsihə iman gətirə bilər.

## *Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?*

### *Tətbiq və dua*

1. Tez-tez verilən sualların əvvəlki hissəsində birinci sualı təkrar nəzərdən keçirin.

   Siz valideynlərin öz uşaqlarına Allahın yolunu öyrətməsinin əhəmiyyəti haqqında ev qrupunuzda təlim öyrətmisinizmi?

   O birinci sualda bu məqsədlə məsləhət görülən Müqəddəs Kitab dərslərinə baxın. Bunları ev cəmiyyətinizin həftəlik toplantısında və ya xüsusi vaxtlarda yığışaraq öyrənməyə nə vaxt başlaya bilərsiniz?
2. Tez-Tez verilən suallarda 2, 3 və 4 nömrəli suallar, ev cəmiyyətinizdəki uşaqlara necə təlim öyrətmək barədə düşünməyinizə kömək etmək üçün nəzərdə tutulmuşdur. Bunu indi planlaşdırın! O sualları təkrar oxuyun və müzakirənizə bu gün başlayın. Ev qrupunuz yığışanda uşaqlara təlim öyrətmək məqsədilə nə edəcəyinizi müəyyən etmək üçün bəzi konkret məqamlar dəqiqləşdirilməlidir:
   - Cəmiyyətimizin həftəlik toplantılarında Allahın kəlamını öyrəndiyimiz zaman uşaqlarımızı yanımızda saxlayacağıq, yoxsa başqa bir otaqda onlara təlim verəcəyik? Uşaqları yanımızda saxlayacağıqsa, həm onlar üçün, həm də böyüklər üçün toplantının maraqlı olması üçün necə şərait yaradacağıq?
   - Onlara böyüklərdən ayrı təlim verəcəyiksə, kim onlarla məşğul olacaq? Onlara necə təlim verəcəyik (hansısa materiallarla, hekayələrlə, səhnəciklərlə və s.)?
3. Ev cəmiyyəti toplantısına hər həftə gələn uşaqlara Müjdəni izah etməklə kim məşğul oldu? Bu uşaqların ruhani vəziyyəti necədir? Böyükləri iman etməyə məcbur etmədiyimiz kimi, uşaqları da məcbur etməyə çalışmamalıyıq. Bunun əvəzinə onlara Müjdəni danışıb Allahın məhəbbətini göstərməliyik. Siz ev qrupunuzda belə edirsinizmi? Əgər etmirsinizsə, tezliklə başlayacaqsınızmı? Nə vaxt və necə?
4. Ev cəmiyyətinizdəki uşaqlara və valideynlərinə görə dua edin.

# 9. Rəbbin Süfrəsini şükranla qeyd edin

*Çünki sizə çatdırdığım bu xəbəri Rəbbin Özündən qəbul etmişəm: Rəbb İsa Ona xəyanət edildiyi gecə əlinə çörək götürdü, şükür edib onu böldü və dedi:*

*«Bu Mənim sizin üçün verilən bədənimdir. Bunu Məni xatırlamaq üçün edin».*

*Eləcə də axşam yeməyindən sonra kasanı götürüb dedi:*

*«Bu kasa Mənim qanımla bağladığım Yeni Əhddir. Bunu hər dəfə içəndə Məni xatırlamaq üçün edin».*

*Çünki hər dəfə bu çörəyi yeyəndə və bu kasadan içəndə siz Rəbbin gəlişinədək Onun ölümünü bəyan edirsiniz. (1Kor. 11:23-26)*

*Giriş*

## Bütün dünyadakı imanlılar bu Yeni Əhdi qeyd edir

İsanın çarmıxa çəkilməsindən əvvəlki gecə Onunla birlikdə Pasxa yeməyi yeyən şagirdlər üçün hər şeyin nə qədər qəribə olduğunu heç düşünmüsünüz? O onlara çörək və şərab paylayıb dedi ki, bu Mənim bədənim və qanımdır, Allahla insanlar arasında Yeni Əhddir.

Ertəsi gün İsa çarmıxda ölərkən şagirdləri Onun əsl bədəninin və qanının dünya üçün verilməsinin canlı şahidləri olduqlarından xəbərsiz idilər. Onlar elə bilirdilər ki, başçılarının ölməsi ilə hər şeyi itiriblər. Həqiqətdə isə, əksinə, İsanın onların uğrunda etdiyi iş sayəsində qazanıblar.

İsa isə Pasxa yeməyində bilirdi nə baş verəcək. O, şagirdlərinə əvvəldən demişdi:

> *...Beləcə Bəşər Oğlu gəlmədi ki, Ona xidmət etsinlər, gəldi ki, Özü xidmət etsin və çoxlarını satın almaq üçün Öz canını fidyə versin. (Mat. 20:28)*

O Pasxa yeməyində İsa şagirdlərinin (və bütün gələcək nəsillərin) bir şeyi dərk etməsini istəyirdi. O hamımıza sanki belə deyirdi: "Sizin üçün nə edəcəyimi dərk etməyinizi istəyirəm. Dərindən düşünün. Bu süfrəni tez-tez keçirin. Sizin uğrunuzda öldüyümü unutmayın".

Fərqli millətlərdən və dillərdən olan imanlılar əsrlər boyu Rəbbin Süfrəsini birlikdə qəbul etmişlər. Onlar çörəyi yeyib kasadan içərkən İsanın ölümünü yenidən bəyan edirlər və hər imanlının ürəyində Allahın lütfünə iman artır. İmanlılar İsanın ikinci gəlişinə qədər belə etməyə davam edəcəklər.

*__Müqəddəs Kitab Dərsi__*

## Paul, İmanlılara Rəbbin Süfrəsinə dəyər verməyi öyrədir

**Başlanğıc müzakirəsi:** Rəbbin Süfrəsini qəbul etməyin sizə necə təsir etdiyini qrupla bölüşün.

### 1-ci Korinflilərə 11:17-34

1. Paul, Korinfdəki toplantılar haqqında nə deyir? (17-18-ci ayələr)
2. I əsrdə imanlılar cəmiyyəti birlikdə yemək yeyərkən tez-tez Rəbbin Süfrəsini qəbul edirdi. Bu ənənə, İsanın xəyanət edildiyi gecə şagirdləri ilə Pasxa yeməyi yediyi vaxt başladı. Lakin Korinfdə bu xüsusi yeməkdən sui-istifadə olunurdu. Paul onları nə üçün məzəmmətləyir? (20-22-ci ayələr)
3. Paulun dediyinə görə, İsanın bizə Rəbbin Süfrəsini verdiyi gecə nə baş vermişdir? (23-cü ayə). Sizcə İsa, xəyanət edilib çarmıxa çəkiləcəyini bildiyinə görə şagirdləri ilə çörək yediyi və şərab içdiyi gecə Özünü necə hiss edirdi?
4. İsa çörəyi necə adlandırdı? Şərab kasasını necə adlandırdı? Onlar yeyib içərkən nə bəyan edirdilər? (26-cı ayə). "Rəbbin gəlişinədək Onun ölümünü bəyan etmək" nə deməkdir?

   Sizcə ev cəmiyyətinizdə Rəbbin Süfrəsi İsanın ölümünü bəyan etmək üçün keçirilir?
5. 27-34-cü ayələri yenə oxuyun. Sizcə Paul Rəbbin Süfrəsini layiq olmayan tərzdə qəbul etməkdən bəhs edərkən nəyi nəzərdə tuturdu? (Korinflilərin yanlış hərəkətlərini xatırlayın, 21-22-ci ayələr)
6. 29-cu ayədə "Rəbbin bədənini dərk etmədən" deyildikdə nə nəzərdə tutulur? Korinfdəki cəmiyyət Rəbbin Süfrəsini keçirərkən Rəbbin bədənini nə mənada dərk etmirdi? İsanın xəyanət edildiyi gecə göstərdiyi həlimlik onların bir-birinə qarşı davranışlarında görünürdümü?
7. Paulun dediyinə görə, özümüzü nəzərdən keçirib mühakimə etmək doğrudur? (28-31-ci ayələr). Bu mətnə əsasən, biz özümüzü mühakimə edəndə nə baş verir? (31-ci ayə). Rəbb bizi mühakimə edəndə nə olur? (32-ci ayə).

   Bəzi imanlılar "layiq olmayan tərzdə" (27-ci ayə) yeməkdən qorxduqlarına görə aylarla, bəzən illərlə Rəbbin Süfrəsini qəbul etmirlər. Onlar "öz üzərinə mühakimə" (29-cu ayə) gətirmək istəmirlər.

Onlar elə bilirlər ki, Paul günah işlətmiş hər kəsin Rəbbin Süfrəsini qəbul etməməyini buyurur. Belə düşünmək doğrumu? İsa Öz bədənini və qanını bizim uğrumuzda nə üçün verdi?

Biz günah işlətmişiksə, Rəbbin Süfrəsini qəbul etməmişdən əvvəl nə etməliyik? (1-ci Yəhya 1:9).

8. Paulun 33-cü və 34-cü ayələrdəki yekun bəyanatlarını yenə oxuyun. O, imanlıların bu məsələyə necə münasibət göstərməsini istəyirdi? Kimdən nümunə götürmələrini məsləhət görürdü?
9. **Dua ilə bitirin:** Siz bir ev cəmiyyətinin rəhbəri olaraq Rəbbin Süfrəsini qəbul edərkən, "Rəbbin bədənini dərk etməyi" (29. ayə) başqalarına necə öyrədə bilərsiniz? Məsihin Bədəninin birliyi üçün çalışacaqsınızmı? Digər imanlılara həlimliklə xidmət edəcəksinizmi? Bu şeylər haqqinda dua etmək üçün indi vaxt ayırın.

***Məsihçi tarixindən bir hekayə***

***İngiltərə, XIX əsr***

## İngilis bir general çarmıxın qarşısında özünü alçaldır

Rəbbin Süfrəsi onu göstərir ki, hamımız Məsihin lütfünə şərik olan, birlikdə duran dilənçilərik. Rəbbin süfrəsində başqalarını özümüzdən daha vacib sayırıq, çünki öz nöqsanlarımızı yaxşı bilirik və Məsihin bol lütfünü qəbul edirik. Onun mərhəməti bizə Onun lütfünə üz tutan başqa insanları sevməyi öyrədir.

Lord Vellinqton, 1815-ci ildə Vaterlo döyüşündə İngilis ordusu ilə Napoleonu məğlub edən məşhur hərbi başçı idi. O, öz doğma yerinə gələndə imanlılar cəmiyyətinin toplantılarında müntəzəm iştirak edirdi.

Kilsəyə daxil olanda cəmiyyətin üzvləri onun gəlişi haqqında bir-birlərinə pıçıltı ilə xəbər verirdilər. Bu hərbi qəhrəmanın onların toplantısında iştirak etməsi ilə fəxr edirdilər.

Rəbbin Süfrəsini qəbul etmək vaxtı gəldi. O cəmiyyətdə Rəbbin Süfrəsini qəbul etmək üçün kiçik qruplar qabağa çıxıb diz çökürdü. Lord Vellinqton da qabağa çıxdı, diz çökdü və çörəklə şərabı gözləyərkən sakitcə dua etdi. İmanlılar bu şöhrətli başçıya hörmət göstərmək üçün onun qabağa tək çıxmasına imkan verdilər.

Lakin o səhər köhnə paltarlı qoca bir kəndçi də orada ibadət edirdi. O qabağa çıxıb məşhur başçının yanında diz çökdü. Bunu görən hər kəs mat qaldı. Bir dyakon tez kəndçinin yanına qaçdı, yavaşcadan çiyninə vuraraq pıçıldadı ki, qalxıb Lorddan uzaqlaşsın.

Dyakonun dediyini eşidən Lord tez qoca adamın əlini tutdu, onu qalxmağa qoymadı. “Qalxma!”dedi. “Burada hamımız bərabərik".

*****

İsa Məsihin xoş xəbəri, Allahın gözündə çox dəyərli olduğumuzu görməkdə hamımıza kömək edir və həmçinin İsanın çarmıxı qarşısında diz çökənlərin bərabər olduqlarını göstərir. Heç kim başqasından daha yuxarıda deyildir. Heç kim başqasına yuxarıdan baxmamalıdır. Müqəddəs yazı bizə öyrədir ki, *"...hamı günah edib, Allahın izzətindən məhrum olub" (Romalılara 3:23).*

İmanlılar İsanın ölümünü birlikdə yada salmaq üçün Rəbbin Süfrəsini qəbul etdikləri hər dəfə bu gözəl həqiqəti hiss edə bilərlər. Heç kəs öz

şəxsiyyəti ilə öyünməməlidir. Əksinə, biz Allahın önündə özümüzü alçaltmalıyıq. Bizi xilas etdiyinə görə Ona şükür edirik. Bu cür fədakar məhəbbətə layıq olmadığımızı bilirik.

Həvari Paul özü barədə *"günahkarlardan ən betəri mənəm"* dedi (1-ci Timoteyə 1:15). O bir zamanlar qürurlu, özünü saleh sayan Tarsuslu Şaul idi, amma İsanın onun üçün çarmıxda nə etdiyini dərk edəndən sonra həlim bir adam oldu. İsa, bu gözəl xasiyyət haqqında belə demişdir: *"Nə bəxtiyardır ruhən yoxsullar! Çünki Səmavi Padşahlıq onlarındır". (Matta 5:3)*

Rəbbin Süfrəsini qəbul etdiyimiz hər dəfə özümüz barədəki bu həqiqəti təkrar nəzərdən keçiririk. İsa Məsihsiz biz məhv olarıq. Amma Onun böyük mərhəməti bizi yüksəldir, belə ki, biz Allahla yaşayırıq. Artıq təkbaşına yaşamırıq. Varlı yoxsul, məşhur sadə— dünyadakı bütün imanlılarla birlikdə əl-ələ veririk. Lord Vellinqtonun dediyi kimi, "Burada hamımız bərabərik".

> *Çünki hamı günah edib, Allahın izzətindən məhrum olub və Onun lütfü ilə də Məsih İsada satın alınmağa nail olaraq bir hədiyyə kimi saleh sayılır. (Romalılara 3:23,24)*

## Tez-Tez verilən suallar

### *1. Əhdi-Ətiqdəki Pasxa Bayramınn Əhdi Cədiddəki Rəbbin Süfrəsi ilə əlaqəsini nədir?*

Şagirdlər, bu gün Rəbbin Süfrəsi adlandırdığımız mərasimi ilk dəfə yəhudilərin Pasxa bayramında keçirdilər. Bu bayram Musanın dövründə başlamış qədim bir yəhudi ənənəsinə əsaslanırdı. Hər il keçirilən bu bayram, israillilərin Misirdə kölə olduqları zamana gedib çıxır. Onlar Misirdən çıxmazdan əvvəlki gecə quzuları qurban kəsib yedilər. Quzuların qanı qapıların yan taxtalarına və üst dirəklərinə sürtülmüşdü və insanlar qanı görüb evlərini yan keçən ölüm mələyindən xilas olmuşdular. Bu, xalqı köləlikdən buraxmaq istəməyən fironun və misirlilərin son mühakiməsi idi. Misirdəki hər ilk oğul öldü.

O gecə israillilər həmçinin mayasız çörək yedilər. Bu, onların Misiri tez tərk edəcəklərinin rəmzi idi. Xəmirin şişməsini gözləmək üçün vaxtları yox idi (Çıxış 12-ci fəsildə bu hekayəni oxuya bilərsiniz).

Məhz bu bayram gecəsində İsaya xəyanət edildi və bu bayramı qeyd edərkən şagirdlərinə çörəyin yeni mənasını öyrətdi: bu çörək, onların uğrunda verilən bədəni, şərab da onların uğrunda axıdılan qanı idi. Onlar birlikdə yeyib içdilər.

Bundan əlavə, İsa onlara gələcəkdə bu çörəyi yeyib şərabı içəcəkləri vaxt həmişə Onu xatırlamalarını buyurdu. O gecə İsa həbs edildi və ertəsi gün çarmıxa çəkildi. Dirilməsindən sonra şagirdlər Onun ölümünü çörək və şərab ilə tez-tez xatırladılar. Bu ənənə, bütün dünyadakı məsihçilər arasında əsrlərlə davam etmişdir.

Yuxarıdakı tarixçə, Rəbbin Süfrəsinin ilk dəfə bayram zamanı keçirildiyini anlamağımıza kömək edir. Bu mərasim ilk dəfə kilsə binasında deyil, bir evdə həyata keçdi. Yəhudilər, köləlikdən və ölümdən azad olduqlarını qeyd edirdilər. Bu azadlıq, qurbanlıq quzunun fəda edilməsi bahasına əldə olunmuşdur. Buna bənzər həqiqət ondan ibarətdir ki, biz də xilas edildik, amma Misir köləliyindən deyil, daha qorxunc bir köləlikdən—GÜNAH və ÖLÜM köləliyindən azad edildik. Biz, qurbanlıq quzumuz İsa Məsihin əbədi həyata nail olmağımız üçün öldüyünü yada salırıq!

### *2. Ev cəmiyyətimizdə Rəbbin Süfrəsinin keçirilməsinin rəsmi bir yolu varmı?*

Cəmiyyətlərdə əsrlər boyunca Rəbbin Süfrəsini müxtəlif yollarla keçirmişdir. Ancaq İsa buna dair heç bir qayda qoymamışdır. Əsas odur ki, biz İsanı həlimlik və ehtiramla yada salaq. O bizim üçün canını qurban verdi. Buna görə də ev qruplarının rəhbərləri Rəbbin Süfrəsi vaxtını dua ilə planlaşdırmalıdırlar. Müqəddəs Ruhdan sizə yol göstərməsini diləyin. Bizim uğrumuzda verilmiş qurban haqqında ilahilər seçin. Münasib ayələr oxuyun (aşağıdakı siyahıya baxın). Bir adam İsaya olan məhəbbəti barədə yazdığı bir şeir oxuya bilər. Bədəni və qanı, günahlarımıza görə verdiyi qurbanı üçün Rəbbə ürəkdən şükür edin.

Süfrə vaxtının ehtiramlı və nizamlı keçməsi üçün iştirakçılara çörəklə şərabı necə qəbul edəcəklərini əvvəlcədən izah edin. Rəbbin Süfrəsi müxtəlif yollarla qəbul edilə bilər. Ən önəmlisi odur ki, iştirakçılar öz günahlarını etiraf etsinlər, İsanın şəxsən onlar üçün öldüyünü düşünsünlər, Onun bağışlamasına və lütfünə tamamilə güvənsinlər. Yadda saxlayın ki, bu bir ibadət vaxtıdır. İnsanların sakitcə İsa ilə görüşməsinə kömək edin. Onun hüzuru çox yaxındır.

### *3. Ev cəmiyyətimizdə Rəbbin Süfrəsini nə qədər tez-tez qəbul etməliyik?*

Əhdi-Cədiddən görünür ki, cəmiyyətlər bu Süfrəni hər həftə (bəlkə də hər gün), çox vaxt birlikdə yemək yeyərkən qəbul edirdilər (Həvarilərin İşləri 2:42-47-yə baxın). Necə ki 12 şagird Rəbbin Süfrəsini ilk dəfə bayram yeməyində (Pasxa yeməyində, İsa onlara Yeni Əhdi təsis etdiyini elan edəndə) qəbul etdiyi kimi, eləcə də ilk məsihçilər bunu birlikdə yemək yeyərkən qəbul edirdilər. Bununla belə, İsanın bunu nə qədər tez-tez keçirmək barədə heç bir qayda qoymadığını yadda saxlayaq. 1 Kor. 11:25-də deyilir ki, bunu hər dəfə içəndə İsanı xatırlamalıyıq.

Bir çox cəmiyyətlərdə Rəbbin Süfrəsi, hər həftə ibadətin mərkəzində durur. Bəzi insanlar Allahın lütfünü təzədən yada salmaq üçün bu Süfrəni hər gün qəbul edirlər. Digər qruplar bunu ayda bir dəfə edirlər. Onu nə vaxt qəbul edirsiniz-edin, əsas odur ki, bunu ibadət və şükür edərək keçirəsiniz, həmçinin bir az sakitlikdə qalasınız və hər kəs Allahla təklikdə qalıb Müjdənin gözəlliyini düşünsün.

### *4. Rəbbin Süfrəsini yalnız pastor apara bilər?*

Əhdi-Cədidin heç bir yerində deyilmir ki, Rəbbin Süfrəsini yalnız pastorlar apara bilərlər. Məsih buyurdu ki, biz Onu yada salmaq üçün bu

Süfrəni keçirək. Bunu yalnız xüsusi insanların apara biləcəyini demədi. Müqəddəs Kitab bütün məsihçilərin kahin olduqlarını öyrədir (1Pet. 2:5, Vəhy 1:6). Rəbbin Süfrəsini bir-birimizə həlimliklə paylayırıq. Məsih hamımıza lütfünü göstərmişdir.

Lakin ev cəmiyyətlərində bu xüsusi mərasimi aparan insanların bunun mənasını dərk etmələri çox önəmlidir. Düzgün bir ruhda rəhbərlik etsək, ev cəmiyyətimizdəki insanların ruhda və həqiqətdə ibadət etmələrinə kömək edəcəyik.

### *5. Yalnız vəftiz olmuş şəxslər Rəbbin Süfrəsini qəbul edə bilər?*

Onu bilmək vacibdir ki, yalnız vəftiz olmuş imanlıların Rəbbin Süfrəsini qəbul etməsini Əhdi-Cədid əmr etmir. Bununla belə, Həvarilərin İşləri kitabından gördüyümüz kimi, I əsrdə məsihçilər tövbə, iman və vəftiz vasitəsilə cəmiyyətə daxil olurdular. Vəftiz olmaqla insan, Məsihin yoluna qədəm qoyduğunu göstərirdi. Bu, onların tövbə və iman edəndən sonra əməl etdikləri Məsihin birinci əmri idi. Ondan sonra toplantılarda cəmiyyətlə birlikdə Rəbbin Süfrəsini qəbul etmək əmrinə də əməl edirdilər..

Əsrlər boyunca cəmiyyətlər bir qayda olaraq imanlının əvvəl vəftiz olmasını, sonra isə Rəbbin Süfrəsini qəbul etməsini tələb edirdi. Əhdi-Cədid bu barədə konkret bir əmr vermədiyinə görə hər cəmiyyətin rəhbərliyi öz qərarını verməlidir. Bəlkə sizin ev cəmiyyətiniz, bir ev cəmiyyətləri şəbəkəsinə daxildir. Cəmiyyətinizin bu barədə nə qərar verməli olduğuna əmin deyilsinizsə, şəbəkənin rəhbərləri ilə məsləhətləşməlisiniz.

Qrupunuz vəftiz və Rəbbin Süfrəsi barədə nə qərara gəlir-gəlsin, bunu nəzərə almağınız məsləhət görülür: Məsih bizə insanları Onun şagirdi etməyi və bütün əmrlərinə riayət etməyi onlara öyrətməyi tapşırdı (Mat. 28:18-20). Əgər toplantılarınıza gələn insanlar arasında İsanın ardınca getdiyini söyləyən və Rəbbin Süfrəsini qəbul etmək istəyən, amma vəftiz olmaq istəməyənlər varsa, siz rəhbərlər olaraq onlarla görüşüb bunun səbəbini öyrənməlisiniz. Onlara vəftizin mənasını və əhəmiyyətini dərk etməkdə kömək etmək üçün bu kitabın vəftiz barədəki fəslində verilmiş (5-ci fəsil) ayələri göstərə bilərsiniz. Təqibdən qorxduqları təqdirdə, müvafiq fəslə (15-ci fəsil) müraciət edə bilərsiniz. Siz rəhbərlər olaraq mülayim şəkildə bu imanlıya nəsihət verib İsanın öyrətdiyi hər şeyi yerinə yetirərək Onun ardınca getməkdən sevinc duymasına kömək edə bilərsiniz.

### *6. Bəzi qruplar şərabdan, başqaları isə qırmızı şirədən istifadə edir. Bunlardan hansı doğrudur?*

Bəzi adamlar, sərxoşluq və asılılıq ilə mübarizə apara bilər, buna görə qrupunuz onları sınağa çəkməmək üçün şərabdan istifadə etməməyi qərara ala bilər. Şərab əvəzinə şirədən istifadə etmək hamı üçün daha məhəbbət dolu bir seçim ola bilər.

Başqa qruplarda belə sınağa çəkilən adamlar olmaya bilər və rəhbərlər şərabdan istifadə etməyi qərara ala bilərlər. Hər necə olsa, bu mərasimin mübahisə üçün deyil, həlimlik üçün keçirildiyini yadda saxlayaq. Bu mərasim günahlarımızı etiraf etməyimizə və həmçinin İsanın bizim uğrumuzda və Allahın lütfünə möhtac olan günahkarların hamısı uğrunda qanını tökdüyünə görə şükür etməyimizə kömək etmək üçün nəzərdə tutulmuşdur.

### *7. Rəbbin Süfrəsini qəbul etməmişdən əvvəl Müqəddəs Yazıdan oxumalıyıq? Əgər oxumalıyıqsa, hansı mətnləri oxumalıyıq?*

Adətən cəmiyyətlərdə çörək və kasa paylanarkən 1 Kor. 11:17-34 oxunur. Amma siz həmişə bu ayələri oxumağa məcbur deyilsiniz. Qrupunuza tövbə və Allahın mərhəmətinə iman üzərində düşünməyə kömək edə biləcək daha çoxlu mətnlər vardır. Fərqli ayələr oxumaq bizim oyaq qalmağımız və başqa mətnlərə bələd olmağımız üçün faydalı olacaq.

Aşağıdakı Əhdi-Cədid mətnləri İsanın günahlarımız üçün ölməsini dərk etməyimizə ən çox kömək edir, amma aşağıdakı Əhdi-Ətiq mətnləri də günahımızın nə qədər ciddi olduğunu və Allahın, Ona həlimliklə baxanlara olan lütfünü anlamağımıza kömək edir. Aşağıdakı məzmurlar, imanlılara əsrlər boyu təmizlənmək ehtiyaclarını Allaha bildirmək üçün faydalı olan tövbə dualarıdır.

Rəbbin Süfrəsini aparan rəhbər iştirakçılara həmişə xatırlatmalıdır ki, biz bağışlanmaq üçün ancaq Məsihə üz tutmalıyıq.

**Rəbbin Süfrəsində oxumaq üçün təklif olunan Əhdi-Ətiq mətnləri:**

- Yeşaya 52:13 Yeşaya 53:1-12 (Məsihin çarmıxa çəkilməsinə dair bu peyğəmbərlik İsadan 700 il əvvəl yazılmışdır!)
- Zəbur 32
- Zəbur 51
- Zəbur 103

**Əhdi-Cədiddən ayələr:**

- Luka 23:26-56 (və ya başqa Müjdələrdə Məsihin çarmıxa çəkilməsi haqqında yazılanlar: Matta 27:32-66; Mark 15; Yəhya 19)
- Yəhya 6:25-71—İsa Özünün həyat çörəyi olduğunu öyrədir
- Romalılar 3:21-31
  1-ci Korinflilərə 11:17-34
- Efeslilərə 2
- Filipililərə 2:1-11
- 1-ci Yəhya 1:5–2:2
- Vəhy 5

## ***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

### *Tətbiq və dua*

1. Ev toplantılarınızda iştirak edən hər kəslə birlikdə Rəbbin Süfrəsinin mənasını öyrəndinizmi?

   QEYD: Bu fəslin Müqəddəs Kitab dərsindən başqa 50 Həyat Dərsi kitabında Rəbbin Süfrəsi mövzusunda üç dərs vardır. Hər dərsdə bu önəmli mərasimin fərqli cəhəti nəzərdən keçirilir.

2. Əvvəlki səhifələrdəki tez-tez verilən sualları qrupunuzdakı digər rəhbərlərlə oxuyun. O suallardan, aşağıdakılarla əlaqədar nə edəcəyinizə qərar vermək üçün istifadə edin:

   - Qrupunuzda Rəbbin Süfrəsini nə qədər tez-tez keçirəcəksiniz?
   - Hansı ayələri oxuyacaqsınız? (Əhdi-Ətiq və Əhdi-Cədid mətnlərinə dair təkliflərə baxın.)
   - İnsanlara İsanın qurbanını düşünməyə kömək edən hansı ilahiləri Rəbbin Süfrəsindən əvvəl (və ya ərzində) oxuyacaqsınız?
   - Tez-tez verilən suallarla əlaqəli başqa müzakirələr

3. Dua edin ki, Rəbbin Süfrəsinin qrupunuzda keçirilməsi vasitəsilə insanlar həmişə İsanın hamımızın uğrunda verdiyi qurbanı daha dərindən dərk etsinlər.

# 10. Dua vasitəsilə imanda böyümək

***Diləyin, sizə veriləcək, axtarın, tapacaqsınız, qapını döyün və sizə açılacaq. Çünki hər diləyən alar, axtaran tapar, qapı döyənə açılar. (Matta 7:7-8)***

***<u>Giriş</u>***

## Duanın gücü

İmanlılar cəmiyyətlərinin böyüyüb çoxaldığı hər yerdə ürəkdən dua edən adamlar tapacaqsınız. Ev toplantınızda İsanın əsl şagirdlərinin böyüməsi üçün onlara **göylərdə olan Atalarına dua etməyi və Səmavi Atanın həqiqətən onların qayğılarına qaldığına və dualarına cavab verdiyinə inanaraq dua etməyi** öyrətməlisiniz. İsa ilk şagirdlərinə məhz bunu öyrətdi.

Biz müntəzəm olaraq birlikdə dua edəndə və xüsusilə Rəbbin dualırımıza necə cavab verdiyini bir-birimizə danışanda imanımız böyüyür.

Əgər Müjdənin kəndlərimizdə, şəhərlərimizdə və ölkəmizdə yayılmasını istəyiriksə, duada olmalıyıq. Və bir yerdə dua etməyi öyrənməliyik.

Bu fəsil sizə, bir ev cəmiyyəti olaraq duada necə böyüməyi öyrədəcək. Dua etdikçə, İsa Məsihin Müjdəsinin sizin ev cəmiyyətiniz vasitəsilə yayılmasını ümidlə gözləyin!

***Müqəddəs Kitab Dərsi***

## Həvari Pauldan necə dua etməyi öyrənmək

**Başlanğıc müzakirəsi:** "Bu gün dua xahişləriniz varmı?" Ev toplantılarında dua vaxtı adətən bu sualdan başlayır. Bu xahişlərdə tez-tez çox önəmli ehtiyaclar söylənir:

"Mənə iş lazımdır". "Xalam xərçəng xəstəliyinə tutulub". "Oğlum gələn həftə universitet imtahanlarını verəcək".

Bunların hamısı Rəbb üçün çox önəmlidir. Rəbb bizə "bir-birinizin yüklərini daşıyın..." *deyə öyrədir və biz bunu edəndə Məsihə bənzəyirik. (Qal. 6:2)*

Bu dərs bizə bir-birimizə görə dua etmənin bir cəhətini göstərir ki, həmin cəhət birlikdə dua edəndə çox üzə çıxmır. Amma Paul üçün bu növ dua çox vacib idi. Öyrəndikcə, bu növ duanı öz kollektiv dua vaxtınıza əlavə etməyi düşünün.

**Ef. 3:14-21-i birlikdə oxuyun**

1. 14-cü ayəni yenə oxuyun. Paul burada "Buna görə..." deyərək başlayır. Bu o deməkdir ki, Paul əvvəl dediyi bir şeydən danışır. Ef. 3-ün əvvəlki ayələrində Məsihin bizim üçün etdikləri və Onda malik olduğumuz xəzinə haqqında danışılır. Sonra 12-ci ayədə o bizə çox vacib bir şey deyir. O bizə nə deyir?

   Paul, Allaha azad və əmin şəkildə yaxınlaşa biləcəyini bildiyi üçün 14-cü ayədə nə edir?

   Sizcə, ev qrupunuz, İsanın çarmıxda bizim üçün etdiyi iş sayəsində Allaha azad və əmin şəkildə yaxınlaşırmı?

2. 16-19-cu ayələri təkrar oxuyun. Paulun bu ayədə Atadan dilədiyi beş şeyi deyin.

3. 16-cı ayəni bir daha yavaş-yavaş oxuyun: Bu ayənin mənasını müzakirə edin. Siz bu duanı tez-tez etsəniz, bu, qrupunuzun güclənməyinə necə kömək edəcək?

4. İndi 17-ci ayəni yavaş-yavaş oxuyun: Bu sualı müzakirə edin: İmanlılar olaraq, Məsihin daxilimizdə yaşadığını nə qədər dərk edirik? Bunu dərk etmək, həyatda üzləşdiyimiz problemlərə baxmayaraq, hər gün sülh və sevinc tapmaqda bizə necə kömək ola bilər?

5. 17-19-cu ayələri təkrar oxuyun: Biz imanda böyüdükcə, Allahı tanımaqda və Onun böyük məhəbbətini yaşamaqda daha dərinə gedirik.

   Biz dünyanın günahları üçün canını qurban verən Məsihin məhəbbəti haqqında düşünərək bu möhtəşəm məhəbbəti anlamağa başlayırıq.

   Paul bilir ki, Allah imanlıların onu tanımasını istəyir və buna görə Paul ürəkdən dua edir ki, efeslilərin "hər dərrakədən üstün olan bu məhəbbəti dərk etməyə gücü çatsın". Siz də bunu öz ev toplantınız üçün arzu edirsinizmi? Bir imanlı üçün duada istəyə biləcəyiniz daha önəmli bir şey varmı?

   19-cu ayədə Paul deyir ki, nəticədə biz "Allahın bütövlüyündə bütöv" olacağıq. Allahın bütövlüyündə bütöv olmağı nə dərəcədə istəyirsiniz?

   Başlanğıcda bəhs olunmuş dualara (iş üçün, xəstə üçün və s.) bu növ duanı da daxil etsək, bu, ev cəmiyyətimizin yetkinləşməsinə necə təsir edəcək?

   Ev cəmiyyətinizin hər üzvünün ruhani yetkinliyi sizin üçün nə qədər önəmlidir?

6. 20-ci ayədə Paul imanlılara heyranedici bir həqiqəti xatırladır. O həqiqət nədir? Buna inanırsınızmı?

   Sonra 21-ci ayədə o, Allahın ehtişamından danışır. 21-ci ayəni təkrar oxuyun. O ehtişamı harada görmək olar?

7. İndi 16-19-cu ayələrə səssizcə baxın və dua edin ki, (və eləcə də gələcək toplantılarınızda) Allahın məhəbbətiylə dolasınız və sizdə Onun ehtişamı görünsün.

**Dua ilə bitirin:** Siz ev cəmiyyətinizə görə dua edəndə, bu duaya tez-tez qayıdıb ondan nümunə olaraq istifadə etmək sizin üçün faydalı olar. Bu ayələrə qrup üzvlərinizin adlarını daxil edərək dua edə bilərsiniz. Qrupunuzun üzvlərinə də eyni şəkildə, özlərinə və başqalarına görə dua etməyi öyrədin.

**Bu mövzunun dərininə gedin:** Həvari Paul, şagirdlərinin ruhani yetkinliyi üçün başqa dualar edirdi. Aşağıda bir neçə nümunə var. Həm təklikdə, həm də cəmiyyətinizin toplantılarında özünüzə, cəmiyyətinizə, habelə ölkənizdə və bütün dünyada olan başqa imanlılara görə dua etməyə vaxt ayırın.

Ef. 1:17-19; Fil. 1:9-11; Kol. 1:9-12

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***Filippin Adalar, XX əsr***

## Balanqau xalqı dua etməyi öyrənir

Siz yəqin ki, Balanqau xalqı haqqında heç vaxt eşitməmisiniz, eləmi? Filippinin cəngəllikli dağlarının dərinliklərində baş ovlayan bu qəbilə, XX əsrin ortalarında İsa Məsihin Müjdəsini eşitdikdən sonra dramatik şəkildə dəyişdi. Bu inanılmaz əhvalat, Coan Şetler və Patrisiya Pörvisin ***Söz qüdrətlə gəldi*** adlı kitabında nəql edilir.

Coan başqa bir subay qadınla birlikdə bu qəbilənin dəvətini qəbul edib onlarla yaşamağa gedəndə iyirmi yaşlarındaydı. Balanqau xalqı Allahın kitaba yazılmış kəlamı haqqında eşitmişdi. Təəccüblüdür ki, onlar aralarında məskunlaşmış bu iki amerikalı qadını xoş qəbul etdilər. Coan (illər ərzində başqa həmkarların köməyi ilə) Balanqau dilini öyrənməyə və onlar üçün Müqəddəs Yazıları tərcümə etməyə başladı.

Tərcümə işi illər boyunca davam etdikcə, Coan o xalqa İsa Məsih haqqında, Onun həyatı və ölümü, çarmıxda onların rüsvaylığını və təqsirkarlığını Öz üzərinə necə götürdüyü haqda öyrətdi. O onlara İsanın ölümdən dirilməsini anlatdı və bu onlara ümid verdi. Qaranlıqda yaşayan və şər ruhlardan qorxaraq onlara qurbanlar təqdim edən bu xalqın həyatı çox çətin idi. Coan bu xalqa öyrədəndə ki, İsa onlara əzab çəkdirən ruhlardan daha güclüdür və onları məğlub edib Balanqao xalqını azad etməyə qadirdir, insanlar diqqətlə qulaq asmağa başladılar. Kitabda şeytanın qüvvələri üzərində dramatik qələbələr nəql edilir.

Aşağıdakı hekayə eyni kitabdan görtürüldü və başqa önəmli bir mövzu haqqındadır. Burada Coan, Balanqau xalqının Allaha ürəkdən dua etməyi necə öyrəndiyini anladır.

*"Mən səylə dua etmişdim ki, balanqaulular ruhlardan uzaqlaşaraq səmavi Allaha iman etsinlər. Allah yenə də duama cavab verdi: onlar iman etməyə başladılar. Sonralar mən gecələr oyanır və Allahdan ruhları məğlub etməsini təkidlə diləyirdim. Məni dua üçün oyadan Allah mənim dualarıma cavab verdi.*

*"İndi isə mən yenə də həm gün ərzində, həm də gecələr oyanaraq dua edirdim. «Allahım, bu yeni imanlılara dua etməyi öyrət. Həqiqətdə necə dua etməyi. Rəbb, bir şey et». Onlar Allahın ailəsində doğulmaq üçün necə dua etməyi bilirdilər. Ancaq gündəlik həyat məsələlərində Allahın köməyi üçün necə dua etmək haqda təsəvvürləri yox idi. Onlar mənim dua etməyimi sevirdilər. Ancaq özləri dua etməzdilər.*

*“Çarəsizliyimdən ehtiyatla Allaha demişdim ki, «Nə edirsən et, təki bu insanlar dua etsinlər!»”*

Coan Balanqau xalqına görə etdiyi dualarının cavabı üçün verəcəyi qurbandan xəbərsiz idi. Bir ay sonra o, dağların içinə, Balanqau xalqına kiçik bir xəstəxana tikmək üçün inşaat materialları – tonlarca sement, mismara və s.— daşıyan nəhəng vertolyotla səyahət edirdi. Vertolyot enmə zolağına yaxlaşarkən bir ağaca dəyib yerə düşdü. Həkim öldü, Joanne bir neçə nəfərlə birlikdə tonlarla sementin altında qaldı.

Qəzanın yanğınını söndürdükdən sonra, Balanqau xalqı parçalanmış vertolyotun içinə girib qazmağa başladı. Mismar çəlləkləri və sement torbalarını kənara atıb Coanı ölümcül vəziyyətdə tapdılar. Onu vertolyotun içindən çıxardıqdan sonra gördülər ki, cırılmış torbalardan gözünə sement tozu tökülmüşdü. Qabırğaları sınmış, bir ağ ciyəri tamamilə sıradan çıxmışdı. Güc-bəla danışa bilirdi.

Gecə boyunca Balanqau xalqı ona kömək etməyə çalışdı. Coan ən çox nələrə ehtiyacı olduğunu pıçıltı ilə söyləyə bildi. Burada o, hekayəni davam etdirir.

*"...astadan nə etməli olduqlarını bildirdim: «Siz mənim gözlərimi yumalısınız. Bir dolça su götürün, gözlərimi açıq saxlayaraq suyu tökün. Bunu təkrar-təkrar edin».*

*“Su töküldükcə elə bil ki, közərmiş kömürü gözlərimə basırdılar. Mən xırıltılı bir pıçıltı ilə təkid etdim: «Davam edin». Bu ağrı sözün əsl mənasında mənim nəfəsimi kəsdikdə, onlar əl saxladılar. Mən nəfəs dərdikdən sonra, yenə də qətiyyətlə pıçıldadım: «Su tökməyə davam edin!»*

*“Gecə boyunca ürəyim ağladı: Allahım, mən kor ola bilmərəm – əgər mən kor olsam, tərcüməni qurtara bilməyəcəyəm.*

*“Gecə uzun, ağrı isə dözülməz idi.*

*“Lakin nə isə baş verirdi. Balanqaulular üçün yeni bir şey. Bir-birinin ardınca, bütün gecə boyunca Balanqau məsihçiləri axınla camaatın arasından keçərək, əllərimə toxunaraq dua edirdilər. Mən bunu əsla unutmayacağam – onlar həqiqətən dua etməyə başladılar! Onlar mənim üçün könüllü olaraq, səylə, ürəkdən dua edirdilər.*

*“Üç ay öncə mən evə dostlarıma yazaraq, bunun üçün dua etmələrini xahiş etmişdim:*

> *«İmanlılar ürəklə, güclü dua etməyi öyrənməlidirlər. Onlar başa düşməlidirlər ki, hətta Allaha məqbul iş gördükdə belə, onların gücü azdır və insanların həyatında yalnız Allahın yerinə yetirdiyi*

*həqiqi olacaqdır... ürəyimin istəyi odur ki, Allah balanqaululari səyli, güclü dua edən bir xalq etsin».*

*"Həmin gecə, mən canlıdan çox ölüyə bənzər halda döşəmədə uzandığım zaman, balanqaulular dua edirdilər – həqiqi dua. Biri digərinin ardınca eyni duanı təkrar edərək, «onu ölməyə qoyma, Kitab başa çatmayıb» – deyirdilər.*

*"Bu, həyatımda həm ən dəyərli, həm də ən dəhşətli gecə idi. Həyatım boyu tanış olduğum ən dəhşətli ağrı, onların dualarına olan ifadəolunmaz heyranlıq hisslərlə dolu anları ilə tənəzzülə uğradıldı.*

*"Ertəsi gün balanqaulardan uzaqda olan bir xəstəxanaya uçuruldum. Ağrı dolu və yuxusuz keçən altı həftədən sonra sağaldım. Allahı heç görə bilmirdim. Onu hiss edə bilmirdim. Onu eşidə bilmirdim – ehtişam dalğaları yox idi, ancaq dalğa-dalğa gələn ağrılar var idi.*

*"Daha altı həftə istirahət etdikdən sonra tərcüməyə davam etmək üçün Balanqauya qayıtdım. Balanqauluların hələ dua etdiklərini görəndə mat qaldım. Axır ki, onlar böyük-kiçik hər şey üçün dua edə biləcəklərini öyrənmişdilər. Coşqun dua onların həyatlarının bir parçası olmuşdu. Vertolyot qəzasından bəri onlar dəyişmişdilər. Mən də eyni qalmamışdım".*

Bu hekayə ***Söz qüdrətlə gəldi*** kitabından götürülmüşdür. (Shetler, Joanne and Patricia Purvis, Wycliffe 2002.) Bu hekayə Coan Şetlerin icazəsi ilə sitat gətirilir.

***Tez-tez verilən suallar***

***1. Ev qruplarımızda dua vaxtımızda tez-tez çoxlu xahişlər sadalanır. Hamının problemləri var: yaxınlarının xəstəlikləri, maddi çətinliklər və hər cür qayğılar. Qruplarımızda bəzi adamlar bütün problemlərini sadalaya-sadalaya uzun dua edirlər. Bəzən bu bizi yorur (və yuxuya salır!) Hər həftə dua vaxtlarımıza yeni həyat və iman gətirmək üçün nə təklif edə bilərsiniz?***

İnsanların çoxu yaxşı dua etmədiklərini anlayır. Buna görə şagirdlər İsadan xahiş etdilər ki, onlara dua etməyi öyrətsin. İsa onlara nümunəvi bir dua öyrətdi və bundan əvvəlki ayələrdə onlara necə dua etməmələri üçün nəsihət verdi. (Mat. 6:5-15-ə baxın). İsa başqa yerlərdə də dua və iman haqqında təlim öyrədir. Əminlik, iman və sevinc ilə dua etmək üçün İsanın dua haqqında nə söylədiyini öyrənməliyik.

***"50 Həyat Dərsi"*** kitabında dua haqqında olan 5 dərsi ev cəmiyyətinizlə birlikdə keçə bilərsiniz. Bu kitabı www.learnhisways.com saytından pulsuz endirmək olar.

Bundan əlavə qrupunuz Allahın kəlamında "dua"nın təkcə öz şəxsi xahişlərinizi dilə gətirməklə məhdud olmadığını dərk etməyinizə kömək ola bilər. Dua daha çox şeydən ibarətdir. Məzmurlara baxsaq, görəcəyik ki, Allah bizə çoxlu dua nümunələri verib. Balanslı bir dua vaxtına aşağıdakılar daxil olmalıdır.

## HƏMD

Yadda saxlayın ki, dua, kainatı Yaradanın taxt zalına girmək deməkdir. O həmçinin sizin üçün və bütün dünya üçün ölən Şəxsdir. Onun hüzurunda yalnız bir sıra istək və ehtiyacları dilə gətirmək Onun əzəmətinə ciddi yanaşmamaq deməkdir. Onun ucalığını düşünməyə vaxt ayırın, qüdrəti barədə məzmur oxuyun, heybətlə ibadət edin. Onun ucalığını düşünməklə imanınız inkişaf edir. İbadətə bir həmd mahnısı oxuya, sevinclə rəqs edə və ya səssizcə diz çökə bilərsiniz.

Aşağıda Müqəddəs Yazıdan həmd haqqında bir neçə mətn verilir:

Zəb. 33:1-11 və Zəb. 59:16-17.

## ŞÜKÜR

Rəbb bizə hər an nəfəs verir, paltar, ailə, dost, iş və həzzverici çoxlu gözəl şeylər verir. Biz Allahın bütün xeyir-duaları üçün şükür edəndə, kədərin və depresiyanın bizi çox vaxt tərk etdiyini görürük. Şükür etmək, şeytanın bizi ruhdan saldığı vaxtlarda güclü bir silahımızdır.

Bir qrup olaraq dualarımızda şükür etmənin vacibliyini düşünün:

1Sal. 5:18; Ef. 5:20; Zəb. 118:21

## GÜNAHI ETİRAF ETMƏK

Həyatımızda günahı gizlətməyə çalışırıqsa, üzümüzə bir maska taxıb Rəbb ilə ünsiyyətimiz var imiş kimi özümüzü göstəririk. Ama Rəbb nurdur və onun nuru ürəyimizi ifşa edir. Buna görə biz baş əyib dua edəndə Müqəddəs Ruh bizə çox vaxt günahlarımızı göstərir. İsa öyrətdi ki, biz Allahdan günahlarımızın bağışlanmasını istəməliyik və başqalarını da bağışlamalıyıq. Rəhbərlər bu həqiqətləri öz qruplarında öyrədəndə yaxşı edirlər.

Aşağıda günahı etiraf etmək haqqında bəzi mətnlər verilir. Qrupunuz bunlar haqqında düşünə bilər:

1Yəh. 1:8-2:2; Mat. 6:12; Zəb. 32:3-5; Zəb. 38:18; Sül. 28:13

## ÖZÜNÜZ ÜÇÜN DUA ETMƏK

Bunlar bizim şəxsi dualarımızdır... həyatımızda gündəlik çörək, yaşamağa bir yer, daha çox səbir, müdriklik kimi ehtiyaclarımız üçün dualarımızdır.

Bax: Fil. 4:6-7; Yaq. 5:13; Mat. 6:11 və 13; Mat. 26:41; Mat. 7:7-11.

## BAŞQALARI ÜÇÜN DUA ETMƏK

Biz Məsihin bizim üçün dua etdiyi kimi başqaları üçün dua etməyə vaxt ayıranda, Məsihin məhəbbətini göstəririk. İtmiş insanların Məsihi tanıması üçün dua etmək, bacı-qardaşlarımızın ehtiyacları və Məsihdə böyüməsi üçün dua etmək buna daxildir.

Bax: Ef. 6:18-20; Kol. 1:9-12; Kol. 4:12; Yaq. 5:16; 1Tim. 2:1-2; Mat. 5:44-45.

***2. Mən ev cəmiyyətimin İsanın səlahiyyəti ilə daha çox dua etməsini istəyirəm. Mən bilirəm ki, İsa imanla dua etməyimizi***

***buyurdu, amma bəzən dualarımız bizə çox zəyif gəlir. Dua edərkən imanımızı necə gücləndirə bilərik?***

Müqəddəs Kitab öyrədir ki, iman Allahın kəlamını eşitməklə gəlir (Rom. 10:17). Dua vaxtlarımızda iman adamlarının duası ilə baş verən böyük möcüzələr haqqında Əhdi-Ətiqdən və Əhdi-Cədiddən hekayələr oxumalıyıq.

- Xəstələr üçün dua edəndə, İsanın insanlara şəfa verməsi barədə bir hekayə oxuya bilərsiniz. (Luka 4:38-40; Luka 5:12-13; Luka 7:1-10)
- Müjdəni imansızlarla paylaşmaq üçün Rəbdən güc istəyəndə, Həv. 4:1-31-dən Müqəddəs Ruhun imanlıların üzərinə gəlməsi və onların Müjdəni cəsarətlə vəz etməsini oxuya bilərsiniz.
- Şeytanın qüvvələri ilə mübarizə aparanda, İsanın səlahiyyəti barədə oxuya bilərsiniz. (Luka 4:31-37; Mark 5:1-20)
- Günahınızı etiraf etməlisinizsə, 51-ci və ya 32-ci məzmuru oxuya bilərsiniz. Bu məzmurlar sizə günahınız barədə Allaha qarşı dürüst olmaqda və Onun sizi bağışladığına güvənməkdə kömək ola bilər. (1Yəh. 1:9)
- Gündəlik ehtiyaclarınız üçün dua edirsinizsə, Matta 6:25-34-dən Allahın quşlara göstərdiyi qayğı haqqında İsanın dediklərini oxuya bilərsiniz.

Bu ayələrdən İsanın sizin qayğınıza qaldığına dua etməkdə sizə kömək etməyə qadir olduğuna olan imanınızı gücləndirmək üçün istifadə edin.

***<u>Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?</u>***

***Tətbiq və dua***

1. Növbəti həftələrdə ev cəmiyyətinizin toplantılarında (ya da həftə içində kiçik qruplarda) ***50 Həyat Dərsi*** ndən dua barədəki 5 dərsi keçin. Bu dərslər bizə İsanın istədiyi kimi dua etməyi öyrədən İsanın təlimlərindəndir.

YAXUD...

2. Toplantılarınızda Müqəddəs Yazıdan duanın yuxarıda bəhs olunan müxtəlif cəhətlərini öyrənməyə vaxt ayırın: həmd, şükür, günahınızı etiraf etmək, özünüz üçün dua etmək, başqaları üçün dua etmək. Birlikdə öyrənərkən, bu müxtəlif dua etmə yollarını tətbiq etmək üçün ara verin və həftəlik dua vaxtlarınızda bütün bu dua növlərindən müntəzəm istifadə edin.
3. Ev qrupunuzun bir yerdə dua etməsi üçün xüsusi günlər və ya axşamlar təşkil edin və bəlkə həmçinin oruc tutun. Belə dua yığıncaqlarında ailələriniz, xalqınızda həlak olan adamları, dövlətiniz və s. üçün daha səylə dua edin. Məsihdə böyümək və Rəbbi tanımayanlarla Müjdəni paylaşmaq üçün güc istəyin.

# 11. Vermənin xeyir-duasını kəşf etmək

***Gördüyüm hər işdə Rəbb İsanın "vermək almaqdan daha çox bəxtiyarlıq gətirər" sözünü yaddan çıxarmayıb belə əmək sərf edərək zəiflərə kömək etməyin vacibliyini sizə göstərdim. (Həv. 20:35)***

***Giriş***

## Verərək Allahın Padşahlığını inşa etmək

Allah vermək haqqında hamıdan çox bilir. O Öz Oğlunu dünyaya bəxş etməklə ən qiymətli hədiyyəsini vermişdir. (Bax: Yəhya 3:16) İsa bizim üçün canını verdi və bizə də belə etməyi öyrətdi.

O bizə, *"həm Allaha, həm də sərvətə qulluq edə bilməzsiniz"* deyə öyrətdi (Luka 16:13). Biz səxavətlə verəndə gələcəyimizlə Allaha etibar etməyə doğru müsbət addımlar atırıq... və məhəbbətdə böyüyürük.

Allahın Kəlamından öyrəndiyimiz iki növ vermə var:

Birincisi ondan ibarətdir ki, hamımız hər gün köməyə ehtiyacı olan insanlara – küçədə dilənçiyə, cərrahi əməliyyata ehtiyacı olan, amma pulu çatmayan bir adama, ərzağa ehtiyacı olan bir dul qadına rast gəlirik. Onlara yardım etmək üçün fərdi olaraq bir az pul verə bilərik.

Amma daha ciddi bir yardım üçün daha çox təsiredici başqa bir yol vardır: imanlıların ianələri. İmanlılar öz qruplarında ianə verməyi öyrənməlidirlər. Növbəti səhifədə Allahın kəlamından bunu öyrədən bir misalı nəzərdən keçirəcəyik.

İmanlıların öz cəmiyyətlərinə verdikləri ianələr vasitəsilə əsrlər boyunca çoxlu xeyriyyə işləri həyata keçirilib. Bu işləri yalnız böyük cəmiyyətlər deyil, dünyanın hər yerində olan ev cəmiyyətləri də edir. Ev cəmiyyətləri məsihçi kitablarını satın alıb başqalarına paylayır. Toplantılarında iştirak edən yoxsullara və eləcə də ev qrupunun kənarındakı insanlara yardım edirlər. Həmçinin Müjdəni başqa yerlərdə yayan müjdəçi komandalarına dəstək verirlər.

Bu fəsil, ev cəmiyyətinizin ianələrinin şəhərinizdə, ölkənizdə və dünyanın digər hissələrində Allahın Padşahlığının yayılmasına necə xidmət edə biləcəyini düşünmək üçün faydalı olacaq.

## Həvari Paul imanlılar cəmiyyətinə səxavətlə verməyi öyrədir

**Başlanğıc müzakirəsi:** Təsəvvür edək, Rəbbimizin xeyirxahlığı və əliaçıqlığı hər ürəkdə hökmranlıq etsəydi, dünya necə olardı?

**Həv. 11:27-30-u birlikdə oxuyun**

1. Aqab nə barədə peyğəmbərlik etdi (28-ci ayə)? Antakyadakı şagirdlər nə etməyə qərar verdilər? (29-cu ayə). Yəhudeyaya yardımları aparmaq üçün kimləri seçdilər? (30-cu ayə)

   Paul, Yəhudeyadakı cəmiyyətlərə yardım etmək üçün digər şəhərlərdəki cəmiyyətlərdən pul yığmağı qərara aldı. Bu günkü dərsdə Paulun korinfliləri bu ehtiyac üçün verməyə necə təşviq etdiyinə baxacağıq.

**1-ci Korinflilərə 16:1-4-ü birlikdə oxuyun.**

2. O Korinfdəki və Qalatiyadakı cəmiyyətlərə nə buyurdu? (a. 1,2)
3. Yardımları Yerusəlimə kim aparacaq? (a. 3,4)

**2-ci Korinflilərə 8-i birlikdə oxuyun.**

4. 1-5-ci ayələrdə Paul, Makedonyadakı cəmiyyətlərin yardımları nə cür münasibətlə verdiklərini təsvir edir. 1-5-ci ayələri birlikdə oxuyun, sonra onların çətin vəziyyətini və bu çətinlikdə necə davrandıqlarını müzakirə edin.
5. Sonra Paul korinfliləri makedonyalılar qədər səxavətli olmağa çağırır. 9-cu ayədə Paul əliaçıqlığın nümunəsi olaraq kimi göstərir?
6. 10-12-ci ayələrdə Paul korinflilərə nə məsləhət verir?

   Bir hədiyyəni məqbul edən nədir? (a. 12)
7. Paul 20-21-ci ayələrdə nə etməyə çalışırdı?

   16-19-cu ayələri təkrar oxuyun. Tənqiddən qaçmaq üçün o bu ayələrdə nə edirdi?

   Ev toplantılarımızda ianələrin yığılması, saxlanması, sonra paylanması barədə çox ehtiyatlı olmağımız niyə vacibdir?

**2-ci Korinflilərə 9-cu fəsli birlikdə oxuyun.**

8. 6-cı ayədə Paul nə demək istəyir? Rəhbərlərin bu prinsipi öz ev cəmiyyətlərində öyrətməsi niyə vacibdir? İanə verdiyimiz zaman bu həqiqətə iman etmək niyə vacibdir?
9. 7-ci ayəni təkrar oxuyun. İmanlıları ianə verməyə məcbur etsək, onların ürəklərində nəyi məhv edərik?

   "Allah sevinə-sevinə pay verən adamı sevir" nə deməkdir?
10. 12-15-ci ayələrdə Paul ianə verməyin ən önəmli nəticəsindən danışır. O nədir?

**Dua ilə bitirin:** Bu gün biz səxavətlə vermək və ianələrin müdrikliklə idarə etmək haqqında öyrəndik. Əgər bu ölkədə bütün ev cəmiyyətləri eyni səxavət və müdrikliklə ianə verməyi öyrənsə, bu Allahın padşahlığının burada yayılmasına necə kömək edəcək? Bunun baş verməsi üçün dua edin.

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***Həbəşıstan, XX əsr***

## Afrikadakı imanlılar cəmiyyətinin fədakarcasına verməsi Müjdənin yayılması üçün şərait yaradır

*Bəzən özümüzə deyirik ki, varlaşandan sonra səxavətli olmağa başlayacağıq. İndi sizə Həbəşistanda yaşayan çox yoxsul bir qəbilənin məsihçi cəmiyyətlərinin İsanın vermək əmrini necə yerinə yetirdiyini anladacağıq. Onların səxavətlə verməsi hamımıza gözəl bir nümunədir və son pulunu verən dul qadını xatırladır (Mark 12:41-44).*

*****

1937-1942-cı illərdə Həbəşistandaki Vallamo qəbilələrində imanlılar cəmiyyəti sürətlə böyüdü. Qərbli müjdəçilər, İtaliya hökumətinin İkinci Dünya müharibəsində oranı işğal etdiklərinə görə oranı tərk etməyə məcbur olmuşdular. Müjdəçilərin Vallamo xalqına Müjdəni öyrətmələrinə baxmayaraq, onlardan yalnız 48 nəfər Məsihə iman etmişdi. Missionerlər oranı tərk etdikləri zaman Vallamo dilinə ancaq Mark Müjdəsi və Müqəddəs Yazının bir neçə başqa hissəsi tərcümə olunmuşdu.

Missionerlərin orada olmadıqları beş il boyunca Vallamodakı imanlıların sayı 10 min nəfərə çatdı! Bunun hamısı amansız təqiblərə baxmayaraq oldu. Vallamodakı yerli müjdəçilər amansızcasına döyülüb zindana atıldı. Onlar Müjdəni hər yerdə yaydıqları zaman imanlarına görə çox əzab çəkdilər.

Vallamolular İsanın öyrətdiyi hər şeyə, o cümlədən vermək əmrinə əməl etməyə özlərini həsr etmişdilər. Xaricdən pul yardımı almırdılar. Əzab çəkərkən Allahın Müjdənin yayılmasını və yoxsullara kömək edilməsini necə arzuladığını dərk etdilər. Çox kasıb olmalarına baxmayaraq, həm fiziki, həm ruhani ehtiyacları onlarınkından da böyük olanlara səxavətlə yardım etməyi öyrəndilər. Missionerlər qayıdanda, uşaq kimi iman edən bu insanların İsanın sözlərinə çox ciddi yanaşdıqlarını gördülər. Onlar səxavətlə və sevinclə verirdilər.

Vallamolu məsihçilərin ianələri ancaq puldan ibarət deyil idi. Çox vaxt pulları olmadığı üçün, ayaqqabı ya da kofta kimi şeylərini cəmiyyətə verirdilər. Bu şeylər bazarlarda satılır və əldə edilən pullardan Müjdəni yaymaq üçün istifadə olunurdu.

Vallamolu məsihçilər ianələrinin hər il daha çox müjdəçiyə yardım etdiyinə görə şükür edirdilər. Onların illik konfranslarında bir ənənə yarandı. Hər kəs öz imanına görə gələn ilin konfransına böyük bir ianə gətirmək üçün Allahdan kömək istəməyə söz verirdi. Onlar Allahdan nə qədər ianə dilədiklərini öz rəhbərlərinə bildirsələr də, vədlərini məcburiyyətsiz verirdilər. Vədlər hər insanla Allah arasında idi və hər kəs il ərzində dua edir, işləyib qazanır və sonrakı illik yığıncaqda ianə vermək üçün pul yığırdı.

Konfransların birində bir qadın bir neçə gün sonra, həftənin sonuna qədər bir ianə verməyi arzu etdi. Onun biz az pulu var idi, amma o daha çox ianə vermək istəyirdi.

Bir gün konfrans yığıncaqlarından sonra bir az pambıq aldı. Gün ərzində yığıncaqlarda olduğuna görə gecənin gec saatına qədər oturub pambıqdan ip düzəltdi. Bu işi tamamlamaq üçün bir neçə gecə çalışdı. Səhər açılmamış durdu, bazara getdi. Haradasa 5 saat yeridi. Bazarda ipi satıb konfransa qayıtdı.

Qadın ona çox baha başa gələn bu ianəni bir rəhbərin əlinə qoydu. Səxavətlə ianə verə bildiyinə görə çox sevindi. Beləcə bir qəpikdən də az bir ianə ilə başlayan bu qadının son ianəsi on qəpiyə artıb!

Bu hekayə, Reymond Deyvisin ***Dağlardakı od*** (Raymond Davis, ***Fire on the Mountains***; Zondervan 1966) kitabından götürülmüşdür.

***Tez-tez verilən suallar***

***1. Səxavətlə vermək, imanlının həyatı və cəmiyyətin sağlamlığı üçün niyə vacibdir?***

Müqəddəs Kitab verməyin çoxlu səbəblərini öyrədir. Bunlardan bəzisinə baxaq. Aşağıdakı ayələri oxuyun:

- Vermək bizi acgözlülük və xudbinlikdən qoruyur. (1Tim. 6:6-10 və 17-19)
- Vermək, Məsihin Bədənində birlik yaradır. Bu fəsildəki dərsi hələ oxumadınızsa, onu indi keçin. Bu dərsdə görürük ki, cəmiyyətlər bir-birinə maddi yardım göstərdikcə bir-birinə qarşı məhəbbətləri böyüdü.
- Vərməklə biz yoxsullara, o cümlədən imansız olanlara da Allahın məhəbbətini və mərhəmətini göstəririk (Levililər 23:22; Qanunun Təkrarı 15:7-11).
- Ehtiyac içində olanlara vermək, əvvəlcə Allahın Padşahlığını axtarmaq deməkdir. Vermək bizə, İsanın öyrətdiyi kimi, hər ehtiyacımızın ödənməsi üçün Allaha ümid bağlamaqda kömək edir (Mat 6:25-33).
- İanə verməklə biz Müjdənin yayılmasında Allahla birlikdə iştirak edə bilərik. Bu, göydə xəzinə yığmağın yollarından biridir. Məsələn, ianə verməklə Allahın kəlamını bilməyənlərə Müqəddəs Kitabın və ya başqa ruhani kitabların çatdırılmasına, yaxud bir xidmətçinin İsa haqqında danışmaq üçün başqa bir şəhərə və ya ölkəyə göndərilməsinə yardım etdiyimizi düşünmək nə qədər sevindiricidir! (Matta 6:19-21).

***2. Yəhudilərə bütün gəlirlərinin onda birini Rəbbə vermək əmr edildiyi kimi, məsihçilər də onda birini (yəni gəlirlərinin 10 faizini) cəmiyyətə verməlidirmi?***

Bəzi məsihçilər onda bir hissəni verirlər, bəziləri isə vermirlər. Bəzi cəmiyyətlər öyrədir ki, onda bir hissəni vermək əmri məsihçilərə hələ də aiddir və hər imanlı gəlirinin onda birini cəmiyyətə verməlidir. Başqaları isə deyir ki, biz səxavətlə verməyi öyrənməliyik, amma onda bir hissəni vermək əmri Əhdi-Ətiqdən götürülüb, Əhdi-Cədid isə bunu məsihçilərə öyrətmir.

Əhdi-Cədiddə onda bir hissədən ikicə yerdə bəhs olunur. Birinci yer, İsanın dini başçı və vergiyığan məsəlidir (Luka 18:9-14). Bu məsəldə

oruc tutduğunu, gəlirinin onda birini verdiyini və pislik etmədiyini Allaha xatırladan dini başçı, İsanın dediyinə görə, Allahın nəzərində saleh deyil idi. İkinci yerdə də İsa ədalətə, mərhəmətə, sədaqətə əhəmiyyət verməyən, amma öz bağlarında bitən göyərtinin belə onda birini verən fariseyləri məzəmmət edir. İsa dedi ki, onda bir hissəni vermək vacib olsa da, kor fariseylər ən vacib şeylərə əhəmiyyət vermirdi (Mat. 23:23-24).

Əhdi-Cədidin qalan hissəsində onda bir hissədən heç bəhs olunmur və məsihçilərin Əhdi-Ətiqin bu əmrinə əməl etməyi davam etdirmələri barədə heç nə yazılmayıb. Ancaq istər İsa, istərsə həvarilər səxavətlə verməyi öyrədir və fədakarcasına yardım edənlər təriflənir. Əgər Əhdi-Ətiqdə Allah yəhudilərə gəlirlərinin onda birini verməyi öyrədibsə, bizim uğrumuzda canını fəda etmiş İsanın ardınca gedən bizlər ən azından bu qədər verməli deyilikmi? Bundan azını verə bilərikmi? Qanuna görə deyil, Rəbbin məhəbbətinə görə daha çox verməli deyilikmi? Lakin ev qrupları həmişə Paulun təlimatını yadda saxlamalıdır:

> *Hər kəs ürəyində niyyət etdiyi kimi versin, kədərlə, yaxud məcburi yox; çünki Allah gülər üzlə verəni sevir. (2 Kor. 9:7, İncil 1996)*

Unutmayaq ki, həm Əhdi-Ətiqdə, həm də Əhdi-Cədiddə Allah səxavətlə verənə xeyir-dua verəcəyini tez-tez vəd edir! Rəbb bizi əmin edir ki, verməklə Onu şərəfləndirən hər kəsin qayğısına qalacaq.

Əhdi-Ətiqdə Allah Malaki Peyğəmbərin diliylə belə dedi:

> *Bütün ondabirlərinizi anbara gətirin ki, məbədimdə ərzaq olsun». Ordular Rəbbi deyir: «Siz bununla Məni sınayın. Görəcəksiniz ki, göylərin pəncərələrini sizə açacağam, üzərinizə ehtiyaclarınızdan da çox bərəkət yağdıracağam. (Malaki 3:10)*

İsa Əhdi-Cədiddə bizə belə öyrətdi:

> *Verin, sizə də veriləcək: silkələnib basa-basa dolan bol bir ölçü ilə sizə qucaq-qucaq veriləcək. Çünki hansı ölçü ilə ölçsəniz, sizin üçün də eyni ölçü ilə ölçüləcək. (Luka 6:38)*

### *3. Biz bir rəhbər olaraq ianə verməyi imanlılara necə öyrədə bilərik?*

İsa şagirdlərinə ianə verməkdə səxavətli olmağı açıq şəkildə öyrətdi: *"Müftə aldınız, müftə verin"* (Mat. 10:8). Əhdi-Cədid çətin vəziyyətə

düşmüş düşmənlərimizə belə yardım etməyi öyrədir (Rom. 12:20). Biz Allahın heyranedici məhəbbətini bu yolla bütün insanlara göstəririk.

Ev cəmiyyətlərimizdəki məsihçiləri səxavətlə verməyə ruhlandırmağın 3 yolu var:

1) **Əvvəlcə onlara nümunə olmalıyıq.** Biz özümüz ehtiyac içində olanlarla paylaşırıqmı? Bizi hər kəs izləyir. Biz təkcə pulumuzu deyil, vaxtımızı, evimizi və yeməyimizi (qonaqpərvərlik) və insanların böyüməsi üçün ruhani ənamlarımızı başqaları ilə paylaşmalıyıq.
2) **Müqəddəs Kitabdan səxavətlə vermək haqqında birlikdə öyrənməliyik.** Ev cəmiyyətimizdəki insanlar Müqəddəs Kitabın ianə vermək barədə nə öyrətdiyini bilməlidir, çünki Müqəddəs Kitab bu həyatda bizim bələdçimizdir. Əhdi-Ətiqdə Allah Öz xalqına səxavətlə verməyi əmr etdi; Qanun bunu öyrədir. Əhdi-Cədiddə İsa şagirdlərinə qarşılıqsız olaraq və sevinclə verməyi öyrədir. Bu fəslin sonunda bu mövzuya dair bəzi ayələr verilir.
3) **Allahın Öz xalqına olan sadiqliyi haqqında şəhadətliklər verməliyik.** Səmavi Atamız Müqəddəs Kitabın dövründə olduğu kimi, bu gün də eynidir. O, əvvəlcə Onun Padşahlığını axtaran adamların qayğısına qalır. Ev toplantılarınızda Onun sadiqliyi haqqında danışa biləcəyiniz əhvalatlar varmı?

### *4. Ev cəmiyyətinin ianələrindən necə istifadə olunmalıdır?*

Aşağıda bir sıra tipik misallar verilir:

- Müjdənin yayılması üçün Müqəddəs Kitabların, məsihçi çap, audio və video materiallarının satın alınması və s.
- ehtiyac içində olan imanlılara kömək etmək üçün
- ehtiyac içində olan imansızlara kömək etmək üçün (Məsihçilər əsrlər boyunca təkcə imanlılara deyil, dinlərindən asılı olmadan bütün möhtac insanlara yardım etmişlər.)
- təbii fəlakətlərdən (zəlzələ, qıtlıq, sel və s.) əziyyət çəkmiş adamlara yardım göndərmək üçün
- konfrans və seminarların keçirilməsinə kömək etmək üçün
- həftəlik ev toplantılarında lazım olan nemətlər üçün (çay, çərəz və s.)

- müjdəçilərin və müəllimlərin səyahət xərclərinə kömək etmək üçün 1 Korinflilərə 9:13-14-də Paul deyir ki, təlim öyrədən və vəz edən adamlara digər imanlılar dəstək olmalıdır.

### *5. İanəni kim hesablayıb qeyd edir? Yığılmış pulu kim saxlayır? İanələrdən nə üçün istifadə olunacağına kim qərar verir?*

Müqəddəs Kitab öyrədir ki, Allahla və bir-birimizlə nurda gəziriksə, aramızda həqiqi ünsiyyət olur. Ev cəmiyyətinin üzvləri ianə verəndə rəhbərlərin puldan düzgün istifadə edəcəklərinə və gizlin hərəkət etməyəcəklərinə güvənirlər.

Yuxarıdakı üç sual çox vacibdir. Ən yaxşısı odur ki, ən az iki rəhbər və ya hörmətli üzvlər ianəni hesablasın, nə qədər pulun yığıldığını və pulların necə xərcləndiyini qeyd etsin. İanəni harada saxlamaq barədə yaxşı düşünün. Yadda saxlayın ki, bu pul Allaha məxsus olduğuna görə ondan dua ilə və Allah qorxusu ilə istifadə olunmalıdır. Rəhbərlər pulun nəyə xərcləndiyini cəmiyyətin üzvlərinə bildirməlidirlər.

Bundan əlavə, yığılan pulun həftələrlə xərclənmədən saxlanması məsləhət görülmür. Puldan necə istifadə etmək barədə tez-tez qərarlar verin və sonra ondan Allahın işi üçün istifadə edin. Əgər pul böyük bir ehtiyac üçün yığılmırsa, böyük miqdarda pulu saxlamaq doğru deyildir.

## *Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?*

### *Tətbiq və dua*

1. Bu fəslin əvvəlki səhifələrini nəzərdən keçirin. Bu səhifələrə baxarkən Müqəddəs Ruh sizə ev cəmiyyətinizin verməyi daha yaxşı öyrənməsi barədə nə açdı?

   Bəzi ev cəmiyyətiləri üzvlərinə hər həftə ianə vermək imkanı verir. Başqaları hər həftə ianə yığmır, ancaq konkret ehtiyaclar üçün pul yığır. Müqəddəs Kitabda bu barədə konkret əmrlər verilmir. Sizin qrupunuz nə qədər tez-tez ianə yığır? Siz gələcəkdə də belə davam etmək istəyirsinizmi?
2. Aşağıdakı sadalanan mətn parçalarını nəzərdən keçirin. Vermək barədə hansı ayələri qrupunuzla birlikdə öyrənə bilərsiniz?
3. Özünüzün və qrupunuzun səxavətlə verməkdə böyüməsi üçün dua edin. Məhəbbətlə verdiyiniz ianələr vasitəsilə Müjdəni yaymağın yolları barədə Rəbdən soruşun.

**Vermək haqqında bir neçə mətn parçası:**

- Dul qadının ianəsi: Mark 12:41-44
- Əvvəlcə Allahın Padşahlığını axtarın: Matta 6:19-34
- Düşmənlərinizə xeyirxahlıq göstərin – Luka 6:27-36
- İnsanların sizi görməsi üçün verməyin: Matta 6:1-4
- Qoyunlar və keçilər: Matta 25:31-46
- Yoxsullara xeyir-dua verin: Luka 14:12-14
- Xananya və Sapfiranın Müqəddəs Ruha yalan deməsi: Həvarilərin İşləri 4:32-5:11
- Həvari Paul vermək haqqında təlim öyrədir: 2 Korinflilərə 8 və 9
- Paul qane olmaq barədə öyrədir: 1Timotey 6:6-10
- Paulun varlılara verdiyi əmr: 1 Timotey 6:17-19
- Oğrulara verilən əmr: Efeslilərə 4:28

Həmçinin, ***50 Həyat Dərsi*** kitabında ianə vermək mövzusunda 3 dərs vardır.

# 12. Yetkin şagirdlər olmaq

***O zaman İsa Ona inanmış Yəhudilərə dedi: «Əgər siz Mənim sözümə sadiq qalsanız, həqiqətən, Mənim şagirdlərimsiniz. Onda siz həqiqəti biləcəksiniz və həqiqət sizi azad edəcək». (Yəh. 8:31,32)***

***Hər bir insanı Məsihdə kamilləşmiş olaraq Allaha təqdim etmək üçün hamıya tam müdrikliklə nəsihət və təlim verərək Məsihi bəyan edirik. (Kolosselilərə 1:28)***

## *Giriş*

### İsanın şagirdləri başqalarını şagird edirlər

Əgər siz İsanın "Ardımca gəl" çağırışına cavab vermisinizsə, deməkk, siz İsanın şagirdisiniz. Bəs gündəlik həyatda İsanın şagirdi olmaq nə deməkdir?

Hər şeydən əvvəl, şagirdlər İsanın öyrətdiyi hər şeyə əməl edirlər. Matta, Mark, Luka və Yəhyanın Müjdə kitablarında İsanın sözlərini və Əhdi-Cədidin qalan hissəsində həvarilərin təlimlərini birlikdə oxuyub öyrənir və gündəlik həyatda bunlara riayət edirlər. İsa açıq söylədi:

Onlar İsanın məhəbbətini çarmıxda gördükdən sonra həyatlarını Ona həsr etdilər, Ona xidmət etmək, Ona bənzəmək istəyirlər. Onlar İsanı öz həyatlarının Sahibi olaraq qəbul edir və başqalarına da Onun şagirdi olmaqda kömək edirlər.

Ancaq şagird yetişdirmək asan bir iş deyildir. Biz Məsih kimi düşünməyi və davranmağı öyrənməli olduğumuz kimi, şagirdlərimizə də bunda yardım etməliyik. Onlar imanla yaşamağı, çətin vaxtlarında Allaha güvənməyi yavaş-yavaş öyrəndikcə, biz onların yanında olmalı, onları İsanın surətinə dəyişdirən Müqəddəs Ruha tabe olaraq onlara yardım etməliyik. Şagirdlərimizin hər problemini həll edə bilməsək də, onların Allahın kəlamından təlim öyrənməyinə kömək etdikcə, onlarla birlikdə dua etdikcə, onların əsl dostu olduqca, onları İsaya güvənməkdə inkişaf etməyə təşviq edirik. Əlbəttə, bunun üçün onlarla vaxt keçirmək vacibdir; onlarla təkcə ibadət günlərində deyil, həftənin digər günlərində də görüşməliyik. Hamımız səmimi məhəbbət münasibətləri vasitəsilə böyüyürük.

Bu fəsildə sizə Məsihin şagirdi olaraq böyüməkdə və həmçinin başqalarını bu yolda təşviq etməkdə faydalı ola biləcək ayələr və məsləhətlər veriləcək.

*__Müqəddəs Kitab Dərsi__*

## İsa, Ona iman edənlərə şagirdliyi öyrədərək ümumdünya hərəkatının əsasını qoyur

**Başlanğıc müzakirəsi:** Son həftələrdə ya Müqəddəs Kitabı oxuyanda, ya da ürəyinizə danışan Müqəddəs Ruhu eşidəndə İsadan nə öyrənmisiniz?

İsa dedi ki, şagird müəllimi kimi olacaq (Luka 6:40). İsa son ildə ürəyinizdə necə işlədi və bir il əvvəlki vəziyyətinizlə müqayisədə siz Ona necə daha çox bənzəyirsiniz?

**Mark 1:14-20-ni birlikdə oxuyun.**

1. İsa vəz edəndə xalqa nə deyirdi (14-15-ci ayələr)?

   Sizcə, Ona qulaq asan xalq bu sözləri necə anlayırdı?

2. İsa balıqçılara "Ardımca gəlin" dedi. O dövrün dini müəllimlərinin şagirdləri onların ardınca gəlib təlim öyrənirdilər. I əsrdə yaşadığınızı və İsanın çağırışınızı eşitdiyinizi təsəvvürünüzə gətirin. Onun çağırışına cavab versəniz, günləriniz bu yeni Müəllimlə keçəcək. Məqsədiniz Ona qulaq asmaq, müşahidə etmək, hikmətindən öyrənmək və Ona bənzəməkdir.

   Özünüzü İsanın on iki şagirdindən birinin yerinə qoyun. İsanın öyrətdiyi hər şeyi diqqətlə öyrənmək sizin üçün nə qədər önəmli olacaq? Fikirlərinizi izah edin.

3. İsa o balıqçılara buyurdu ki, Onun ardınca gəlsinlər və O onları insan tutan "balıqçı" edəcək (17-ci ayə). "İnsan tutan balıqçı" nə deməkdir? Siz İsadan sizi "insan tutan balıqçı" etməsini heç diləmisinizmi?

4. İsa bu adamları çağıran kimi onlar torlarını (işlərini) kənara atdılar və atalarını (ailələrini) tərk etdilər (18-ci və 20-ci ayələr). Sizcə, bu onlar üçün fədakarlıq idi? Niyə?

   Sizcə, bu ölkədə Müjdəni yaymaq üçün fədakarlıq tələb olunur? Nə cür fədakarlıqlar tələb olunur?

**QEYD**: İşlərini tərk edib səhərdən axşama kimi Müjdəni yayan imanlılar olduqları halda, daha çox imanlı öz işlərində qalıb sadiq şahidlər olaraq hər fürsətdən istifadə edərək başqalarına şəhadət edir və şagird yetişdirirlər. Onlar işlədikləri yerə Allahın məhəbbətini və nurunu gətirirlər. Sizcə, İsa sizi nə etməyə çağırır?

**Mat. 28:16-20-ni oxuyun**

5. Bu əhvalat İsanın dirilməsindən sonra, yer üzündəki vaxtının sonunda baş verdi. İsa şagirdlərinə Ona nəyin verildiyini söylədi? (18-ci ayə)

   İsanın səlahiyyəti barədə dediyi sözə inanırsınız? Buna görə İsanın dediyinə əməl etmək nə qədər önəmlidir? İsanın bütün səlahiyyətə malik olduğunu biliriksə, Müjdəyə görə qarşıdurma ilə üz-üzə gəldikdə bu bizə necə kömək edəcək?

6. İsa şagirdlərinə buyurdu ki, O yer üzünü tərk edəndən sonra daha çox şagirdlər yetişdirsinlər. Bunun üçün haralara getməli idilər? (19-cu ayə)
7. Onlar insanları kimin adı ilə vəftiz etməli idilər (19-cu ayə)?
8. Onlar yeni şagirdlərə nə öyrətməli idilər (20-ci ayə)?

   Siz İsanın təlimlərini öyrənəndə bunları başqalarına necə öyrədə biləcəyinizi düşünürsünüzmü?

   Özünüzü İsanın təlimləri ilə insanları tutan bir "balıqçı" olaraq görürsünüzmü?

9. İsa şagirdlərinə nə vəd etdi (20-ci ayə)?

   Siz bu vədin sizə də aid olduğuna inanırsınızmı?

**Dua ilə bitirin:** Dua edin ki, cəmiyyətiniz İsanın başqalarını şagird edən həqiqi şagirdlərindən ibarət olsun.

**Bu mövzunun dərininə gedin:** ***50 Həyat Dərsi***-nin son dörd dərsi (47-50-ci dərslər) xüsusilə şagird etmə mövzusuna həsr olunmuşdur.

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***Orta Asiya, XX əsr***

## Şagirdliyin qüdrəti

*Münbit torpağa səpilənsə odur ki, kəlamı eşidir, anlayır və doğrudan da, səmərə—bəzisi yüz, bəzisi altmış, bəzisi otuz qat səmərə verir. (Mat. 13:23)*

Bir neçə ay ondan əvvəl ailəsi ilə birlikdə bir müsəlman ölkəsinə gəlib universitetdə ingilis dili müəllimi olaraq çalışmaya başlamış bir məsihçi dərsini yeni bitirmişdi. Tələbələr sinifdən çıxandan sonra gənc bir oğlan müəllimin masasına yaxınlaşdı. Semestr yeni başladığına görə müəllim hələ tələbələri tanımırdı.

Oğlan ondan, "Sizinlə bir neçə dəqiqə danışmaq olar?" deyə soruşdu.

Müəllim, "Əlbəttə," deyə cavab verdi.

Tələbə özünü Həsən olaraq təqdim etdi və başqa bir müsəlman ölkəsindən olduğunu söylədi. Onlar bir neçə dəqiqə söhbət etdikdən sonra oğlan cəsarətə gəlib dedi: "Müəllim... Mən İsaya heyran oldum. Onun haqqında mənə danışa bilərsiniz? Dostum İbrahim də İsa ilə maraqlanır". Eyni sinifdə oxuyan İbrahim, Həsənin həmyerlisi idi.

Bu söhbətdən sonra Həsən və İbrahim, müəllimlə başqa bir yerdə dəfələrlə görüşüb söhbət ediblər. Müəllim İsanın şagirdi idi və böyük məmnuniyyətlə bu iki tələbə ilə inancını paylaşdı. Onları öz evinə dəvət etdi, arvadı və kiçik uşaqları ilə tanış etdi. Onlar tez-tez gəldilər. Onlar güldülər, uşaqlarla oyun oynadılar, ailə ilə birlikdə yemək yedilər, saatlarla Müqəddəs Kitabı oxudular, müəllimdən İsanı və Müjdəni öyrəndilər. Qısa bir müddət sonra vəftiz olmaq istədilər. İsaya həqiqətən iman etdilər, Onu Xilaskar olaraq qəbul etdilər.

Aradan bir müddət keçəndən sonra müəllim və həyat yoldaşı bu yeni qardaşları və digər yeni imanlıları ev cəmiyyətinə dəvət etdilər. Onlar Rəbbə ilahilərlə ibadət etdilər, bir-birlərinin ehtiyacları üçün dua etdilər, İsanın təlimlərini birlikdə oxudular və əmr etdiyi hər şeyə riayət etmək üçün nə edə biləcəklərini müzakirə etdilər. Bundan əlavə, onlar günahlarına görə Özünü fəda edən İsanın ölümünü yada salmaq üçün Rəbbin Süfrəsini birlikdə qəbul etdilər və yeni imanlıları vəftiz etdilər.

Günlərin birində Həsən müəlliminə universiteti yarımçıq buraxıb öz ölkəsinə qayıtmağı qərara aldığını söylədi.

"Öz ölkəmdə yaşayan insanlara İsa Məsihi tanıtmaq istəyirəm. Xüsusilə doğma şəhərimin yaxınlığındakı dağlarda yaşayan azsaylı xalqlara Müjdəni vəz etmək istəyirəm. Mən bunu necə edə bilərəm?"

Müəllim ona, "Həsən, mən sənin üçün nə etdimsə, sən də onlar üçün onu et. Onlara məhəbbət göstər. İsa haqqında danış, günahlarının bağışlanması üçün və xilas olmaları üçün imanla İsaya dönməyi onlara oyrət. Unutma ki, İsa hamı üçün öldü. "İsa" filmini onlara göstərə bilərsən. İsaya iman etsələr, onları Ata, Oğul və Müqəddəs Ruh adı ilə vəftiz et. Sonra mənim sənə verdiyim Müqəddəs Kitab dərslərindən istifadə edərək, İsanın əmr etdiyi hər şeyə riayət etməyi onlara öyrət.

Həsən müəllimin dediyi sözlər barədə bir az düşündü. Özünü gücsüz hesab etdiyinə görə müəllimin onun üçün etdiyi şeyləri edə biləcəyinə əmin deyil idi. Artıq müəllimi ailəsi ilə birlikdə etdiyi kimi, o da başqa mədəniyyətə gedib Müjdəni yayacaq idi.

Həsən müəlliminə baxıb qeyri-müəyyən cavab verdi: "Çalışaram".

Müəllim Həsənin təkbaşına getməyəcəyini yadına saldı: Müqəddəs Ruhun qüvvəti vasitəsilə İsa onunla olacaq.

Ondan sonrakı aylarda, illərdə müəllim Həsəndən çox məktub aldı. Həsən imanla hərəkət etdiyindən, İsanı tanımayan xalqlara Müjdəni yaydığından bəhs etdi. Müəllim Həsənə öyrətdiyi kimi, Həsən də onlara İsanın öyrətdiyi hər şeyə riayət etməyi öyrətdi. İnsanlar günahlarından tövbə edib İsaya iman gətirirdi. Həsən onları vəftiz edir, müxtəlif şəhərlərdə, qəsəbələrdə və kəndlərdə kiçik cəmiyyətlər yaradırdı.

Aradan illər keçəndən sonra müəllim Həsənin son məktubunu masasına qoyub onunla birlikdə yemək yedikləri zamanı yada saldı. Həsənin vəftiz olduğu zamanı, Allahın kəlamını öyrənməyə necə həvəs göstərdiyini xəyalında canlandırdı. Müəllim öz-özünə dedi ki, "Müjdənin bir adam vasitəsilə bu qədər uzağa gedib çatacağını təsəvvürümə gətirə bilməzdim. Allah mənə İsanın təlimlərini ciddi qəbul edən bu əziz qardaşımı şagird etmək şərəfini verdi. Müjdənin qüdrəti üçün Allaha şükürlər olsun!"

**QEYD:** Həsən ***50 Həyat Dərsi*** kitabından bəzi dərslərlə insanları şagirdi etdi. (Bax: "Vəsaitlər", Əlavə A.)

## *Tez-tez verilən suallar*

### *1. Biz hər həftə ev cəmiyyətimizin toplantısında Allahın kəlamını öyrənirik, lakin qrupumuzdakı insanlar həftə boyunca kəlamı oxumurlar. Onları Allahın kəlamını təklikdə oxumağa (və ya dinləməyə) necə alışdıra bilərik?*

Onları müntəzəm surətdə Allahın kəlamını düşünməyə və dua etməyə alışdırmaq istəməyiniz yaxşıdır. İllərlə formalaşan bu vərdiş, imanlıları hər gün üzləşdikləri çətinliklərə sinə gərmək üçün lazım olan güc və hikmət ilə təmin edir. Həmçinin Allahla təklikdə keçirdikləri bu vaxtlarda Onu tanımağa və Ona daha çox bənzəməyə başlayırlar. Ev cəmiyyəti bu vərdişi formalaşdırmaqda imanlılara kömək edə bilər.

Zəbur Kitabını oxuyanda görürük ki, Davud və məzmurların digər müəllifləri Allahın kəlamını gecə-gündüz düşünməklə qüvvətlənir və sevinc tapırdılar. 119-cu məzmurdan bir neçə misal gətirək:

- **11-ci ayə:** *"Sənə qarşı günah etməyim deyə Kəlamını qəlbimdə qoruyub saxlamışam".*
- **28-ci ayə:** *"Kədərdən canım üzülüb, Öz sözünə görə mənə güc ver".*
- **72-ci ayə:** *"Ağzından çıxan qanun mənim üçün minlərlə qızıldan, gümüşdən daha qiymətlidir".*
- **97-ci ayə:** *"Qanununu nə qədər sevirəm! Həmişə onun üzərində dərindən düşünürəm".*
- **105-ci ayə:** *"Sözün addımıma çıraqdır, yollarıma işıqdır".*

Qrupunuzdakı adamlara hər gün Allahın kəlamında qalmaqda kömək etmək üçün bir neçə praktiki məsləhət:

1) Hər həftə toplantılarınızda 119-cu məzmurun kiçik bir hissəsini oxumağa çalışın. Bu məzmur barədə vəz etmək məcburiyyətində deyilsiniz, ancaq, məsələn, 4 həftə ərzində hər toplantıda bir neçə dəqiqə bu məzmurdan oxuyun. Hər dəfə dua edin ki, Müqəddəs Ruh hər kəsin ürəyinə təsir etsin və hamı Allaha və kəlamına susasın.
2) İnternetdə Müqəddəs Kitabın müxtəlif dillərdə audio versiyalarını endirə biləcəyiniz saytlar vardır. Oxumaq istəməyən insanlar bunlara qulaq asa bilərlər. Audio faylları endirməkdə onlara kömək edin. (Bax: "Vəsaitlər", Əlavə A.)

3) Müqəddəs Kitabı oxumağa başlamaq üçün onlara bir kitabı məsləhət görün. Yeni imanlılar Dörd Müjdədən (Matta, Mark, Luka və Yəhya), Yaradılışdan, Zəburdan və Süleymanın Məsəllərindən başlaya bilərlər. Ondan sonra Əhdi-Cədidin qalan hissəsini oxuya bilərlər. Qrupda hər kəsin həftə ərzində eyni kitabı oxuması barədə razılaşa bilərsiniz. Sonra toplantılarda oxuduğunuz fəsillərdən öyrəndiklərinizi bölüşə bilərsiniz.

***2. Ev cəmiyyətimizdə davam edən münaqişələrə görə narahatıq. Bəzi adamlar qeybət edir, bir-birini pisləyirlər. Bəziləri bazar günü toplantıya gəlir, lakin qrupda digər adamlarla ünsiyyətdə olmaq və ya söhbət etmək istəmirlər. Bir ev cəmiyyətinin belə davam etməsinin doğru olmadığını bilirik. İnsanların daha çox Məsihə bənzəmələrinə necə kömək edə bilərik?***

İsa şagirdlər arasında gördüyü problemlərdən söhbət etməyə vaxt sərf edirdi (Bax: Mark 9:33-37). Bu, təkcə nəzəri məsələlərlə deyil, qrupdakı münasibətlər kimi praktiki işlərlə bağlı olan şagirdlikdir. Bu vəziyyətdə İsa şagirdlərinə mübahisələrinin kökünü göstərdi: onlar mübahisə edirlər, çünki qürurlanırlar və dərk etmirlər ki, Allah insanın Səmavi Padşahlıqda tutduğu mövqeyi deyil, həlimliyini və xidmətkarlığını qiymətləndirir.

Yaqub belə yazmışdır:

> *Aranızda dava və çəkişmələrin kökü haradandır? Bədənlərinizin üzvlərində mübarizə edən ehtiraslarınızdan deyilmi? (Yaq. 4:1)*

Həvari Paul korinfli imanlılara belə yazmışdır:

> *Qorxuram ki, gəlişimdə sizi istədiyim vəziyyətdə tapmayım, siz də istədiyinizi məndə tapmayasınız və aranızda münaqişə, qısqanclıq, hiddət, özünü göstərmə, böhtan, qeybət, lovğalıq, qarışıqlıq tapam. (2 Kor. 12:20)*

Belə davranışlar ev cəmiyyətinizə də çox zərər verə bilər. Bu növ problemləri görəndə dua etməyə başlayın. Bildiyimiz kimi, İsa şagirdlərinin zəifliyini görəndə, onlara görə dua edirdi (Bax: Luka 22:31,32). Eyni şəkildə biz qrupumuzdakı insanların zəifliklərini və ya günahlarını görəndə onlar üçün dua etməliyik.

Qrupunuzun Allahın bu şeylər haqqında nə söylədiyini öyrənəmsi üçün faydalı olan bəzi ayələr aşağıda verilir:

**Qeybət və böhtan:**

Sül. 16:28 — Yaq. 1:2

Sül. 20:19 və 26:20-22 — Qal. 5:14-15

Ef. 4:29

**Qısqanclıq, paxıllıq və şöhrətpərəstlik:**

Vaiz 4:4 — 1Kor. 13:4-5

Yaq. 3:14-16 — Fil. 2:1-11

**Özünü saleh sayaraq və ya ikiüzlü şəkildə başqalarını mühakimə etmək:**

Mat. 7:1-5 — Rom. 14:1-13

Rom. 2:1-3

Qeyd: Bəzən mühakimə etmək də vacib olur. Həmçinin cəmiyyətin öz içindəki günahı mühakimə etməsinin niyə mühüm olduğunu anlamaq üçün bu ayələrə baxın:

1Kor. 5 — Rom. 16:17-18)

Mat. 18:15-17

**Tərəfgirlik:**

Yar. 37 (xüs. 3-4-cü ayələr) — 1Tim. 5:21

Yaq. 2:1-9

**Qəzəb:**

Yaq. 1:19-20 — Sül. 14:29 və 15:1

Ef. 4:26-27 və 31 — Mat. 5:21-22

**Qürur:**

Sül. 8:13 — Rom. 12:3 və 16

Sül. 16:18 — Fil. 2:1-8

Allahın kəlamını qrupda öyrənməkdən əlavə, ayrı-ayrı insanlarla söhbət lazım ola bilər. Həyatlarının hansı sahələrində Müqəddəs Kitabın təliminə riayət etmədiklərini anlamaları üçün yuxarıdakı ayələrdən istifadə edin. Başqalarını Məsihin məhəbbəti ilə sevmələri üçün onları ruhlandırmaq lazım ola bilər. Təkbətək söhbətlərdən əvvəl həlimlik və lütf ilə danışa bilmək üçün Allahdan kömək diləyin (Bax: Qal. 6:1,2). Həmçinin o insanların ən çox nələrə ehtiyacları olduğunu bilmək üçün Allahdan hikmət və dərrakə diləyin.

***3. Cəmiyyətimizdə bəzi adamlar başqalarını şagird etmək işini tamamilə rəhbərlərə həvalə etmək istəyirlər. Bu işdə hamını iştirak etməyə necə ruhlandıra bilərik?***

Efeslilərə Məktubda yazılmışdır ki, məsihçi rəhbərlər digər məsihçilərə Allahın Padşahlığında xidmət işini yerinə yetirməkdə kömək edirlər (Bax: Ef. 4:11-12). Qrupda hər kəsi münasibətlərində Allahın Padşahlığını qurmağa ruhlandırmaq üçün bəzi məsləhətlər aşağıda verilir:

- **Hər həftə Allahın kəlamını öyrəndiyiniz zamanın sonunda bu sualı verin:**

  *"Bu gün öyrəndiklərinizi bu həftə ərzində kiminlə bölüşəcəksiniz?"* Növbəti toplantıda belə soruşun: *"Sizdən kim Allahdan öyrəndiyi həqiqətləri bir dostuna və ya qohumuna danışdı?"* Bölüşdüyünüz adamlar üçün bir neçə dəqiqə dua edin.
- **Qrupunuzdakı adamları dua etmək və Müqəddəs Kitabı öyrənmək üçün həftənin digər günlərində daha kiçik qruplarda toplanmağa ruhlandırın.**
- **Həftə ərzində iki-üç nəfərlik qruplarla insanların evlərinə, xəstəxanalara, kafe və çayxanalara gedib insanlarla danışın.** Kimi ziyarət etməklə sevindirə biləcəyinizi düşünün—xəstələr və dərdlilər üçün dua etmək, praktiki yardım göstərmək, ruhlandırmaq, imansızlara Müjdəni danışmaq məqsədilə gedin.

  **Ziyarətə gedənlər üçün önəmli bir qayda:** kişilər kişiləri, qadınlar qadınları ziyarət etməlidir; yalnız ər və arvad birlikdə olanda həm kişini, həm qadını ziyarət edə bilərlər və həm kişi, həm qadın ər-arvadı ziyarət edə bilərlər. Bu qayda sizi pis şayiələrdən və sınaqlardan qoruyacaq.

Qrupdakı insanların başqalarını şagird etməsi üçün faydalı ola biləcək digər məsləhətlər və vəsaitlər haqqında 4-cü fəsildə ("Allahın ecazkar xilas ənamını dərk etmək") və 7-ci fəsildə ("Allahın kəlamı – gündəlik çörəyimiz"), bir də "Vəsaitlər" əlavəsində məlumat tapa bilərsiniz.

***4. Bəzilərimiz ölkəmizin bir nəfər məsihçi olmayan şəhər, qəsəbə və kəndlərində Müjdəni yaymağa gedirik. İnsanlar Məsihə iman gətirirlər. Biz bilirik ki, onlar birgə ibadət etmək və bir-birini ruhlandırmaq üçün yığışmalıdır, amma onlarla hər həftə toplantı apara biləcək rəhbərlərimiz yoxdur. Siz bizə nə məsləhət görərdiniz?***

Əgər ev cəmiyyətiniz yeni qruplara rəhbərlik edə biləcək rəhbərləri göndərə bilərsə, bu, əlbəttə, onların böyüməsinə kömək edəcək. Buna görə Həvari Paul dedi ki, Allah bəzi adamlara Məsihin bədənini

inkişaf etdirmək ənamını vermişdir (bax: Ef. 4:11-13). Ancaq siz yeni yaranmış kiçik ev qrupuna hər həftə bir adam göndərə bilməsəniz belə, o imanlılar özləri yığışmağa başlaya bilərlər.

Yadda saxlayın ki, dünyanın hər yerində imanlılar elə vəziyyətdədir ki, Müqəddəs Ruhun onlara öyrətməsinə ehtiyac duyurlar. Sizin qruplarınız da Ruhun köməyi ilə sadə bir şəkildə ibadət edə bilər, Allahın kəlamını oxuya və ya dinləyə bilər, dua edə bilər və İsanın adı ilə bir-birinə xidmət edə bilər. Rəbbin Özü onların böyüməyinə kömək edəcək.

İsa dedi:

> *Çünki harada iki və ya üç nəfər Mənim adımla yığılarsa, Mən də orada, onların arasındayam. (Matta 18:20)*

Qrup kiçik olsa belə, tez-tez yığışıb birlikdə böyüyə bilər. Bu kitab belə qruplara yardım etmək məqsədilə yazılmışdır. Onlara bu kitabın bir nüsxəsini verin və ya kitabı cihazlarına endirməkdə onlara kömək edin. (Ətraflı məlumat üçün bax: "Vəsaitlər" Əlavəsi.) Mümkünsə, 1-ci və 2-ci fəsilləri onlarla birlikdə oxuyub söhbət edin. Sonra Mündəricata baxın və qoy onlar qərara gəlsinlər ki, hansı fəsillər ən vacibdir və siz təkrar onların yanına gələnə qədər bu fəsilləri özləri oxuyub öyrənsinlər.

Bir də hər həftə yığışanda ***50 Həyat Dərsini*** necə oxuyub öyrənə biləcəklərini onlara göstərin. Onları İsanın öyrətdiyi hər şeyə əməl etməyə ruhlandırın. Onlara mümkün qədər tez-tez baş çəkin və başqa vaxtlarda da onlara tez-tez zəng edin və ya mesaj göndərin. Ən önəmlisi odur ki, onlar üçün dua etməyi unutmayasınız. Həvari Paul qurduğu cəmiyyətlər üçün "durmadan" dua etdiyini məktublarında təkrar-təkrar dilə gətirir (Rom. 1:9; Kol. 1:9; Ef. 1:15; 2 Sal. 1:11).

Siz də yeni yerlərdə Müjdəni yaymaq və cəmiyyətlər yaratmaq üçün uzun müddətli plan qurub dua etməyə vaxt ayırın. Yeni cəmiyyətləri yaratmaq və möhkəmləndirmək məqsədilə səyahət edəcək xidmətçi komandalarını yetişdirməkdə sizə yardım etməsini Rəbdən diləyin. Belə komandalara kimlərin daxil ola biləcəyini qrupunuzda müzakirə edin. Bir ölkədə cəmiyyətlərin çoxalması üçün belə komandalar vacibdir. Bu məqsədə nail olmaq üçün həmçinin digər ev cəmiyyətləri ilə birlikdə hərəkət edə bilərsiniz.

Həvari Paul, özünün yaratdığı və sonra Apollosun möhkəmləndirdiyi Korinf cəmiyyəti haqqında belə demişdir:

*Mən əkdim, Apollo suladı, amma Allah böyütdü. Buna görə də mühüm olan əkən ya da sulayan deyil, əkiləni böyüdən Allahdır. (1 Kor. 3:6-7)*

İsa şagirdlərinə belə dedi:

*Mən cəmiyyətimi quracağam və ölülər diyarının qapıları ona qalib gələ bilməyəcək. (Mat. 16:18)*

İsa cəmiyyətini böyütməkdə qərarlıdır. Bizim işimiz, İsanın təlimlərinə sadiq şagirdlərini yetişdirməkdir.

***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

## *Tətbiq və dua*

1. Cəmiyyətinizin üzvləri Allahın kəlamını müntəzəm olaraq təklikdə oxumağı və ya dinləməyi öyrənirlərmi? Onlar hər gün Rəbb ilə duada vaxt keçirirlərmi? Yuxarıdakı Sual-cavab hissəsindən birinci sualı təkrar oxuyun. Bunu necə öyrədəcəyinizi planlaşdırın. (50 Həyat Dərsi-ndə "Allahı tanımaq üçün vaxt ayırın" dərsindən istifadə edə bilərsiniz.)
2. Qrupunuzdakı insanları düşünün. Onlar Məsihə bənzəməkdə inkişaf edirlərmi? Onun öyrətdiyi hər şeyə riayət etməyi öyrənirlərmi? Bu kitabın bütün fəsilləri, başqalarını şagird etməkdə sizə kömək etmək üçün nəzərdə tutulmuşdur. Kitabı nəzərdən keçirin, cəmiyyətinizin hansı mövzulara daha çox diqqət yetirməyə ehtiyacı olduğunu düşünün və dua edin.
3. Qrupunuzdakı konkret insanları düşünərək yuxarıda 2 nömrəli sualı (Tez-tez Verilən Suallar-da) təkrar oxuyun. Orada sadalanmış davranışlar arasında qrupunuza öyrədilməli davranışlar varmı? Söhbət etməli olduğunuz şəxslər varmı?
4. Cəmiyyətinizin üzvləri başqalarını şagird edirlərmi? Bunda inkişaf etmələri üçün onlara necə kömək edə bilərsiniz? Yuxarıda 3 nömrəli suala baxın, oradakı məsləhətlərdən necə faydalana biləcəyinizi müzakirə edin.
5. Həm rəhbərlər olaraq, həm də cəmiyyətinizin toplantılarında Yəh. 8:31-32-yə əsasən həqiqi şagird olmaq üçün dua edin.

Paul kolosseli imanlılara görə aşağıdakı kimi dua etdi. Siz də qrupunuzdakı adamlara görə bu sözlərlə dua edə bilərsiniz:

> *Ona görə bunu eşitdiyimiz gündən bəri sizin tam hikmət və ruhani idrakla Allahın iradəsini bütünlüklə qavramanız üçün biz də dualarımızı və yalvarışlarımızı kəsmədik. Belə ki Rəbbə layiq şəkildə həyat sürərək Onu hər cəhətdən razı salasınız və hər cür xeyirli əməldə bəhrə verib Allahı tanımaqda böyüyəsiniz, hər şeyə dözərək səbir edə bilməniz üçün Onun izzətli qüvvəsinə güvənərək hər cür qüdrətlə möhkəmlənəsiniz, müqəddəslərin nurda olan irsinə şərik olmanız üçün sizə səlahiyyət verən Ataya sevinclə şükür edəsiniz. O bizi zülmət hakimiyyətindən xilas edib Öz sevimli Oğlunun Padşahlığına köçürtdü. Oğlunda satınalınmaya —günahlarımızın bağışlanmasına malikik. (Kol. 1:9-14)*

# 13. Ev cəmiyyətində bağışlanma

*Qoy hər cür kinlə birlikdə acılıq, hiddət, qəzəb, çığırtı, böhtançılıq büsbütün sizdən uzaq olsun. Amma bir-birinizə qarşı xeyirxah, rəhmli olun və Allah Məsihdə sizi bağışladığı kimi siz də bir-birinizi bağışlayın.*
*(Efeslilərə 4:31-32)*

## ***Giriş***

### Biz bağışlayanda Məsihə bənzəməyə başlayırıq

Kamil bir ailə görmüsünüzmü? Bəzi ailələri uzaqdan seyr edəndə, elə bilirsiniz ki, kamil ailədir. Yaxınlaşdıqda isə görürsünüz ki, başqa ailələr kimi, münasibətlərində problemlər vardır.

Hər ailə məhəbbətlə birgə yaşamağı öyrənməlidir, yoxsa münasibətləri getdikcə soyuyur. Bu, ev cəmiyyəti üçün də belədir. Bəzi ev cəmiyyətlərində imanlılar aylarla, illərlə hər həftə yığışmaqlarına baxmayaraq bir-birlərindən inciyir, bir-birlərinə kin bəsləyir, nifrət edirlər. Bu ağac kənardan gözəl görünsə də, daxildən çürüyür.

Günahın etiraf edilməsi və bağışlanma məsihçi inancının əsasıdır. Xilaskarımız bizim tamamilə bağışlanmağımız üçün çarmıxa çəkildi. Bunu tez-tez yada salmaq üçün Rəbbin Süfrəsini keçiririk. Buna görə İncil öyrədir ki, İsa Məsihin cəmiyyəti üzr istəməyi və ürəkdən bağışlamağı öyrənməlidir. İsa Məsih uca Padşahdır və biz Onun övladlarıyıq. O bizə öyrətdi ki, biz ömrümüz boyunca bağışlamağı öyrənməliyik.

Sizin qrupunuz bu fəsildə öyrədilən həqiqətləri tətbiq etməyi öyrənsə, siz İsanın istədiyi övladlar, qaranlıq dünyada parlayan nur olacaqsınız.

## Bağışlamağın və üzr istəməyin gücü

**Başlanğıc müzakirəsi:** İnsanların pozulmuş münasibətlər üzündən cəmiyyətin toplantısını tərk etdiklərini heç gördünüzmü? Bu cəmiyyətə necə təsir etdi?

Bu günkü dərsimizdə bağışlamağı və məhəbbətlə davranmağı adət halına necə gətirməyi və insanları buna necə ruhlandırmağı öyrənəcəyik.

**Mat. 6:12-15-i oxuyun.**

1. İsanın öyrətdiyinə görə, Allahdan bizi bağışlamasını necə istəməliyik? (12-ci ayə) İsanın öyrətdiyinə görə, başqalarının bizə qarşı olan günahlarını bağışladığımız vaxt nə baş verir? İsanın öyrətdiyinə görə, başqalarının bizə qarşı olan günahlarını bağışlamadığımız vaxt nə baş verir? (14-15-ci ayə)

   Bu ciddi bir sözdür. Buna etinasız yanaşmaq olmaz! Siz buna inanırsınızmı? Tanıdığınız adamlardan kimisə bağışlamalısınızmı? Cəmiyyətinizdə bağışlamamağın nə qədər təhlükəli olduğunu öyrənməli olan adamlar varmı?

**Kol. 3:12-14-ü oxuyun.**

2. Bu ayələrə əsasən, Allahın seçilmiş xalqı necə olmalıdır? Biz necə də bəxtiyarıq ki, belə gözəl bir ailəyə daxil olduq! Bu ayələrə riayət etsək, belə rəftarımız və əməllərimiz münasibətlərimizə necə təsir edəcək?
3. 13-cü ayəni təkrar oxuyun. Bu ayə bir-birimizə "dözmək" və bir-birimizi "bağışlamaq"dan bəhs edir. Sizcə, bunların arasındakı fərq nədən ibarətdir? Müzakirə edin.

   Bir-birimizə "dözmək", başqalarının zəifliklərinə səbir etmək deməkdir. İnsanlar bizə qarşı günah işlədəndə biz onları bağışlamalıyıq. Onların zəifliklərinə görə onları bağışlamağa ehtiyac yoxdur, ancaq onlara dözməli və buna baxmayaraq onları sevməliyik. Günah və zəiflik barədə misallar gətirə bilərsinizmi?
4. 12-ci ayəyə görə biz Allahın seçilmişləri, müqəddəsləri və sevimliləriyik, 13-cü ayə isə Məsihin bizi bağışladığını deyir. Bunlar bizə başqalarını bağışlamaqda necə kömək etməlidir?

5. Biz bir-birimizi bağışlamasaq, bu gözəl imanlı ailəmizin sonu necə olaraq?

**Mark 11:24-25-i oxuyun.**

6. Sizcə, Allahdan bir şeyi imanla istəməkdən bəhs edən 24-cü ayə və kin bəslədiyimiz insanları bağışlamağı öyrədən 25-ci ayə arasında əlaqə varmı?

   Niyə biz Allaha dua edəndə başqalarını bağışlamağımız bu qədər önəmlidir?

**Mat. 5:23-24-ü oxuyun.**

7. Allaha bir qurban və ya hədiyyə gətirərkən yadınıza düşsə ki, qardaşınızın sizə qarşı bir şikayəti var, İsa sizə nə etməyi buyurur?

   İsanın sizdən ibadətinizi dayandırıb qardaşınızla barışmağı tələb etməsi sizi təəccübləndirirmi? İnsanların bir-biri ilə münasibətləri Allah üçün niyə bu qədər mühümdür?

   Sizin incitdiyiniz və ya günah etdiyiniz, sizə qarşı şikayəti olan bildiyiniz bir adam varmı? Əgər varsa, özünüzü alçaldıb ondan üzr istəməyə hazırsınızmı? İsa sizə hətta ibadətinizə ara verib dərhal bunu etməyi buyurur. Bu, Allaha verə biləcəyiniz ən böyük hədiyyədir!

   Müqəddəs Ruha dərhal itaət etmək sağlam münasibətləri qorumaq üçün niyə bu qədər mühümdür?

**<u>Öyrəndiklərimizi təkrar nəzərdən keçirək</u>:**

**Mark 11:25** bizə deyir ki, kimdənsə narazılığımız varsa, onu qəbul etmək və ***o adamı bağışlamaq*** vacibdir.

**Mat. 5:23-24** başqa birinin bizə qarşı şikayəti olduğunu qəbul etməyin vacibliyindən bəhs edir. Belə halda biz ***o adamın yanına gedib üzr istəməliyik.***

**<u>Hər ikisi</u>**—başqalarını bağışlamaq və onlardan üzr istəmək—vacibdir. Rom. 12:18 deyir ki, *"İmkan daxilində bacardıqca bütün adamlarla sülh içində yaşayın".*

**Dua ilə bitirin:** İndi bağışlamaqda necə böyüyə biləcəyinizi və qrupunuzda başqa imanlıları bir-birini bağışlamağa və üzr istəməyə necə ruhlandıra biləcəyinizi düşünün. Sonra sağlam bir imanlı ailəsi olmaq üçün dua edin!

***<u>Məsihçi tarixindən bir heykayə</u>***

***Almaniya, XX əsr***

## Bir düşməni ürəkdən bağışlamaq

Faşistlər 1940-cı ildə Hollandiyanı işğal etdikdə, hollandiyalı qadın Korri ten Bum əlli yaşlarında idi. Minlərlə hollandiyalı amansızcasına həbs edilib Almaniyadakı həbs düşərgələrinə (bunlar "ölüm düşərgələri" olaraq da bilinir) atılarkən, Korrinin ailəsi mümkün qədər çox yəhudini ölümdən xilas etmək üçün əlindən gələni edirdi. Onlar öz evlərində düzəltdikləri gizli bir otaqda çox yəhudini gizlədərək faşistlərin əlindən xilas etdilər.

Axırda gizli polis onları da tutdu. Korri, böyük bacısı Betsi və yaşlı atası ilə birlikdə həbs düşərgəsinə göndərildi. On gün sonra atası vəfat etdi. Xəstə olan Betsi də Almaniyadakı düşərgədə özünə bir neçə ay amansız rəftar edildiyinə görə vəfat etdi. Korrinin özü bir "yanlış" sayəsində müharibənin sonuna az qalmış həbsxanadan azad edildi (bu, Allahın deyil, insanların yanlışı idi). Hərb düşərgəsində olan başqa qadınların demək olar ki hamısı öldürüldü.

Bacılar birlikdə həbsdə ikən Korrinin bacısı Betsi ona tez-tez belə dedi: "Müharibə qurtarandan sonra biz dünyaya bağışlamağı öyrətməliyik". Kori üçün bu çox çətin idi, amma axırda o Allaha təslim oldu, – Onun əmr etdiyi kimi bağışlamağı və Onun çağırdığı hər yerə getməyi qərara aldı.

1947-ci ildə (müharibə qurtarandan iki il sonra) viran qalmış Almaniyaya qayıdan Korri, qəlbisınmış və pərişan xalqa Allahın məhəbbəti və bağışlamağı barədəki xoş xəbəri yaymağa başladı. Münxendəki cəmiyyətlərin birində düşmənlərimizi sevmək haqqında danışan Korri toplantıdan sonra həyatında ən ağır anlar keçirdi – öz düşməni ilə üzüzə gəlib onu bağışlaya bilərdimi?

Toplantı başa çatmış, insanların çoxu zalı tərk etmişdi ki, Korri alman bir kişinin özünə yaxınlaşdığını gördü. Onu dərhal tanıdı! Bu adamın həbsxana mühafizəçisi forması geyinmiş surəti xəyalında canlandı. Onun özünü də, Betsini də alçaltmış bu qəddar adam indi əlini uzatmış onun qarşısında dururdu. Korri bu adamın onu xatırlamasına əmin deyil idi.

"Çox gözəl danışdınız, xanım! Sizin dediyiniz kimi, bütün günahlarımızın dənizin dibinə atıldığını bilmək necə gözəldir!" Kişi,

müharibədən sonra məsihçi olduğunu söylədi. O bilirdi ki, Allah onun bütün günahlarını bağışladı, indi isə o, Korridən pis rəftar etdiyi çox insanın nümayəndəsi olaraq onu bağışlamasını xahiş etdi.

Korri bu adamın onu tanımadığını anladı. Əlbəttə, axı düşərgədə minlərlə qadın var idi.

Korri, ona əl uzatmış o adamın qarşısında durduğu anlarda nə baş verdiyini anlatdı:

> *Mən orada dayanmış, öz günahlarımın dəfələrlə bağışlanmağına baxmayaraq o adamı bağışlaya bilmirdim. Axı Betsi o qorxunc yerdə can verdi! Onun ağır və əzablı ölümünə səbəb olmuş bu mühafizəçini elə asanlıqla necə bağışlamaq olardı?*

Hər halda, Korri onu bağışlamalı olduğunu dərk edirdi. Allahın kəlamı öyrədir ki, biz bizə qarşı günah edənləri bağışlamırıqsa, Səmavi Atamız da bizim günahlarımızı bağışlamayacaq. Korri müharibədən sonra düşmənlərini bağışlayan hər kəsin sağlam həyat sürə bildiyini, bağışlamayanların isə heç vaxt normal həyata qayıda bilmədiklərini, ömürlərinin sonuna qədər keçmiş əzablarının əsiri olduqlarını görmüşdü.

Korrinin hekayəsi belə davam edir:

> *Mən yerimdə donub qaldım, ürəyim bumbuz idi, bir zərrə qədər hiss yox idi. Ancaq bağışlamanın bir hiss olmadığını da yaxşı bilirdim. Bağışlama iradədən irəli gəlir, ürəyin hərarətindən asılı olmur. "Mənə kömək ol, İsa!" deyə ürəyimdə dua etdim. "Mən əlimi qaldıra bilirəm. Bu qədər. O hissi Sən ver'.*
>
> *Daş kimi mexaniki şəkildə əlimi ona uzatdım və o anda inanılmaz bir şey baş verdi. Mən onun əlini sıxanda, çiynimdən çıxan bir istilik bütün varlığıma yayılıb mənə şəfa verdi. Gözlərim doldu.*
>
> *"Səni bağışlayıram, qardaşım!" qışqırdım. "Ürəkdən bağışlayıram!"*

Keçmişdə məhbus olmuş qadın və ona əzab vermiş mühafizəçi orada birlikdə durduqları o anlarda Allah Korrinin ürəyini ondan əvvəl heç hiss etmədiyi ilahi məhəbbəti ilə doldurdu.

Korri ten Bum 30-dan çox il boyunca dünyanı gəzərək hər cür kinə, nifrətə, incikliyə qalib gələn Allahın məhəbbəti barədəki bu xəbəri yaydı. Bu illərdə bağışlamaqla əlaqəli başqa sınaqları da oldu, lakin həmişə səbirli və lütfkar olan Allah ona Öz yollarını öyrətdi.

Korrinin yaydığı xəbər—Məsihin Müjdəsi—dünyanın çox ölkəsində minlərlə adama azadlıq və həyat bəxş etdi. Bu xəbər bizə də şəfa və yeni həyat bəxş edə bilər. Çoxumuz, yəqin ki, Korri ten Bum qədər böyük sınaqdan keçmərik—bizə işgəncə vermiş bir adamı bağışlamalı olmarıq, amma başqalarının bizə qarşı işlətdiyi daha xırda günahları bağışlayarıqmı? Allah bu qədər çox əzab çəkmiş bir qadının ürəyini məhəbbəti ilə doldura bilirsə, bizə də bir-birimizi sevmək üçün Öz məhəbbətini verə bilməzmi?

Bu hekayə, Korri ten Bumun ***Sığınacaq*** (***The Hiding Place***)[2] kitabından və həmçinin ***Rəbb uğrunda yurdsuz qalan*** (***Tramp for the Lord***)[3] kitabının 7-ci fəslinə əsasən nəql edilmişdir. Sitatlar ***Rəbb uğrunda yurdsuz qalan*** (***Tramp for the Lord***) kitabından götürülmüşdür.

---

[2] ten Boom, Corrie, and John and Elizabeth Sherrill. ***The Hiding Place.*** Grand Rapids, MI: Chosen Books, 1971.

[3] ten Boom, Corrie, and Jamie Buckingham. ***Tramp for the Lord.*** Fort Washington, PA: CLC Publications, 2011.

## *Tez-tez verilən suallar*

### *1. Biz rəhbər kimi özümüzə qarşı ədalətsiz rəftara necə reaksiya verməliyik?*

Əksər adamların reaksiyası **susmaq, qışqırmaq** yaxud **inkar etməkdir**. Susan adam onu incidənlə danışmaqdan imtina edir. Qışqıran hirsdən partlayıb qisas almaq istəyir. İnkar edənsə dərdini içində basdırıb heç nə olmamış kimi davranır. Bütün bunların sonu necə olacaq? Biz belə reaksiya veririksə, Məsihin Bədənində birlik və həmrəylik ola bilərmi?

Düşmən (Şeytan) rəhbərlərə hücum etməkdən xüsusilə xoşlanır, çünki qrupu dağıtmağın "açarı" rəhbərlərin bir-birləri ilə arasını vurmaqdır. Bu məqsədlə düşmən çox vaxt cəmiyyətin bir üzvündən istifadə edir. Hər rəhbər gec və ya tez kiminsə ondan narazı olmasını və sözləri ilə onu incitməsini, yaxud başqaları ilə birləşib ona qarşı çıxış etməsini gözləyə bilər. Kimsə sizi incitsə, xətrinizə dəysə, siz xidməti atacaqsınız, yoxsa çətinliklərə baxmayaraq xidməti davam etdirməyə əzmlisinizmi?

Sizi incidənləri bağışlamaqda və sevməkdə nümunə olmaq, sizin bir rəhbər olaraq vəzifənizdir. Siz ürəyinizi yumşaldıb Məsihin lütfünü qəbul etməyi seçməlisiniz – bu lütf sizin yaranızı sağaldacaq və sizi incidənlərə məhəbbət göstərməyinizə imkan verəcək. Bağışlamaq üçün Allahdan kömək istəyin – eyni adamı dəfələrlə bağışlamaq lazım gəlsə belə. (Mat. 18:21-22-də İsanın Peterə dediyi sözə bax.)

Müqəddəs Yazıdan aşağıdakı mətnlər bağışlamağı öyrənmək üçün faydalıdır. Siz bu mətnləri birlikdə nəzərdən keçirdinizmi?

- **Rom. 12:17-21:** Pisliyə pisliklə cavab verməyin. Allahın qəzəbinə yer verin. Pisliyə yaxşılıqla qalib gəlin.
- **Mat. 5:43-48:** Düşmənlərinizi sevin.
- **Mat. 6:12-15:** Biz bağışlamasaq, Allah da bizi bağışlamayacaq.
- **Mat. 18:21-35:** Bağışlamayan qul məsəli
- **Yeş. 53:7-9; Mat. 27:11-14 və Luka 23:33-34:** İsa bizim üçün nümunədir. O ədalətsizcə əzab çəksə də, qisas almadı, əksinə, bağışladı.

### *3. Ev cəmiyyətimizdəki adamlara bir-birini bağışlamaqda necə kömək edə bilərəm?*

Bağışlamaqda nümunə olub bunu öyrətməkdən əlavə bəzən həmçinin qrupdakı bir adamla bir qardaşını yaxud bacısını bağışlamağın nə qədər vacib olduğu barədə söhbət etmək lazım ola bilər. Yaxud aralarında problem olan iki nəfəri bir yerə gətirib bir-birinə qulaq asmaq və bir-birini bağışlamaqda onlara kömək etmək lazım ola bilər. Getməzdən əvvəl Müqəddəs Ruhun sizə kömək etməsi və sizi doldurması üçün mütləq dua edin. Aşağıdakı ayələri o adamlarla paylaşa bilərsiniz. (Həmçinin yuxarıdakı ayələrdən istifadə edin.)

- **Yəh. 13:34-35:** Biz, İsa bizi sevdiyi kimi bir-birimizi sevməliyik. O sevgisi ilə günahlarımızı tamamilə bağışladı.
- **Kol. 3:12-15:** *"...ürək mərhəməti, xeyirxahlıq, itaətkarlıq, həlimlik və səbirə bürünün... Rəbb sizi bağışladığı kimi siz də bağışlayın."*
- **1 Yəh. 4:7-12 və 19-21:** Biz bir-birimizi sevməliyik. Allahı sevib qardaşımıza nifrət etmək qeyri-mümkündür.
- **1 Pet. 3:8-12:** *"həmfikir olun...Pisliyə pisliklə... cavab verməyin, əksinə xeyir-dua edin"*

### *4. Bizə qarşı günah işlədən bir adamı ürəkdən bağışlayıb günahından heç danışmamaq bəzən doğrudur? Onun etdiyi pisliyi sevgiylə ona söyləmək nə vaxt lazımdır?*

Bəzən insanlar bizi incidir və bundan özlərinin xəbərləri yoxdur. Əgər bu, xırda bir məsələdirsə və o adam onu bilmədən edibsə, heç ona bildirmədən bağışlamaq və bu məsələni Allahla aramızda saxlamaq yaxşı olar. Amma bəzən, xüsusən bir adam günah etməkdə davam edir və həm bizi, həm başqalarını bununla incidirsə, ona yanlış bir şey etdiyini bildirmək vacib olur.

Əgər o adam qrupda ikitirəlik salırsa, axırda qrup dağıla bilər. O adamı seviriksə və onun Allahla və başqa insanlarla münasibətini mühüm sayırıqsa, ona həqiqəti söyləməliyik.

Mat. 18:15-17-də İsa bizə qarşı günah edənlərlə necə rəftar etməyi öyrədir. Hər vəziyyət fərqli olsa da, bu ayələrdən bəzi mühüm prinsipləri öyrənə bilərik. 50 Həyat Dərsi kitabında 37-ci dərs ("Günaha qalib gəlməkdə sevgi ilə bir-birinizə yardım edin") bu ayələri tətbiq etməyi öyrədir.

Bu mövzudan daha ətraflı “Yetkin şagirdlər olmaq" başlıqlı 12-ci fəsildə bəhs olunur. ("Tez-tez verilən suallar"da 2-ci suala baxın.)

**Bağışlamaq və üzr istəmək üçün faydalı prinsipləri həmçinin Əlavə C-də tapa bilərsiniz.**

## ***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

### *Tətbiq və dua*

1. Mat. 5:23-24-ü oxuyun. Hansısa bir yolla incitdiyiniz və ya zərər verdiyiniz bir adam varmı? Onların yanına nə vaxt gedəcəksiniz? Nə edəcəksiniz ya da nə söyləyəcəksiniz? Bu barədə dua edin. İndi plan qurun və mümkün qədər tez planınızı həyata keçirin.
2. Sizi incitmiş və bağışlamadığınız bir adam varmı? Allahın köməyi və lütfü ilə dua edib onları ürəkdən bağışlayın. (Kol. 3:12-14-ü təkrar oxuyun.)
3. Cəmiyyətinizdə elə bir adam tanıyırsınızmı ki, cəmiyyətin içində və ya kənarda başqa birini bağışlamalıdır? Əgər tanıyırsınızsa, o adama bağışlamaqda necə kömək edə bilərsiniz? Onun üçün dua edin.

   Bu bölmədəki yazıları təkrar nəzərdən keçirin və Allahdan diləyin ki, insanları bağışlamağa ruhlandırmaq üçün bu ayələrdən necə istifadə edə biləcəyinizi sizə göstərsin. Dua edin ki, Allah onların ürəklərini yumşaltsın və onlar Allaha itaət etsinlər.
4. Cəmiyyətinizin bütün üzvlərinə görə dua edin ki, Kol. 3:12-14-ə əsasən bir-birləri ilə münasibət qursunlar.

# 14. Bu dünyada duz və nur olmaq

***"Siz yer üzünün duzusunuz. Amma duz öz dadını itirərsə, nə ilə duzlanar? Artıq çölə atılıb insanlar tərəfindən tapdalanmaqdan başqa bir şeyə yaramaz.***
***Siz dünyanın nurusunuz. Dağın zirvəsində qurulan şəhər gizli qala bilməz. Heç kim çırağı yandırıb qabın altına qoymaz. Əksinə, çıraqdana qoyar ki, evdəkilərin hamısını işıqlandırsın. Eləcə də sizin nurunuz insanların qarşısında elə parlasın ki, onlar xeyirxah işlərinizi görüb göylərdə olan Atanızı izzətləndirsinlər". Matta 5:13-16***

(İsa çarmıxa çəkilməzdən əvvəl şagirdləri üçün Ataya dua etdi)—

***"Sən Məni dünyaya göndərdiyin kimi Mən də onları dünyaya göndərdim" Yəh. 17:18***
***Əgər qardaş-bacılardan birinin paltarı və gündəlik yeməyi yoxdursa və sizdən biri ona «arxayın get, isin və qarnını doydur» deyib onların yaşayışı üçün lazım olanları vermirsə, nə faydası var? Yaqub 2:15-16***

***<u>Giriş</u>***

## İsa bizi dünyaya göndərir

Məsihçilər ev cəmiyyətində rahat şəkildə həftədə bir dəfə toplantı keçirə bilərlər: toplantı qurtaranda hərə öz evinə qayıdır və bir həftə sonra yenə yığışır, bir neçə ilahi oxuyub təlimə qulaq asırlar. Lakin bu kitabın digər yerlərində qeyd etdiyimiz kimi, məsihçi inancı təkcə həftədə bir dəfə ibadət toplantısına getməkdən ibarət deyildir.

Dörd Müjdəyə nəzər salaq.

Şagirdlər İsanı üç il müşahidə etdilər və Onun dini binaların divarları arxasında gizlənmədiyini gördülər. İsa insanlardan tələb etmirdi ki, Onun yanına gəlsinlər, amma Özü insanlar arasında idi! Kəndləri dolaşdı, günahkarlarla çörək kəsdi, onları tövbəyə çağırdı və onlara Allahın lütfünü göstərdi. İsa minlərlə adamı yedirtdi. Cüzamlılara toxundu, xəstələrə şəfa verdi, cinə tutulmuşları azad etdi. İkiüzlü dindar insanlara cəsarətlə meydan oxudu. Təkcə sinaqoqlarda deyil, evlərdə, küçələrdə, gölün sahilində—hər yerdə Allahın Padşahlığı barədə öyrətdi.

Bu gün biz Məsihin bədəni adlanırıq. Başqa sözlə desək, indi biz İsanın səsi, əlləri və ayaqlarıyıq. Biz də dünyaya gedirik! Qaranlıq yerlərdə Onun nurunu saçırıq. Ac olanları yedirdir, xəstələrə baş çəkirik. Həbsdə olanların qayğısına qalırıq. Bu dünyadakı insanlara Rəbbin lütfü ilə toxunuruq. Onun adı ilə onlar üçün dua edirik. Onların ehtiyaclarını ödəyərkən həmçinin Məsihin həqiqətən dünyanın Xilaskarı olaraq yer üzünə gəldiyini onlarla paylaşırıq. İnsanları günahdan əl çəkib Rəbbə iman etməyə məhəbbətlə çağırırıq.

Bu, çox gözəl səslənir, amma əməldə heç də asan olmur. Hamımız bilirik ki, məsihçilər arasında qalmaq və dünyanın ehtiyaclarına baş qoşmamaq bundan qat-qat daha asandır.

Bu fəsil, işığınızı qabın altına gizlətməkdənsə, hər zaman parlamasına kömək edəcək. Dünyaya gedəndə yadda saxlayın ki, İsa sizinlədir! Onun adı ilə dünyaya xidmət edin.

***Müqəddəs Kitab Dərsi***

## Ehtiyac içində olan insanlara kömək etməklə İsaya xidmət edin

(***50 Həyat Dərsi***-ndə 41-ci dərs)

**Başlanğıc müzakirəsi**: Sizin fikrinizcə, Allah kasıb insanların qayğısına qalır? Sizcə, kasıblara kömək etmək məsuliyyətini biz daşımalıyıq? Bəli və ya xeyr cavablarınızı izah edin.

**Matta 25:31-46-nı oxuyun.**

1. Bu ayələrdə İsa həqiqəti öyrətmək üçün həkayə danışır. 31-32-ci ayələri yenidən oxuyun.

   Bu hekayə nə vaxt baş verir? Səhnəni təsvir edin. Burada kimləri görürük (32-ci ayə)?

   Bəşər oğlu (İsa) nə edir (31-ci ayə)?

2. 34-36-cı ayələri yenidən oxuyun. İsanın sağında oturanlar nə alacaqlar (34-cü ayə)? Niyə? Onlar nə ediblər?

   35-36-cı ayələrdəki İsanın dediyi və onların İsaya etdikləri şeyləri sadalayın.

3. Sağda oturanlar (salehlər) İsanın sözlərinə cavab olaraq nə deyirlər? Sizcə, onlar Onun sözlərini təəccüblə qarşıladılar (37-39-cu ayələr)?

4. 40-cı ayədə İsanın onlara verdiyi cavabı oxuyun. Sizcə, O bununla nə demək istəyir? Ehtiyac içində olanlara kömək etməklə biz İsaya necə xidmət edirik?

   Tereza Ana, Hindistanda küçələrdə yaşayan kasıblara və ölüm ayağında olanlara xidmət edən məhşur katolik rahibəsi idi. O bu nümunəvi məsəldən ilham almışdı. O deyirdi ki, kömək etdiyi hər bir şəxsdə İsanın üzünü görürdü. Ehtiyac içində olan insanlara qayğı göstərəndə, siz İsanın Özünə kömək etdiyinizi nəzərə alırsınızmı?

5. Sonra İsa Onun solunda oturanlara tərəf dönüb danışır. O onlara nə deyir? Onlar bu cəzanı nəyə görə alırlar (42-43-cü ayələr)?

6. 44-cü ayədə onların cavabları, salehlərin 37-39-cu ayələrdə olan cavablarına necə oxşayır? İsa onlara necə cavab verir (45-ci ayə)?

7. Efeslilərə 2:8-10-u oxuyun. Bu ayələri bir neçə dəfə oxuyun. 8-ci ayə xilasımız haqqında bizə nə deyir?

   9-cu ayəyə əsasən deyə bilərik ki, əməllərimiz vasitəsilə xilas olmuşuq? Bir imanlı, öz əməlləri vasitəsilə xilası qazanması ilə öyünə bilərmi?

8. İndi yenidən 10-cu ayəni oxuyun. Bizim imanımıza görə, Allah bizi İsa Məsihdə yeni məxluq yaratdı. Bu ayə yeni məxluq olaraq nə etməyimiz üçün yaradıldığımızı öyrədir?

   Sizcə, bu yaxşı işlərə nələr daxil ola bilər?

9. Matta 25-ci fəslə qayıdın və 40-cı ayəni yenidən oxuyun. Siz kiminsə ehtiyac içində olduğunu görəndə ya da eşidəndə, "Mən necə İsanın bu şəxsə uzanan əli ola bilərəm" deyə fikirləşirsinizmi? Heç kim öz ətrafında gördüyü bütün ehtiyacları tam ödəyə bilməz. Amma hər birimiz Allahın bizim qarşımıza çıxartdığı ehtiyac içində olan insanlara kömək əlimizi uzada bilərik.

**Dua ilə bitirin:** Allahın sizdən kömək etməyinizi istədiyi insanlar haqda düşünün. İsanın onlar üçün olan Öz şəfqətli ürəyini sizlərə verməyini Ondan xahiş edin. Sonra O nə etməli olduğunuzu sizə göstərəndə Ona itaətkar olun.

***<u>Məsihçi tarixindən bir hekayə</u>***

***<u>Orta Asiya, XXI əsr</u>***

## Həbsxananın qapıları bir ev cəmiyyətinin üzünə açılır

Tofiq adındakı məhbus yalvarırdı: "Ruslan, sən onsuz da tez azadlığa çıxacaqsan. Nə olar, Müqəddəs Kitabını mənə ver! Azadlığa çıxan kimi özünə bir kitab tapacaqsan. Mənimsə Allahın yolunu öyrənmək üçün başqa fürsətim olmayacaq".

Orta Asiyanın bir müsəlman ölkəsində oğru olmuş Tofiq, həbsxanada yatan məsihçilərin vasitəsilə Məsihə iman etmişdi, amma Müqəddəs Kitabı yox idi. Onun məhbus dostu Ruslan həbsə düşəndə yeni imana gəlmişdi və Müqəddəs Kitabını özü ilə götürməyinə icazə verilmişdi. Tofiq çox vaxt Müqəddəs Kitabı Ruslandan götürüb oxuyardı. Məsihin təlimi onların hər ikisini həqiqətən dəyişdirirdi.

Axır ki, Ruslanın azadlığa buraxılma günü gəlib çatdı. Onlar vidalaşarkən, Ruslan Tofiqi qucaqlayıb Müqəddəs Kitabı onun əllərinə qoydu. Həbsxananın qapısı açıldı və Ruslan azadlığa qovuşdu. Tofiq Müqəddəs Kitabı qucaqladı və bu inanılmaz hədiyyəyə görə Allaha şükür etdi.

O dərhal Müqəddəs Kitabı oxumağa başladı və hər gün saatlarla oxudu. Oxuduqca dəyişdi. Allahın kəlamı gündən günə onun zehnini və ürəyini nurlandırır, ona ümid verirdi. O gördü ki, İsa Məsihin xoş xəbərini eşidib imana gəlməklə yenidən doğulmaq insanın dəyişməsi üçün yetərli deyildir. Tofiqin həyatı gündən-günə dəyişirdi: o, Allahın xeyirxahlığına getdikcə daha çox güvənirdi. Məsihin ölümü sayəsində günahlarının tamamilə bağışlandığına dair əminliyi getdikcə artırdı.

O, başqa məhbuslarla hörmətlə rəftar edir, hətta mühafizəçilərə belə yaxşı münasibət göstərirdi. Müjdənin həqiqət toxumları Tofiqin ürəyinin dərinliyində kök saldıqca, həbsxana divarları içindəki kiçik dünyası nurlanır, sevinclə dolurdu. Müqəddəs Kitabın anlatdığı möcüzəni—adamın çətin vəziyyətlərdə belə hiss edə biləcəyi o inanılmaz sülhü həqiqətən yaşayırdı. Sözsüz ki, həbsxana adamı məyusluğa salır. Lakin Məsihin sayəsində Tofiqin ürəyi ümidlə dolu idi.

O, varlığının dərinliyində Müqəddəs Ruhun qüvvətini tapdı və imanını bölüşməyə başladı. O zaman digər məhbuslardan bəzisi imana gəldi. Bir müddət sonra həbsxana müdiriyyəti Tofiqlə digər imanlıların

yığışması üçün bir otaq ayırdılar. Onlar Tofiqin necə dəyişdiyini gördülər. Tofiq başqa məhbuslara yaxşı təsir edirdi, belə ki, məhbusların davranışları, sözləri, hərəkətləri yaxşılığa doğru dəyişirdi! Müdiriyyət bu kişilərin həyatında fəal olan Müjdənin qüdrətini gördü.. Zamanla onların həftədə dörd dəfə 2 saatlıq toplantı keçirmələrinə icazə verildi. Tofiq sevincindən yerə-göyə sığmırdı. Bu yeni imanlılar (və eləcə də bəzi imansızlar) ilə yığışmaq əla idi, ancaq Tofiq başa düşürdü ki, onun bir müəllimi olmasa, o özü o adamlara yaxşı təlimi öyrədə bilməz. Bu necə mümkün ola bilərdi? Həbsxanada ona Müqəddəs Kitabı daha dərindən öyrədən bir müəllimi haradan tapa bilərdi?

O zaman bir möcüzə baş verdi. Tofiqə Müqəddəs Kitabı hədiyyə etmiş Ruslan, öz dostu və ev cəmiyyətinin bir rəhbəri olan Rəşadı həbsxanaya göndərdi ki, Tofiqə baş çəksin.

Rəşad yola çıxmazdan əvvəl Tofiqə necə yardım etməsi barədə Allahdan müdriklik istədi. O bilirdi ki, həbsxana müdiriyyəti onun Tofiqə hər şeyi verməsinə icazə verməyəcək. Axırda Rəşad daha bir nüsxə Müqəddəs Kitabı və *İsa Məsihin təlimindən **50 Həyat Dərsi*** kitabını götürməyi qərara aldı. Bu kitab vasitəsilə o qrup İsanın həyatı və təlimlərini saatlarla öyrənib müzakirə edə bilərdi.

Rəşad üç ev cəmiyyətindən xahiş etdi ki, həbsxana qapılarının onun üzünə açılması üçün dua etsinlər. Bir imanlı qardaşı da özü ilə apardı ki, özü həbsxanaya girəndə o qardaş onun üçün dua etsin. Allah dualarına cavab verdi! Rəşad içəri girib Tofiqlə görüşdü və mühafizəçilər onun götürdüyü iki kitabı da içəri buraxdılar. Hətta özləri üçün Müqəddəs Kitab istəməklə Rəşadı lap heyrətə gətirdilər! O onlara belə cavab verdi: "Maşında daha çox kitab var. Tofiqlə görüşəndən sonra sizə gətirib verəcəyəm".

Rəşadın Tofiqlə bir neçə saat söhbət etməsinə icazə verildi. Rəşad Tofiqə Müjdəni daha ətraflı izah etdi, onu məhbuslara təlim öyrətməyə təşviq etdi. Tofiqa dedi,

> *Allah sənə bu kişiləri şagird etmək üçün əla bir fürsət verdi. Biz də sənə yardım etməkdən ötəri əlimizdən gələni edəcəyik. Ancaq sən unutma ki, Müqəddəs Ruh sənə yardım edəcək! Allahın kəlamı qüdrətlidir və insanların ürəklərində fəal işləyir. Bu iş sənin deyil, Allahın işidir!*

Rəşad Tofiqə ***50 Həyat Dərsi*** kitabından istifadə edərək Müqəddəs Kitabı necə öyrətməyi, dərs vaxtı necə müzakirə edəcəyini göstərdi. Onlar birlikdə dua etdilər ki, Rəbb bu həftəlik toplantılar vasitəsilə həbsxananın içində və bayırda Öz Padşahlığını genişlətsin. Söhbət zamanı Rəşad Tofiqin İsa üçün alışıb-yanan bir imanlı olduğunu gördü. Sonra Rəşad

başqalarına dedi ki: "Tofiq biz azadlıqda yaşayan imanlılardan daha güclü imanlıdır!"

Rəşad gedəndən sonra, Tofiq onun gətirdiyi kitablardan öz qrupunda istifadə etməyə başladı. Müsəlman mədəniyyətindən olan bu adamlar Məsihdə böyüyürdülər və Tofiq dərs öyrətdiyi zaman özü də Müqəddəs Kitabı daha yaxşı öyrənirdi.

Milad bayramında Rəşad və cəmiyyətlərdəki başqa kişilər xeyli ərzaq gətirdilər və imanlı məhbuslar onlara verilmiş mətbəxdə yemək bişirdilər. Lakin bu kiçik qrup, dadlı yeməklər gətirəcək ailələri olmayan başqa məhbusları da yeməyə dəvət etməyi qərara aldı. Tofiq və məsihçi qardaşları özlərinə verilmiş nemətləri başqaları ilə bölüşmək istədilər.

Rəşad həmçinin çox konfet gətirdi. Tofiq və digər imanlılar, Müqəddəs Kitabdan ümid verici ayələr yazdıqları kiçik vərəqləri konfet kağızları içinə qoyub konfetləri imansızlara Milad hədiyyəsi olaraq payladılar.

Ancaq xeyir-dua təkcə bir istiqamətdə, yəni ev cəmiyyətlərindən məhbuslara doğru hərəkət etmir. Bu yaxınlarda Rəşad həbsxananı ziyarət edəndə Tofiq ona bir çanta uzatdı. Onlara bu qədər məhəbbət göstərmiş ev cəmiyyətlərinə təşəkkür etmək istəyən məhbuslar onlara öz əl işlərini hədiyyə etdilər. Bunlar, cəmiyyətdəki qız uşaqları üçün qəşəng toxunmuş şallar idi.

Pasxa bayramında imanlılar Rəbbin Süfrəsini birlikdə qeyd etmək istədilər, amma Məsihin qanının rəmzi olacaq şərabları yox idi. Bu səbəbdən onlar tünd çay dəmlədilər və İsanın onları bağışlayıb onlara görə canını fəda etdiyini çörək və çay ilə qeyd etdilər!

Ev qrupları Tofiqin həbsxanada olan toplantısına "həbsxanada toplaşan ev cəmiyyətimiz" deyirdilər. Onların Məsihdə böyüməsinə kömək etmək üçün məsuliyyət hiss edirlər. İndi, bu sözlər yazıldığı zamanda (2020-ci ilin yazında), Tofiq hələ həbsxanadadır və onun qrupu yığışıb Müqəddəs Kitabı öyrənməkdə davam edir. Rəşad Tofiqə müntəzəm baş çəkir, bəzən ev cəmiyyətlərindən digər kişiləri də özü ilə götürür.

Bu ev cəmiyyəti həmçinin azadlığa çıxmış Ruslana yardım edir. Onlar bilirlər ki, azadlığa çıxan məhbuslar azadlıq olmayan bir mühitdən çıxıb heç bir məhdudiyyət olmayan azad bir mühitə daxil olanda emosional şok keçirə bilərlər. Azadlığa çıxmış məhbuslara çox vaxt iş tapmaq lazımdır, onları paltar, qış üçün palto, ayaqqabı, bəzən qalmağa yer kimi praktiki şeylərlə təmin etmək lazımdır. Onların həmçinin imanlı dostlara ehtiyacı

vardır ki, köhnə dostlar onları imandan döndərib köhnə həyata çəkməsinlər.

Ev cəmiyyəti Ruslana görə dua edir, kişilər müntəzəm olaraq onunla görüşür, onu ruhlandırır və problemlərində ona kömək edirlər. Tofiqin həbsxanada xidməti artdığından, onlar dərk edir ki, gələcəkdə azadlığa çıxan məhbuslara xidmət etməyə daha çox ehtiyac ola bilər. O məhbuslar da gec və ya tez azadlığa çıxacaqlar. Onlara Allahın məhəbbətini praktiki şəkildə göstərmək lazım olacaq.

> *“Nə vaxt Səni xəstə və ya zindanda görüb yanına gəldik?” Padşah da cavab verib onlara deyəcək: “Sizə doğrusunu deyirəm: siz bu ən kiçik qardaşlarımdan birinə etdiyinizi Mənə etmiş oldunuz.”( Matta 25:39-40)*

***Tez-tez verilən suallar***

***1. İsa şagirdlərinin yer üzünün duzu və dünyanın nuru olduqlarını dedikdə nəyi nəzərdə tuturdu?***

İsa bizə Allahın Padşahlığının nəyə bənzədiyini izah etmək üçün tez-tez gündəlik həyatdan misallar gətirirdi. Əvvəla İsa şagirdlərini duzla müqayisə etdi. Duz nə edir? Adətən yeməyin dadını hiss etmək üçün duzdan istifadə olunur. Həyat bəzən dadsız olur... yəni çətin və mənasız gəlir. Allahın məhəbbətində yaşayan imanlılar hara getsələr, hər yerə məna və ümid gətirirlər. İmanlılar bir evə, iş yerinə, məktəbə və ya hansısa başqa bir yerə daxil olduqda oranın atmosferi dəyişir və həyat oradakı insanlara "ləzzətli" gəlməyə başlayır.

Duz həmçinin ətin çürüməsinin qarşısını alır və soyuducular icad olunmazdan əvvəl insanlar əti qorumaq üçün duzdan istifadə etmişdilər. Biz imanlılar, ölməkdə olan bir dünyada fəal oluruq. Duz olduğu kimi, saleh işlərimiz, o cümlədən allahsız insanlara qarşı xeyirxah rəftarımız da həyatverici bir təsir göstərir. Belə işlərimiz günahın qarşısını alır və Allahın gözəlliyini aşkara çıxarır. İlk məsihçilər pozğun Roma dünyasına xidmət edərək o qədər qüvvətli təsir göstərdilər ki, imansızlar hər şeyin yaxşılığa doğru dəyişəcəyinə inanmağa başladılar.

İsa həmçinin şagirdlərinin bu qaranlıq dünyada nur olduqlarını söylədi. Müqəddəs Kitabda "nur" çox vaxt "həqiqət" mənasına gəlir. Qaranlıq bir otaqda birdən işıq yananda, hər şeyi aydın görünməyə başlayır. Eyni şəkildə imanlının həyatı da ətrafındakı insanlara dünyanın nuru olan İsanı göstərməlidir. İnsanlar başqalarına şəfqət və mərhəmət göstərən məsihçilərin simasında Allahın dünyaya qarşı uca məhəbbətini görməlidir. Eyni zamanda Allahın xalqının həyatında Allahın salihliyi nə qədər sevdiyini və şərdən nə qədər nifrət etdiyini görməlidirlər. İmanlılar hiyləsiz və sadiq olmaları ilə tanınmalıdır. Bundan əlavə, əsl şagirdlər cəmiyyətdə doğru şeylərin tərəfində olacaq, yanlış şeylərə qarşı çıxacaqlar. Onlar, dağın zirvəsində qurulan şəhər kimi uzaqdan görünürlər. Onların həyatı və sözləri başqalarının Allahın yolunu tapmasına kömək edir.

***2. Biz təkcə bazar günləri ibadət üçün toplanan bir qrup olmaq istəmirik, həm də Məsihin bu dünyaya olan məhəbbətini əks etdirmək istəyirik. Başqa insanların qayğısına necə qala biləcəyimiz barədə bizə praktiki təkliflər verə bilərsinizmi?***

Dua edib Müqəddəs Ruhun səsinə qulaq asmadan bir xidmətə başlamayın. Öncəki səhifələrdə Müqəddəs Kitabdan oxuduğumuz qoyun və keçi məsəlini yenidən oxuyun. Sualları müzakirə edin və həyatınızda hər gün qarşılaşdığınız ehtiyacları düşünün.

Hamımız ətrafımızdakı insanların ehtiyaclarına qarşı gözlərimizi yummuşuq. Qrupunuzun hər üzvü üçün dua edin ki, Məsihin gözlərinə və ürəyinə malik olsun. Rəbdən xahiş edin ki, fiziki (yeməyə, paltara, evə, müalicəyə), emosional (pis rəftardan və ya çətin həyatdan əziyyət çəkən) və ya ruhani (Məsihi tanımayanlar ya da depressiyaya, məyusluğa, şübhələrə qapılan)—hər növ ehtiyacları olan insanlara qarşı mərhəmət hiss edən ürəyini sizə versin. Müqəddəs Ruh gözlərinizi açıb bu ehtiyacları sizə göstərdikcə, necə kömək edə biləcəyinizi sizə göstərməsi üçün dua edin. Siz xidmət edəndə, bilin ki, vaxtınızı, pulunuzu ya da başqalarının gözündə ad-sanınızı qurban verəcəksiniz. Luka 10:25-37-də bunların hamısını qurban vermiş Xeyirxah samariyalı barədəki məsəli oxuyun. Bu məsəl haqqında həmçinin ***50 Həyat Dərsi*** ndə 18-ci dərsə baxa bilərsiniz.

### *3. Qrupumuz kiçikdir. Pulumuz az, vaxtımız məhduddur. Daha çox məsuliyyəti öz üzərimizə necə götürə bilərik?*

Kiçik olmağınız problem deyildir. Siz dua edib Allahı axtardıqca, yuxarıda 2-ci sualda müzakirə etdiyimiz kimi, Allah, sizə tapşırdığı işləri görəsiniz deyə sizin gözlərinizi və ürəyinizi açacaq və sizə tapşırdığı iş üçün lazım olan hər şeylə sizi təmin edəcək.

Xidmət işlərinin çoxu kiçikdir, böyük təşkilat və çox pul tələb etmir. Həv. 9:36-42-da Tabita haqqında oxuyun. Fikir verin ki, Tabitanın xidməti sadə idi. O, yoxsullar üçün paltar toxuyurdu. O, insanlara yardım etmək üçün ənamlarından istifadə etməyə vaxt tapırdı.

Cəmiyyətinizin üzvləri hər həftə kömək edə biləcəkləri ehtiyacları görəcəklər. Uşağı xəstə olan bir anaya yardım göstərmək, ailəsi olmayan bir dul qadına baş çəkmək, ehtiyac içində olan bir adam üçün bir çanta ərzaq gətirmək, bir xərçəng xəstəsini həkimə aparmaq kimi xidmətlər ola bilər. Kimisi öz binasının ətrafında olan zibili təmizləyə bilər.

Yadda saxlayın ki, İsa belə dedi:

> *Ən balaca bir işdə sadiq olan kəs böyük işdə də sadiqdir…*
> *(Luka 16:10)*

Bir də bunu düşünün: Rəbb qrupunuzda bir adamın üzünə qapını açanda (Rəşadın Tofiqə kömək etməkdən ötəri həbsxananı ziyarət etdiyi yuxarıdakı hekayədə olduğu kimi), bütün qrupunuza kiçik və böyük miqyasda maddi yardım, dua və digər yollarla məhəbbət göstərmə vasitəsilə xidmət etmək fürsətini verə bilər. Sadəcə Allaha xidmət edin ki, O sizin insanlara olan məhəbbətiniz ilə izzətlənsin.

Eləcə də başqa qruplarla birlikdə bir xidmətə başlaya bilərsiniz. Yerusəlimdəki cəmiyyət, dul qadınlarını gündəlik yeməklə təmin etmək xidmətinə başlamışdı (Bax: Həv. 6:1). Onların imkanları böyük idi, çünki bu xidməti o şəhərdə yaşayan çoxlu yeni imanlılarla birlikdə həyata keçirdilər. İdarə edə biləcəyinizdən daha böyük bir xidməti təkbaşına öz öhdənizə götürməyə çalışmayın. Həvari Paul insanları maddi yardım vermək üçün ruhlandırmaq məqsədilə bu ayəni yazdı:

> *Çünki insanın həvəsi varsa, verdiyi yardım imkanı çatmadığı qədər yox, imkanına görə məqbul sayılır. (2 Kor. 8:12)*

***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

***Tətbiq və dua***

1. Yuxarıda 2-ci və 3-cü suallara baxın. Bir cəmiyyət olaraq orada deyildiyi kimi dua edin. Cəmiyyətinizdəki adamlara fürsət verin, hal-hazırda birlikdə yaşayıb işlədikləri insanların arasında necə duz və nur olduqlarını danışsınlar. Elə yollar vardır ki, qrupunuz bu xidməti gücləndirə və böyüdə bilər?

   Həmçinin dua etdikcə Allahın sizə bir qrup olaraq və ya fərdi şəkildə Onun məhəbbətini göstərmənin digər yollarını göstərməsini gözləyin.

2. Qrupunuzdakı imanlıların bu dünyada duz və nur olmağa çalışarkən üzləşə biləcəkləri çətinlikləri müzakirə edin. Məsələn, iş yerində və ya məktəbdə yalan danışmağa məcbur edilən bir adam varmı? Çətin xasiyyətli birinə Allahın məhəbbətini göstərməyə çalışan bir adam varmı? Allahın kəlamına görə doğru olan işi etdiyinə görə təqiblə üzləşən adamlara görə dua edin.

3. Cəmiyyətinizdə müzakirə edin: Şəxsən sizi və ya qrupunuzu ehtiyac içində olanlara yardım etməkdən nə saxlayır? Vaxtınız çatmırsa, Allahdan diləyin ki, vaxtınızı necə boş yerə sərf etdiyinizi sizə göstərsin. Bəzi insanların həqiqətən boş vaxtı olmaya bilər, amma bəzisi televizora və ya internetə sərf etdikləri vaxtı ehtiyac içində olan bir adama xidmət etməyə sərf edə bilər.

   Əgər insanların sizdən sui-istifadə edəcəklərinə görə narahatsınızsa, Allahın sizə müdriklik verməsi üçün birlikdə dua edin. Yoxsullara yardım edən başqa insanları tanıyırsınızmı? Xidmətlərində nə öyrəndiklərini onlardan soruşun.

   Şayiələrdən qorxursunuzmu? Qrupunuzdakı bəzi insanlar başqalarından qorxub fəal olmaya bilərlər. Biz arzuolunmaz işlərlə məşğul olduqda və ya cəmiyyətdə xor baxılan insanlara yardım etdikdə insanların bizim haqqımızda nə düşünəcəklərinə, nə deyəcəklərinə görə asanlıqla narahat oluruq. Allahın insan qorxusu və Allah qorxusu haqqında nə dediyini öyrənmək üçün aşağıdakı ayələri birlikdə oxuya bilərsiniz:

   Zəbur 27:1 — Süleymanın Məs. 29:25

   Zəbur 56:10-11 — Qalatiyalılara 1:10

Xeyirxah samariyalı kimi həlim və fədakar xidmət etməkdən qorxmamaq üçün Rəbdən kömək diləyin. Dua edin ki, xidmət etdikcə Ona baxasınız və insanların nə düşünəcəkləri barədə narahat olmayasınız. Qoyun və keçi məsəlini yadda saxlayın. Siz ehtiyac içində olanlara xidmət edəndə əslində İsanın Özünə xidmət edirsiniz!

# 15. Təqiblərdə möhkəm qalmaq

*Nə bəxtiyardır salehlik uğrunda təqib edilənlər! Çünki Səmavi Padşahlıq onlarındır. İnsanlar Mənə görə sizi təhqir edib təqib edəndə, yalan söyləyib sizə hər cür böhtan atanda siz nə bəxtiyarsınız! Sevinin və şadlanın! Çünki göylərdə mükafatınız böyükdür. Axı sizdən qabaq gələn peyğəmbərləri də belə təqib ediblər.*
*(İsa, Matta 5:10-12)*

*Məsih İsada möminliyə yaraşan bir həyat sürmək istəyənlərin hamısı təqibə məruz qalacaq. Amma pis adamlar və saxtakarlar aldadıb-aldanaraq getdikcə daha betər olacaqlar Sənsə öyrəndiyin və güvəndiyin şeylərə sadiq qal…*
*(Həvari Paul, 2 Timoteyə 3:12-14)*

***Giriş***

## İsa Müjdə uğrunda əziyyət çəkənləri qüvvətləndirir

İsanın cəmiyyətinin təqib olunması yeni bir şey deyildir. İsanın Özü təqib olunduğu kimi, şagirdləri də təqib olunmuşlar. İsanın çarmıxa çəkilməsindən bu günə qədər 20 əsr boyunca məsihçilər təqiblərə məruz qalırlar. Güman ki, bu iztirablar sizin ev cəmiyyətinizdən də yan keçməmişdir. Bəlkə siz bu gün təqib olunursunuz.

Peter belə dedi:

> *Sevimlilər, sizi sınamaq üçün aranızda baş verən odlu imtahana sanki başınıza gələn qəribə bir iş kimi təəccüb etməyin. (1Pet. 4:12)*

Biz imanımıza görə çətin vəziyyətə düşəndə bəzən ürəyimizdə, "Kaş Məsihə xidmətdən uzaqlaşa biləydim" deyirik. Lakin bizə Məsihi tanıdan başqalarının bizə nə qədər kömək olduqlarını yada salırıq. Allah bizdən müftə aldığımız kimi müftə verməyimizi tələb edir. İsa bizim uğrumuzda hər şeyi verdi. Biz həmçinin bilirik ki, adları bilinməyən çoxlu imanlılar Müjdənin bizə çatması naminə əsrlər boyunca özlərini qurban verdilər. Bəziləri buna görə hətta canlarından keçdilər! Biz də hər gün özümüzü qurban verməyi öyrənirik.

> *Sonra hamısına söylədi: "Əgər bir kəs Mənim ardımca gəlmək istəyirsə, özündən imtina etsin və hər gün çarmıxını götürüb ardımca gəlsin". (Luka 9:23)*

Çalışırıq, getdiyimiz hər yerdə, ələlxüsus qaranlıq yerlərdə, nurumuz parlasın. Məhz o qaranlıq yerlərdə şeytanın kor etdiyi qəzəbli insanlar bizə qarşı dururlar. Bu qarşı durma İsaya da tanış idi (Yəhya 15:18-25).

Təqib zamanında biz öz zəifliklərimizi kəşf edib İsanın yanına qaçırıq, ehtiyacımız olan gücü və lütfü Ondan diləyirik. Ruhən yoxsul halımızda Ona fəryad edərək, Ondan utanmayaq və nura nifrət edənləri sevməyə davam edək deyə, bizi gücləndirməsini rica edirik.

İsa tutulanda şagirdləri qaçdıqları kimi, biz də təqibdəki əziyyətdən qaça bilərik (Mark 14:50). Ancaq biz öz canımızın harayında olsaq, bu hərəkətimizlə İsanın bu vaxta qədər həyatımızda etdiyi hər şeyi inkar edərik. Biz öz həyatımızda İsadan şəfa aldıqca, tədricən salehlik yolunda olan çətinliyi, itkini və ya əziyyəti

seçməyə özümüzdə güc tapırıq. Çünki Allahın Padşahlığını sevmək və əzab-əziyyət çəkərkən İsaya baxmağı öyrəndik. Öz padşahlıqlarımızı itirəndə tamamilə Rəbbin Padşahlığına giririk (1Pet. 4:1-2)[4].

Bu fəsil qrupunuzdakı insanların ürəklərini qüvvətləndirməyə xidmət edəcək, başqalarının qarşı durmasına baxmayaraq İsanın ardınca getməkdə sizə kömək edəcək.

[4] Bu mətn, 31 günlük düşüncələrdən ibarət olan "***Bəxtiyarlıq vədləri ilə Məsihdə böyümək***" kitabının 27-ci gün hissəsindən götürülmüşdür. (Bax: Əlavə A, “Vəsaitlər”, bu kitabın bir nüsxəsini əldə etmək üçün.)

## İsa şagirdlərini təqibə hazırlayır

**Başlanğıc müzakirəsi**: İmanına görə təqibə məruz qalmış bir adam tanıyırsınızmı? Yaxud İsa yolunda əzab çəkmiş imanlıların şəhadətliklərini oxumusunuzmu? Aşağıdakı dərsə başlamamışdan əvvəl öz həyatınızdan və ya təqibə məruz qalmış başqalarının həyatından bir əhvalat danışın.

Matta 10-cu fəslin ilk hissəsində İsa 12 şagirdini İsrailin müxtəlif yerlərinə göndərib Allahın Padşahlığını öyrətməyi, xəstələrə şəfa verməyi və cin qovmağı onlara tapşırır. Sonrakı ayələrdə onlara daha çox təlimat verir və nəyi gözləyə biləcəklərini deyir. Bunlar hər nəsildən olan bütün imanlılar üçün önəmli həqiqətlərdir.

**Mat. 10:16-42-ni oxuyun.**

1. 16-cı ayəni təkrar oxuyun. İsanın dünyada Müjdəni yayan ardıcılları nəylə müqayisə edilir? Təsəvvürünüzə gətirin: quzular köməksiz və zərərsizdir, qurdlar isə onları məhv etmək niyyətindədir. Bu ayəyə görə onlar bu vəziyyətdə necə davranmalıdırlar?

   Sizcə, ev qrupunuz üçün "ilan kimi müdrik və göyərçin kimi məsum" olmaq nə deməkdir? Sizin Müjdəni yayarkən müdrik olmadığınıza dair misal gətirə bilərsiniz? Göyərçin kimi məsum olmadığınıza dair misal gətirə bilərsiniz?
2. 17-20-ci ayələri oxuyun. İsanın şagirdləri nə gözləyə bilərlər? Onlar valilərin və padşahların qarşısına aparılacaqları zaman bununla nə fürsəti əldə edəcəklər? (18-ci ayə) Müqəddəs Ruh onlara necə yardım edəcək? (19-20-ci ayələr)
3. 21-22-ci ayələri oxuyun. Bizim dövrümüzdə İsaya iman gətirən adamların öz qohumları tərəfindən öldürüldüyünə dair misalları bəlkə də eşitmisiniz. Adətən yeni imanlılar qohumlar tərəfindən öldürülmürlər, amma ailə tərəfindən rədd edilir, bəzən döyülür və söyülürlər. 22-ci ayəyə əsasən, təqibə baxmayaraq imanından dönməyənlərin axırı necə olacaq?

   Sizin ev cəmiyyətinizdə İsaya iman gətirdiyinə görə öz ailəsi tərəfindən təqib olunmuş şəxslər vardırmı? Onların başına gəlmiş təqibi qrupunuzda müzakirə edin. Onlar ailələri tərəfindən rədd olunublarsa, ev cəmiyyətinizin onların əsl ailəsi necə ola biləcəyini müzakirə edin.

4. 24-25-ci ayələri oxuyun. Luka 11:14-15-də İsanı Baal-Zevul adlandırdılar. Dedilər ki, guya İsa cinlərin başçısının gücü ilə yaxşı işlərini edirdi. 25-ci ayəyə əsasən, biz həqiqətən İsanın ardınca gediriksə, allahsız insanlardan nə gözləyə bilərik? Sizcə, siz insanların kin dolu sözləri ilə sizə hücum etməyinə ürəyinizdə hazırsınızmı? Fikirlərinizi izah edin.

5. 26-28-ci ayələri oxuyun. Gizli olan hər şeyin aşkara çıxacağı imanlıları niyə ruhlandırmalıdır?

   28-ci ayəni bir neçə dəfə yavaş oxuyun. Bu həqiqəti bilmək çox önəmlidir. Bədəni öldürüb canı öldürə bilməyənlər kimdir? Həm canı, həm bədəni əbədi olaraq məhv edə bilən kimdir? (Düşünün: Əbədi taleyimizə dair son qərarı verəcək Hakimimiz kimdir? Həmçinin bax: Yaqub 4:12.)

   İsa insanların bizə edəcək və ya nə söyləyəcəklərindən qorxmamağı öyrətsə də, biz bilirik ki, ətrafımızdakı insanların təzyiqinə qarşı durmaq çətindir.

   Bu ayə ürəklərimizi hazırlamaqda və təqib zamanı qorxuya qalib gəlməkdə bizə necə kömək edə bilər?

6. 29-31-ci ayələr sizi necə ruhlandırır?

7. 32-33-cü ayələri oxuyun. Hər kəs gizli imanlı olaraq yaşamaq barədə sınağa çəkilə bilər. İsanın "yol, həqiqət və həyat" olduğuna ürəkdən inanırıq, amma imansızların təzyiqi qarşısında imanımızdan danışmırıq, çünki bu daha asandır. Hökumətin bizi təqib edəcəyinə və ya iş yoldaşlarımızın yaxud qohum-əqrəbamızın bizi rədd edəcəyinə dair qorxularımız, çırağımızı qabın altına qoymaq üçün bizə təzyiq göstərir. (5:14-16-nı oxuyun.

   Gizli imanlı olmaq istəyən məsihçilərə Matta 10:32-33 nə deyir?

8. İsa yenə ailə münasibətlərindən danışır. 34-39-cu ayələri oxuyun. İsanın gəlişi ilə dünyaya nə gəldi? (34-cü ayə)

   Biz İsaya "Sülh Hökmdarı" deyirik (Yeşaya 9:6). Sülh Hökmdarı ailə üzvlərinin bir-birinə düşmən olmasına necə səbəb ola bilər? (35-37-ci ayələri təkrar oxuyun)

Qeyd: Rom. 12:18-də belə deyilir: *"İmkan daxilində bacardıqca bütün adamlarla sülh içində yaşayın"*. Biz həmişə bu məqsədə çatmağa çalışmalıyıq. Ancaq bəzən biz başqaları ilə sülh içində yaşamaqdan ötəri əlimizdən gələni etdiyimiz halda, onlar bizi rədd edir və ya tələb

edir ki, İsaya imanımızdan imtina edək. Belə vəziyyətdə biz kimi ən çox sevəcəyimizə və kimin yolunu tutacağımıza qərar verməliyik.

9. 37-39-cu ayələri oxuyun. İsa ürəyimizdə hansı yeri tutmalı olduğunu deyir? (37-ci ayə)

   Sizcə, İsa bizə çarmıxımızı götürüb Onun ardınca gəlməyi əmr etdikdə nə nəzərdə tutur? (38-ci ayə)

Qeyd: Çarmıxın məqsədini düşünün. İsanın dövründə "çarmıxını daşımaq" ifadəsi öz ölümünə doğru yerimək mənasına gəlirdi. Luka 9:23-də İsa deyir ki, biz özümüzdən imtina etməli və hər gün çarmıxımızı götürüb Onun ardımca gəlməliyik. Luka 9:25-də O, bu fikrini davam etdirərək, "İnsan bütün dünyanı qazanıb canını məhv edər yaxud itirərsə, ona nə xeyri var?" deyə soruşur.

10. Matta 10:39-u təkrar oxuyun. Eyni sözlər Müjdələrdə daha 4 ayədə təkrarlanır: Matta 16:25, Mark 8:35, Luka 9:24 və Luka 17:33.
    38-39-cu ayələrə nəzər salarkən İsanın yolunda hər gün necə yaşadığınızı düşünün. Bu ayələr şəxsən sizin üçün nə məna verir? Bir rəhbər olaraq sizin üçün nə məna verir?

11. İsa bu mətndə üç dəfə və İncilin digər yerlərində dəfələrlə şagirdlərinə qorxmamağı buyurur. Qrupunuzdakı adamların qorxularına qalib gəlmələrinə necə yardım edə bilərsiniz?

**Dua ilə bitirin:** Cəmiyyətinizdəki adamların həm yaxşı, həm pis vaxtlarında hər gün fədakarcasına İsanın ardınca getməkdə sevinc tapmaqlarına necə yardım edə bilərsiniz? İndi bu barədə dua etməyə vaxt ayırın.

**Bu mövzunun dərininə gedin:** Bu fəslin sonunda bu mövzuya dair cəmiyyətinizlə birlikdə öyrənə biləcəyiniz digər ayələr verilir.

***Məsihçi tarixindən bir hekayə***
***Çin, XX-XXI əsrlər***

## Çindəki imanlılar cəmiyyəti təqib alovlarında qüvvətlənir

Çindəki imanlılar cəmiyyətinin son 70 il ərzində böyüməsi əsl möcüzədir. 1950-ci ildə Çində haradasa 1 milyon məsihçi var idi. O vaxt Çinin əhalisi 500 milyon nəfər idi, yəni hər 500 nəfərdən biri imanlı idi.

Bu gün Çin hökumətinin hesablamasına görə, imanlılar cəmiyyəti ölkənin əhalisinin 10 faizini təşkil edir, yəni hər on nəfərdən biri imanlıdır. Hal-hazırda Çində imanlıların sayı 100 milyondan çoxdur! Bu necə baş verdi? Məsihçilərin sayının artmasının əsas səbəbi, şiddətli təqibə baxmayaraq sürətlə yayılan ev cəmiyyətlərinin çoxalmasıdır.

XX əsrin son hissəsində Çindəki imanlılar cəmiyyətinin bəzi rəhbərləri öz inanclarına görə 20-30 il həbsxanada əziyyət çəkdilər. Uşaqlarınız balaca ikən həbs olunduğunuzu və böyüyüb orta yaşlara gəlib çatanda azadlığa buraxıldığınızı təsəvvürünüzə gətirin.

Bu çinli rəhbərlər emosional və fiziki sarsıntılar keçirdilər. Lakin onlar bunu Məsihin yolunda, Çindəki imanlılar cəmiyyətinin uğrunda etdilər. Bu səbəbdən bu gün Çindəki imanlılar, çoxunun adı Çindən kənarda bilinməyən bu adamlara dərin ehtiramla yanaşırlar.

Çində ev cəmiyyətləri hərəkatının böyüməyinə xidmət etmiş adamlardan biri Liu Jenyinq. Bu adam Yun qardaş olaraq şöhrət qazandı. Yun qardaşın atası möcüzə ilə şəfa tapandan sonra bütün ailəsi, bir də qohum-əqrəbası və dostlarının çoxu İsaya iman gətirdi. Yunun anası müjdəçi oldu, yaşadığı bölgədə çoxlu ev cəmiyyətləri yaratdı.

O zaman Çində imanlılar cəmiyyəti şiddətli təqibə məruz qaldığından Müqəddəs Kitab heç bir yerdə tapılmırdı. Yeniyetmə Yun üç aydan uzun bir müddət ərzində Müqəddəs Kitabı əldə etmək üçün oruc tutub dua etdi. Nəhayət, bir gecə onların evinin qapısı ehmalca döyüldü. Allah tərəfindən göndərilmiş iki nəfər yad adam onların evinə Müqəddəs Kitabı gətirdilər! Bu Müqəddəs Kitab illərlə yerin altında gizlədildi, hökumətin bundan xəbəri olmadı. Yun qardaş dualarına cavab olaraq baş vermiş bu möcüzədən sonra olan əhvalatları danışır:

> *O andan bəri İsaya imanla dua etməyə başladım. Müqəddəs Kitabdakı sözləri Allahın mənə dediyi sözlər kimi qəbul etdim… Hər gün səhərdən axşama kimi Allahın kəlamını oxudum. Tarlada*

*çalışmağa gedəndə belə Müqəddəs Kitabı paltarımın içinə qoyur, fürsət tapanda oturub onu oxuyurdum. Gecə yatanda Müqəddəs Kitabı sinəmin üstünə qoyurdum.*

Yunun valideynləri yoxsul fermerlər idi. Yun ancaq 3-cü sinfi bitirmişdi, buna görə çox yavaş oxuyurdu. Buna baxmayaraq, o, Müqəddəs Kitaba daxil olan bütöv kitabları əzbərləyirdi. Ən birinci Matta Müjdəsini əzbərlədi.

Yun, təzəcə yaranmış ev cəmiyyətlərinə gedirdi. O cəmiyyətlərdə Müqəddəs Kitab yox idi. Vəz etməyi bacarmayan Yun, İsanın möcüzələrini və təlimlərini əzbərdən danışırdı. Ona qulaq asanların imanı artırdı. Onlar, günahlarından və əbədi zülmətdən onları xilas edən İsaya sadə mahnılarla ibadət edirdi.

Bundan əlavə, Yun, İsanın göyə qalxmasından sonra imanlılar cəmiyyətinin necə böyüdüyünü nəql edən Həvarilərin İşləri kitabından hekayələr danışırdı. İmanlıların ürəyində iman artdıqca, onlar Müjdəni cəsarətlə bəyan etdilər.

Bu səbəbdən təqib şiddətləndi. Polis imanlıları axtarır, toplantıları dağıdır, çoxlarını həbs edirdi. Onları qəddarcasına döyür, məhkəmələrə aparır, ağır cərimələyirdi. Bir çox rəhbər həbs olundu. İmanlılar qanuna hörmət edən və heç kimə zərər verməyən yaxşı vətəndaşlar olduqları halda, polislər və hakimlər onları "Çin hökumətinin düşmənləri" adlandırdı. Bu hadisələr, İsanın və həvarilərin Əhdi-Cədiddə əvvəlcədən xəbər verdikləri kimi oldu.

Yun qardaş ***Səmavi Adam*** kitabında təqib illərinin də çoxlu möcüzələrlə dolu olduğunu söyləyir. İsa onlarla birlikdə idi və onların sözlərini güclü əlamətlər və xariqələrlə təsdiqlədi. Allah Çinin o qaranlıq illərində milyonlarla adamı Öz Padşahlğına gətirdi. O imanlılar Rəbb üçün alışıb-yanır, tez-tez dua edir, çətin vaxtlarda İsaya sadiq qalmaq haqqında ilahilər qoşurdu.

Çində "Sinim" adlı ev cəmiyyətləri rəhbərləri birliyinin sədri Xu Yonqze, Mao Tsedunun ölkənin prezidenti olduğu o illər haqqında belə yazdı:

*1949-cu ildə Allahın xalqına qarşı təqib başladı və o zamandan bəri imanlılar cəmiyyətləri min cür hücumlara məruz qalıblar. Açıq fəaliyyət göstərən bütün cəmiyyətlər 1958-ci ilə qədər hökumət tərəfindən bağlanmışdı. Maonun arvadı Çianq Çin əcnəbi qonaqlara, "Çində məsihçilik muzeylərə keçmiş, tarixdə qalmışdır. Ölüb dəfn olunmuşdur" dedi. 1970-ci illərdə ABŞ-in*

*məsihçilərdən ibarət olan nümayəndə heyəti Çini ziyarət etdikdən sonra, "Çində bir nəfər məsihçi qalmayıb" deyə xəbər yaydı.*

Əlbəttə, orada məsihçilər var idi, amma imanlılar cəmiyyəti evlərdə gizli yığışırdı. Sonradan imanlılar cəmiyyətinin böyüməsinə və rəhbərlərin vəzlərinə nəzarət etmək istəyən hökumət imanlıların rəsmi şəkildə toplaşmalarına icazə verdi, ancaq toplantılar yalnız qeydiyyatdan keçmiş bir neçə xüsusi binada keçirilməli idi.

Bunun cəmiyyətin böyüməsinə mane olacağını görən məsihçi rəhbərlər, İsanın cəmiyyətinin Məsihə necə xidmət edəcəklərinə hökumətin qərar verməsinin yolverilməz olduğunu söylədilər. İsanın həvariləri kimi, onlar da bilirdi ki, insana deyil, Allaha tabe olmaq vacibdir (Həv. 5:28-29). Bunun nəticəsində hər yerdə yeni ev cəmiyyətləri yarandı.

Get-gedə daha çox insan Müjdəni eşidirdi. Həbs olunmuş məsihçilər digər məhbuslara imandan danışdıqlarına görə Müjdə həbsxanalarda da yayıldı. Məhbuslar eşitdikləri Müjdədə ümid tapırdı. Onlar anlayırdı ki, rüsvaylıqdan və cinlərin qulluğundan azad olmaları, həbsdən azad olmalarından da vacibdir. Onlar Məsihə iman gətirib təmizlənəndə həqiqətən azad oldular!

Çox imanlı Müjdənin yayılması üçün həbsxanada əzab çəkməyə hazır idi. Məsihçilərin həbs illəri tənhalıq və qorxu ilə dolu olsa da, onlar inanırdı ki, orada olmaları Allahın planıdır. Yun qardaşın 2001-ci ildə həbsxanada yazdığı məktubda bu əminlik aşkardır:

*Allah məni Onun şahidi olum deyə buraya göndərdi. Burada İsaya ehtiyacı olan çox adam var. Mən Allahın təyin etdiyi müddət ərzində bu həbsxanada qalacağam. Buradan nə bir an tez, nə də bir an gec çıxacağam. Allahın həbsxanadakı xidmətim üçün təyin etdiyi müddət tamam olanda, buradan çıxacağam.*

Yun qardaş həbsxananın dözülməz şəraitinə bu əminliyi sayəsində tab gətirə bildi. Axırda o, Həvarilərin İşləri kitabında oxuduğumuz əhvalatlara bənzər bir möcüzə ilə həbsxanadan azadlığa çıxdı.

Çindəki Fançen ev cəmiyyətləri şəbəkəsinin rəhbəri olan, Yun qardaşla dostluq edən Jan Ronlian, Yun haqqındakı fikirlərini belə xülasə etdi:

*Çindəki imanlılar cəmiyyətində Allaha böyük güc və səlahiyyətlə xidmət edən çoxlu rəhbərlər görmüşəm, amma Yun qardaşa baxanda, başqalarının xidmətindən faydalanmaq deyil, onlara fədakarcasına xidmət etmək üçün gəlmiş Bəşər Oğlunun ürəyinə*

*sahib olan, Onun kimi həmişə həlim və itaətkar olan bir xidmətçi görürəm.*

İsanın dövründən bəri bütün dünyada çoxlu imanlılar böyük sədaqət və fədakarlıqla, bəzən öz həyatları bahasına Müjdəni yayırlar. Onlar çətin zamanlarda Məsihin yolunda əbəs yerə zəhmət çəkmədiklərinə inanaraq, İsa Məsihin adına şərəf və izzət gətirən həlim xidmətləri ilə imanda davam etdilər. İbranilərə Məktubun müəllifi deyir ki, dünya belə insanlara layiq deyildir (İbr. 11:38).

**İsa onlara göylərdə böyük mükafat vəd etdi!**

Bu hekayədə Yun qardaşın Pol Hetteveylə birlikdə yazdığı ***Səmavi Adam*** kitabından sitat gətirilmişdir (***The Heavenly Man.*** Brother Yun with Paul Hattaway. Monarch Books, Oxford, England, 2002).

***Tez-tez verilən suallar***

***1. Son vaxtlarda hökumət tərəfindən təqib olunmuşuq. Bəzi imanlılar deyir ki, bu, bizim günahlarımıza görə başımıza gəlib. Başqalarının fikrincə, kifayət qədər imanımız olsaydı, bu sınaqlardan keçməzdik. Bu doğrudurmu?***

Müqəddəs Kitab həqiqətən günahın cəzası haqqında öyrədir və Allah bizi düzəldəndə, biz Onun səsinə qarşı diqqətli olmalıyıq. Ancaq Müjdəni yaydığımıza görə təqibə məruz qalmaq tamamilə başqa bir şeydir. Peterin Birinci Məktubunun 4-cü fəslində bu barədə nə dediyinə baxaq:

> *Məsihin adına görə təhqir olunsanız, siz nə bəxtiyarsınız! Çünki Allahın izzətli Ruhu üzərinizdə qalır. Lakin heç biriniz qatil, oğru ya başqa cür cinayətkar kimi yaxud başqalarının işinə qarışan şəxs kimi əzab çəkməsin. Amma bir insan məsihçi kimi əzab çəkirsə, qoy bundan utanmasın, bu adı daşıyaraq Allahı izzətləndirsin… Bunun üçün qoy Allahın iradəsinə görə əzab çəkənlər yaxşılıq edərək həyatlarını sadiq olan Yaradana həvalə etsinlər. (1Peter 4:14-16, 19)*

İmanlılar dərk etməlidir ki, mömin həyat sürdüyünə və İsa Məsihin Müjdəsini başqaları ilə paylaşdığına görə təqib, İsa Məsihin dövründən bəri vardır. İsanın Özü belə demişdir:

> *Əgər dünya sizə nifrət edərsə, onda yada salın ki, sizdən əvvəl Mənə nifrət edib. Əgər dünyadan olsaydınız, dünya özündən olan sizləri sevərdi. Amma siz dünyadan deyilsiniz, Mən sizi dünyadan seçdim, buna görə dünya sizə nifrət edir. Mənim sizə söylədiyim sözü yadınıza salın: "Qul ağasından üstün deyil". Əgər Məni təqib etdilərsə, sizi də təqib edəcəklər, Mənim sözümə riayət etdilərsə, sizin də sözünüzə riayət edəcəklər. Lakin bunların hamısını sizə Mənim adıma görə edəcəklər, çünki Məni Göndərəni tanımırlar. (Yəhya 15:18-21)*

Həmçinin bax: Rom. 8:31-39. Bu ayələr bizi onunla ruhlandırır ki, Allah bizimlədir, bizə qarşı deyildir. Ən pis günlərdə, sınaqlarda, qıtlıq, yoxsulluq və amansız təqib zamanlarında O bizimlədir.

***2. Biz təqib zamanı nə edəcəyimizi bilmirik. Gizlənmək lazımdırmı? Başqa bir yerə qaçmaq, bəlkə başqa ölkəyə köçmək lazımdırmı? Bizə qarşı edilən ədalətsizliyə etiraz etmək***

***lazımdırmı? Yoxsa başımıza gələn dərdi qəbul edib cəsarətlə şahidlik etməliyikmi?***

Təqib bir qohumun İncili cırmasından tutmuş qəzəbli adamların məsihçilərin yığışdığı binaları bombalamasına qədər fərqlənə bilər. Hər vəziyyət fərqlidir, buna görə biz Allahın Ruhun rəhbərliyi altında yaşamalıyıq. Biz Müqəddəs Yazıda Rəbbin müdrikliyini axtarmağı və hər vəziyyətdə Ruhunun səsinə qulaq asmağı öyrənməliyik. Müqəddəs Yazıdan aşağıdakı mətnlər bizim üçün faydalı ola bilər.

İsa şagirdlərini şəhərləri dolaşmağa göndərəndə onlara belə dedi:

> *Sizi bir şəhərdə təqib edəndə başqasına qaçın. (Mat. 10:23)*

Şaulun (sonradan Paul) həyatına təhdid yarandıqda nə etdiyinə baxın:

> *Aradan xeyli gün keçdi. Yəhudilər Şaulu öldürmək üçün sui-qəsd hazırladı. Amma onların bu qəsdi haqqında xəbər Şaula çatdı. Yəhudilər onu öldürmək üçün gecə-gündüz şəhərin qapılarında pusqu qururdu. Amma Şaulun şagirdləri gecə olan kimi onu götürüb bir səbətin içinə qoyaraq şəhər divarlarından aşağı endirdilər. (Həv. 9:23-25)*

Sonra Paul Yerusəlimə getdi, halbuki orada həbs ediləcəyini bilirdi. O, Efesdəki ağsaqqallara belə dedi:

> *İndi də Ruhun təkidi ilə Yerusəlimə gedirəm və orada başıma nə gələcəyini bilmirəm. Lakin Müqəddəs Ruh hər şəhərdə xəbərdarlıq edirdi ki, məni zəncirlər və əziyyətlər gözləyir. Öz canıma heç əhəmiyyət vermirəm, onu qiymətləndirmirəm. Mənə kifayətdir ki, yolumu—Rəbb İsanın mənə tapşırdığı kimi Allahın lütfünü göstərən Müjdəni şəhadətetmə xidmətini başa çatdırım. (Həv. 20:22-24)*

İsa şagirdlərinə həbs ediləcəyini əvvəlcədən söyləmişdi. Onlara belə nəsihət vermişdi:

> *İnsanlardan özünüzü gözləyin. Çünki onlar sizi məhkəmələrə çəkəcək, sinaqoqlarında qamçılayacaqlar. Onlara və millətlərə şəhadət etmək üçün siz Mənə görə valilərin və padşahların qarşısına aparılacaqsınız. Onlar sizi təslim edəndə necə və ya nə deyəcəyiniz barədə qayğı çəkməyin. Nə deyəcəyiniz həmin vaxt sizə bildiriləcək, çünki danışan siz yox, sizdə danışan Atanızın Ruhudur. (Mat. 10:17-20)*

Müqəddəs Ruhla dolan Peter və Yəhya, onları tutmuş başçılara cəsarətlə xitab etdilər:

> *Lakin Peterlə Yəhya cavab verib dedilər: «Özünüz qərar verin, Allaha deyil, sizə qulaq asmaq Allahın gözündə nə qədər doğrudur? Axı eşidib-gördüklərimizi deməyə bilmərik». (Həv. 4:19-20)*

Bizi polisə və ya məhkəməyə aparanda onu yadda saxlamalıyıq ki, biz İsanın ardıcılları olaraq hakimiyyət nümayəndələrinə hörmət göstərməliyik.

> *İnsanın yaratdığı hər quruma Rəbb naminə tabe olun... (1Pet. 2:13)*

> *İmanlılara xatırlat ki, başçılar və hakimlərə tabe olub itaət etsinlər. Hər cür xeyirli iş görməyə hazır olsunlar. Heç kimə şər atmasınlar, davakar deyil, mülayim olsunlar və bütün insanlarla həlim davransınlar. (Tit. 3:1-2)*

> *Beləliklə, hər kəsə öz haqqını verin: vergi haqqı olana vergi, gömrük haqqı olana gömrük, qorxu haqqı olana qorxu, hörmət haqqı olana hörmət. (Rom. 13:7)*

Hakimiyyət nümayəndələri onlara hörmət göstərdiyimizi və cəmiyyətdə sülhün olmasını arzuladığımızı görməlidir, amma həmçinin özümüzü Allaha tabe olmağa həsr etdiyimizi də görməlidir (Həv. 4-də Peter və Yəhya kimi). Biz Allahın Ruhu ilə doluyuqsa, Allah bizə qorxuya qalib gəlmək üçün güc verəcək. Onda biz İsadan cəsarətlə danışacağıq və bu adamların da İsa vasitəsilə xilas olmaları üçün dua edəcəyik.

Bəzi hallarda qeyri-zorakı müqavimət göstərmək lazım olur. Əgər ölkənizdə hər vətəndaşın dini etiqad azadlığını təmin edən qanunlar varsa, bəzən öz hüquqlarınızı müdafiə etmək üçün səy göstərmək doğru olar.

Həvarilərin İşləri 22:24-29-da Həvari Paulun nə etdiyinə diqqət yetirin. Heç bir cinayət işlətmədiyi və məhkum olmadığı halda, romalı əsgərlərin onu qamçılayacaqlarını görən Paul Roma qanununa müraciət etdi. Onlar Paulun Roma vətəndaşı olduğunu dərk edəndə onu qamçılamağın qanunsuz olacağını anlayıb dayandılar.

***3. Qrupumuzda bəzi adamlar onlara zülm və ya xəyanət etmiş şəxslərə qarşı kin hiss edir, bağışlamaqda çətinlik çəkirlər.***

***Belə adamlara acı hissləri və kinli fikirlərinə qalib gəlməkdə necə kömək edə bilərik?***

Qaranlıq üzərində qələbə çalmaq Allahın kəlamının vəz edilməsi və öyrədilməsi və həmçinin dua vasitəsilə mümkün olur. Ancaq biz çətinlik çəkən bacı-qardaşlarımıza lütf və anlayışla yanaşmalıyıq.

Hamımızın təbii rekasiyası, bizə qarşı edilən pisliklərə nifrət, təhqir və ya zorakılıqla cavab verməkdir. Lakin İsa şagirdlərinə başqa yolu öyrətdi və biz cəmiyyətimizdəki adamlara bu cür yaşamaqda kömək etməliyik. Romalılara Məktubun 12-ci fəslində Həvari Paul bizə belə buyurur:

> *Sizi təqib edənlərə xeyir-dua verin; lənət yox, xeyir-dua verin... Heç kimə pislik əvəzinə pislik etməyin. Hamının gözündə yaxşı olan işlər görməyə diqqət yetirin. İmkan daxilində bacardıqca bütün adamlarla sülh içində yaşayın. Ey sevimlilər, heç kəsdən qisas almayın, Allahın qəzəbinə yer verin. Çünki yazılıb ki, Rəbb belə deyir: «Qisas Mənimdir, əvəzini Mən verəcəyəm». Əksinə, «düşmənin acdırsa, onu yedizdir, susuzdursa, ona su ver. Belə etməklə sanki onun başına köz tökərsən». Pislik sənə üstün gəlməsin, pisliyə yaxşılıqla qalib gəl. (Rom. 12:14,17-21)*

Mat. 5:44-də İsa düşmənlərimizi sevməyi və onlar üçün dua etməyi buyurur. Dua etdiyiniz bir adama nifrət etmək çətindir. Əlbəttə, onlar üçün ən vacib dua budur ki, onlar sizin kimi İsanın mərhəmət və lütfünü tanısınlar. Çox güman ki, erkən imanlılar cəmiyyətində Paula görə dua edən adamlar var idi, baxmayaraq ki, Paul məsihçiləri təqib edirdi! (Həv. 9)

Biz həmçinin onu xatırlamalıyıq ki, əsl mübarizəmiz ruhanidir və əsl düşmənimiz insan deyildir. Efeslilərə 6:12-də belə yazılıb:

> *Çünki mübarizəmiz qandan və ətdən ibarət olan insanlara qarşı deyil, şər başçılarına və hakim olanlara, bu qaranlıq dünyanın hökmranlarına, səmadakı ruhani şər qüvvələrə qarşıdır.*

Buna görə biz əsl düşmənimizlə mübarizə aparmaq üçün Allahın verdiyi bütün zireh və silahlara bürünməliyik. (Bax: Ef. 6:10-20.)

(Həmçinin bax: 13-cü fəsil, "Bir-birini bağışlamaq". O fəsildə Korri ten Bumun hekayəsi, kinə qarşı mübarizə aparan hər kəs üçün xüsusilə faydalı olar.)

***4. Keçmiş təqibə görə bizim şəhərimizdə bəzi imanlılar artıq yığışmırlar. Onların ürəklərində böyük qorxu vardır. Onlar bir daha təqib olunmaq istəmirlər, odur ki, artıq Müjdəni yaymırlar. İsa yolunda keçmiş cəsarəti necə bərpa etmək olar?***

İsa tutulanda nə baş verdi, yadınızdadırmı? O çətin anda şagirdlər dağıldılar. Hətta Peter belə İsanı tanıdığını inkar etdi. Onlar dirilmiş İsanı görməzdən əvvəl bütün ümidlərini itirmişdilər. İsa onları qapısı bağlı bir evdə tapdı.

Lakin İsanın həqiqətən dirilməsi gerçəkliyi hər şeyi dəyişdirdi. İsa ölümə qalib gəldi. Onu heç nə saxlaya bilmədi. Bu səbəbdən həvarilər öz həyatlarını Allaha həsr etməyə razı oldular.

Bu hissənin sonunda ev qrupunuzla birlikdə Həv. 4:23-31-ə baxın. İlk imanlıların dini rəhbərlərin təhdidləri qarşısında nə etdiklərinə fikir verin. Xüsusilə 29-31-ci ayələrdə onların duasına və Allahın cavabına diqqət yetirin. Biz İsanın bizi günahdan və ölümdən azad etmək üçün nə qədər əzab çəkdiyini tez-tez bir-birimizin yadına salmalıyıq. Çox insanın bundan hələ xəbəri yoxdur! Bu əla xəbəri onlardan necə saxlaya bilirik?

İmanlıların təqib zamanı yığışmağı dayandırmaları adi hadisədir, amma belə bir zamanda onlar bir-birlərinə dəstək olmalıdır. Həvari Paul 1-ci Korinflilərə 12:26-da xatırladır ki, *"əgər bir üzv əzab çəkirsə, başqaları da onunla birgə əzab çəkir..."* Əgər qrupunuzda öz ailəsindən və hətta polisdən əziyyət çəkən adamlar varsa, onlar bilməlidir ki, cəmiyyət onların yanındadır, onlar tək deyillər. Toplantılarınıza gəlməkdən qorxanlar varsa, qrupun rəhbəri olaraq siz və ya qrupdan başqa bir adam onların yanına gedib bu fəsildən bəzi ayələri onlarla birlikdə oxumalıdır. Həmçinin onlarla dua edin ki, onlar öz qorxularını İsaya versinlər və əvəzində İsadan cəsarət alsınlar.

Qrupunuzu daha çox ruhlandırmaq üçün aşağıdakı tətbiq hissəyə baxın.

## Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?

### *Tətbiq və dua*

1. Aşağıda sadalananlara baxıb müzakirə edin. İsanın yolunda təqib olunduqda ən çox nələrdən qorxursunuz?
   - ailəniz tərəfindən rədd olunarsınız
   - işdən qovularsınız və ya universitetdə oxuya bilməzsiniz
   - qonşularınız sizin haqqınızda nə danışarlar
   - hökumət sizi cərimələyər, həbs edər, döyər və ya öldürər
   - sizi həyat yoldaşınızdan və ya uşaqlarınızdan ayırarlar
2. Keşmişdə təqibə məruz qalmısınızsa və ya indi təqib olunursunuzsa, əvvəlki səhifələrdəki (Tez-tez verilən suallar səhifələri) sualların hansıları qrupunuzun üzləşdiyi vəziyyəti təsvir edir? Müvafiq ayələri düşünün və Allahın sizə bu vəziyyətdə müdriklik verməsi üçün dua edin.
3. Yuxarıda 4-cü sualın sonunda bəhs edilmiş Həv. 4:23-31-i hələ öyrənməmisinizsə, indi öyrənin. Qorxularınızla əlaqədar olaraq və təqibdən əziyyət çəkmiş şəxslərin emosional şəfasına görə bu mətnə əsasən bir-biriniz üçün dua edin. Həvarilər bu ayələrdə cəsarət, əlamətlər və xariqələr üçün dua etdikləri kimi, siz də bunlar üçün dua edin.
4. Bu fəsildə Müqəddəs Yazıdan çoxlu ayələr verilir. Onları gözdən keçirin və hansılarının qrupunuz üçün ən faydalı olacağına qərar verin. Bu ayələrdən bir neçəsini gələn həftələrdə bir cəmiyyət kimi birlikdə öyrənmək üçün seçin.

   Həmçinin növbəti səhifədə digər ayələrə baxın.

**Aşağıda bu mövzuya dair cəmiyyətinizlə birlikdə öyrənə biləcəyiniz digər ayələr verilir.**

- Yeşua 1:1-9 (Güclü və cəsarətli olmağa ruhlandıran sözlər)
- Matta 5:10-12 (Təqib edilənlər bəxtiyardır)
- Matta 24:9-14 və Luka 21:10-19 (Sınaqlara dözüb imanda davam etməyə ruhlandıran sözlər)
- Yəhya 15:18-21 (Dünyanın İsaya nifrət etdiyi kimi sizə də nifrət edəcəyini gözləmək)
- Yəhya 16:1-4, 33 (Təqib haqqında xəbərdarlıq; İsa qalib gəldi!)
- Həv. 4 (Daha cəsarətli olmağa ruhlandıran sözlər)
- Həv. 5:17-42 (Həvarilər həbs olunur, cəsarətlə danışırlar)
- Romalılara 8:16-25, 28 (Allahın Ruhu bizə yardım edir)
- Romalılara 8:31-39 (Bizi Allah məhəbbətindən heç nə ayıra bilməz)
- 1 Korinflilərə 15:58 (Zəhmətimiz boşa çıxmayacaq)
- Filipililərə 1:27-30 (Möhkəm dayanın, qorxmayın)
- İbranilərə 4:14-16 (Allahın taxtına cəsarətlə yaxınlaşa bilərik)
- İbranilərə 11-ci fəsil və 12:1-3, 11 (Keçmiş imanlı kişilər və qadınlardan nümunə götürün)
- Yaqub 1:2-4; 5:7-11 (Əziyyət çəkəndə sevinin; bunun nəticəsi yetkinlikdir)
- 1 Peter 1:3-9 (Canlı ümidimiz var; əziyyətlər bizi təmizləyir)
- 1 Peter 2:19-25 (Haqsız yerə əziyyət çəkmiş İsa bizə nümunə oldu)
- 1 Peter 3:13-4:19 (Məsihin yolunda əziyyət çəkmək xeyir-dua ilə nəticələnir)
- 1 Peter 5:6-11 (İblisə qarşı durun; Məsih sizi gücləndirəcək)
- Vəhy 2:8-11 (Qorxmayın; sadiq qalın və həyat tacını alacaqsınız)

**Çətin vaxtlarda Allahın köməyinə dair ayələr:**

- Zəbur 3, 5, 13, 18, 20, 23, 27, 40, 46, 54, 56, 61, 62, 68, 70, 91, 121, 125, 130, 140 və 146
- Yeşaya 26:3-4; 40:27-31; 41:10; 42:5-9 və 43:1-4
- Yeremya 29:11-14
- Matta 11:28-30

# 16. Sadiq ev cəmiyyəti Allahın Padşahlığının böyüməsində iştirak edir

***Bir çox şahidlərin önündə məndən eşitdiyin sözləri başqalarına da öyrətməyə qadir olan sadiq adamlara həvalə et. (Həvari Paul şagirdi Timofeyə müraciətlə, 2 Timotey 2:2)***

***Mən əkdim, Apollo suladı, amma Allah böyütdü. Buna görə də mühüm olan əkən ya da sulayan deyil, əkiləni böyüdən Allahdır. 1 Korinflilər 3:7***

***Meynə Mənəm, sizsə budaqlarsınız. Kim Məndə qalsa, Mən də onda qalsam, çoxlu bəhrə verər, çünki Mənsiz heç nə edə bilməzsiniz. Yəhya 15:5***

***Giriş***

## Birlikdə böyümək

İsanın dövründən bəri bütün dünyada həqiqi cəmiyyətin böyüməsinin "açarı", şagirdlərə İsanın təlimlərini və bunlara riayət etməyi öyrətmək idi.

Birlikdə böyümək, bu kitabın mövzusudur. İmanlıların İsanı izzətləndirmək və Ona xidmət etmək məqsədilə toplandıqları hər yerdə Allahın Padşahlığının böyüməsi üçün ruhani qüvvət mövcuddur. Siz qrupunuzla birlikdə bu kitabın əvvəlki fəsillərini öyrənib qrupunuzda tətbiq etmisinizsə, deməli, Məsihdə böyüyürsünüz və həmçinin başqalarına təsir etməkdə böyüyürsünüz.

Bu fəsil, kitabın əvvəlki fəsillərinin hamısının təkrarıdır. Burada biz, İsanın öyrətdiyi hər şeyə riayət etdikdə necə təbii olaraq böyüdüyümüzdən bəhs edəcəyik. Bu böyümə üç cəhətdən ibarətdir: 1) cəmiyyətinizdəki insanların ruhani inkişafı; 2) Məsihə gələnlərin sayının artması; 3) yeni imanlılara xidmət etmək üçün yaradılan yeni cəmiyyətlərin böyüməsi.

İsa Allahın Padşahlığının böyüməsindən tez-tez bəhs edirdi. İsada qalsanız, Padşahlığın sizin vasitənizlə böyüyəcəyini gözləyə bilərsiniz!

## Sadiq imanlıların öyrədilməsi ilə Müjdənin yayılması

**Başlanğıc müzakirəsi**: Ev qrupunuz Müjdəni ölkənizdə yaymaqda necə daha təsirli ola bilər?

**2 Timotey 1:1-2:3-ü oxuyun**

1. Kim kimə məktub yazır? (a. 1,2)

   Yaşlı Həvari Paul gənc Timoteyi illər boyunca şagird etmişdi. Timotey Paulun doğma oğlu olmadığı halda, yaxın dostluqları səbəbindən Paul onu "mənə sevimli oğul olan Timotey" adlandırır.
2. 3-5-ci ayələri təkrar oxuyun. Paulun hansı sözü Timoteyi dərindən sevdiyini göstərir.
3. 6-cı və 7-ci ayələrdə Paul Timoteyə öyüd-nəsihət verir. Paul Timoteyin hansı xüsusiyyətlərə malik olmasını istəyir? (7-ci ayə). Timotey bu xüsusiyyətlərdə necə inkişaf edə bilər? (6-cı ayə).

   İndi öz həyatınızı düşünün. Siz bu xüsusiyyətlərdə güclü, yoxsa zəifsiniz? Cavabınızı və necə böyümək istədiyinizi izah edin.
4. Həbsxanada əziyyət çəkən Paul, Timoteyə Müjdədən utanmamasını yazır (8-ci ayəni təkrar oxuyun). Paul 9-cu və 10-cu ayələrdə Müjdəni necə izah edir?
5. Niyə Paul, həbsdə olmasına baxmayaraq, Müjdəni bəyan etməkdən utanmır? (11,12-ci ayələr).

   Biz Paulun üzləşdiyi sınaqlarla üzləşdikdə, Məsih İsanın həyatımızda ixtiyar sahibi əmin olmaq niyə o qədər mühümdür? (12-ci ayə).
6. 13-cü və 14-cü ayələri təkrar oxuyun. Paul Timoteyi Müjdəni bəyan etməyə göndərdi. Bu iki ayədə Paul Timoteyə nəyi saxlamağı tapşırır?

   Çoxlu yalançı müəllimlər erkən imanlılar cəmiyyətinə daxil olub həvarilərin öyrətdikləri lütf Müjdəsini təhrif edirdi.

   İncilin İsa Məsih haqqında nə öyrətdiyini diqqətlə öyrənmək sizin üçün nə qədər mühümdür? Başqaları da həqiqi Müjdəni eşidib ona iman etsinlər deyə bu təlimi sədaqətlə öyrətməyə qərarlısınızmı?

7. 2:1-3-ü təkrar oxuyun. Burada Paul Timoteyi Müjdənin yayılması üçün səy göstərməkdə davam etməyə təşviq edir. Aşağıdakı suallara cavab verərkən, 2-ci ayəyə diqqətlə baxın.
   - Timoteyə kim təlim öyrətdi?
   - Timotey aldığı təlimi kimlərə həvalə etməli idi?
   - Onlar bu təlimlə nə etməli idilər?
8. Bu sadə şəkildə şagirdlik prosesi təsvir olunur: şagirdlik, insanların Allahın kəlamını sədaqətlə çatdırması ilə baş verir. Paul Timoteyə təlim öyrədir -->Timotey sadiq imanlılara təlim öyrədir --> Bu sadiq insanlar digər sadiq insanlara təlim öyrədirlər --> (və proses belə davam edir).

   Bu ölkədə imanlılar yeni insanlara Müjdəni öyrətməsələr, nə olacaq?

2Tim. 2:2-də yazılmışdır ki, Timotey aldığı təlimi sadiq (etibarlı) adamlara "həvalə" etməlidir. Kiməsə nəyisə həvalə etmək, etibar edib tapşırmaq, işə məsuliyyətlə yanaşacağına, ondan gözlədiyiniz işi yerinə yetirəcəyinə inanmaq deməkdir.

Paul Timoteyə Müjdəni həvalə edə biləcək sadiq insanları axtarmağı tapşırır. Bunlar, Müqəddəs Kitabı yaxşı bilən və bildikləri şeylərdən danışmağı sevən, amma həyatları dəyişməyən insanlar deyillər. Sadiq adamlar İsanı sevdiklərini itaətkarlıqları ilə göstərirlər. Onların həyatı Ruhun səmərəsini nümayiş etdirir (Qal. 5:22-23) Onlar başqalarına xidmət etməyə, təlim öyrətməyə özlərini həsr etdilər.

Bu təlim (yaxud şagirdlik) ev cəmiyyətində ən yaxşı həyata keçirilir. İmanlılar başqa imanlılarla şəriklikdə, bir-birini sevməyi və bir-birinə xidmət etməyi öyrəndikcə böyüyürlər. Biz bunları ayrılıqda öyrənmirik, təklikdə. Buna görə imanlıların müntəzəm olaraq toplanması vacibdir.

**Dua ilə bitirin:** Hər ev qrupu, başqalarına təlim öyrətməyə qadir olan sadiq imanlılara təlim öyrətsə, bunun sizin şəhərinizə və millətinizə necə təsir edəcəyini müzakirə edin. İndi Allahdan diləyin ki, Paulun Timoteyə verdiyi əmrləri yerinə yetirməkdə qrupunuza kömək etsin.

***Məsihçi tarixindən bir hekayə***

***Qədim Roma imperiyası, I əsr***

## İmanlılar cəmiyyətinin ilk əsrlərində Müjdənin sürətlə yayılması

İsanın qəbirdən çıxdığı gün yer üzünə nəhəng bir tsunami dalğası kimi gəldi. O gündən Şeytanın hökmranlığının sonu başladı. İsa çarmıxda dünyanın günahını Öz üzərinə götürdü. O bizim lənətimizi Öz üzərinə götürüb bizim əvəzimizə öldü. Ata, İsanı diriltməklə dünyaya onu göstərdi ki, ən böyük düşmənimiz olan ölüm belə İsaya qalib gələ bilməz! İsa, hər şeyin üzərində Rəbdir.

Ondan bir neçə həftə sonra, Əllinci Gün bayramında, göylərdən gələn bir "dinamit"in partlayışı baş verdi. İsa göyə qalxmazdan əvvəl şagirdlərinə tapşırmışdı ki, Yerusəlimdə qalsınlar və göydən gələn bir "dinamit"in (yunanca "dinamis" sözü "qüvvət" mənasına gəlir) onların üzərinə enməsini gözləsinlər (Həv. 1:4-8). Onlar Müqəddəs Ruhun qüvvəti ilə hər yerə gedib İsanın hər şeyin üzərində Rəbb olduğu barədə xoş xəbəri bəyan edəcəklər.

O gün Müqəddəs Ruh qüvvətlə gəldi və 3 min nəfər İsaya iman etdi (Həv. 2:41). Ondan qısa müddət sonra imanlıların sayı artıb 5 minə çatdı (Həv. 4:4). Müjdə tezliklə bütün Roma imperiyası daxilində və ondan kənarda yayıldı. Təqribi hesablamalara görə, 300 il sonra imperiyada məsihçilərin əhalisi 6-10 milyon nəfər idi! Bu artım hərbi qələbələr və zor gücü ilə olmayıb. Müjdə, şiddətli təqib zamanı sadə insanların öz imanlarını yayması nəticəsində yayılıb. B.e. 313-cü ildə çıxan fərmanla Romada imanlılar cəmiyyətinin təqib edilməsinə son qoyuldu və ondan sonra məsihçi inancı imperiyanın dini elan edildi.

**Müjdə niyə bu qədər tez yayıldı?** İndi gəlin Həvarilərin İşləri kitabına və həvarilərin məktublarına nəzər salaq və bu artıma səbəb olan bəzi amilləri düşünək. Siz bundan sonrakı sətirləri oxuyarkən mötərizədə verilən bütün ayələri oxumağa da vaxt sərf edin. Bu ayələr erkən imanlılar cəmiyyətində hərəkət edən Müqəddəs Ruhun qüvvətini daha açıq görməyinizə kömək edəcək.

**Həvarilərin və digər müjdəçilərin xidmətləri ilə Müjdənin bu qədər sürətlə yayılmasının yeddi səbəbi vardır.**

**1. İsanın həqiqi bədəndə ölümdən dirildiyinə inanmaları.**

Bu, hər şeyi dəyişdirən, gözlənilməyən bir hadisə idi. Həvarilər bunu öz gözləri ilə görmüşdülər və bu hadisə onları bir dəfəlik dəyişdirmişdi! Onları bu hadisənin baş vermədiyinə heç kim inandıra bilməzdi. Matta, Mark, Luka və Yəhya öz kitablarında dirilmə hekayəsini cəsarətlə nəql edirlər. Şagirdlər öz Rəhbərlərinin çarmıxa çəkildiyini gördükdə hiss etdikləri məyusluğu və qorxunu gizlətmirlər.

İsanın məhkəməsi əsnasında İsanı tanıdığını rüsvayçı bir şəkildə inkar etmiş Peter (Mat. 26:69-75), bir neçə həftə sonra minlərlə adamın qarşısında vəz edərək belə dedi: *"Allah bu İsanı ölümdən diriltdi və hamımız buna şahid olduq"* (Həv. 2:32).

Luka, İsanın göyə qalxmazdan əvvəl 40 gün boyunca müxtəlif vaxtlarda onlara göründüyünü bizə danışır (Həv. 1:3). Paul İsanın bir gün 500-dən artıq şagirdinə göründüyünü bildirir (1Kor. 15:3-8)!

İsanın dirilməsi, Onun kim olduğu barədə Allahdan açıq bir əlamət idi və şagirdlər bunu bilirdilər. Peter Əllinci Gün bayramında belə vəz etdi:

> *Ona görə də qoy bütün İsrail xalqı möhkəm bilsin ki, Allah sizin çarmıxa çəkdiyiniz bu İsanı həm Rəbb, həm də Məsih təyin etmişdir. (Həv. 2:36).*

Paul korinflilərə dedi ki, İsanın dirilməsi sayəsində bütün imanlılar günah və ölüm üzərində əbədi qələbə çaldılar! (1Kor. 15:54-58). Buna görə çətin vaxtlarda belə həyatın bir mənası və məqsədi var idi.

**2. İsanın xilas etməyə qadir olduğuna inanmaları.**

Onlar İsa Məsihin günahları bağışlamağa və əbədi məhkumiyyətdən xilas etməyə qadir olduğuna bütün ürəkləri ilə inanırdılar. Buna görə onlar, ürəkləri məhəbbətlə dolu olaraq, insanları tövbəyə, imana və vəftiz olmağa cəsarətlə çağırırdılar.

Peter və Yəhya yəhudi başçılarına xilasın yalnız İsa vasitəsilə mümkün olduğunu cəsarətlə bəyan etdilər (Həv. 4:12). İnsanlara izah etdilər ki, Allah İsanı onların pis işlərindən dönmələri üçün göndərmişdi (Həv. 3:26). Bu, həvarilərin məktublarında önəmli bir mövzu idi. Məsihin işi sayəsində şagirdləri qaranlıqdan çıxıb Məsihin nurunda yeni insanlar olaraq yaşamağa çağırılmışdı (Ef. 5:3-15; 1Pet. 2:9-12; 1Yəh. 1:5-10.)

**3. Duanın qüvvətinə inanmaları.**

Həvarilər, İsanın öyrətdiyi təlimə riayət edərək imanlılara hər zaman hər şey üçün dua etməyi öyrətdilər (Mat. 7:7-11; Luka 18:1-8; Həv.

1:14; Həv. 12:5; Ef. 6:18). Onlar təkcə bazar günü toplantılarında deyil, gündəlik həyatlarında da çox dua edirdilər. Xüsusilə Allahın Padşahlığı gəlsin deyə dua edirdilər (Mat. 6:10). İmanlılar dini başçıların hədələri qarşısında belə Müjdəni yaymaq üçün Allahdan cəsarət dilədilər və bəyan etdikləri xəbərin doğru olduğunu təsdiqləyən əlamətlər və xariqələr göstərməsi üçün dua etdilər (Bax: Həv. 4:29-31)

**4. Allahın əlamətlər və xariqələr yaradacağına inanmaları.**

Həvarilər həlak olanlara Müjdəni bəyan etdikcə İsanın şəfa verməyə və cinləri qovmağa qadir olduğuna inanırdılar. Öz şəfa vermə qabiliyyətlərinə inanmırdı, amma İsanın adının buna qadir olduğuna əmin idilər (Həv. 3:6-10 və 16). İsa onlara Allahın Padşahlığının yaxınlaşdığını bəyan etməyi və xəstələrə şəfa verib cinə tutulmuşları azad edərək bunu təsdiqləməyi öyrətmişdi (Mat. 10:7-8). Şagirdlər İsanın göyə qalxmasından sonra da bunu davam etdirdilər.

Fövqəladə möcüzələr baş verdi və bunların nəticəsində həm imanlılar, həm də imansızlar müqəddəs qorxuyla davrandılar (Həv. 2:43; 5:12-16). Həvarilərin İşləri kitabında bu cür möcüzələr tez-tez təsvir olunur. Həvarilər təkcə öz xidmətlərində deyil, eləcə də Allahın çağırdığı yeni nəsil imanlıların vasitəsilə əlamətlərin və xariqələrin baş verəcəyini gözləyirdi. Stefan və Filip adında xidmətçilər Müqəddəs Ruhun qüvvəti ilə böyük əlamətlər və xariqələr yaratdılar (Həv. 6:8 və 8:6-8). Daha sonra Yaqub ağsaqqallara tapşırdı ki, xəstələr üçün dua edib şəfa tapacaqlarına inansınlar (Yaq. 5:14-16).

**5. Müqəddəs Ruhun onlara yol göstərəcəyinə inanmaları.**

Həvarilər Müjdəni bəyan etməyə gedəndə İsanın Müqəddəs Ruh vasitəsilə həmişə onlarla olduğunu bilirdilər, çünki İsa vəd etmişdi: *"Mən dünyanın sonuna qədər hər zaman sizinləyəm" (Mat. 28:20).* Onlar İsayla birlikdə dünyanı xilas etmək missiyasında iştirak etdiklərini bilir və İsanın onlara yol göstərməsini arzu edərək Ona qulaq asırdılar.

Bəzən İsa onlara möcüzə ilə konkret bir şəkildə yol göstərirdi: Rəbb Peteri Kornelinin evinə (Həv. 10), Filipi Həbəşli hərəmağasına (Həv. 8:26-40), Paulla müjdəçi komandasını makedoniyalılara (Həv. 16:6-10) yönəltdi (beləcə Müjdə ilk dəfə Avropada yayılmağa başladı). Başqa vaxtlarda onlar İsanın ümumi olaraq "gedin, bütün millətləri Mənim şagirdim edin" əmrinə riayət etdilər və Müqəddəs Ruhun onları yeni fürsətlərə yönəldəcəyinə, gedəcəkləri yerlərdə

lazım olan şeyləri söyləmələri və etmələri üçün onları ilhamlandıracağına ümid bağladılar. Lakin onlar Allahın hansı yolla olur-olsun onlara yol göstərəcəyinə həmişə inandılar.

**6. Allahın hər düşməndən, hətta ölümdən belə qüvvətli olduğuna inanmaları.**

Həvarilər izdihamlardan ya da onlara hədə-qorxu gələn, onları həbs edən, hətta bəzilərini öldürən hakimiyyət sahiblərindən qorxmadılar. Onlar bilirdi ki, əslində insanlara qarşı deyil, Şeytanın padşahlığına qarşı müharibə edirlər. Qaranlıq qüvvətlərinin onlara qarşı müharibə edəcəyini gözləyirdilər (Ef. 6:10-12).

İsa şagirdlərinə üz-üzə gələcəkləri təhlükələr barədə xəbər vermişdi, amma onlara qorxmamağı öyrətmişdi (Mat. 10:28-31). Bəzən Rəbb həvariləri möcüzə ilə zindandan azad etdi (Həv. 16:22-40).

Lakin bundan önəmlisi o idi ki, İsa onların padşahlar qarşısında dayandıqları zaman Allahın Ruhunun söyləyəcəkləri sözləri verəcəyini vəd etdi (Mat. 10:17-20). Həvarilərin İşləri kitabı, həvarilərin dini və dünyəvi başçıların qarşısında Müjdəni bəyan etmək üçün əla fürsətlərindən bəhs edir (Bir neçə misal üçün bax: Həv. 4 və Həv. 26). Lakin axırda həvarilərin əksəriyyəti İsa Məsihə görə öldürüldü. Onlar bu həyata deyil, əbədi həyata ümid bağladıqlarına görə Müjdə uğrunda özlərini fəda etməyə və əzab çəkməyə hazır idi.

**7. Müjdənin insandan deyil, Allahdan gəldiyinə inanmaları**.

Həvarilər Müjdənin sağlam təlimini qorumağa özlərini həsr etdilər. Onlar öz hökmranlıqlarını qurmaq üçün Müjdənin öz variantlarını yaratmadılar (Qal. 1:6-12), lakin şahid olduqlarını, eşidib gördüklərini çatdırdılar (Yəh. 20:30-31; 1Yəh. 1:1-4; 2Pet. 1:16-21).

İsanın xəbərdarlıq etdiyi kimi, yalançı müəllim və peyğəmbərlərin gəlib Müjdəni təhrif edəcəklərini bilən həvarilər, Rəbbin qorxusu ilə çox çalışdılar ki, Müjdə həqiqətini qəbul etdikləri kimi başqalarına çatdırsınlar (Həv. 15:1-11; 1Kor. 15:1-8; 2Tim. 2:2; 2Pet. 2:1-3). Onlar bunu vəz edərək və yazaraq etdilər və onların yazılarından ibarət olan Əhdi-Cədid bu gün bizim üçün həqiqətin meyarıdır.

******

**Əlbəttə, Müjdənin Roma imperiyasında bu qədər sürətlə yayılmasının başqa səbəblərindən də danışmaq mümkündür.** Məsihçilərin bir-birinə və bütpərəst qonşularına olan məhəbbəti də çox mühüm bir amil olub. İlk 300 il ərzində İsanın ardıcılları, minlərlə

adamın ölümünə səbəb olan vəba zamanı həm imanlılara, həm də imansızlara xidmət göstərdilər. Çox vaxt xəstələrə qulluq etdiklərinə görə özləri vəbaya yoluxan məsihçilər, onlara gecə-gündüz xidmət göstərərək canlarını fəda etdilər. Məsihçilər, bütpərəstlərin küçələrə atdıqları körpələri götürür, ölümdən xilas edirdi; Müqəddəs Yazının öyrətdiyi kimi, yetimlərlə dul qadınların qayğısına qalırdılar. İsanın şagirdləri bu və digər yollarla göstərdilər ki, onların təlimi göylərdəndir, həlak olan dünyanı sevən və Ona imanla baxan hər kəsi xilas etməyə qadir olan Allahın xoş xəbəridir. Dünyanın hər yerində insanlar bu xəbəri eşitməyə can atırdı.

## ***<u>Tez-tez verilən suallar</u>***

### *1. Bizim kiçik ev cəmiyyətimiz, İsanın təlimlərinə riayət etməsi ilə bu nəhəng dünyada Allahın Padşahlığının böyüməsinə necə kömək edə bilər?*

Bu suala cavab vermək üçün bu kitabın hər fəslini qısaca nəzərdən keçirəcəyik. Bəzən dayanıb böyük mənzərəyə baxmaq lazımdır. İsanın böyük nəticəyə gətirən xırda şeylər barədəki məsəllərini xatırlamaq lazımdır (Mat. 13:31-33-ə baxın).

Cəmiyyətiniz nə qədər kiçik olursa-olsun (iki və ya üç nəfərdən ibarət olsa belə), İsanın öyrətdiyinə diqqət yetirsəniz, yer üzündə Onun məqsədi üçün çalışır, Padşahlığının irəliləməsinə yardım edirsiniz. Ona sadiq olursunuz!

Bu kitabda fəsillərin xülasələrini oxuduqca öz ev qrupunuzu düşünün. Siz bu təlimləri tətbiq edirsinizmi?

**Ev cəmiyyəti bir ailədir**

İsa cəmiyyətini quracağına söz verdi. Lakin Onun həqiqi cəmiyyəti bizim təsəvvür etdiyimizdən fərqli ola bilər. Sözün əsl mənasında bir cəmiyyət olan və insanlara Məsihin lütfü ilə yanaşmağı, məhəbbət göstərməyi öyrənən ev cəmiyyəti, dağın zirvəsində qurulan şəhərdir. Günaha batmış bu dünyada tənha, qəlbi yaralı o qədər çox insan var! Allah istıyir ki, cəmiyyətiniz yolu azmış insanlara Onun yolunu tapmaqda kömək edən bir ailə olsun (Həv. 2:42-47-ni oxuyun).

**Məhəbbət, rəhbərin motivasiyası**

İsa bizə bu dünyadan tamamən fərqli bir rəhbərlik nümunəsini verdi. Təəssüf ki, dünyanın hər yerində bəzi cəmiyyətlərdə İsadan nümunə götürməyən rəhbərlər vardır. Belə rəhbərlər insanlara ağalıq edən dünya liderlərindən nümunə götürürlər. Məsihçilər səmimi həlimlik və məhəbbətlə xidmət edən rəhbərlərini əsla unutmazlar və özləri də xidmətkar rəhbərlər olurlar. Bunun nəticəsində Allahın Padşahlığı artır! (Mark 10:42-45-i oxuyun).

**Allahın ecazkar xilas ənamını dərk etmək**

Müjdə hər günahkar üçün çox qiymətli mirvaridir. Biz Müjdəni dərk edib qəbul etdikdə, o bizə böyük sevinc verir. Hətta sadə bir dillə izah olunan Müjdə, günahkarın tövbə edib iman etməsinə səbəb ola bilər. Ancaq imanlılar xilası ildən-ilə daha dərindən dərk etməlidirlər. Onda Müqəddəs Ruh bizə həyat verir və bu həyat bizim daxilimizdən bir

çay kimi axır. Biz Müjdəni nə qədər çox dərk etsək, itmiş adamlara ümid tapmaqda o qədər çox kömək edə biləcəyik (Rom. 1:16-17-ni oxuyun).

**Ev cəmiyyətində vəftiz**

Dünyada məsihçi toplantılarında iştirak edən və özünü imanlı adlandıran, amma heç vəftiz olmamış çox insan vardır. Vəftiz hər kəsi Məsihə olan imanını insanlar qarşısında iqrar etməyə çağırır. İnsanlar bir Xilaskara olan ehtiyaclarını iqrar edirlər, İsanın ölümü və dirilməsinin həqiqətən onlara xilas gətirəcəyinə inandıqlarını bəyan edirlər. Vəftiz mərasimi yalnız suya girərək vəftiz olanlar üçün deyildir, mərasimdə iştirak edən hər imanlının imanını təzələməsinə yardım edir (Rom. 6:1-14-ü oxuyun).

**Ruhda və həqiqətdə birlikdə ibadət etmək**

Allahın onlara nə qədər çox maddi və mənəvi xeyir-dua verdiyini, dost, ailə və xüsusilə Məsihlə birləşmə kimi böyük nemətlərini dərk edən imanlılar Rəbbə təbii olaraq ürəkdən ibadət edirlər. Şükür edən ürək, ibadət edər. Məsihdə xoşbəxt olan insan ətrafındakı dünyanı təbii olaraq dəyişdirməyə başlayar. Allaha ürəkdən ibadət edən bir ev qrupu Rəbbi dəvət və qəbul edir... Bu da qüvvətlə nəticələnir! (100-cü məzmuru oxuyun)

**Allahın kəlamı – gündəlik çörəyimiz**

İsa və həvarilər xəbərdarlıq etdilər ki, bir çox yalançı peyğəmbər və müəllimlər Allahın kəlamını təhrif edərək çoxlarını yoldan çıxaracaq. Ev qrupunuz hər həftə Allahın kəlamını diqqətlə öyrənməklə və hər kəsin təklikdə Allahla keçirdiyi vaxtlarda Müqəddəs Yazını oxumağı (və ya ona qulaq asmağı) öyrətməklə Şeytanın yalanlarına qarşı möhkəmlənir. Hər həftə Allahın kəlamını eşitməkdən imanımız təzələnir! Kəlam bizim gündəlik çörəyimizdir! (Zəb. 119:9-16-nı oxuyun).

**Müjdəni uşaqlara ötürmək**

İsa, "Uşaqları buraxın, qoy Mənim yanıma gəlsinlər! Onlara mane olmayın!" dedi (Mat. 19:14). Bəs siz ev qrupunuzda uşaqların İsanın yanına gəlməyinə mane olursunuzmu? Uşaqlarınıza Allahın yolunu öyrətməyə diqqət verirsinizmi? Bir neçə il sonra bu uşaqlar bəlkə də ölkənizdə cəmiyyətin rəhbərləri olarlar. Ancaq bunun üçün siz onlara indi Allahla yaşamağı öyrətməlisiniz. Uşaqlara da Müjdə lazımdır və imanlıların onlara həqiqət yolunu məhəbbətlə göstərmələrinə ehtiy-

acları vardır. Məsihin sizə verdiyi bu xəzinəyə etinasız yanaşmayın (2Tim. 3:14-15).

**Rəbbin Süfrəsini şükranla qeyd edin**

İsa şagirdlərinə bədəni və qanı olaraq çörəklə şərabı verəndə belə dedi: "Sizi o qədər çox sevirəm ki, sizə görə canımı fəda edirəm. Bunu heç vaxt unutmayın!" Qrupunuzda Rəbbin Süfrəsini tez-tez qəbul edin. Onu qəbul edərkən tələsməyin. İnsanların günahlarını sakitcə etiraf etmələri və lütf əhdinə görə Rəbbə şükür etmələri üçün vaxt ayırın. Biz Süfrəni birlikdə qəbul etdikdə, Müqəddəs Ruhun hüzuru aramızda çox qüvvətlidir. Biz yenidən paklanırıq və yeni bir sevinclə Ona xidmət edirik (Yəh. 6:35 və 51).

**Dua vasitəsilə imanda böyümək**

Duanın bizdə və bizim vasitəmizlə işləməsində bir sirr vardır. İsa və həvarilər özlərini göstərmədən, ikiüzlük etmədən dua etməyi bacarırdılar. Onlar imanla dua edirdilər! Dualarının əsas məqsədi o idi ki, Allahın Padşahlığı gəlsin və yer üzündə iradəsi olsun. Əhdi-Cədiddə həvarilər dua etdikdə Allahın Padşahlığı qüdrətlə böyüyürdü. Ev qrupunuz tez-tez birlikdə dua edirmi? Birlikdə dua etməyi öyrənən cəmiyyət birlikdə böyüyər! (Ef. 6:18-i oxuyun).

**Vermənin xeyir-duasını kəşf etmək**

İncildə ianə vermək haqqında hekayələr çox vaxt böyük fədakarlıqdan bəhs edir. Dul qadının ianə qutusuna atdığı iki kiçik pulu düşünün. O, dolanmaq üçün əlində nə varsa, hamısını verdi. Xeyirxah samariyalı da öz millətinin düşməni sayılan bir adama (yolda döyülmüş bir yəhudiyə) yardım etmək üçün fədakarlıqla vaxtını və pulunu ona sərf etdi və ad-sanını itirməkdən qorxmadı. Səxavətlə verməyi öyrənən ev cəmiyyəti, müntəzəm olaraq dünyaya Məsihin məhəbbəti ilə təsir göstərir (2 Kor. 8:1-5-i oxuyun).

**Yetkin şagirdlər olmaq**

Bu kitabın hər fəsli şagird etmək haqqındadır, lakin şagirdlik mövzusuna həsr olunmuş müvafiq fəsildə iki sual önə çıxır: 1) Cəmiyyətinizdəki insanlarda İsanın xarakteri ildən-ilə daha çox formalaşırmı? 2) Onlar öyrəndiklərini imanda özlərindən gənc olanlara həvalə etmək məsuliyyətini öz üzərinə götürürlərmi? Əgər cəmiyyətinizdə hər kəs şagirdliyə ciddi yanaşsa, Allah qrupunuz vasitəsilə böyük işlər görəcək (2Tim. 2:1-2-ni oxuyun).

**Ev cəmiyyətində bağışlanma**

Dünyada hər ailə xoşrəftarlığı, bir-biri ilə yola getməyi öyrənməlidir. İsanın cəmiyyəti də istisna deyildir. Təəssüf ki, bəzi cəmiyyətlər qruplara bölünmüş vəziyyətdə illərlə davam edir. Bacı-qardaşlar arasında qalan acı hisslər çoxlarının münasibətlərini yavaş-yavaş zəhərləyir. Lakin cəmiyyətdəki insanların münasibətləri şəfa tapandan sonra Məsihin Padşahlığının yer üzündə həqiqətən çiçəklənə biləcəyinə dair ümid bərpa olunur (Ef. 4:32-ni oxuyun).

**Bu dünyada duz və nur olmaq**

Bu anda dünyanın hər yerində imanlılar, Məsihi tanımayan adamlara saysız-hesabsız yollarla Məsihin məhəbbətini göstərirlər. Həqiqi imanlılar Müjdənin həqiqətlərini yalnız sözdə bəyan etmirlər, eyni zamanda gündəlik həyatlarında da onu əməldə göstərirlər. İsa xeyirxahlıq edərək hər yanı gəzdi (Həv. 10:38) və Onun cəmiyyəti də eyni şəkildə hərəkət edir. Ev cəmiyyətindəki insanlar bazar günləri toplanmaqla kifayətlənməzlər. Onların xeyirxah və mərhəmətli işləri hər gün dünyaya təsir göstərirlər (Mat. 25:31-40-ı oxuyun).

**Təqiblərdə möhkəm qalmaq**

Heç kəs təqib olunmaq istəməz. Hamımız heç vaxt təqib olunmayacağımıza ümid edirik. Ancaq İsa dedi ki, Onun ardınca gələn əsl şagirdlər təqib olunacaqlar. Biz əzab çəkəndə Allahın artıq vəziyyətə nəzarət etmədiyini düşünüb məyusluğa qapılacağıqmı? Rom. 8:28 heç vaxt yadımızdan çıxmasın. Pis insanlar şər ruhların təsiri ilə pislik etsələr də, Allah yenə Öz məqsədlərinə çatacaq. Ona güvənək ki, bu yolla O, Müjdəni yayacaq və imanımızı qızıl kimi təmizləyəcək (Rom. 8:28-39-u oxuyun).

## ***Sizin qrupunuz Məsihdə necə böyüyə bilər?***

### ***Tətbiq və dua***

Yuxarıdakı "Tez-tez verilən suallar"a qayıdın. Orada bu kitabın xülasələrinə daha çox diqqətlə baxın. Qrupunuzun zəif olduğu, böyüməyə ehtiyacı olan bir neçə fəsli seçin. Qarşıdakı həftələrdə bu fəsilləri yenidən oxuyun və bu sahələrdə böyümək üçün dua edin.

# Əlavə A: Vəsaitlər

Aşağıdakı saytlarda həm uşaqlar, həm də böyüklər üçün bir çox dillərdə çoxlu faydalı vəsaitlər vardır. Həmçinin Yutub-da bir çox dillərdə ilahilər və vəzlər tapa bilərsiniz.

**SAYTLAR:**

1) www.learnhisways.com

   Siz bu saytını ziyarət etdikdə müxtəlif dillərə məxsus olan bayraqları görəcəksiniz. İstədiyiniz dildə mövcud olan materialları görmək üçün həmin dilin bayrağını klikləyin. Bunların hamısını ev qrupunuz üçün **PULSUZ** endirə və ya çap edə bilərsiniz. Yaxud bu kitabları ölkənizdəki başqa qruplara paylamaq üçün çap edə bilərsiniz.

   Bu kitab, ***İsa Məsihin ardınca birlikdə getmək,*** bu saytda bir neçə dildə verilmişdir.

   Müqəddəs Kitab dərsləri və hər gün üçün qısa dərslərdən ibarət məsihçi kitablar da burada vardır. **Bu saytda olan aşağıdakı kitablar faydalı vəsaitlərdir, onlardan bu kitabla yanaşı istifadə etmək olar və bu kitabda onlara tez-tez istinad edilir.**

   ***50 Həyat Dərsi***

   ***Qədim Müqəddəs Yazılardan Yaradılış Kitabı üzrə Dərslər***

   ***Bəxtiyarlıq Vədləri ilə Məsihdə Böyümək***

   ***Bir Bədən - Bir Ürək*** (nikah haqqında)

   ***Uşaqları Allah Yolunda Necə Böyütmək*** (valideynlər üçün)

2) https://www.thehopeproject.com/az/the-azerbaijani-hope

   "Ümid" filmi: Yaradılışdan İsa Məsihin həyatı, ölümü və dirilməsinə qədər Müjdə hekayəsi.

3) https://www.jesusfilm.org/search.html?q=Azerbaijani,%20North

   Bu saytda böyüklər və uşaqlar üçün İsanın həyatı, Məcdəlli Məryəmin hekayəsi (*Məryəm*) və digər filmlərə baxa bilərsiniz.

4) https://www.jesusfilm.org/strategies-and-tools/resources/the-app.html

İsa filmi applikasiyası: Yuxarıdakı saytdakı filmlərə yüzlərlə dillərdə baxmaq imkanı verən applikasiyanı buradan endirə bilərsiniz.

5) olivetree.com.

Bir çox dillərdə Müqəddəs Kitabı pulsuz endirə bilərsiniz.

6) https://www.faithcomesbyhearing.com/audio-bibles/bible-recordings.

Bir çox dillərdə Müqəddəs Kitabın audio versiyasını endirə bilərsiniz

7) bible.com/app

Bir çox dillərdə pulsuz Müqəddəs Kitab applikasiyası

8) bible.com/kids

Bir çox dillərdə pulsuz Uşaqlar üçün Müqəddəs Kitab applikasiyası

9) https://bibleforchildren.org/

Bir çox dillərdə uşaqlar üçün Müqəddəs Kitab hekayələri (uşaqlar üçün boyama şəkillərini də endirib çap edə bilərsiniz)

10) http://www.wol-children.net/index.php?n=Azeri.Main

Bir çox dillərdə uşaqlar üçün səsli Müqəddəs Kitab hekayələri və öz dramlarınızı yaratmaq üçün ssenarı

11) https://songs.worshipleaderapp.com/

Bir çox dillərdə ilahilər

(Azərbaycan dilində ilahiləri tapmaq üçün türk dilini seçin və ondan sonra "Azerice", yəni Azərbaycan dilində ilahilər seçmək imkanınız olacaq.)

12) http://www.musiqidenchox.com/?page_id=44

Azərbaycan dilində ilahilər

# Əlavə B: Hekayələr

## Təklif olunan Müqəddəs Kitab hekayələri və uşaqlar və böyüklər ilə bunlardan istifadə etmək barədə məsləhətlər

Həm uşaqların, həm də böyüklərin xoşuna gələn Müqəddəs Kitab hekayələri aşağıda sadalanmışdır.

### Əhdi-Ətiq

- Yaradılış 1-2: Dünyanın yaradılması
- Yaradılış 3: İnsanın günaha batması
- Yaradılış 4: Qabil və Habil - ilk qətl
- Yaradılış 6:5-8:22: Nuh və daşqın
- Yaradılış 11:1-9: Babil qülləsi
- Yaradılış 12-50: İbrahim, İshaq, Yaqub və Yusif: Bu fəsillərdə uşaqların xoşuna gələn çox hekayə vardır. Bu hekayələrdən bəzisi yaşca daha böyük uşaqlara və böyüklərə uyğundur.
- Çıxış 1:1–20:21 və 32–34-cü fəsillər: Allah İsrail xalqını Misirdən qurtarır və onlara On Əmr verir. Bu fəsillərdə hər yaşda olan insanları heyran edən çox hekayə vardır.
- Saylar 13-14: Kənan torpağına nəzər salma; İsrail xalqının Allaha qarşı üsyanı
- Yeşua 1–4 və 5:10–10:15: Yeşua İsrail xalqını Kənan torpağına aparır; Yerixonun divarları çökür
- Hakimlər 6-7: Gideonun Midyan üzərində qələbəsi
- Rut Kitabı: Məhəbbət və iman haqqında gözəl bir hekayə!
- 1-ci Şamuel və 2-ci Şamuel Kitabları: 1Şam. 17-də Davudun yekə Qolyatı öldürmə hekayəsi balaca uşaqların çox xoşuna gəlir. Bu iki kitabda yaşca daha böyük uşaqlar və böyüklər üçün də çoxlu ibrətamiz hekayələr vardır.
- 1-ci Padşahlar 16:29–19:21 və 2-ci Padşahlar 2: İlyas Peyğəmbərin pis padşaha və yalançı allahlara qarşı mübarizəsi (möcüzə hekayələri)
- 2-ci Padşahlar 4-7: Elişa Peyğəmbərin çoxlu möcüzələri
- 2-ci Salnamələr 20:1-30: Yehoşafat: Allah Yəhudanı qurtarır
- Ester Kitabı: Ester öz xalqını xilas etməkdən ötrü həyatını təhlükəyə atır

- Daniel 1–6: Daniel ilə üç dostunun Babildə başına gələnlər və Allahın onları qurtarması haqqındakı həyəcanlı hekayələr
- Yunus Kitabı: Yunus Allahdan qaçır və onu bir balıq udur

## Əhdi-Cədid

Aşağıda Müjdələrdən (Matta, Mark, Luka və Yəhya) və Həvarilərin İşlərindən uşaqlardan tutmuş böyüklərə qədər hamının xoşuna gələn 25 hekayə sadalanmışdır. Müjdələrdə İsanın həyatından, möcüzələrindən çoxlu hekayələr vardır. Həvarilərin İşləri Kitabında İsanın göyə qalxmasından sonra Allahın həvarilər vasitəsilə etdiyi möcüzələr haqqında çox gözəl hekayələr vardır. Burada həmçinin İsanın davamçılarının hər yerdə Müjdəni yayarkən çəkdikləri əzab-əziyyətlər nəql edilir. Bu hekayələr cəmiyyətinizdə kiçikdən-böyüyə hamını o qəhrəmanlar kimi İsanın ardınca getməyə və Müjdəni başqalarına yaymağa ilhamlandıra bilər.

- İsanın doğulması: Luka 1-2 və Matta 1:18-2:23
- İsanın sınağa çəkilməsi: Matta 4:1-11 və Luka 4:1-13
- Qaya üzərində qurulan ev məsəli: Matta 7:24-27; Luka 6:46-49
- Şəfa möcüzələri: Matta 8:1-17
- İsa tufanı yatırır: Matta 8:23-27; Mark 4:35-41; Luka 8:22-25
- İsa günahları bağışlayır və iflic adama şəfa verir: Matta 9:1-8; Mark 2:1-12; Luka 5:17-26
- İsa ölü qızı dirildir və başqalarına şəfa verir: Matta 9:18-34; Mark 5:21-43; Luka 8:40-56
- Əkinçi məsəli: Matta 13:1-23; Mark 4:1-20; Luka 8:4-15
- İsa beş min nəfəri doyurur: Matta 14:13-21; Mark 6:30-44; Luka 9:10-17
- İsa suyun üstü ilə yeriyir: Matta 14:22-33; Mark 6:45-52; Yəhya 6:16-21
- İsa dörd min nəfəri doyurur: Matta 15:32-39; Mark 8:1-10
- Bağışlamayan qul məsəli: Matta 18:21-35
- İsanın Yerusəlimə girməsi: Matta 21:1-11; Mark 11:1-10; Luka 19:28-40
- İsa kor adama şəfa verir: Mark 8:22-26
- İsa uşaqların Onun yanına gəlməsini istəyir: Mark 10:13-16; Luka 18:15-17
- İtmiş oğul məsəli: Luka 15:11-32

- İsa on cüzamlı adama şəfa verir: Luka 17:11-19
- İsa ilə Zakkay: Luka 19:1-10
- İsa çarmıxa çəkilir: Matta 26-27; Mark 14-15; Luka 22-23; Yəhya 18-19 (Bu fəsillər çox uzundur. Balaca uşaqlara qısa şəkildə danışmaq və ya Uşaqlar üçün Müqəddəs Kitabdan oxumaq lazımdır. Ya da Pasxa bayramından əvvəl hər gün az-az oxuya bilərsiniz.)
- İsa ölümdən dirilir: Matta 28:1-10; Mark 16:1-13; Luka 24:1-12; Yəhya 20:1-18
- Şikəst dilənçi İsanın adı ilə şəfa tapır: Həvarilərin İşləri 3:1-10
- Filip və Həbəşli hərəmağası Həvarilərin İşləri 8:26-40
- "Ceyran" ölümdən dirilir: Həvarilərin İşləri 9:36-43
- Peter zindandan azad olur: Həvarilərin İşləri 12:1-19
- Paul və Sila zindanda ilahi oxuyurlar; baş mühafizəçinin ailəsi imana gəlir: Həvarilərin İşləri 16:16-34

## Müqəddəs Kitab hekayələrini uşaqlara öyrətmək barədə məsləhətlər

### 1. Qabaqcadan hazırlaşın.

a) Öncə dua edin ki, hazırlaşarkən Müqəddəs Ruh sizə yol göstərsin. Sonra hekayəni bir neçə dəfə oxuyun və öz sözlərinizlə anlatmağa çalışın. Qrupunuzdakı uşaqların yaşlarını düşünün. Hekayəni başa düşüb yadda saxlamaları üçün onlara ən yaxşı şəkildə necə danışa bilərsiniz? Onu Müqəddəs Kitabdan oxuyacaqsınız, Uşaqlar üçün Müqəddəs Kitabdan oxuyacaqsınız, yoxsa öz sözlərinizlə danışacaqsınız?

b) Həmçinin hekayənin əsas məzmununu düşünün. Bu hekayə uşaqlara Allah haqqında nə öyrədir? İnsanlar haqqında, Allahla münasibətimiz, Allaha itaət etmək haqqında nəyisə öyrədirmi? Bu hekayədə düzgün hərəkətə edən bir adamın, yoxsa səhv hərəkət edən bir adamın nümunəsi göstərilir?

Hekayənin əsas nə öyrətdiyini uşaqların yaşlarına uyğun, onların yadında qala biləcək bir cümlə ilə söyləməyə çalışın. O cümləni yazın. Hekayəni danışarkən bu əsas fikri bir neçə dəfə vurğulamaq lazım olacaq.

c) Uşaqların hekayəni anlayıb-anlamadıqlarını müəyyən etmək üçün onlara verəcəyiniz bir neçə sadə sual yazın.

d) Onların hekayəni yadda saxlamalarına kömək etmək üçün nə edəcəyinizi düşünün. Onlarla bir səhnəcik təşkil edəcəksinizmi? Hekayənin şəklini çəkməyi tapşıracaqsınızmı? Hekayədən bir ayəni yazıb əzbərləməyi tapşıracaqsınızmı? Bunların hamısını da onlara tapşıra bilərsiniz. Bunlardan hər birini necə edəcəyinizi düşünün və lazım olan hər şeyi əvvəlcədən hazırlayın.

### 2. Hekayəni təqdim edin.

a) Hekayəni oxuyun və ya danışın (onların yaşlarına uyğun gördüyünüz kimi).

b) Təkrar oxuyun və ya danışın və hekayənin əsas məzmunu olaraq yazdığınız fikri xüsusilə qeyd edin.

c) Hazırladığınız sualları verin. Hər dəfə başqa uşaqları cavab verməyə təşviq edin. Uşaq nə cavab verəcəyinə əmin dey-

ildirsə, hekayəni, yaxud ən azından hekayənin müvafiq hissəsini bir daha oxuyun və ya danışın.

d) Uşaqlardan hekayəni sizə danışmalarını istəyin. Buraxdıqları hissələri yada salmalarına yardım etmək üçün onlara suallar verin.

### 3. Hekayəni onların yaddaşlarına həkk edin.

a) Əgər siz hekayənin səhnəciyini təşkil edəcəksinizsə, uşaqlara rollar təyin edin və hekayəni necə nümayiş etdirəcəklərini onlara izah edin. Rollar uşaqların sayından azdırsa, hər kəs rol oynasın deyə uşaqlar səhnəciyi bir neçə dəfə təkrar göstərə bilərlər.

b) Uşaqlar rəsm çəkəcəklərsə, hekayənin əsas məzmununu göstərmək üçün nə çəkə biləcəklərini düşünməkdə onlara kömək edin.

c) Onlara əzbərləyəcəkləri ayəni rəsmdə və ya ayrı bir vərəqdə yazmağı tapşırın və evlərinə aparıb həftə boyunca valideynlərinə əzbərdən söyləməyi məşq etməyə ruhlandırın.

d) Onlarla birlikdə dua edin ki, onlar hekayədən öyrəndiklərini yadda saxlayıb həyata keçirsinlər.

e) Hekayəni və ondan nə öyrəndiklərini öz valideynlərinə danışmağa onları təşviq edin. Onu başqa qohum və dostlarına da danışa bilərlər.

f) Gələn yığıncağınızda bu hekayədən nə yadlarında qaldığını anlamaq üçün onlara suallar verin. Bir də onlara imkan verin ki, əzbərlədikləri ayəni danışsınlar və hekayəni kiminlə paylaşdıqlarını söyləsinlər.

## Böyüklər ilə Müqəddəs Kitab hekayələrini istifadə etmək barədə məsləhətlər

Yuxarıda sadalanmış hekayələri böyüklər ilə Müqəddəs Kitab araşdırmasında istifadə etmək üçün aşağıdakı hekayə prinsipləri tövsiyə olunur:

1. **Qabaqcadan hazırlaşın.**

   Öncə dua edib Müqəddəs Ruhdan xahiş edin ki, sizin və aparacağınız qrupun Müəllimi O olsun. Sonra hekayəni qabaqcadan yaxşı öyrənmək üçün bir neçə dəfə oxuyun (ya da audioya qulaq asın). Hekayəni əzbərdən danışacaqsınızsa, onu əla öyrənin ki, önəmli təfərrüatları buraxmayasınız.

   Hekayənin kontekstini yaxşı anlamağınız üçün sizə ondan əvvəlki və sonrakı ayələri və ya fəsilləri oxumaq lazım ola bilər. Allahdan diləyin ki, hekayənin əsas məzmununu görməkdə sizə kömək etsin.

2. **Hekayəni cəmiyyətinizə təqdim edin.**

   Hazırlaşanda duadan başladığınız kimi, toplantıda da öncə dua edin. Ondan sonra hekayəni ev qrupunuza oxuyun və ya danışın. Sonra onu bir daha oxuyun və ya danışın. İnsanlar birinci oxunuşda diqqətlərindən yayınan şeyləri ikinci oxunuşda görəcəklər. Bəzi insanlara sadəcə qulaq asmaq rahatdır, bəziləri isə qulaq asarkən Müqəddəs Kitabda və ya telefonlarında mətni öz gözləri ilə görmək istəyirlər.

3. **Qoy onlar hekayəni yadda saxladıqları kimi danışsınlar (Müqəddəs Kitaba baxmadan).**

   Onları tələsdirməyin, düşünüb hekayəni yada salmaları üçün vaxt ayırın. Hər kəsi fəal iştirak etməyə, yada düşən təfərrüatları əlavə etməyə ruhlandırın. Onlar yada sala bilmədikləri təqdirdə, hekayəni üçüncü dəfə oxumaq və ya danışmaq lazım ola bilər.

   Onlar yadlarında qalanları danışdıqdan sonra buraxdıqları hissələri onların yadına salın. Əmin olun ki, onlar hekayənin əsas nə öyrətdiyini dərk etdilər.

4. **Hekayə haqqında daha dərin düşünmələri üçün onlara suallar verin.**

Bu müzakirə vaxtında hər kəsin fəal iştirak etməsi üçün şərait yaratmağa çalışın. Mətnin əsas məzmununu dərk etməkdə onlara kömək etmək üçün konkret suallar verə bilərsiniz ya da aşağıdakı ümumi suallardan istifadə edə bilərsiniz:

a) Bu hekayədə nə düzgün və ya yaxşı idi? Nə yanlış və ya pis idi?
b) Bu hekayə, Allah (və ya İsa) haqqında nə dərk etməyinizə kömək edir?
c) Bu hekayə, öz haqqınızda nə anlamağınıza kömək edir? Bu hekayədə öyrədilən həqiqətə əsasən, siz nəyə görə tövbə etməli və ya necə dəyişməlisiniz? Siz Allaha itaət etmək üçün konkret olaraq nə edəcəksiniz?
d) Bu hekayəni qarşıdan gələn həftədə kimə danışacaqsınız?

5. **Öyrəndikləriniz üçün birlikdə dua edin** (Müqəddəs Ruh sizi yönəltdiyi kimi ya da sizi məzəmmətlədiyinə görə).

# Əlavə C: Üzr istəmə və bağışlama

## 1. Bağışlamağın mənası nədir?

Hamımız bağışlamağı öyrənməliyik, ancaq çox vaxt bağışlamağın mənasını dərk etmədiyimizə görə bağışlamaq bizə çətin gəlir.

a) **Bağışlamağın mənası odur ki, siz haqsızlığı və incikliyi Allahın əllərinə buraxasınız.** Siz bir adamı bağışlamağı qərara alırsınızsa, bu demək deyil ki, sizə haqsızlıq etdiyini yaxud sizi incitdiyini inkar etməlisiniz. Haqsızlıq və ya inciklik yoxdursa, bağışlamağa ehtiyac da yoxdur. Bağışlamaq o deməkdir ki, o adam sizi incitdiyi halda, onun incitməyinin əvəzini çıxmayacaqsınız. Allahın o adamın ürəyində işləməyinə ümid bağlayacaqsınız.

b) **Bağışlamağın mənası odur ki, Allahın sizə hədsiz mərhəmət göstərdiyini dərk edirsiniz və buna görə özünüz də mərhəmətli olursunuz.** İsanın Mat. 6:12-15-də dediyi sözləri düşünün. Burada çox ciddi bir həqiqəti görürük. Əgər Allaha qarşı işlətdiyimiz bütün günahların böyük borcunun bağışlanmasını istəyiriksə, bizə qarşı günah edənlərə əfvedici münasibət göstərməliyik.

*Nə bəxtiyardır mərhəmətli olanlar! Çünki onlara mərhəmət ediləcək. Mat. 5:7)*

c) **Bağışlamağın mənası odur ki, siz ürəyinizdə o adama qarşı soyuqluğa və acı hisslərə yol vermirsiniz.** Bağışlamağınızla təkcə sizi incidən adama deyil, özünüzə də yaxşılıq edirsiniz. Acılıq hissini və qəzəbi saxlayırsınızsa, bunlar sizin *özünüzü* məhvə aparır. Bəlkə də qarşı tərəf heç sizdən üzr istəmir. Belə halda bağışlamanız yalnız Allahla sizin aranızda olur. Duada Allaha deyin ki, o adamı bağışlamağı qərara alırsınız və həqiqətən ürəkdən bağışlamağınıza kömək etməsi üçün Ondan lütf diləyin.

## 2. Mənə qarşı günah işlətmiş bir adam yanıma gəlib üzr istəyəndə mən nə etməliyəm?

a) **Həlimliklə onu dinləyin.** Bir adam sizə yaxınlaşıb günahını etiraf edərək sizdən üzr istəyəndə, son dərəcə çətin bir şey edir. Ona diqqətlə qulaq asın və "mən ondan yaxşıyam" fikrinə qarşı durun. Unutmayın ki, siz də Allahın mərhəmətinə möhtacsınız.

b) **Bağışladığınızı dilinizlə təsdiq edin.** Belə demək yaxşıdır: "Bunu mənə dediyinə görə çox sağ ol. Səni bağışlayıram". O adamın sözünü əhəmiyyətsiz sayıb keçməyin, çünki o, onu bağışladığınıza əmin olmalıdır.

c) **Özünüzdən və Allahdan soruşun: "Mənim də burada bir qədər təqsirim varmı?"** Bəlkə siz də o adamla pis rəftar etməkdə təqsirkarsınız? Ola bilsin, siz də nəyəsə görə ondan üzr istəməlisiniz. Həlim və açıq ürəklə Allaha qulaq asın və Onun sizə göstərdiyi hər hansı pis rəftarınıza (cüzi bir şey olsa belə) görə qarşı tərəfdən üzr istəyin.

d) **O adamı sevgi ilə qəbul edin**. Sizi aldatmış və ya incitmiş adama yenidən güvənə bilməyiniz üçün vaxt lazım ola bilər, lakin siz məhəbbətlə ürəyinizi ona aça bilərsiniz. Mərhəmətiniz onu böyüməyə təşviq edəcək. Allahın ona xeyir-dua verməsi üçün dua edin – münasibdirsə, onunla birlikdə, yaxud sonra təklikdə dua edin.

Məsih sizə lütf verdiyi kimi, siz də ona lütf verin.

> *Rəbb rəhmli və lütfkardır, hədsiz səbirli və bol məhəbbətlidir. Həmişə töhmətləndirməz, qəzəbi sonsuza qədər sürməz. Bizimlə günahlarımıza görə davranmaz, təqsirlərimizin əvəzini çıxmaz. Çünki göylər yerdən nə qədər ucadırsa, Ondan qorxanlara olan məhəbbəti o qədər böyükdür. Nə qədər şərq qərbdən uzaqdırsa, qanunsuzluqlarımızı bizdən o qədər uzaqlaşdırıb. (Zəbur 103:8-12)*
>
> *Buna görə də Məsih sizi qəbul etdiyi kimi siz də Allahın izzəti üçün bir-birinizi qəbul edin. (Romalılara 15:7)*

Sizi incidən adamı bağışladıqdan sonra onun səhvlərini tamamilə unudub bir daha danışmayın. Bu iş keçmişdə qalsın deyə onu Allahın əllərinə buraxın. Allaha güvənin ki, keçmiş şeylər ağlınıza gələn hər dəfə bunları Allaha buraxdıqca O hisslərinizi də dəyişdirəcək.

### 3. Mən sözlərim, əməllərim və ya rəftarım ilə bir adamı incitdiyimi dərk edəndə, nə etməliyəm?

a) **Özünüzü aşağı tutun.** Sözdə və ya əməldə yanlış etdiyinizi öz qarşınızda və Allahın qarşısında etiraf edin. Günahınızı Allaha etiraf edəndə, Onun əfvini qəbul edin.

*Amma günahlarımızı etiraf ediriksə, Allah sadiq və ədalətli olduğu üçün günahlarımızı bağışlayacaq və bizi hər haqsızlıqdan təmizləyəcək. (1-ci Yəhya 1:9).*

b) **İncitdiyiniz adama günahınızı etiraf edin.** Səhvinizi anlamaqda sizə kömək etməsini Allahdan diləyin, sonra o adamın yanına gedin və günahınızı konkret söyləyərək tamamilə boynunuza alın. Öz davranışınıza haqq qazandırmayın və qarşı tərəfin səhvindən danışmayın. Əgər o adamın da günahı varsa, qoyun Allah onun ürəyində işləsin və ona göstərsin.

c) **Üzr istəyin.** Siz, "___________ üçün məni bağışlayarsan?" deyəndə qarşı tərəfin sizə konkret cavab verməsi üçün imkan verirsiniz. İncitdiyiniz adam o anda sizə "Bağışlayıram," deyə cavab verə bilməsə, onun düşünməsini gözləyin və dua edin ki, sizin ucbatınızdan yaranan yarasına Allah şəfa versin.

d) **Dəyişin.** Təkrar-təkrar eyni günahı etməyin, "tövbəyə layiq bəhrə verin" (Matta 3:8). Həmçinin Qalatiyalılara 5:16-25-i oxuyub dərindən düşünün. Allah sizdən öz iradə gücünüzlə dəyişməyinizi tələb etmir. Bunun əvəzinə, bütün günahlarınızın aradan götürülməsi üçün İsanın qurbanına ürəkdən güvənin və sizin həyatınızda Ruhun səmərəsini yaratmasını Allahdan diləyin.